İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# YETMİŞİNCİ KİTAB

## İYUL 2015 - OKTYABR 2015

AZƏRNƏŞR
BAKI - 2018

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində 2017-ci ildə Bakıda keçiriləcək İslam Həmrəyliyi oyunlarına hazırlıq məqsədilə yaradılmış Təşkilat Komitəsinin iclasında giriş və yekun çıxışı, ölkəmizə gələn dövlət və hökumət rəhbərləri və beynəlxalq idman ictimaiyyətinin nümayəndələri ilə görüş və danışıqlarına dair materiallar toplanmışdır.

Kitabda dövlət başçısının Qazaxıstan və Çex respublikalarına səfərləri, Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun ölkəmizə səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna dair hərtərəfli əməkdaşlıq məsələlərinə dair müzakirə və söhbətləri, həmçinin biznes-forumlardakı çıxışları da yer almışdır.

Nəşrin bu cildində Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasının giriş və yekun nitqləri də öz əksini tapmışdır.

Bu cildə, həmçinin ölkə başçısının Xızı, Siyəzən, Ağdaş, Ucar və Göyçay rayonlarına səfəri və burada ictimaiyyətin nümayəndələri ilə görüşləri, bölgələrdə müxtəlif infrastruktur obyektlərinin istifadəyə verilməsi mərasimlərində iştirakı, səfər çərçivəsində mədəniyyət mərkəzlərinin, Gənclər evinin, bir sıra müəssisə və zavodların, digər iaşə obyektlərinin açılışındakı nitqləri də daxil edilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{0801000000}{\text{М} - 651(07) - 2018}$ **ББК - 32**

© Azərnəşr, 2018

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSKUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 iyul 2015-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun iyulun 22-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Avropa İttifaqının bayraqlarının dalğalandığı meydanda hörmətli qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusku qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Avropa İttifaqı Şurasının Prezidentinə raport verdi.*

*Avropa İttifaqının və Azərbaycanın himnləri səsləndirildi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Donald Tuska, Avropa İttifaqı nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*22 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun rəsmi qarşılanma mərasimindən sonra iyulun 22-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz!

Sizi yenidən görməyimə çox şadam. Bütün nümayəndə heyətiniz xoş gəlib. Bu bizim əlaqələrimizdə əhəmiyyətli gündür. Sizin səfəriniz Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafında mühüm addımdır. Biz əlaqələrimizin inkişafından çox razıyıq. Biz çox şeyə nail olmuşuq və sözsüz ki, gələcək üçün planlarımız var.

Bu gün biz əməkdaşlığımızın perspektivlərini müzakirə edəcəyik. Hələlik isə bizim mövqemizə gəlincə, biz gündəliyin çox geniş olmasından, Azərbaycan, Avropa və regional təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən bir çox sahələri əhatə etməsindən razıyıq.

Biz sözsüz ki, əsas diqqəti siyasi dialoq, iqtisadi əməkdaşlıq, ticarət əlaqələri, enerji təhlükəsizliyi və digər ənənəvi sahələrə cəmləşdirməklə tərəfdaşlığımızı dərinləşdirməyi, əlaqələri intensivləşdirməyi və əməkdaşlıq üçün yeni sahələr tapmağı planlaşdırırıq. Ona görə də ümidvaram ki, səfəriniz zamanı nə etdiyimizi və hansı işləri planlaşdırdığımızı müzakirə etmək üçün yaxşı imkanımız olacaq. Sözsüz ki, Avropa İttifaqı–Azərbaycan əlaqələri yüksələcək və qarşılıqlı şəkildə faydalı, Avropa və Azərbaycanın maraqlarını, regional təhlükəsizlik və regional inkişaf kimi məsələləri əks etdirən yeni mərhələyə qədəm qoyacaq. Bir daha xoş gəlmisiniz!

**Donald Tusk***:* Çox sağ olun, cənab Prezident. Xüsusilə dəvətinizə və qonaqpərvərliyinizə görə Sizə təşəkkür edirəm.

Mən Bakıya ilk səfərimi çox yaxşı xatırlayıram. Bu, 5 il bundan əvvəl olub. Lakin bu mənim Avropa İttifaqı Şurasının Prezidenti kimi, ilk səfərimdir. Təmkinli olduğunuza görə Sizə təşəkkür edirəm. Bildiyiniz kimi, mən Avropadakı problemlərlə əlaqədar Azərbaycana səfərimi təxirə salmalı olmuşdum. Məni başa düşdüyünüz üçün Sizə təşəkkür edirəm. İndi mən buradayam və olduqca razıyam.

**İ l h a m  Ə l i y e v:** Xoşbəxtlikdən bütün çətin zamanlar artıq geridə qalıb.

**D o n a l d  T u s k:** Cənab Prezident, mən Sizin qədər nikbin deyiləm. Lakin ümidvaram ki, Yunanıstanla bağlı olan bu böyük problemin öhdəsindən gələ biləcəyik. Bir daha Sizə təşəkkür edirəm.

Bildiyiniz kimi, mənim üçün burada olmaq təkcə dostluq baxımından deyil, ilk növbədə, Sizin qeyd etdiyiniz sahələrdəki əlaqələrimizin vacibliyi baxımından böyük əhəmiyyət kəsb edir. Şəxsən mənim üçün əməkdaşlığımızda «Enerji Birliyi» ilə bağlı əlaqələrimiz böyük əhəmiyyət kəsb edir. Avropa olaraq bizim üçün bu sahədə əməkdaşlığımız təkcə işbirliyindən ibarət deyil, əslində bu, enerji resursları marşrutlarının şaxələndirilməsi üçün strateji seçim və strateji imkandır.

* * *

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın indiki vəziyyəti və perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Azərbaycan ilə Avropa İttifaqı arasında indiyə qədər həm Avropa İttifaqı strukturları, həm də Avropa ölkələri ilə geniş və çoxtərəfli əməkdaşlıq həyata keçirilir. Azərbaycan ilə Avropa İttifaqı arasında iqtisadi, siyasi, ticari, enerji, mədəni, idman və digər sahələrdə əməkdaşlıq məmnunluq doğurur. Bildirildi ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın məzmunu və forması daha da dəqiqləşdirilməli və konkretləşdirilməlidir. Avropa İttifaqı*

*ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədin tezliklə hazırlanıb imzalanmasının vacibliyi qeyd olundu.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk arasında söhbət təkbətək görüşdə davam etdirildi.*

# AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSK İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*22 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun iyulun 22-də birgə mətbuat konfransı olmuşdur.*

*Dövlətimizin başçısı İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Sizi bir daha salamlamaq istəyirəm. Sizin səfəriniz Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr üçün böyük əhəmiyyət kəsb edir. Biz gələcəkdə bu tərəfdaşlığı inkişaf etdirmək istəyirik. Avropa İttifaqı ilə Azərbaycan arasında uzun illərdir davam edən fəal əməkdaşlığın böyük dəyərə malik olmasından çox məmnunuq.

Bu gün biz ikitərəfli münasibətləri və regional məsələləri ətraflı şəkildə müzakirə etdik. Azərbaycan–Avropa İttifaqı əlaqələrində müsbət inkişafı görürük. Cənab Prezident, Sizin səfəriniz bu əlaqələrin əhəmiyyətinin yaxşı göstəricisidir. Bizim sıx siyasi münasibətlərimiz var və biz onları gələcəkdə də inkişaf etdirmək istəyirik.

Biz bu gün regional təhlükəsizlik məsələsini, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini və bu münaqişənin necə həll olunması yollarını müzakirə etdik. Mən danışıqlar masası arxasında olan indiki vəziyyət və münaqişənin tarixi barədə cənab Prezidentə məlumat verdim. Münaqişə 2 onillikdən çoxdur ki, davam edir. Azərbaycanın beynəlxalq

səviyyədə tanınan hissəsi – Dağlıq Qarabağ və 7 digər rayonumuz 20 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin onlar icra olunmur. Ermənistan Dağlıq Qarabağı və 7 ətraf rayonu işğal edib, 1 milyondan çox azərbaycanlı bu təcavüzün qurbanına çevrilib və onlar məcburi köçkün və qaçqın vəziyyətinə düşüblər. İnsanlarımız Ermənistan tərəfindən etnik təmizləmə siyasətinə məruz qalıblar. Beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında münaqişənin tezliklə həll edilməsi Cənubi Qafqaz regionunun bütün xalqları üçün faydalı olardı. Biz ümid edirik ki, beynəlxalq ictimaiyyət Azərbaycan torpaqlarından çıxması üçün təcavüzkara daha çox təzyiq göstərəcək və işğal olunmuş ərazilər azad edilən kimi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə başlanıla bilər. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi, eyni dəyərə malikdir və münaqişə də bu zəmin üzərində öz həllini tapmalıdır.

Biz iqtisadi əməkdaşlığımızı müzakirə etdik. Avropanın əsas ticarət tərəfdaşımız olması bizi çox məmnun edir. Xarici ticarət dövriyyəsinin, demək olar ki, yarısı Avropa İttifaqının üzvü olan ölkələrlə aparılır. Avropa İttifaqı ölkələri əsas investorlarımızdır. Xarici sərmayələrin 50 faizi Avropa İttifaqından daxil olur. İnvestisiyalar və digər iqtisadi fəaliyyətlər vasitəsilə bu əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı potensial mövcuddur.

Potensial əməkdaşlığın elementlərindən biri daşınmalar sahəsi ilə bağlıdır. Biz hazırda qonşularımızla birlikdə Azərbaycan, Gürcüstan və Türkiyəni, bununla da Avropa və Asiyanı birləşdirən dəmir yolu layihəsini tamamlama mərhələsindəyik. Bu, Avropa və Asiya arasında ticarətin həcmini artıracaq yeni İpək yolu olacaq və Azərbaycan da tranzit ölkə kimi, öz əhəmiyyətli rolunu oynayacaq.

Bu gün biz enerji təhlükəsizliyi ilə bağlı məsələləri də müzakirə etdik. Biz Avropa ilə yaxşı tərəfdaşıq və keçən ilin sentyabr ayında Bakıda icrasına start verilmiş «Cənub Qaz Dəhlizi» layihəsi artıq

fəal icra olunur. Azərbaycan bu layihənin təşəbbüskarı olub və layihəni vaxtında icra etmək üçün tərəfdaşlarla, qonşu ölkələrlə və sərmayədarlarla fəal şəkildə işləyir. Bizim nəhəng qaz ehtiyatlarımız var. Təsdiqlənmiş qaz ehtiyatlarımız təxminən 2,6 trilyon kubmetrdir. «Cənub Qaz Dəhlizi» üçün hələlik yeganə resurs bazası olan «Şahdəniz» yatağında 1 trilyon kubmetrdən çox qaz var. Beləliklə, bizim ehtiyatlarımız Avropa istehlakçılarını onilliklər boyu təbii qazla təchiz etmək üçün kifayət edəcəkdir. «Cənub Qaz Dəhlizi» layihəsi ölkələri birləşdirən, istehsalçılara, tranzit tərəflərinə və istehlakçılara fayda verən bir layihədir. Düşünürəm ki, biz bu enerji layihəsinin 3 seqmenti arasında düzgün balansı tapa bilmişik. Bu da Bakıda fevral ayında «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının birinci iclasında qəbul olunan Bəyannamədə öz əksini tapıb.

Bu ilin mart ayında «Cənub Qaz Dəhlizi» layihəsinin bir hissəsi olan TANAP layihəsinin tikintisinə start verilib. Beləliklə də, işlər cədvəl üzrə gedir. Bu, enerji təhlükəsizliyi layihəsidir. Bu gün enerji təhlükəsizliyini ölkələrin milli təhlükəsizliyindən ayırmaq olmaz. Bu, enerji şaxələndirilməsi layihəsidir. Çünki «Cənub Qaz Dəhlizi» təkcə təchizat marşrutlarının şaxələndirilməsi deyil, ondan daha önəmli olan təchizat mənbələrinin şaxələndirilməsidir. Azərbaycan öz resursları, infrastrukturu, bu meqa enerji layihələrinin həyata keçirilməsi təcrübəsi ilə öz rolunu oynayır. Biz çox şadıq ki, Azərbaycanın bu sahədəki rolu bu yaxınlarda Avropa İttifaqı tərəfindən qəbul olunan sənədlərdə öz əksini tapıb.

Biz bütöv Xəzər regionunda və Yaxın Şərq, Mərkəzi Asiya bölgəsində regional təhlükəsizlik məsələlərini də müzakirə etdik. Həmçinin mədəni və humanitar sahələrdə əməkdaşlıq üçün yaxşı potensialımız var. Dini tolerantlıq, dinlərarası dialoqa aid məsələlər Azərbaycanda çox fəal şəkildə müzakirə olunur. Əslində Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Hesab edirəm ki, bu, Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlıq formatının bir hissəsi ola bilər. Avropa İttifaqının əksər üzv ölkələri ilə bizim siyasi, iqtisadi və digər sahələrdə çox fəal münasibətlərimiz var. Bu,

mənzərənin müsbət olduğunu göstərir və əlbəttə ki, cənab Prezidentin səfəri də yaxşı tərəfdaşlığımızın əyani göstəricisidir. Bu, gələcəkdə fəal və məhsuldar əməkdaşlıq üçün yol açır. Cənab Prezident, bir daha xoş gəlmisiniz!

## Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun bəyanatı

Çox sağ olun, cənab Prezident! Dəvətinizə və xoş sözlərinizə görə təşəkkür edirəm.

Bu gün prezident İlham Əliyev ilə geniş ikitərəfli münasibətlərimizi əhatə edən ətraflı müzakirə apardıq. Biz artıq birlikdə icra etdiyimiz işlər, o cümlədən qarşıdakı illər üçün mühüm əlaqələrimizin gələcək istiqaməti barədə də danışdıq. Lakin ən önəmlisi gələcəkdə birlikdə hansı işlərin görülməsi barədə söhbət etdik.

Azərbaycan enerji sahəsində bizim etibarlı və strateji tərəfdaşımızdır. Biz bu tərəfdaşlığı daha da genişləndirmək istəyirik. Avropa Enerji Birliyinin məqsədlərindən biri də qazdan təhdid kimi istifadə olunması imkanının istisna edilməsidir. Ukraynada baş verən münaqişə göstərir ki, bu cür təhdidlər hələ də mümkündür. Buna görə də Avropa İttifaqı öz təchizatının şaxələndirilməsinə sadiqdir və bu məsələdə Azərbaycan əsas tərəfdaşdır.

Bu gün biz ümumi strateji marağımıza xidmət edən «Cənub Qaz Dəhlizi» layihəsinin inkişaf etdirilməsi və rəqiblərimizin nə etməsindən asılı olmayaraq onun vaxtında tamamlanmasını təmin etməklə bağlı həmrəyik. Avropa üçün bu, təchizatın şaxələndirilməsi, Azərbaycan üçün isə tələbatın şaxələndirilməsi məsələsidir. Azərbaycanın regionda Avropa İttifaqının ən əsas kommersiya tərəfdaşlarından biri olmaq potensialı var. Avropa İttifaqı artıq Azərbaycanın əsas ticarət tərəfdaşıdır və onun önəmli sərmayədarlarından biridir. Biz növbəti illərdə bu kommersiya münasibətlərini daha da genişləndirəcəyik. Əlverişli ticari və investisiya mühitinin yara-

dılması üçün yaxşı idarəetmənin və qanunun aliliyinin vacib olduğunu xatırlatmaq istəyirəm. Avropa İttifaqı lazım gələrsə öz köməyini göstərməyə hazırdır. Ümid edirəm ki, Azərbaycan Dünya Ticarət Təşkilatına üzv olmaq üçün danışıqları tezliklə yekunlaşdıracaq. Biz yeni geniş, ikitərəfli razılıq vasitəsilə münasibətlərimizin necə daha yaxşı irəliləməsinə dair müzakirə apardıq. Biz yeni danışıqlar mərhələsi və strateji tərəfdaşlıq sazişi üzərində razılığa gəldik.

Mən insan hüquqları və əsas azadlıqlara yüksək önəm verdiyimizi vurğuladım. Avropa İttifaqı açıq cəmiyyətlərin uzunmüddətli sabitlik və çiçəklənmənin qarantı olduğuna inanır. Mən cənab Prezident ilə burada hüquq müdafiəçilərinin həbs olunması ilə bağlı narahatlığımızı müzakirə etdim. Ümidvaram ki, fərdi hallarda təxirəsalınmaz tədbirlər görüləcək. Biz bu məsələni müzakirə etməyə, insan hüquqları sahəsində yaxşı və qarşılıqlı faydalı əməkdaşlıq imkanlarını araşdırmağa davam edəcəyik, o cümlədən gələcək müqavilə öhdəlikləri kontekstində də bunu edəcəyik. Bu görüşdən sonra mən vətəndaş cəmiyyətinin bəzi nümayəndələri ilə görüşəcəyəm.

Biz «Şərq Tərəfdaşlığı» proqramını da müzakirə etdik. Avropa İttifaqının niyyəti ondan ibarətdir ki, bu siyasət inkişaf etdirildikcə, hər bir tərəfin maraqları və arzuları daha yaxşı nəzərə alınsın.

İcazə verin təkrarlayım ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Avropa İttifaqı və ona üzv olan ölkələr «Dağlıq Qarabağ respublikası»nı tanımır. Status-kvo qəbulolunmazdır və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması Avropa İttifaqı üçün prioritet olaraq qalır. Biz ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçilik səylərini dəstəkləməyə də davam edirik.

Nəhayət, biz insanların hərəkət azadlığını, xalqlarımız arasında səyahət və birbaşa əlaqəni asanlaşdırmaq üçün ümumi arzumuzu müzakirə etdik. Mən keçən ilin payızında vizanın sadələşdirilməsi və readmissiya müqaviləsinin qüvvəyə minməsini alqışlayıram. Bu çox vacib addım idi. Ötən il Şengen

ərazisinə Azərbaycandan 70 min nəfər səfər edib. Bu ondan əvvəlki illə müqayisədə təxminən 20 faiz artım deməkdir və verilən vizaların üçdəbiri uzunmüddətli və çoxgirişli vizalar idi. Mən gələcək illərdə bizim vacib əlaqələrimizin daha da gücləndirilməsinin davam etdirilməsini səbirsizliklə gözləyirəm.

Cənab Prezident, ümidvaram ki, mənim bugünkü səfərim bu məqsədə öz töhfəsini verib. Sağ olun.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**S u a l:** ***(TREND agentliyi):*** **Mənim sualım Avropa İttifaqı Şurasının Prezidentinədir. Cənab Tusk, bildiyiniz kimi, artıq 20 ildən çoxdur ki, Dağlıq Qarabağ və 7 ətraf rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Bu təcavüz nəticəsində 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkünə çevrilib. Bu insanların hüquqları görünməmiş şəkildə pozulur. Nəyə görə beynəlxalq təşkilatlar beynəlxalq hüquq normalarına riayət etmək və BMT Təhlükəsizlik Şurasının, eləcə də Avropa Parlamenti, ATƏT, Avropa Şurası və digər təşkilatların Azərbaycanın zəbt olunmuş torpaqlarından işğalçı qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirmək və işğal olunmuş torpaqları azad etmək üçün Ermənistana müvafiq təzyiq göstərmirlər?**

**D o n a l d T u s k:** Çox sağ olun. Mənim üçün və Avropa İttifaqı üçün status-kvonun qəbuledilməzliyi aydındır. Mən bu məsələ ilə bağlı mövqemi 2 gün bundan əvvəl İrəvanda aydın bildirdim. Bizə sözsüz ki, münaqişənin sülh yolu ilə həll olunması lazımdır, alternativ yoxdur. Bu, təkcə mənim fikrim deyil. Ümidvaram ki, münaqişənin sülh yolu ilə həll olunmasına heç bir alternativ yoxdur. Düşünürəm ki, bu gün biz nəinki təkcə hərbi gücdən çəkinməliyik, o cümlədən radikal bəyanatlardan, təcavüzkar ritorikadan uzaq durmalıyıq. Burada söhbət təkcə

Dağlıq Qarabağ münaqişəsindən getmir, Avropaya yaxın ərazilərdə, eləcə də bütün dünyada siyasətçilər bu ritorikadan uzaq durmalıdırlar və hesab edirəm ki, bu onların üzərində olan öhdəlikdir. Çünki müharibə və qaynar münaqişələr bizə lazım deyil. Bu növ siyasətin və təcavüz ideologiyasının, ola bilsin, ən aydın və ən pis nümunəsi Ukraynadakı vəziyyətdir.

Dağlıq Qarabağla bağlı status-kvo qəbuledilməzdir və münaqişənin danışıqlar, tərəflərin dözümlülüyü və kompromisə gəlməsi vasitəsilə ədalətli şəkildə və sülh yolu ilə həll edilməsinə ciddi ehtiyac duyulur. Avropa İttifaqı bu münaqişənin nizamlanması üçün təsis edilmiş ATƏT-in Minsk qrupunun fəaliyyətini və bu münaqişənin nizamlanması üçün Minsk qrupunun həmsədrləri olan ölkələrin prezidentləri tərəfindən irəli sürülmüş sülh üçün zəmin yaradan prinsipləri və münaqişənin nizamlanması elementlərini dəstəkləyir. Müzakirələrimizdə yer alan əsas məsələlərdən biri də sizin Minsk qrupu formatı çərçivəsində aparılan danışıqların heç bir nəticə verməməsi idi və bu məsələ ilə bağlı məyusluğunuzu anlayıram. Lakin düşünürəm ki, ola bilsin bizə daha çox səbir lazımdır. Amma bayaq qeyd etdiyim kimi, münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün əlimizdən gələn hər bir şeyi etməliyik.

**S u a l:** *(Azərbaycan Televiziyası):* **Sualım Azərbaycan Prezidentinədir. Ermənistan prezidenti Serj Sarkisyanın və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun İrəvanda keçirdikləri mətbuat konfransında Serj Sarkisyan Azərbaycanı Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini təhrif etməkdə, Avropa İttifaqını isə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistana və Azərbaycana eyni münasibət göstərməkdə ittiham etmişdi. Cənab Prezident, bununla bağlı nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Sağ olun. Səmimiyyətlə desəm, bu gün Sarkisyanın verdiyi bəyanatlar haqqında danışmaq istəməzdim. Avropa İttifaqı Şurasının Prezidenti ilə keçirdiyi birgə mətbuat konfransında o bir daha fürsətdən istifadə edərək, Azərbaycanı demokratiyanın pozulmasında, Ermənistana qarşı

təcavüzkarlıqda ittiham etmişdi. Bu isə tamamilə gülüncdür. Çünki ola bilsin ki, Sarkisyan demokratiya haqqında danışmalı olan ən sonuncu adamdır. 2008-ci ildə özündən əvvəlki prezident tərəfindən Ermənistanın başçısı kimi təyin olunan, seçkiləri saxtalaşdıran, sonra ordudan istifadə etməklə, dinc etiraz aksiyasını yatıraraq 10 insanın qətlinə səbəb olan şəxsin istənilən ölkədə demokratiya haqqında danışmağa heç bir mənəvi haqqı yoxdur. Azərbaycan və Ermənistanın, əgər bunu belə söyləmək olarsa, tərəzinin eyni gözünə qoyulması ilə əlaqədar ittihama gəldikdə isə, bu ittiham Azərbaycan tərəfindən irəli sürülsəydi daha təbii olardı. Çünki biz beynəlxalq ictimaiyyətin təcavüzkar və onun qurbanları arasında çox aydın fərq qoymalı olduğunu hesab edirik.

Biz hazırda danışıqlar formatı üzərində işləyirik və münaqişənin sülh vasitəsilə nizamlanması yolunu tapmağa çalışırıq. Lakin münaqişənin kökləri, onun yaranma səbəbləri unudulmamalıdır. Ermənistan tərəfindən dəstəklənən Dağlıq Qarabağdakı erməni separatçıları Azərbaycana qarşı təcavüz işlətdilər. Bu münaqişənin ilk qurbanları azərbaycanlılar oldu. Bu təcavüz etnik təmizləmə siyasəti, Xocalıdakı soyqırımı və ərazilərimizin 20 faizinin işğalı ilə nəticələndi. Bu işğala heç bir bəraət qazandırmaq olmaz. Çünki bu çox aydındır və xəritəyə baxmaq kifayət edər ki, Azərbaycanın böyük bir hissəsinin Ermənistanın işğalı altında olmasını görsünlər. Onlar bütün azərbaycanlıları oradan qovublar, onların insan hüquqlarını pozublar, bütün tarixi və dini abidələrimizi dağıdıblar. Bu barədə ATƏT-in regiona 2 missiyasının hesabatında qeyd olunub. Onlar indi Azərbaycan tərəfindən blokadaya alınmalarından danışır, Azərbaycanı onlara qarşı təcavüzdə və ksenofobiyada ittiham edirlər.

Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Sual isə ondadır, necə olur ki, dünyada əhalisinin 99 faizinin bir millətin nümayəndələrinə aid olan ölkədə – Ermənistanda ksenofobiya haqqında hekayədən danışırlar?! Nə üçün digər millətlərin nümayəndələri orada özlərinə yer tapa bilmirlər?! Lakin Azərbaycan öz ərazisində

çoxlu etnik qrupların nümayəndələrinin və müxtəlif dini etiqadı olan insanların yaşaması tarixindən bu gün də qürur duyur. Ölkəmiz bu gün bütün dinlərin və etnik qrupların nümayəndələri üçün bir evdir. Bu gün qlobal miqyasda Azərbaycan müxtəlif dini və etnik qrup nümayəndələrinin sülh şəraitində birlikdə yaşamasının yaxşı nümunəsidir. Buna görə də qurban və təcavüzkar arasında fərq qoyulmalıdır. Təcavüzkar məsuliyyətə cəlb edilməlidir. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı – Ermənistan qoşunlarının dərhal və qeyd-şərtsiz ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnaməsi qəbul olunmuşdur. İşğala, təcavüzə heç bir bəraət qazandırmaq olmaz. Ermənistan rəhbərliyi bu reallığı nə qədər tez dərk edərsə, bu onların özü üçün yaxşı olar. Çünki torpaqları işğal altında saxlamaqla, Ermənistan özünü Azərbaycan və digər qonşu ölkələrlə regional əməkdaşlıqdan məhrum edir və bunun nəticəsi Ermənistandakı köklü yoxsulluqdur. Sarkisyanın hakimiyyətdə olduğu vaxtda Ermənistan əhalisinin 50 faizdən çoxu yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Beləliklə, bu, həmin siyasətin, təcavüzün və işğalın nəticəsidir. Ümid edirəm ki, Ermənistan rəhbərliyində olan dərrakəli şəxslər bu yolun heç bir yerə aparmayacağını, nəhayət, başa düşəcəklər. Qonşuları ilə münasibətlərin normallaşdırılması baş tutmadan Ermənistanın gələcəyini proqnozlaşdırmaq mümkün deyil.

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA YAMİN ABDUL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2015-ci il*

**LİBERİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM ELLEN CONSON-SERLİFƏ**

Hörmətli xanım Prezident!

Liberiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2015-ci il*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*23 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki (ABŞ), İqor Popovu (Rusiya), Pyer Andreni (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar danışıqların hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB OLYANTA MOYSES UMALA TASSOYA**

Hörmətli cənab Prezident!

Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2015-ci il*

## İSRAİL DÖVLƏTİNİN AZƏRBAYCANDAKI SƏFİRİ RAFAEL HARPAZ İLƏ GÖRÜŞ

*24 iyul 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də İsrail Dövlətinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Rafael Harpazı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Rafael Harpazın ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə İsrail arasında əlaqələrin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirən dövlətimizin başçısı gələcək fəaliyyətində ona uğurlar arzuladı.*

*Səfir prezident İlham Əliyevə minnətdarlığını bildirdi və qeyd etdi ki, Azərbaycan ilə bağlı xoş xatirələr onun qəlbində daim yaşayacaq.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edildi, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

Əlahəzrət!

Əziz qardaşım!

Mərakeş Krallığının milli bayramı – Taxt-tac Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ortaq mənəvi dəyərlərə malik xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan–Mərakeş münasibətləri bundan sonra da qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edərək, əməkdaşlığımız üçün möhkəm zəmin olacaqdır.

Bu əlamətdar gündə Sizə cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2015-ci il*

## HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının sabiq prezidenti, görkəmli dövlət və elm xadimi Abdul Kalamın vəfatı xəbəri məni çox kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, bütün xalqınıza və mərhumun yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyul 2015-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Ad gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycan ilə Birləşmiş Ştatları dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Qlobal təhdidlərə və terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin təmin edilməsində, ən qaynar nöqtələrdə sülhyaratma missiyasında birgə iştirakımız tərəfdaşlığımızın mühüm amillərindəndir.

İkitərəfli münasibətlərimizin inkişafına, qarşılıqlı fəaliyyətimizin genişlənməsinə Sizin töhfəniz dəyərlidir.

Bununla yanaşı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə və ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizin nəticələr verəcəyinə ümidvarıq.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2015-ci il*

## BEYNƏLXALQ İDMAN ATICILIQ FEDERASİYASININ PREZİDENTİ OLEQARİO VASKES RANYA VƏ BAŞ KATİBİ FRANS ŞRAYBER İLƏ GÖRÜŞ

*7 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti Oleqario Vaskes Ranyanı və baş katibi Frans Şrayberi qəbul etmişdir.*

*Oleqario Vaskes Ranya I Avropa oyunlarının açılışı mərasimində iştirakını məmnunluqla xatırladaraq oyunların yüksək səviyyədə təşkilinin və ümumilikdə, ölkəmizdə gedən inkişaf proseslərinin, insanların göstərdiyi dost münasibətlərin onda dərin təəssürat yaratdığını dedi. Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti dünyanın 90 ölkəsindən 1000-dən çox idmançının iştirak etdiyi atıcılıq üzrə dünya kuboku yarışlarının da Qəbələdə ən müasir standartlar səviyyəsində təşkil olunduğunu və bu tədbirin idman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini vurğuladı.*

*Dövlətimizin başçısı müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən dünya səviyyəli idman yarışlarının keçirilməsi üçün təkcə ölkəmizin paytaxtında deyil, regionlarda da müasir infrastrukturun yaradıldığını vurğuladı və bu baxımdan atıcılıq növləri üzrə dünya kuboku yarışlarının Qəbələ şəhərində keçirilməsinin önəmini qeyd etdi.*

*Görüşdə Beynəlxalq İdman Atıcılıq Federasiyası ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə olundu.*

## SİYƏZƏN–MƏŞRİF AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*8 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Siyəzən–Məşrif avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Siyəzən rayonunun bir neçə kəndini birləşdirən və hərəkətin intensiv olduğu bu yol uzun müddət təmir edilmədiyindən bərbad vəziyyətə düşmüşdü.*

*Prezident İlham Əliyevin 2012-ci il 11 iyun tarixli Sərəncamına əsasən yolun tikintisinə ilkin olaraq 7 milyon, daha sonra 5,7 milyon manat vəsait ayrılıb. 2012-ci ilin oktyabrında başlanılmış tikinti işləri bu ilin mayında yekunlaşdırılıb. Eni 5, bəzi yerlərdə isə 7 metr olan 3-cü və 4-cü dərəcəli yola 10-11 santimetr qalınlığında asfalt döşənib. Yol üzərindəki mühəndis-texniki qurğular müasir səviyyədə qurulub. Rayonun 20 yaşayış məntəqəsini birləşdirən və 37,1 kilometr uzunluğunda olan bu rahat və abad yoldan ümumilikdə 4700-dək sakin istifadə edəcək.*

*Azərbaycan Prezidenti yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## ŞABRAN RAYONUNDA «QALAALTI HOTEL & SPA» BEYNƏLXALQ MÜALİCƏ VƏ İSTİRAHƏT KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*8 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Şabran rayonunun ərazisində yerləşən «Qalaaltı Hotel & SPA» müasir müalicə-istirahət kompleksinin açılışında iştirak etmişdir.*

*Ölkəmizdə turizmin inkişafı üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsi olaraq, Azərbaycanın dilbər guşələrindən biri sayılan Şabran rayonunda «Qalaaltı Hotel & SPA» müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur «Qalaaltı» kurortunun bazasında inşa edilib. Təxminən 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə biləcək hotel, villa və kottecələr var.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bakıdan cəmi 127 kilometr məsafədə yerləşən bu kompleksin 171 otaqdan ibarət hotel binası ən müasir standartlara cavab verir. Burada qonaqların zövqünü oxşayan interyer işləri aparılıb, müxtəlif tədbirlərin keçirilməsi üçün iclas və konfrans zalları yaradılıb. Binadakı 112 superior otağın 33-ü iki, 79-u isə birnəfərlikdir. Bundan başqa, burada 11 suit və 1 lüks otaq var. Kompleksdə istər uzunmüddətli müalicəvi istirahət, istərsə də həftə sonlarında asudə vaxt keçirmək üçün hər cür şərait*

*yaradılıb. Hotel binasındakı «Mənzərə» restoranı, «Lavanda», «Qala» və «Vitamin» barları qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını daha maraqlı keçirmələrinə geniş imkanlar açır. Müalicə-istirahət mərkəzində aptek, market, suvenir mağazası, kişi və qadın bərbərxanaları fəaliyyət göstərir, qonaqlara bank xidmətləri təklif olunur.*

*Kompleksdə ziyarətçilərə SPA xidmətləri də təqdim edilir. Həmçinin hamam, sauna, türk hamamı, bio-sauna, masaj, buxar və ekzotik duş otaqları, hovuz, trenajor zalı fəaliyyət göstərir. Burada yaradılan «qar otağı» da qonaqların ixtiyarındadır. «Tai SPA» və «Aura SPA» mərkəzlərini ziyarət edənlər buradan xoş əhval-ruhiyyə ilə ayrılacaqlar.*

*«Qalaaltı» kompleksində yerləşən tibbi mərkəz müasir avadanlıqlarla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şərait yaradılan mərkəzdə fizioterapiya, elektroterapiya, maqnitoterapiya, hidroterapiya, hidrokolonoterapiya otaqları var. Burada müalicə alanlar masaj və palçıq applikasiya otaqlarından istifadə edə bilərlər. Tibbi mərkəzdə uroloji xidmətlər də göstəriləcək. Kosmetoloji bölmədə kosmetoloji prosedur otağı, krioterapiya, solyarium, ozon kapsula və haloterapiya-duz otaqları var.*

*Sonra dövlətimizin başçısı kompleksin kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən təbrik etmək istəyirəm. Bu gün biz «Qalaaltı» müalicəvi istirahət mərkəzinin açılışını qeyd edirik. Gözəl, əlamətdar hadisədir və bu hadisə bir daha onu göstərir ki, ölkəmiz sürətlə və hərtərəfli inkişaf edir.

Qalaaltı suyu çox məşhur sudur, nadir keyfiyyətlərə malikdir və indi bu gözəl mərkəz yaranandan sonra əminəm ki, həm Azərbaycan vətəndaşları, həm də ki, xarici qonaqlar bu imkanlardan istifadə edəcəklər.

Bu gün «Qalaaltı» kurortuna yeni həyat verilir, Qalaaltının yeni dövrü başlayır. Bu, müasir dövrdür, gözəl dövrdür və burada yaradılan şərait ən yüksək standartlara uyğundur.

«Qalaaltı» kurortu keçən əsrin 70-ci illərində yaradılmışdır. Əlbəttə ki, o vaxt şərait belə deyildi, ancaq buna baxmayaraq, Sovet İttifaqının müxtəlif yerlərindən buraya qonaqların axını müşahidə olunurdu. Minlərlə insan hər il Sovet İttifaqının müxtəlif yerlərindən buraya gəlir, müalicə alır, istirahət edirdi.

Bu gündən sonra artıq «Qalaaltı» dünya səviyyəli beynəlxalq müalicə və istirahət kompleksi kimi fəaliyyətə başlayacaq və burada yaradılan şərait – siz də bunu yaxşı bilirsiniz – ən yüksək standartlara uyğundur. Beşulduzlu hotel, SPA mərkəzi, əyləncə zonaları, əlbəttə, bunun özəlliyi ondan ibarətdir ki, burada yerin altından çıxan müalicəvi su insanların sağlamlığına müsbət təsir göstərəcək.

Bununla bərabər, deyə bilərəm ki, bu mərkəzin açılışında bizim siyasətimiz də öz əksini tapır. Çünki regionların inkişafı, qeyri-neft sektorunun, turizm sektorunun inkişafı bizim üçün prioritet sahədir. Regionların inkişafı ilk növbədə, infrastruktur layihələrindən başlamışdır, yollar çəkilməli idi. Əgər yol olmasaydı, burada heç kim vəsait qoyub bu mərkəzi yaratmazdı. Həm Bakı–Quba–Rusiya sərhədi magistral yolu, eyni zamanda, Siyəzən şəhərindən çəkilən yol və digər infrastruktur layihələri ki, bu gün bütün bölgələrdə bu layihələr icra edilir. İçməli su, elektrik enerjisinin təchizatı, kənd yolları, qazlaşdırma və digər infrastruktur layihələri ölkəmizdə uğurla icra edilir. Regionların inkişafı, o cümlədən turizmin inkişafı ilə bağlıdır, xüsusilə nəzərə alsaq ki, bizim çox gözəl təbiətimiz var. Biz çox xoşbəxt insanlarıq ki, belə gözəl ölkədə yaşayırıq. Xəzər dənizi, dağlar, çaylar, bulaqlar, göllər, meşələr – bütün bunlar bizdə var. Belə olan halda, turizmin inkişafı bir neçə il bundan əvvəl prioritet istiqamət kimi müəyyən edilmişdir və hazırda ölkəmizin müxtəlif yerlərində dünya səviyyəli turizm mərkəzləri və kurortlar fəaliyyət göstərir.

Sovet dövründə 2 məşhur kurortumuz var idi – biri «Qalaaltı», biri də «Naftalan». «Naftalan» kurort mərkəzi də bu gün ən yüksək səviyyədə yaradılıb. Artıq beşulduzlu 3 hotel fəaliyyət göstərir. Mən o hotellərin hər birinin açılışında şəxsən iştirak etmişəm və 4-cü hotel də tikilməkdədir. Beləliklə, Naftalana hər

il istirahət üçün artıq on minlərlə insan gəlir və son vaxtlar şadam ki, xarici ölkələrdən də gələnlərin sayı gündən-günə artır. Əminəm ki, Qalaaltı da o səviyyəyə qalxacaq. Çünki burada da müalicə almaq, istirahət etmək, dincəlmək üçün çox gözəl imkanlar var.

Beləliklə, biz bu 2 tarixi kurort mərkəzini nəinki bərpa etdik, ən yüksək dünya səviyyəsində yenidən yaratdıq.

Bizim digər kurort yerlərimiz də var, misal üçün bir neçə il bundan əvvəl Naxçıvanda «Duzdağ» mağarasının ətrafında gözəl hotel tikilib. O mağaralarda da gözəl işlər görülüb. Ora daha çox ağciyər xəstəlikləri üçün yararlıdır. «Qalaaltı» kompleksində böyrək, öd kisəsi, Naftalanda revmatizm, oynaq xəstəlikləri müalicə olunur. Bax, bu müxtəliflik artıq Azərbaycanı dünya səviyyəli turizm mərkəzinə çevirir. Nəzərə alsaq ki, bizim gözəl Xəzər dənizimiz var, dənizboyu yerlərdə hotellər tikilir. Avropa oyunlarının keçirilməsi, əlbəttə ki, turizmin inkişafına çox müsbət təsir göstərib. Biz bunu görürük. Minlərlə qonaq gəldi və Bakıya heyran oldu. Bakının gözəlliyi, abadlığı, yaradılan şərait, insanlarımızın qonaqpərvərliyi, əlbəttə ki, turistləri cəlb edir.

Hər bir ölkə, xüsusilə Azərbaycan kimi, belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir. Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz – bunlar tükənən sərvətlərdir. Ancaq ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etdirilməlidir. Onların içərisində turizm xüsusi yer tutur. Biz bəzi ölkələrin gəlirlərinə fikir versək görərik ki, ən çox gəlir gətirən sahə turizmdir. Bəs turizmin inkişafı üçün nə lazımdır? İlk növbədə, gərək səni tanısınlar. Biz ölkəmizi tanıtdırırıq, dünya miqyasında, xarici ölkələrdə təqdimatlar, mədəniyyətimizlə, inkişafımızla bağlı tədbirlər keçiririk. Eyni zamanda, Azərbaycanda mötəbər beynəlxalq yarışlar, mədəni tədbirlər, festivallar, müsabiqələr təşkil olunur. Avropa oyunları başa çatdı, gələn il «Formula-1» yarışı, 2 ildən sonra İslam Həmrəyliyi oyunları keçiriləcək. Bütün bunlar qonaqları cəlb edir

və ondan sonra qonaqlar da vətənlərinə qayıdaraq öz fikirlərini bölüşürlər. Misal üçün, dünən mən Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti ilə görüşdüm – dünən Qəbələdə dünya kubokunun yarışları başlanıb – o mənə dedi ki, Avropa oyunlarının açılışında iştirak edərkən, Bakı ilə tanış olarkən şəhərimiz çox xoşuna gəlib və bu dəfə öz ailəsi ilə Bakıya gəlib. Bax, budur bizim imkanlarımız. Biz beynəlxalq tədbirlər keçiririk ki, bizi daha çox tanısınlar. Bu, birinci şərtdir. Turizmin inkişafı üçün ikinci şərt infrastrukturun mövcudluğudur. Bizim Heydər Əliyev Beynəlxalq Aeroportumuz dünya miqyasında ən birinci yerlərdən birindədir. Avtomobil yolları, infrastruktur, xidmət sahəsi və əlbəttə, insanlarımızın qonaqpərvərliyi – bu bizim bəlkə də ən böyük sərvətimizdir. Ona görə, bax, bütün bu amilləri nəzərə alaraq biz görürük ki, Azərbaycanda turizmin inkişafı üçün çox gözəl imkanlar var. Biz bu imkanlardan maksimum dərəcədə istifadə etməliyik.

Bölgələrdə yeni gözəl beşulduzlu mərkəzlər tikilir, Bakı şəhərində ən aparıcı dünya hotellər brendləri fəaliyyət göstərir. Təkcə bu il 2 hotel açılıb – «İnturist», hansı ki, tarixi ədaləti bərpa etmişik. Vaxtilə «İnturist» hoteli tikilmişdi, sonra əfsuslar olsun ki, söküldü. İndi isə «İnturist» bərpa edildi. Nəinki Azərbaycanın, demək olar ki, bölgənin ən böyük hoteli «Boulevard» hotelidir və bu il istifadəyə verilib.

Ona görə Bakı artıq bu istiqamətdə dünya miqyasında fərqlənən şəhərlər sırasındadır. Mən istəyirəm ki, bizim hər bir şəhərimizdə belə imkanlar yaradılsın. Baxın, son vaxtlar nə qədər gözəl hotellər tikilib. Biz «Şahdağ» xizək mərkəzini yaratdıq. Orada artıq 3 beşulduzlu, 2 üçulduzlu və dördulduzlu hotellər inşa olunub. Qış aylarının şənbə, bazar günlərində bəlkə də 5 minə qədər insan oraya gedib istirahət edir. Buradan Şahdağa qədər avtomaşınla saatyarımlıq yoldur.

Qəbələdə ikinci xizək kurortu, eyni zamanda, bir neçə gözəl hotel yaradılıb. 2 il əvvəl Qubada «Rixos» kimi gözəl hotel tikilib. Şamaxıda, Naftalanda, Qalaaltıda, cənub zonasında da hotellər inşa olunub. Budur bizim siyasətimiz və inkişafımız və

biz bunu dünyada yaşanan maliyyə və iqtisadi böhran dövründə əldə edirik. Bu gün elə bir ölkə tapmaq çətindir ki, bu böhran ona təsir etməsin – hansısa ölkələrə daha çox, hansısa ölkələrə daha az. Amma Azərbaycan böhranlı illərdə də inkişaf edir.

İnfrastruktur layihələri icra edilir, neftin qiyməti keçən ilə nisbətən 2 dəfədən çox aşağı düşüb. Əlbəttə ki, bu bizim gəlirlərimizə mənfi təsir göstərir, az pul qazanırıq, amma bununla bərabər, iqtisadiyyatımızın şaxələndirilməsi hesabına yaradılan potensial imkan verir ki, Azərbaycan vətəndaşı bunu hiss etməsin. Dayanıqlı inkişaf bu istiqamətdə gedəcək. Biz nefti, qazı kənara qoymalıyıq, ümumiyyətlə, unutmalıyıq. Gün gələcək, neft qiymətləri bizim üçün heç bir əhəmiyyət daşımayacaq. Çünki sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları – Azərbaycanda bu sahələr inkişaf edir və daha da sürətlə inkişaf etməlidir.

Ona görə «Qalaaltı» müalicəvi istirahət mərkəzinin açılışı sadəcə olaraq, bir hotelin açılışı deyil, bu bizim siyasətimizin əksidir və bizim niyyətimizi ifadə edir. Əminəm, yerli və xarici investorlar bu imkanlardan ruhlanaraq Azərbaycanda yeni gözəl hotellər, istirahət zonaları yaradacaqlar ki, həm vətəndaşlarımız, həm qonaqlarımız bundan istifadə etsinlər.

Siz, burada işləyən insanlar əminəm ki, öz vəzifə borcunuzu şərəflə yerinə yetirəcəksiniz, qonaqlara yaxşı xidmət göstərəcəksiniz. Əminəm ki, bir dəfə buraya gələn qonaqlar yenidən qayıtmaq istəyəcəklər.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

*«Qalaaltı Hotel & SPA» kompleksinin mühüm özəlliklərindən biri də burada müalicəvi xidmətlərin təklif edilməsidir. Kompleksdə qonaqlara Qalaaltı kəndi ərazisindən çıxan məşhur müalicəvi təbii sular əsasında müayinə məqsədli tibbi xidmətlər təqdim olunur. Kəndin ərazisindən çıxan təbii müalicə əhəmiyyətli «Naftsu»nun tərkibində yüksək miqdarda üzvi*

*maddələr var. Müalicəvi xüsusiyyətlərinə görə dünyada məşhur təbii müalicə əhəmiyyətli sulardan sayılan Qalaaltı suyundan qaraciyər, öd yolları iltihabı, böyrək daşı, böyrəyin xroniki iltihabı və digər uroloji xəstəliklərin müalicəsində istifadə edilir. Kompleksdə peşəkar tibbi heyətin nəzarəti altında Qalaaltı suyu ilə müalicə kursları təqdim olunur. Müalicənin səmərəliliyini təmin etmək məqsədilə ziyarətçilərə xüsusi kartlar verilir. Həkimlər tərəfindən hər bir ziyarətçiyə müəyyən edilən fərdi müalicə qaydası, suyun qəbul edilmə miqdarı, temperaturu elektron şəkildə həmin kartlara yazılır. Qonaqlar müalicəvi suiçmə zalında lazımi qədər və zəruri temperaturda su əldə edə bilərlər. Bu müasir texnoloji yenilik Azərbaycan tarixində ilk dəfə olaraq məhz burada tətbiq edilir.*

*Sonra prezident İlham Əliyev kompleksin ərazisində yaradılan şəraitlə tanış oldu.*

*Buradakı panoramlı liftdən istifadə edənlər Qalaaltı zonasının gözəlliyini aydın seyr etmək imkanı qazanırlar. Bu kompleks böyük əyləncə mərkəzi, istirahət və gəzinti məkanları ilə də diqqəti cəlb edir. Həmin istirahət ocağı eyni zamanda, şəhər mühitinin səs-küyündən yorulan və təbiətdə istirahət etmək arzusunda olanlar üçün gözəl ailəvi məkan hesab olunur.*

*Kompleksdə müştərilərə geniş əyləncə xidmətləri təklif edilir. Buradakı 5,4 min kvadratmetrlik əyləncə binası regionda bu qəbildən ən böyük mərkəzlərdən biri sayılır. Binada «Xəzər» kafesi və bouling bar ziyarətçilərin istifadəsinə veriləcək. Kompleksdə idmanın müxtəlif növləri üçün nəzərdə tutulmuş meydançalar, o cümlədən fitnes, aerobika zalı, örtülü hovuz, tennis kortları, çöl idman meydançası, geniş park sahəsi, əyləncə məkanları, uşaqlar üçün oyun meydançaları, uşaq mərkəzi və hovuzu, «qar otağı», elektron oyunlar məkanı da var.*

*Kompleksdə təbiətin qoynunda, ətraf mühitlə harmoniyada yaşamağa üstünlük verənlər üçün milli faunanın elementlərini özündə əks etdirən 4 kiçik hotel binası da inşa edilib. «Lalə», «Zanbaq», «Bənövşə» və «Mimoza» adlanan həmin binaların hər birində 10-u superior və 1-i suit olmaqla, ümumilikdə 44 otaq var.*

*Daha dəbdəbəli istirahət arzusunda olanlar üçün isə villalar təklif edilir. «Şahdağ» villası 5, «Kəpəz» və «Murov» villalarının hər biri isə 4 otaqdan ibarətdir.*

*Gözəl və füsunkar təbiətə malik olsa da, kompleksin ərazisində əlavə yaşıllıq zonası yaradılıb, 15 min kvadratmetr ərazidə ot örtüyü salınıb, həmçinin 48 növdə 1200-dən çox ağac əkilib. Uzunluğu 246 metr olan süni çay, fəvvarələr və şəlalə ziyarətçilərin istirahətini daha da maraqlı edəcək. Hotelin və parkın işıqlandırılması sistemi də müasirliyi ilə diqqəti çəkir. Kompleksin ərazisindəki yollarda fiziki qüsurlu şəxslər üçün əlavə imkanlar yaradılıb.*

*«Qalaaltı Hotel & SPA» kompleksinə regionda ən böyük sərmayələrdən biri qoyulub. Kompleksin fəaliyyətə başlaması, əksəriyyəti yerli işçilər olmaqla, 170 yeni iş yerinin yaranmasına imkan verib. Burada 148 avtomobil yerlik dayanacaq da yaradılıb.*

*Ölkə vətəndaşlarının və xarici qonaqların xidmətinə verilən bu müasir istirahət kompleksi respublikamızın turizm infrastrukturuna, xüsusilə də müalicəvi turizmin inkişafına mühüm töhfə verəcək. Beləliklə, «Qalaaltı Hotel & SPA» müalicə-istirahət kompleksi ölkəmizin turizm və müalicəvi turizm sektorunda özünəməxsus yer tutacaq. Bütün bunlar bir daha sübut edir ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində görülən kompleks işlər nəticəsində ölkənin iqtisadi qüdrəti yüksəlib, işgüzar fəallıq artıb, bölgələrdə sahibkarlıq fəaliyyəti daha da genişlənib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, son illər ölkəmizin turizm potensialının inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması, mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətlərində çoxsaylı tədbirlər davam etdirilir və daha da genişləndirilir.*

## BELARUS RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ NİKOLAY PATSKEVİÇ İLƏ GÖRÜŞ

*10 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Belarus Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Nikolay Patskeviçi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Səfir Nikolay Patskeviç ilk növbədə, I Avropa oyunlarının Azərbaycanda yüksək səviyyədə təşkili və idmançılarımızın əldə etdiyi böyük uğurlar münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. O, I Avropa oyunlarına hazırlıq və oyunların keçirilməsi işlərində Azərbaycan xalqının vahid bir komanda kimi çıxış etməsini xüsusi vurğulayaraq dedi ki, Azərbaycan bu tədbirin belə səviyyədə keçirilməsi ilə bir daha özünü bütün dünyaya müasir, müstəqil və inkişaf edən bir ölkə kimi nümayiş etdirdi.*

*I Avropa oyunları ilə bağlı deyilən xoş sözlərə görə minnətdarlığını ifadə edən dövlətimizin başçısı həqiqətən də bu oyunların təşkili və keçirilməsində xalqımızın birlik nümayiş etdirdiyini dedi və 2 milyondan artıq insanın məşəlin gətirilməsi mərasimlərində iştirak etməsini bunun yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev I Avropa oyunlarının ölkəmizdə keçirilməsini müstəqillik dövründə həm miqyas, həm də milli ruhun yüksək olması baxımından ən böyük hadisələrdən biri kimi qiymətləndirdi.*

*Səfir Nikolay Patskeviç Belarus–Azərbaycan münasibətlərinə toxunaraq bu münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi işinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Azərbaycan və Belarus prezidentlərinin ikitərəfli münasibətlərin daha da möhkəmlən-*

dirilməsi istiqamətində qarşıya qoyduqları vəzifələrin uğurla icra olunduğunu dedi. Əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan səfir ölkələrimizin beynəlxalq səviyyədə də sıx əməkdaşlıq etdiyini bildirdi və Belarus ilə Azərbaycan arasında mövcud olan qarşılıqlı hörmət və səmimi münasibətlərin xalqlarımız arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev Nikolay Patskeviçin səfirlik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi. Azərbaycan prezidenti əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı dövlət başçıları tərəfindən müəyyən edilmiş vəzifələrin uğurla həyata keçirilməsindən məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Belarus–Azərbaycan əlaqələrinin dostluq münasibətləri əsasında inkişaf etdiyini vurğuladı. İkitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminliyini bildirən prezident İlham Əliyev Nikolay Patskeviçə gələcək fəaliyyətində uğurlar arzuladı.

## CƏLİLABAD RAYONUNA SƏFƏR

*11 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabad rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Cəlilabad şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Azərbaycan Prezidentinə abidənin ucaldığı Heydər Əliyev adına park haqqında məlumat verdi.*

*Bildirildi ki, ümumi sahəsi 7500 kvadratmetr olan parkda sakinlərin və rayonun qonaqlarının istirahəti üçün hər cür şərait yaradılıb. Parkın ərazisində 2 fəvvarə, müasir işıq dirəkləri və oturacaqlar quraşdırılıb, yaşıllıq zolağı salınıb, yeni gül kolları əkilib.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabad rayonuna səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Bu gün respublikamızın bütün bölgələrində ulu öndər Heydər Əliyevin zəngin irsini, xalqımız qarşısındakı tarixi xidmətlərini daha dərindən öyrənmək məqsədilə ümummilli liderin adını daşıyan muzeylər və mərkəzlər istifadəyə verilir. Bu baxımdan Cəlilabadda yaradılan Heydər Əliyev Mərkəzinin də xüsusi əhəmiyyəti var. Orijinal üslubda inşa edilən Mərkəz həm də rayonun görkəminə əlavə çalarlar qatır. Bu Mərkəz ilk növbədə, rayon sakinlərinin ulu öndərin xatirəsinə dərin ehtiramını nümayiş etdirir. Mərkəzin yaradılması həm də dahi*

*şəxsiyyətin zəngin və çoxşaxəli irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayır, xalqımızın böyük oğlunun Azərbaycan naminə gördüyü işləri gələcək nəsillərə çatdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Buradakı fotolar və digər eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən inkişaf mərhələsinə qədəm qoyması və hazırkı hərtərəfli yüksəlişi, beynəlxalq nüfuzunun artması, respublikamızda demokratik, hüquqi dövlət quruculuğu prosesi, vətəndaş cəmiyyətinin formalaşması, əsaslı siyasi və iqtisadi islahatların həyata keçirilməsi, ölkəmizin dünyada etibarlı tərəfdaş kimi tanınması və təbliği məhz ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Müasir dövlətin möhkəm təməl və milli dəyərlər üzərində qurulması, xalqımızın milli ideya ətrafında birləşməsi, azərbaycançılıq ideologiyası Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən idi. Bu cür çoxfunksiyalı mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsinə real zəmin yaradır.*

*Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, inşasına 2014-cü ildə başlanılan Mərkəzin ümumi sahəsi 8800 kvadratmetrdir. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən muzey yaradılıb. Muzeydə dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar və digər sənədlər sərgilənir. Fotolarda ulu öndərin uşaqlıq, yeniyetməlik, tələbəlik illəri, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi dövr və Cəlilabada səfərləri əks olunub. Dahi şəxsiyyətin müxtəlif dövrlərdə Cəlilabad rayonuna etdiyi səfərlər zamanı çəkilən fotolar da böyük maraqla qarşılanır. Bu fotolar bir daha onu göstərir ki, müasir Azərbaycan tarixinin çox mühüm və taleyüklü səhifəsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin dövlətçilik fəlsəfəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, bütün sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata*

*keçirilməsini öyrənmək baxımından bu Mərkəzin çox böyük əhəmiyyəti var.*

*Mərkəzdə, həmçinin 110 kvadratmetr sahəsi olan sərgi salonu, qrim otağı, 700 yerlik böyük və kiçik konfrans zalları, amfiteatr, yeni ailə quranlara psixoloji məsləhət, ana və uşaq, geyim, milli rəqs, mərkəzi idarəetmə otaqları var. Burada məntiqi təfəkkür kursu, şən və hazırcavablar klubu, kompüter kursu–virtual sinif, xarici dil kursları, rəsm studiyası–heykəltəraşlıq, gimnastika və aerobika otaqları, müasir formatlı 3D kinozal, fotostudiya, nikah salonu, gənclər klubu, adi və elektron kitabxanalar, xalça və tikiş otaqları, internet-kafe də fəaliyyət göstərəcək.*

*Bu Mərkəzin istifadəyə verilməsi ilk növbədə, ulu öndərin zəngin irsini, onun dərin dövlətçilik ənənələrini öyrənməyə imkan verəcək. Bundan başqa, Cəlilabaddakı Heydər Əliyev Mərkəzi həm də rayon sakinlərinə asudə vaxtlarını səmərəli keçirmək üçün hərtərəfli imkanlar yaradacaq. Mərkəzin ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, dekorativ gül və bəzək kolları, ağaclar əkilib.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev Heydər Əliyev seyrəngahına gəldi, burada görülmüş yenidənqurma işləri ilə tanış oldu.*

*Dövlətimizin başçısı seyrəngahda istirahət edən rayon sakinləri ilə görüşüb söhbət etdi.*

**S a k i n l ə r:** Cənab Prezident, Cəlilabada xoş gəlmisiniz! Allah Sizə uzun ömür, cansağlığı versin. Azərbaycan xalqı Heydər Əliyev ailəsinə həmişə borcludur. Hər şey gözəldir. Çox sağ olun.

Ulu öndərimiz 1969-cu ildə hakimiyyətə gələndən sonra bizim rayonumuz çiçəkləndi, qüdrətləndi. Allah Sizin ailənizin, Əliyevlər ailəsinin canını sağ etsin. Allah Sizi heç vaxt elimizdən, obamızdan əskik etməsin, gələcək günlərinizi xeyirli, uğurlu etsin. Çox sağ olun, cənab Prezident.

Ulu Tanrı xanımınız Mehriban Əliyevanın da canını sağ etsin. Mehriban xanım da çox gözəl işlər görür.

Siz bütün dünya dövlətlərinə sübut etdiniz ki, Azərbaycan irəli gedir. İlk Avropa oyunları yüksək səviyyədə keçirildi. Bütün dünya gördü ki, Azərbaycan irəli gedir, daha da irəli gedəcək.

Allah ümummilli liderimizə rəhmət eləsin. Bütün Azərbaycan xalqı Sizinlə – ulu öndərin layiqli davamçısı ilə fəxr edir. Biz hər zaman Sizi dəstəkləyəcəyik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Çox şadam ki, Cəlilabad uğurla inkişaf edir. Bu gün Heydər Əliyev Mərkəzinin açılışını etdik. Oradan çıxdım, dedim çoxdandır seyrəngahda olmamışam, gedək oraya da bir baş çəkək.

Cəlilabadda çox gözəl əhval-ruhiyyə var. Rayon inkişaf edir, insanlar rahat yaşayır. Bu gün kənd yolunun açılışını etdik.

**S a k i n l ə r:** Çox sağ olun. Minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Sosial obyektlər tikilir. Ən əsası ondan ibarətdir ki, sizin də qeyd etdiyiniz kimi, Azərbaycan irəli gedir, hamıdan da qabaqdadır.

**S a k i n l ə r:** Bəli, televiziyadan izləyirik, cənab Prezident, çox məmnun oluruq. Allah Sizi həmişə var eləsin.

**İ l h a m  Ə l i y e v:** Ölkəmizdə təhlükəsizlik, inkişaf, rahatlıq, ədalət var, sosial məsələlər həll olunur, ən əsası insanların üzü gülür.

**S a k i n l ə r:** Bəli. Çox minnətdarıq.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabadda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların asudə vaxtlarının səmərəli təşkili və gələcəkdə intellektual qüvvə kimi yetişmələri üçün bu gün dövlətimiz tərəfindən mühüm tədbirlər görülür. Bu istiqamətdə həyata keçirilən layihələrin sıra-*

*sında yeni körpələr evi-uşaq bağçalarının inşası, mövcudlarının isə ən müasir səviyyədə yenidən qurulması xüsusi əhəmiyyətə malikdir. Bu işlərdə Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondunun da böyük xidmətləri var. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond indiyədək bu sahədə çoxlu sayda layihə reallaşdırıb.*

*Heydər Əliyev Fondunun təşəbbüsü ilə Cəlilabadda inşa edilmiş 100 yerlik Körpələr evi-uşaq bağçası bu işlərin ardıcıl xarakter aldığını açıq şəkildə nümayiş etdirir. Görülən bütün bu işlər bir daha təsdiqləyir ki, dünyada xoş məramı, xeyirxah işləri ilə seçilən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva gələcəyimiz olan uşaqlara xüsusi diqqətlə yanaşır, onların sağlam, bilikli, savadlı və intellektli olmaları üçün səylə çalışır.*

*Dövlətimizin başçısı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu. Körpələr evi-uşaq bağçasının ərazisində yaşıllıq zolağı salınıb, müasir tipli əyləncə attraksionları quraşdırılıb, oyun meydançası yaradılıb. Binanın inşasına 2014-cü ilin sonunda başlanılıb. Təmir-tikinti işləri yüksək səviyyədə həyata keçirilib.*

*Foyedə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini, həmçinin dövlətimizin başçısının və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlara qayğılarını əks etdirən fotoguşələr var. Ümumi sahəsi 1500 kvadratmetr olan məktəbəqədər müəssisə müasir mebel dəstləri ilə təchiz edilib. Buradakı qrup otaqları balacaların zövqünə uyğun yaradılıb. Yeməkxanada uşaqların normal qidalanmaları üçün bütün imkanlar var. Binadakı yataq və oyun otaqları da balacaların böyük marağına səbəb olacaq. Bir sözlə, burada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər cür şərait yaradılıb.*

*Məktəbəqədər təhsil müəssisəsində uşaqların təlim-tərbiyəsinin keyfiyyəti vacib amillər kimi əsas götürülüb. Onların intellektual, fiziki və əqli inkişafı, istedad və qabiliyyətlərinin*

*üzə çıxarılması, sağlamlıqlarının qorunması diqqət mərkəzində saxlanılır.*

*Görülən işlər göstərir ki, son illərdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə paytaxtla yanaşı, bölgələrimizdə də bir çox uşaq tərbiyə və təhsil müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni uşaq bağçaları tikilib. Bu baxımdan Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı da xüsusi əhəmiyyət daşıyır. Bütün bu addımlar Azərbaycanın uğurlu gələcəyinə hesablanıb.*

## «Avanqard» MMC-nin Cəlilabad rayonundakı taxılçılıq təsərrüfatı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də «Avanqard» MMC-nin Cəlilabad rayonundakı taxılçılıq təsərrüfatı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına iri fermer təsərrüfatları barədə məlumat verildi. Bildirildi ki, ölkədə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Dövlət Torpaq Fondu hesabına iri fermer təsərrüfatlarının yaradılması prosesi davam etdirilir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq hazırda Ağcabədi, Beyləqan, Kürdəmir, Ağsu, İmişli, Hacıqabul, Cəlilabad, Salyan, Xaçmaz, Füzuli, Saatlı, Şamaxı rayonlarında 30 min hektardan artıq sahədə 15 sahibkarlıq subyekti tərəfindən 19 iri fermer təsərrüfatı yaradılır. Ümumi dəyəri 123,7 milyon manat olan bu təsərrüfatların yaradılmasına 54,8 milyon manat məbləğində dövlətin güzəştli kreditləri verilib.*

*Hazırda təsərrüfatlarda müasir texnologiyanın tətbiqi nəticəsində torpağın münbitliyinin artırılmasına, suvarma suyuna qənaət olunmasına, torpağın şoranlaşması və eroziyaya uğraması proseslərinin qarşısının alınmasına və ən əsası orta məhsuldarlığın ən azı 2 dəfə artırılmasına şərait yaradılıb. Artıq*

*fəaliyyətə başlamış təsərrüfatlarda ərzaq buğdası üzrə orta məhsuldarlıq 57–60 sentner təşkil edir ki, bu da ölkə üzrə göstəricidən 2 dəfəyədək çoxdur. Yaradılacaq müasir təsərrüfatlarda növbəli əkin sisteminin həyata keçirilməsi kənd təsərrüfatını rentabelli sahəyə çevirməklə yanaşı, bir sıra məhsulların istehsalının artımına səbəb olacaq. Bu da ərzaq buğdasına, yüksək reproduksiyalı buğda toxumuna, heyvandarlıqda və quşçuluqda istifadə edilən və əsasən idxal olunan yem məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verəcək. Bu isə öz növbəsində, ölkədə heyvandarlığın, o cümlədən quşçuluğun inkişafı ilə yanaşı, istehsal olunan məhsulların maya dəyərinin aşağı düşməsinə müsbət təsir göstərəcək.*

*Azərbaycan Prezidentinə Cəlilabadın da daxil olduğu Lənkəran iqtisadi rayonu üzrə verilmiş güzəştli kreditlər barədə məlumat verildi. Qeyd olundu ki, indiyədək Lənkəran iqtisadi rayonu üzrə 2528 sahibkara 102,6 milyon manat, o cümlədən müasir texnologiyaların tətbiqinə əsaslanan 30 investisiya layihəsinin – 4 logistika mərkəzinin, 2 taxıl anbarının, 1 iri fermer və 3 quşçuluq təsərrüfatının, 1 cins heyvandarlıq və 3 istixana kompleksinin, 1 üzümçülük və 2 intensiv bağçılıq təsərrüfatının, 1 çay istehsalı və emalı, 2 meyvə-tərəvəz emalı, 1 süfrə sularının qablaşdırılması zavodunun, 4 çörək, 1 tikinti materialları, 1 qüvvəli yem, 1 mebel istehsalı və 2 turizm müəssisəsinin maliyyələşdirilməsinə 64,3 milyon manat dövlətin güzəştli kreditləri verilib. Bu kreditlər hesabına 11 mindən çox yeni iş yeri yaradılıb. Eyni zamanda, 2250 sahibkara 19 milyon manatadək kiçikhəcmli güzəştli kreditlər verilib və bu kreditlər hesabına 4580-dək yeni iş yeri yaradılıb. Cəlilabad rayonunda isə 530-dan çox sahibkara 21,7 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 2900-dən çox yeni iş yeri açılıb.*

*Sonra prezident İlham Əliyev keçmiş dövlət kənd təsərrüfatı istehsalı müəssisəsinin bazasında 1300 hektar torpaq sahəsi üzrə müsabiqənin qalibi olmuş «Avanqard» MMC tərəfindən yaradılmış iri fermer təsərrüfatının sahələrinə baxdı. Təsərrüfatın investisiya layihəsinin ümumi dəyəri 5,9 milyon*

*manat təşkil edir ki, bunun da 1,9 milyon manatı sahibkarın şəxsi vəsaiti, 4 milyon manatı isə güzəştli kredit vəsaiti hesabına həyata keçirilir. Təsərrüfat əsasən toxumçuluq istiqamətində fəaliyyət göstərəcək və yüksək reproduksiyalı buğda toxumuna olan tələbatın yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rol oynayacaq. Bu il təsərrüfatda yazlıq qarğıdalı əkilib və hər hektardan orta məhsuldarlığın 10 tondan artıq olacağı gözlənilir.*

*Ərazidə yeraltı qrunt sularının axıdılması məqsədilə 4860 metr uzunluğunda drenaj qazılıb, ABŞ-ın «Lindsay» şirkətinin istehsalı olan süni yağış yağdırma üsulu ilə müasir suvarma sistemləri quraşdırılıb. Təsərrüfatın fasiləsiz su ilə təminatını həyata keçirmək üçün 3 kilometr uzunluğunda mövcud kanal təmizlənib, tutumu 50 min kubmetr olan süni göl yaradılıb, 2,3 kilometr uzunluğunda yeni elektrik xətti çəkilib.*

*Təsərrüfat üçün ofis binası, nasosxanalar və texnikaların saxlanılması məqsədilə avtopark tikilib. «Aqrolizinq» ASC vasitəsilə Almaniyanın «Claas» şirkətinin istehsalı olan texnika və aqreqatlar gətirilib. Layihənin icrası nəticəsində 50-dək yeni iş yeri yaradılıb.*

*Dövlətimizin başçısı yaradılmış imkanlardan səmərəli istifadə edilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## Alar–Təzəkənd–Üçtəpə–Əliqasımlı–Cəfərxanlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Alar–Təzəkənd–Üçtəpə–Əliqasımlı–Cəfərxanlı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenidən qurulması işi, yeni yolların salınması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələr uğurla davam etdirilir. Bu gün beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, yerli əhəmiyyətli, rayon və kənddaxili yolların müasir səviyyəyə çatdırılmasına xüsusi diqqət verilir.*

*Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, ölkəmizin şəhər və rayonlarında mövcud avtomobil yollarının əsaslı təmiri və ya yenidən qurulması ümumilikdə regionların sosial-iqtisadi inkişafına mühüm töhfələr verir. Cəlilabad rayonunun Alar–Təzəkənd–Üçtəpə–Əliqasımlı–Cəfərxanlı yolu da bu baxımdan vacib əhəmiyyət daşıyır.*

*Tikintisinə 2014-cü ilin mayında başlanılan bu yolun inşası yüksək səviyyədə və keyfiyyətlə aparılıb. Yolun istifadəyə verilməsi sakinlərin rahat və təhlükəsiz hərəkətini təmin etməklə yanaşı, həmin kəndlərin inkişafında da mühüm rol oynayacaq.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidentinə yolun texniki göstəriciləri barədə məlumat verildi.*

*Alar–Təzəkənd–Üçtəpə–Əliqasımlı–Cəfərxanlı avtomobil yolunun inşası üçün dövlətimizin başçısının 2013-cü ildə imzaladığı sərəncama əsasən Prezidentin ehtiyat fondundan ilkin olaraq 2 milyon manat vəsait ayrılıb. Tikintinin davam etdirilməsi məqsədilə Prezidentin ötən il imzaladığı sərəncamla da 2014-cü il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7 milyon manatı Cəlilabad Rayon İcra Hakimiyyətinə ayrılıb.*

*Avtomobil yolunun ümumi uzunluğu 21 kilometr, eni 8 metrdir. Yol dördüncü texniki dərəcəlidir. Bu yola 130 min kvadratmetrlik ikiqat asfalt döşənib. 6 yaşayış məntəqəsini – Alar, Təzəkənd, Üçtəpə, Əliqasımlı, Cəfərxanlı və Gülməmmədli kəndlərini əhatə edən yol ümumilikdə 23 mindən çox əhaliyə xidmət göstərəcək.*

*Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərdəki ara yolların müasir səviyyəyə çatdırılması bir daha sübut edir ki, respublikada gedən sürətli sosial-iqtisadi inkişaf hər bir ucqar kəndi də geniş əhatə edir və ölkəmizin bütün vətəndaşlarına bu tərəqqidən pay düşür.*

*Sonra Azərbaycan Prezidenti sakinlərlə görüşdü.*

**İlham Əliyev:** Mən sizi görməyimə çox şadam. Yenidən Cəlilabad rayonunda olmağımdan da çox şadam. Bilirsiniz ki, mən prezident kimi, dəfələrlə Cəlilabad rayonunda olmuşam. Bu mənim 7-ci səfərimdir və bütün səfərlərimdə çox yaxşı tədbirlərdə iştirak etmişəm.

Son illər Cəlilabadda həm iqtisadi, həm sosial sahədə çox böyük işlər görülür, gözəl obyektlər tikilir. Xatırlayıram ki, keçən dəfə burada olarkən Mərkəzi Rayon Xəstəxanasının açılışını etmişdik. Ondan əvvəl Müalicə-Diaqnostika Mərkəzinin, Olimpiya İdman Kompleksinin, Gənclər evinin, Şahmat məktəbinin, yolların açılışında iştirak etmişəm, digər obyektlərdə olmuşam.

Cəlilabadda parklar, xiyabanlar salınır. Rayon sürətlə, uğurla inkişaf edir, həm sosial, həm iqtisadi məsələlər öz həllini tapır. İnsanların rahatlığı və iqtisadi inkişafın dərinləşməsi üçün bir sıra infrastruktur layihələri həyata keçirilir ki, bu layihələr böyük əhəmiyyət daşıyır. Cəlilabad rayonu əhalisinin böyük əksəriyyətinin qəsəbələrdə, kəndlərdə yaşadığına görə yolların, o cümlədən kənd yollarının yenidən qurulmasının xüsusi əhəmiyyəti var. Belə olan halda, əlbəttə ki, kənd yollarının tikintisi bəlkə də ən vacib məsələdir və bu gün açılan yol Cəlilabad rayonunda icra edilən 4-cü kənd yolu layihəsidir. Bu günə qədər 3 layihə icra edilmişdir. Artıq 60-a yaxın yaşayış məntəqəsinə kənd yolları çəkilib və işlər yüksək səviyyədə icra edilib. Bu qəsəbələrdə 100 minə yaxın əhali yaşayır.

Alar–Cəfərxanlı kənd yolunun açılışı da növbəti layihədir. Əlbəttə, gələcəkdə də kənd yollarının tikintisi davam etməlidir, çünki buna hələ ki, ehtiyac var. Cəlilabad böyük rayondur, bir çox yaşayış məntəqələri var, əhali də çoxdur. Ona görə Cəlilabada daim yüksək səviyyədə diqqət göstəriləcəkdir.

Bu gün iri fermer təsərrüfatının açılışını qeyd etdik. Bu da çox gözəl hadisədir. Bu gün artıq Azərbaycanda 20-yə yaxın iri fermer təsərrüfatı fəaliyyət göstərir və bu təsərrüfatlarda məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan ən azı 2 dəfə

yüksəkdir. Hər hektardan 50–60 sentner məhsul götürülür. Bax, budur yeni yanaşma və bizim siyasətimiz. Bir neçə il bundan əvvəl göstəriş verilmişdir ki, iri fermer təsərrüfatları yaradılsın və onlardan artıq 19-u yaradılıb. Biri də bu gün açılıbdır. Burada həm iş yerləri açılır, həm də yeni bir kənd təsərrüfatı sistemi formalaşır.

Bu il Azərbaycanda «Kənd təsərrüfatı ili» elan edilib və şadam ki, bol məhsul götürülübdür. Bu il kənd təsərrüfatı 7 faizdən çox artıb. Hər bir ölkə üçün ərzaq təhlükəsizliyi ən vacib məsələlərdən biridir. Biz Azərbaycanda bu məsələləri həll edirik. Çalışırıq ki, Azərbaycan öz ərzaq tələbatını 100 faiz səviyyəsində özü təmin etsin. Buna nail olmaq üçün bütün imkanlar var – torpaqlar, texnika, dövlət tərəfindən ayrılan vəsait. Subsidiyalar, gübrələr, yanacaq verilir. Eyni zamanda, «Aqrolizinq» xətti ilə texnika təmin edilir. Yəni dövlət öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Fermerlər də bu imkanlardan səmərəli şəkildə istifadə etməlidirlər ki, kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin.

Mən tam əminəm ki, biz öz ərzaq təhlükəsizliyimizi 100 faiz səviyyəsində təmin edə bilərik. Hesab edirəm, bu məqsədə çatmaq üçün bizə bir neçə il lazımdır. Çünki bizim düşündüyümüz siyasət, regionlara qoyulan investisiyalar, eyni zamanda, son vaxtlar aparılan islahatlar ərzaq təhlükəsizliyini tam şəkildə təmin edəcəkdir. Hesab edirəm ki, digər sahələrdə də eyni yanaşma olmalıdır, nəyi özümüz istehsal edə biliriksə, istehsal etməliyik.

Tikinti materialları, ərzaq məhsulları və sənayenin inkişafı da, əlbəttə ki, daim diqqət mərkəzində olmalıdır. Bir daha demək istəyirəm ki, Cəlilabad rayonunun inkişafı üçün əlavə tədbirlər görüləcək. Çox işlər görülüb, ancaq görüləsi işlər də çoxdur. Hazırda içməli su və kanalizasiya layihəsi icra edilir və çalışacağıq ki, gələn ilin sonuna qədər Cəlilabad şəhərini tam şəkildə təmiz içməli su və kanalizasiya şəbəkəsi ilə təmin edək. Məktəb tikintisinə hələ ki, ehtiyac var. Düzdür, son vaxtlar 30-a yaxın məktəb tikilib, təmir edilib, ancaq təmirsiz məktəblər əfsuslar olsun ki, var. Biz bunları bilirik və həll edəcəyik.

Cəlilabadda qazlaşdırma layihələri daha sürətlə getməlidir. Hələ ki, bu nə məni, nə də sizi qane edə bilməz. Çünki mənə verilən məlumata görə, Cəlilabadda qazlaşdırma orta hesabla təxminən 40 faiz səviyyəsindədir. Bu çox aşağı səviyyədir və Dövlət Neft Şirkətinə, onun qurumu olan «Azəriqaz»a tapşırıq veriləcək ki, burada qazlaşdırmanın sürəti artırılsın. Çalışırıq ki, ölkə üzrə qazlaşdırmanı 95 faizə çatdıraq, çatdıracağıq da. Şəbəkələr qurulur, Azərbaycanda qaz istehsalı artır. Biz xaricə də qaz ixrac edirik, amma ilk növbədə, Azərbaycan əhalisini təmin etməliyik. Belə olan halda, 40 faiz qazlaşdırma Cəlilabad üçün çox aşağı səviyyədir və əminəm ki, mənim sözlərimdən sonra bu sahədə işlər daha da sürətlə gedəcək. Bir sözlə, insanlara lazım olan bütün məsələlər, layihələr icra edilir – içməli su, qazlaşdırma, elektrik enerjisi, kənd yolları, iş yerləri, sosial obyektlər, tibbi xidmət, təhsil. Bütün bunlara nail olmaq üçün gərək iqtisadiyyatımız daha da sürətlə inkişaf etsin.

Bu il bizim iqtisadiyyatımız hələ ki, birinci yarımildə təxminən 6 faiz artıb. Dünya miqyasında bu bəlkə də indiki dövrdə ən yüksək göstəricidir. Qeyri-neft sektorumuz 9 faizdən çox artıb. Bu da ən yüksək göstəricidir. Baxmayaraq ki, bizim iqtisadiyyatımızın bir hissəsi neftlə, qazla bağlıdır və qiymətlər kəskin şəkildə aşağı düşüb və hələ düşməyə davam edir, biz heç bir sosial layihəni ixtisar etməmişik, əksinə, sosial-iqtisadi infrastruktur layihələri icra edilir. Bax, bugünkü layihə bunun bariz nümunəsidir. Bu layihələr bütün ölkə üzrə aparılır. Kənd yollarının tikintisi ölkə üzrə geniş vüsət alıb, çünki buna böyük ehtiyac var. Bu, sosial məsələdir, ilk növbədə, insanların rahatlığıdır və iqtisadi məsələdir, çünki kənd yolu olanda iş yeri də açılar, müəssisə də yaradılar və bir çox məsələləri də həll etmiş olarıq. Misal üçün, əvvəllər hər bir yaşayış məntəqəsində, yaxud da ki, bir neçə məntəqənin ətrafında mütləq bir tibb müəssisəsi olmalı idi. Çünki mərkəzə gediş-gəliş o qədər də rahat deyildi. Ancaq indi 20–22 kilometrlik rahat yolu bir neçə dəqiqəyə gəlmək olar və burada, Cəlilabad şəhərində həm Müalicə-Diaqnostika Mərkəzi, həm Mərkəzi Rayon Xəstəxanası

var. Ona görə iqtisadi sahədə, yəni sosial və iqtisadi məsələlərin həlli üçün də kənd yollarının çox böyük əhəmiyyəti var. Bu yol üzərində 6 kənd yerləşir, 20 mindən çox əhali yoldan istifadə edəcək. Bax, biz bu yolla gedirik və bu yol inkişaf yoludur. Bizim əldə etdiyimiz uğurlar onu sübut edir ki, Azərbaycan sürətlə, inamla inkişaf edir.

**B a x ı ş M u s t a f a y e v** *(rayon sakini):* Cənab Prezident, Cəlilabad torpağına xoş gəlmisiniz! Sizin sayənizdə biz firavan yaşayırıq, rahat yatırıq, ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür. Respublikanın bütün bölgələrində olduğu kimi, Cəlilabadda da çoxlu binalar, obyektlər tikilib. Bütün bunlar Sizin sayənizdə, Sizin bizə göstərdiyiniz diqqət və qayğı nəticəsində mümkün olub.

Yol həyat deməkdir. Bəli, əgər bir yerdə yol yoxdursa, orada həyat da yoxdur. Sizin sayənizdə kənddən şəhərə yox, şəhərdən kəndə axın var. Niyə? Ona görə ki, indi şəhərlə kənd arasında başqa bir fərq yaranır. Şəhərdə su, qaz, işıq var. Kənddə isə su, qaz, işıq və torpaq var. Deməli, bizim şəhərdəkindən daha yaxşı yaşamağa imkanımız var. Bunların hamısı Sizin sayənizdədir.

Bizim Buravar kəndi Yardımlının yaxınlığında yerləşir. Həmin kəndə getmək üçün səhər tezdən evdən çıxanda bəlkə saat 4-5-də oraya çatmaq mümkün olurdu. İndi isə Siz dediyiniz kimi, maşınla çox qısa vaxtda Cəlilabad şəhərinə gəlib çatmaq olar. Bunlar Sizin gecə-gündüz çəkdiyiniz əziyyətlərin nəticəsidir. Allah Sizi qorusun, necə ki, ulu öndərimiz Heydər Əliyevi qoruyurdu. Sizə, balaca Heydərimizə, Mehriban xanıma cansağlığı, uzun ömür arzulayırıq. İlk Avropa oyunları Təşkilat Komitəsinin sədri kimi, Mehriban xanım çox böyük işlər gördü. Siz Mehriban xanıma orden təqdim edəndə və onu təbrik edəndə əslində bütün Azərbaycanı təbrik etdiniz.

**L y u b o v D a n i l o v a** *(rayon sakini):* Cənab Prezident, Sizin layiq olduğunuz sözləri tapmağa çətinlik çəkirəm. Qısaca onu demək istəyirəm ki, biz Sizə çox minnətdarıq, Sizi çox sevirik. Çox sağ olun, İlham Heydər oğlu!

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**L y u b o v  D a n i l o v a:** Mən Sizi də atanızı sevdiyim kimi sevirəm. Siz atanızın yolunu layiqincə davam etdirirsiniz. Birinci xanım Mehriban Əliyevaya «Sağ ol!» – deyirik ki, hər işdə də, idmanda da irəlidə gedirik, hər şey yaxşıdır. Bir daha demək istəyirik ki, bizdə – təkcə Bakıda yox, bölgələrdə də hər şey yaxşıdır. İşığımız, qazımız var, yollarımız keyfiyyətlidir. Qoy qonaqlar, əcnəbilər bizə də gəlsinlər. Bizim çox gözəl şəhərimiz var. Mən Cəlilabadın köhnə sakiniyəm, vaxtilə komsomolda işləyərkən heç vaxt fikrimə də gəlməzdi ki, bir zaman Cəlilabad belə gözəl olacaq. Qoy bizim suveren Azərbaycan çiçəklənsin! Sizə isə cansağlığı və firavanlıq arzulayıram!

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən bir dəfə demişəm ki, bizdə Bakı ilə başqa şəhərlər arasında fərq azalmalıdır. Lakin bu fərq yalnız o hesaba azalmalıdır ki, başqa şəhərlər Bakıya oxşamalıdır. İndi biz bu həddə yaxınlaşırıq. Hələ o dərəcəyə çatmamışıq, çünki Bakıya çatmaq çətindir, Bakı günbəgün gözəlləşir, lakin Cəlilabad da Azərbaycanın ən gözəl şəhərlərindən biridir. Bu münasibətlə sizi təbrik edirəm.

**B ö y ü k x a n  B a ğ ı r l ı** *(rayon sakini):* Cənab Prezident, xoş gəlmisiniz!

Biz alarlılar həmişə ulu öndər Heydər Əliyevin siyasətini dəstəkləmişik. Biz qürur hissi duyuruq və sevinirik ki, Siz bu gün bu siyasəti uğurla davam etdirirsiniz. Biz bu siyasətin bəhrəsini hər addımda görürük, hər an hiss edirik. Bunu elə Cəlilabadın timsalında da görürük. Siz dəfələrlə Cəlilabada gələrkən, açılışlar edərkən biz hədsiz dərəcədə sevinirik ki, rayonumuz doğrudan da gündən-günə gözəlləşir. Bir dəfə Siz gözəl bir söz dediniz. Dediniz ki, siz bəlkə də bunlara öyrəşmisiniz, amma kənardan gələnlər bu yenilikləri dərhal hiss edirlər.

Cənab Prezident, bütün bu yeniliklərə görə Sizə minnətdarlığımızı bildiririk. Bu yaxınlarda Siz «Azərişıq»la bağlı bir sərəncam imzalamısınız. O sərəncam bizi hədsiz dərəcədə sevindirdi. Həmin sərəncamın bəhrələrini biz rayonumuzda,

bax, elə bu kəndimizdə görürük. Bizim Alar kəndi gecələr Bakını xatırladır.

Cənab Prezident, bütün bunlara görə Sizə minnətdarıq. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Təşəkkür edirəm.

## Göytəpə şəhərinin mərkəzində Heydər Əliyev adına park-bulvarın açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabad rayonunun Göytəpə şəhərinin mərkəzində, Göytəpə çayının sahilində inşa edilmiş Heydər Əliyev adına park-bulvarın açılışında iştirak etmişdir.*

*Park-bulvarın ərazisində ümummilli lider Heydər Əliyevin bürüncdən abidəsi ucaldılıb.*

*Bu istirahət məkanının ümumi ərazisi 30 min kvadratmetrdir. Burada 2 artezian quyusu qazılıb. Park-bulvarda musiqili fəvvarə, müasir işıq dirəkləri, rahat oturacaqlar quraşdırılıb, 15 min kvadratmetr sahədə yaşıllıq zolağı salınıb. Ərazinin genişləndirilməsi və abadlaşdırılması məqsədilə burada qəza vəziyyətində olan beşmənzilli kommunal yaşayış binası, 69 saylı Cəlilabad–Biləsuvar–Masallı seçki dairəsinin inzibati binası və Göytəpə bələdiyyəsinin yerləşdiyi bina sökülərək, başqa ərazidə əvəzi ödənilməklə, yeni layihə əsasında tikilir. Bərbad vəziyyətdə olan Göytəpə şəhər xəstəxanası da başqa əraziyə köçürülür.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Parkla tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, tikinti işlərinə ötən ilin mayında başlanılıb. Burada sakinlərin istirahətini dolğun və mənalı təşkil etmək məqsədilə bütün zəruri işlər görülüb.*

*Son dövrlərdə Azərbaycan Prezidentinin tapşırığı ilə Bakıda və regionlarda parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeni istirahət guşələri yaradılır. Bütün bunlar sakinlərin və ölkəmizə gələn qonaqların rahatlığı üçün müasir istirahət*

*guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir.*

*Parkın ətrafına 5 min kvadratmetrlik asfalt döşənib, yeni elektrik xətləri çəkilib. Ətrafda bütün evlər və ictimai obyektlər abadlaşdırılıb.*

*Bu cür layihələrin icrası bir daha sübut edir ki, şəhər və rayonlarımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və vaxtında, yüksək keyfiyyətlə yerinə yetirilir.*

## XALQ ARTİSTİ AFAQ BƏŞİRQIZINA

Hörmətli Afaq xanım!

Sizi – müasir Azərbaycan mədəniyyətinin tanınmış nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Ölkəmizdə teatr və kino sənətinin inkişafında Sizin özünəməxsus xidmətləriniz vardır. Siz yaradıcılıq aləminə qədəm qoyduğunuz ilk vaxtlardan tanınıb sevilərək, təkrarolunmaz ifa üslubuna malik sənətkar kimi, tamaşaçıların hüsn-rəğbətini qazanmısınız. 40 ildən artıq dövrü əhatə edən sənət fəaliyyətiniz ərzində ustalıqla yaratdığınız dolğun və rəngarəng surətlər həmişə öz incə yumoru və yüksək dramatizmi ilə seçilərək, qəlblərə yol tapmışdır.

Milli teatrımızın zəngin ənənələrinə sadiq qalaraq uzunmüddətli səhnə həyatı verdiyiniz çoxsaylı rollarda ən maraqlı, komik məqamları məharətlə üzə çıxarmış və gülüşün böyük tərbiyəvi əhəmiyyət daşıdığını bir daha sübuta yetirmisiniz. Bədii filmlərdə canlandırdığınız obrazlar məhz istedadınızın gücü sayəsində Azərbaycan kinosunun yaddaşlara həkk olunmuş unudulmaz səhifələrindəndir.

Ölkəmizdə və onun hüdudlarından uzaqlarda qastrol səfərlərindəki çıxışlarınızla Siz Azərbaycan mədəniyyətini layiqincə təmsil etmisiniz. İnanıram ki, yaradıcılığınızdan hələ neçə-neçə sənətkar bəhrələnəcək və mədəniyyətimizin daha da çiçəklənməsi naminə töhfələr verəcəkdir.

Bu yubiley gününüzdə Sizə cansağlığı, xoşbəxtlik və yeni-yeni yaradıcılıq sevincləri arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 avqust 2015-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB SI CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Tyantszin şəhərində baş vermiş güclü partlayışlar nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2015-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İndoneziya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İndoneziya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2015-ci il*

**QABON RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALİ BONQO ONDİMBAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2015-ci il*

## BAKININ PİŞƏVƏRİ, CAVADXAN, HÜSEYN SEYİDZADƏ KÜÇƏLƏRİNDƏ APARILAN ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*14 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Bakının Nəsimi rayonunun ərazisindəki Pişəvəri, Cavadxan, Hüseyn Seyidzadə küçələrində həyata keçirilən abadlıq və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Pişəvəri, Cavadxan, Hüseyn Seyidzadə küçələrində ümumilikdə 300 min kvadratmetrə yaxın sahəyə asfalt döşənib, yol işarələri ikikomponentli yüksəkkeyfiyyətli boyalarla rənglənib. Pişəvəri küçəsi iki istiqamətli və dördzolaqlı olmaqla, genişləndirilərək, əsaslı şəkildə yenidən qurulub. Küçəboyu səkilər tamamilə yenilənib, ən müasir işıqlandırma sistemi quraşdırılıb, yeni yaşıllıq zolaqları salınıb. Heydər məscidinə gedən küçələrin hamısında abadlıq və yenidənqurma işləri həyata keçirilib.*

*Görülən işlərlə tanışlıqdan sonra prezident İlham Əliyev Pişəvəri küçəsinin yenidənqurmadan sonra açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı Cavadxan və Hüseyn Seyidzadə küçələrində və bu küçələrin kəsişdiyi ərazilərdə aparılan abadlıq-quruculuq işlərindən sonrakı vəziyyətlə tanış oldu.*

*Bu küçələrə də yeni asfalt örtüyü döşənib, səkilər və buradakı yol ötürücüsü yenidən qurulub, ətraf abadlaşdırılıb, yeni yaşıllıq zolaqları salınıb, müxtəlif ağac və gül kolları əkilib. Əsaslı şəkildə yenidən qurulmuş bu küçələrin hamısında yeraltı*

*kommunikasiyalar və su xətləri dəyişdirilib, yeni işıqlandırma sistemi qurulub.*

*Bütün bunlar göstərir ki, ölkədə yol-nəqliyyat kompleksinin yenidən qurulması, yeni yolların salınması, mövcud olanların isə əsaslı şəkildə təmir olunması ilə bağlı layihələr uğurla davam etdirilir. Hazırda ölkədə beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, yerli əhəmiyyətli, xüsusən də paytaxtdaxili yolların müasir səviyyədə qurulmasına xüsusi diqqət yetirilir. Bu da təbii ki, Bakıda aparılan genişmiqyaslı abadlıq işlərinin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən bu sahədə görülən işlər həm də Bakının şəhər yollarında avtomobillərin rahat hərəkətinin təmin olunmasına və tıxac probleminin aradan qaldırılmasına yönəlib.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstan İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq ənənələrinin qorunub saxlanması və daha da möhkəmlənməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Əfqanıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 avqust 2015-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 avqust 2015-ci il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PETRO POROŞENKOYA**

Hörmətli cənab Prezident!

Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Ukraynanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, xalqlarımızın iradəsinə uyğun olaraq dövlətlərarası münasibətlərimiz bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Ukrayna xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 avqust 2015-ci il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NİKOLAE TİMOFTİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq münasibətlərinin möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Moldova xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2015-ci il*

**MALAYZİYANIN XIV ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏHRUM SULTAN BADLİŞAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Malayziya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malayziya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2015-ci il*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və bütün qırğız xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, bizim birgə səylərimiz bundan sonra da Azərbaycan ilə Qırğızıstan arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə və möhkəmlənməsinə yönələcəkdir.

Hörmətli Almazbek Şarşenoviç, Sizə möhkəm cansağlığı və uğurlar, qardaş qırğız xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2015-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Sizi və qardaş Özbəkistan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sevindirici haldır ki, qardaş Özbəkistan müstəqillik illəri ərzində Sizin rəhbərliyinizlə bütün sahələrdə sanballı uğurlar qazanıb. Bu gün Özbəkistan dinamik sosial-iqtisadi inkişaf və hərtərəfli düşünülmüş siyasi fəaliyyət yolu ilə firavanlaşan bir ölkə kimi, beynəlxalq aləmdə layiqli nüfuz və hörmət qazanıb.

Azərbaycan ilə Özbəkistanı tarixən bir-biri ilə müştərək mədəniyyətlər və mənəvi dəyərlər bağlayır. Xalqlarımızın zəngin dostluq və qarşılıqlı dəstək ənənələri var. Əminəm ki, bu mehriban münasibətlərin, sıx əməkdaşlığın və tərəfdaşlığın inkişaf etdirilməsi və möhkəmlənməsi bundan sonra da ölkələrimizin firavanlaşmasına kömək edəcək.

Hörmətli İslam Abduqəniyeviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Özbəkistan xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 avqust 2015-ci il*

## VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇİONQ TAN ŞANQA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Vyetnam arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin bu gün də müvəffəqiyyətlə davam etməsi məmnunluq doğurur. İnanıram ki, qarşılıqlı səylərimiz, mütəmadi siyasi təmaslarımız əlaqələrimizin daim genişlənməsinə və ikitərəfli münasibətlərimizin inkişafına bundan sonra da mühüm töhfə verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 avqust 2015-ci il*

## LATVİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YURİS MAKLAKOVS İLƏ GÖRÜŞ

*31 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Yuris Maklakovsun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Yuris Maklakovs Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Yuris Maklakovs etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirərək, müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev əməkdaşlığımızın daha da genişləndirilməsi üçün təkcə ənənəvi deyil, eyni zamanda, yeni sahələrin müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı Yuris Maklakovsun ölkəmizdəki səfirlik fəaliyyəti dövründə Azərbaycanın müvafiq nazirlik və qurumları ilə səmərəli əməkdaşlıq həyata keçirərək, münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Yuris Maklakovs ilk növbədə, Latviya prezidenti Raymonds Veyonisin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Səfir prezident İlham Əliyevin Latviyaya səfərinin ölkəsində məmnunluqla xatırlandığını vurğuladı. İqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin qarşıya qoyulan prioritet vəzifələrdən biri olduğunu deyən Yuris Maklakovs səfir kimi fəaliyyəti döv-*

*ründə ikitərəfli münasibətlərin* daha da *genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini* bildirdi.

*Görüşdə ölkələrimiz arasında* iqtisadi, *sərmayə* qoyuluşu, *ticarət, mədəniyyət və* digər *sahələrdə əməkdaşlığın* perspektivləri *ətrafında* fikir *mübadiləsi* aparıldı.

*Dövlətimizin başçısı* prezident Raymonds Veyonisin salamlarına *görə minnətdarlığını* bildirdi, onun da *salamlarını* Latviya *dövlətinin başçısına çatdırmağı* xahiş etdi.

## İSRAİL DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DAN STAV İLƏ GÖRÜŞ

*31 avqust 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də İsrail Dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Dan Stavın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Dan Stav Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dan Stav etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Dan Stav Azərbaycanın sabitlik məkanı olmasının, xalqların sülh və əmin-amanlıq şəraitində birgə yaşamalarının önəmini qeyd etdi. Diplomat Azərbaycanda olduğu qısa vaxt ərzində bunun şahidi olmasından məmnunluğunu ifadə etdi. Səfir Azərbaycanda mövcud olan tolerantlığın ölkəsində yüksək dəyərləndirildiyini də vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanda dini tolerantlığın, multikulturalizmin hökm sürdüyünü vurğulayaraq ölkəmizdə yaşayan müxtəlif xalqların, o cümlədən yəhudi xalqının bu tolerantlığın, multikulturalizmin yaratdığı dəyərlərdən bəhrələndiyini dedi. Dövlətimizin başçısı yəhudi icmasının Azərbaycanın iqtisadi və mədəni həyatında da fəal iştirak etdiyini qeyd etdi.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə edildi, iqtisadi, enerji, yüksək texnologiyalar, kənd təsərrüfatı, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## XALQ ŞAİRİ FİKRƏT QOCAYA

Hörmətli Fikrət Qoca!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı və uğurlar arzulayıram.

Siz xalqımızın söz sənəti xəzinəsinə ötən əsrin 60-cı illərindən etibarən ənənə və novatorluğun qovuşuğunda özünüzə xas ifadə tərzi ilə dəyərli töhfələr bəxş etmiş şəxsiyyətlərdənsiniz. Mənəvi ucalığa çağırışla, lirik-fəlsəfi düşüncələrlə zənginliyi əsərlərinizi geniş oxucu kütləsinə daha çox sevdirmişdir.

Azadlıq və istiqlal ideyalarını tərənnüm edən şeir və poemalarınızın gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində böyük əhəmiyyəti vardır. Ədəbi fikir xəzinəmizdən, milli folklordan bəhrələnən yaradıcılığınız bütövlükdə ana dilimizə sevgi və ehtiramın parlaq təzahürüdür. Sözlərinizə musiqisevərlər tərəfindən həmişə rəğbətlə qarşılanmış çox sayda mahnının bəstələnməsi Sizin bədii sözün hüdudsuz imkanlarından daim ustalıqla faydalandığınızı göstərir.

Müasir ədəbi-mədəni proseslərin azərbaycançılıq məfkurəsinə uyğun istiqamətləndirilməsi işində çoxillik fəaliyyətiniz təqdirəlayiqdir. Ümidvaram ki, vətəndaşlıq qayəsi ilə yoğrulan əsərləriniz hələ neçə illər bundan sonra da xalqımıza xidmət göstərəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2015-ci il*

## SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ CƏNAB ANDREA BELLUZZİYƏ VƏ CƏNAB ROBERTO VENTURİNİYƏ

Zati-aliləri!

San-Marinonun milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2015-ci il*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*1 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəsinin dövlət bayramı – Rusiya Günündə I Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün Azərbaycana səfər etməsinə ölkəmizdə böyük önəm verildiyini dedi və bu səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif sahələri ilə bağlı məsələlərin operativ və səmərəli şəkildə həll olunduğunu vurğulayaraq, bu baxımdan müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Azərbaycan ilə Rusiyanın beynəlxalq qurumlar çərçivəsində də fəal və uğurlu qarşılıqlı fəaliyyət göstərdiklərini bildirən dövlətimizin başçısı İlham Əliyev dünyada və regionda hadisələrin sürətlə inkişaf etdiyi bir dövrdə ölkələrimizin həyata keçirdikləri mütəmadi məsləhətləşmələrin önəmli olduğunu qeyd etdi.*

**İ l h a m Ə l i y e v**: Bunlar ölkələrimiz arasında bütün sahələri, o cümlədən siyasi, iqtisadi, energetika, humanitar sahələrdə əməkdaşlığı əhatə edən strateji tərəfdaşlıq münasibətlərinin ən bariz nümunəsidir. Biz ikitərəfli münasibətlərimizi bundan sonra da səmərəli və uğurla inkişaf etdirmək niyyətindəyik.

*Prezident İlham Əliyev bugünkü görüş zamanı da məhsuldar və konstruktiv müzakirələrin aparılacağına əmin olduğunu bildirdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Rusiyanın Xarici İşlər naziri prezident Vladimir Putinin ən səmimi salamlarını dövlətimizin başçısına çatdırdı.*

**S e r g e y  L a v r o v:** Rusiya Federasiyasının Prezidenti yüksək səviyyədə təşkil olunan və keçirilən ilk Avropa oyunlarının açılışı mərasimində iştirakını və səfəri çərçivəsində Sizinlə görüşünü məmnunluqla xatırlayır. Azərbaycan və Rusiya Cənubi Qafqazda, Xəzər dənizi hövzəsində strateji tərəfdaş ölkələrdir və ümumilikdə, demək olar ki, beynəlxalq münasibətlərin bütün vacib və mürəkkəb məsələlərinin həlli ilə bağlı çox yaxın mövqelərə malikdirlər.

*İki ölkənin Xarici İşlər nazirlikləri arasında BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərimizin qarşılıqlı fəaliyyət məsələlərinin müzakirəsinin əhəmiyyətinə toxunan Sergey Lavrov uğurla inkişaf edən parlamentlərarası əməkdaşlığımızın da Rusiya tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. Əlaqələrimizin müxtəlif sahələrinə toxunan Rusiyanın Xarici İşlər naziri dedi:*

– Bu ilin avqustunda Xəzər donanmasının 3 hərbi gəmisinin Azərbaycana səfərinin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığımızı bildirirəm. Ümidvarıq ki, azərbaycanlı dostlarımız bu ilin sentyabrında Sverdlovsk vilayətində keçiriləcək hərbi-texniki məhsulların sərgisində iştirak edəcəklər.

*Humanitar, o cümlədən təhsil, mədəniyyət sahələrində də əlaqələrimizin uğurla inkişaf etdiyini vurğulayan Sergey Lavrov qeyd etdi ki, bu sahələrdə əməkdaşlıq xalqlarımız arasında olan yaxın münasibətləri daha da gücləndirir. Bu gün Bakıya səfərindən qabaq prezident İlham Əliyevin və özünün təhsil aldıqları Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda «Bilik Günü» ilə bağlı çıxış etdiyini bildirən Rusiyanın Xarici İşlər naziri institutun rektorunun prezident İlham Əliyevin bu təhsil ocağının məzunlarının ilk görüşünü Azərbaycanda keçirmək təşəbbüsünü bir daha məmnunluqla vurğuladığını dedi.*

*İqtisadi sahədə əməkdaşlıq məsələləri ilə bağlı Rusiyanın Xarici İşlər naziri qeyd etdi ki, beynəlxalq konyunkturaya baxmayaraq, bu əlaqələr yüksələn xətlə inkişaf edir və bu baxımdan o, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin önəmini vurğuladı. Sergey Lavrov Rusiya Federasiyasına göndərilən Azərbaycan kənd təsərrüfatı məhsullarının həcminin artmasını məmnunluqla qeyd edərək, Azərbaycan tərəfindən qəbul olunmuş qərarların Rusiyanın nəqliyyat şirkətlərinin beynəlxalq daşımalarının sayının artmasına da xidmət etdiyini dedi və bunu yüksək qiymətləndirdi. Bugünkü görüşün ikitərəfli münasibətlərin, regionda vəziyyətin, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi baxımından yaxşı imkan yaratdığını bildirən Sergey Lavrov bu münaqişənin həllində müəyyən irəliləyişlərin əldə ediləcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Rusiya prezidenti Vladimir Putinin səmimi salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ BAŞ DİREKTORU UİLYAM LEYSİ SİNQ İLƏ GÖRÜŞ

*2 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Sinqi qəbul etmişdir.*

*Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Uilyam Leysi Sinq Azərbaycan Respublikasının Prezidenti ilə görüşdən şərəf hissi duyduğunu qeyd etdi.*

**Uilyam Leysi Sinq:** Mən Sizin rəhbərliyinizlə ölkənizdə, sözün həqiqi mənasında, həyata keçirilən uğurlu işlərdən heyranlığımı ifadə edirəm və Sizə təbriklərimi çatdırıram. Azərbaycanda miqrasiya xidməti işləri çox yüksək səviyyədə aparılır və sözsüz ki, cənab Prezident, Sizin dəstəyiniz olmadan bu sahədə uğurlar əldə etmək mümkün olmazdı. Fikrimcə, miqrasiya sahəsində ölkənizdə həyata keçirilən işlər, ümumilikdə miqrasiya idarəetməsi üçün çox yaxşı nümunə ola bilər.

*Azərbaycan Miqrasiya Xidməti ilə hazırda bir sıra təşəbbüslərin müzakirə edildiyini bildirən qonaq rəhbərlik etdiyi təşkilatın bu təşəbbüslərin həyata keçirilməsi işinə kömək göstərməsi məsələlərinə baxıldığını da bildirdi. Azərbaycanın digər sahələrdə əldə etdiyi uğurlara toxunan direktor dedi:*

– Mən eyni zamanda, ölkənizin sosial-iqtisadi sahədə əldə etdiyi inkişaf ilə bağlı təbriklərimi çatdırıram. Mən televiziya vasitəsilə I Avropa oyunlarının keçirilməsini maraqla izlədim. Səfərim zamanı gördüyüm yeni tikilmiş stadion və idmançılar üçün inşa edilən binalar məni valeh etdi.

*Xoş sözlərə görə minnətdarlığını bildirən prezident İlham Əliyev Azərbaycanın artıq mötəbər beynəlxalq tədbirlərin, o*

*cümlədən idman oyunlarının keçirildiyi bir məkana çevrildiyini bildirərək, I Avropa oyunlarına hazırlıq işlərinin qısa vaxt ərzində həyata keçirildiyini vurğuladı və ölkəmizdə artıq «Formula-1» və İslam Həmrəyliyi oyunları kimi böyük idman yarışlarına hazırlıq işlərinin getdiyini qeyd etdi. Dövlətimizin başçısı bu cür tədbirlərin ölkəmizin beynəlxalq aləmdə daha yaxından tanınması üçün gözəl imkanlar yaratdığını bildirdi və Azərbaycanda turizmin inkişafının böyük potensiala malik olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev qeyd etdi ki, bir neçə il bundan əvvəl Azərbaycanda müstəqil struktur kimi, Miqrasiya Xidməti yaradılan vaxt dünyada miqrasiya məsələləri bugünkü qədər aktual deyildi, lakin biz gələcək inkişaf proseslərini qabaqcadan proqnozlaşdıraraq miqrasiya ilə bağlı idarəetmə, tənzimləmə prinsiplərini özündə əks etdirən effektiv qurum yaratdıq ki, Azərbaycanda olan miqrantlar özlərini rahat şəraitdə hiss etsinlər və eyni zamanda, bu məsələlər daxili prosedurlara uyğun şəkildə nizamlansın. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanda demoqrafik şəraitin müsbət istiqamətdə inkişaf etməsi və ölkəmizin böyük işçi qüvvəsinə malik olması nəzərə alınmaqla, miqrasiya ilə bağlı məsələlər dövlətin daim diqqət mərkəzindədir.*

*Görüşdə Beynəlxalq Miqrasiya Təşkilatı ilə Azərbaycan Dövlət Miqrasiya Xidməti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## SƏBAİL RAYONUNDAKI 189–190 SAYLI TAM ORTA MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*3 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Bakının Səbail rayonundakı 189–190 saylı tam orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, 190 saylı tam orta məktəb 1946-cı ildə fəaliyyətə başlayıb. Məktəb üçün bina 1957-ci ildə inşa olunub. O vaxta qədər isə təhsil ocağı Bülbül adına Musiqi məktəbinin binasında fəaliyyət göstərib. Artıq 2 ildir ki, bu təhsil ocağı 189 saylı məktəblə birləşib.*

*Qeyd olundu ki, 189 saylı məktəbin binası 1934-cü ildə inşa edilib. Bina 1941–1945-ci illərdə 15/46 saylı təxliyyə hospitalı kimi fəaliyyət göstərib. Məktəbin binasında yenidənqurma işlərinə bu ilin aprelində başlanılıb və yüksək səviyyədə həyata keçirilib.*

*Məktəbin foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və prezident İlham Əliyevin paytaxtın Səbail rayonundakı məktəblərin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Burada, həmçinin Heydər Əliyev Muzeyi də fəaliyyət göstərəcək.*

*Dövlətimizin başçısı 189–190 saylı tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə yaxından tanış oldu.*

*5 mərtəbədən ibarət məktəbdə 42 sinif otağı var. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürət-*

*ləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına əsasən, bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxtda və ətraf qəsəbələrdə, eləcə də respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yeni yaşıllıq zolaqları salınır.*

*Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür. 189–190 saylı tam orta məktəbdə bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri bilikləri laboratoriyalarda tətbiq etmələri üçün də zəruri avadanlıqlar quraşdırılıb.*

*Təhsil ocağının idman zalı da müasirliyi ilə diqqəti cəlb edir. Məktəbin istilik və işıqlandırma sistemləri müasir tələblər səviyyəsində yenidən qurulub.*

*Bildirildi ki, orta məktəbdə 1500 şagird təhsil alır.*

*Prezident İlham Əliyev məktəbin sinif otaqlarını gəzdi, yaradılan şəraitlə tanış oldu.*

## YASAMAL RAYONUNDAKI FİZİKA, RİYAZİYYAT VƏ İNFORMATİKA TƏMAYÜLLÜ LİSEYİN BİNASINDA GÖRÜLƏN ƏSASLI YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*3 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də paytaxtın Yasamal rayonundakı Fizika, Riyaziyyat və İnformatika Təmayüllü liseyin binasında təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, istedadlı uşaqların seçilməsi üçün keçmiş Sovet İttifaqında SSRİ Maarif Nazirliyinin qərarı ilə Azərbaycanda internat-məktəbləri təşkil edilmişdir. Onların yaradılmasında respublikamızın ayrı-ayrı rayonlarından istedadlı uşaqları müsabiqə yolu ilə qəbul etmək, dövlət hesabına yataqxana və yeməkxana ilə təmin etmək, əsas fənlərdən dərinləşdirilmiş proqramla dərslər keçmək başlıca məqsəd kimi qarşıya qoyulub.*

*Bildirildi ki, bu məktəb üçün 1963-cü ildə bina inşa olunub. 1964-cü ildə 1 saylı internat-məktəbin bazasında 1 saylı Fizika-Riyaziyyat və Kimya-Biologiya Təmayüllü internat-məktəb yaradılıb. 1969-cu ildə kimya-biologiya bu bazadan ayrılıb. Bu bazada isə 1 saylı fizika-riyaziyyat təmayüllü internat-məktəb fəaliyyətini davam etdirib. 1991-ci ildə Nazirlər Kabinetinin qərarı ilə məktəbin adı dəyişdirilib, Respublika Fizika, Riyaziyyat və İnformatika Təmayüllü lisey adlandırılıb. Hazırda lisey bu adla fəaliyyət göstərir.*

*Diqqətə çatdırıldı ki, təhsil ocağının binasında təmir və yenidənqurma işlərinə bu ilin mayında başlanılıb. Liseyin əsas binasında, yataqxana və yeməkxanasında yüksək standartlar*

*tətbiq olunub. Bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir. Bu siyasətin nəticəsi olaraq son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bölgələri də əhatə edib. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib.*

*Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlığı ilə diqqət çəkən bu təhsil ocaqlarından biri Fizika, Riyaziyyat və İnformatika Təmayüllü liseydir. Hazırda liseydə respublikanın bütün bölgələrindən 600 şagird təhsil alır. Onlardan 300 nəfəri dövlət hesabına yataqxanada qalır. Təhsil ocağına qəbul 7-ci, 8-ci və 9-cu siniflərdən aparılır. Bu təhsil ocağı fəaliyyət göstərdiyi müddətdə uğurlu nəticələr əldə edib. Təhsil ocağının məzunları arasında 300-dən çox elmlər namizədi, 30-a yaxın elmlər doktoru var.*

*Prezident İlham Əliyev liseydə ayrı-ayrı sinif otaqlarını gəzdi, burada yaradılan şəraitlə yaxından tanış oldu. Yeni dərs ili ərəfəsində Liseyin bütün sinif otaqları, fənn kabinetləri əsaslı şəkildə təmir edilib, lazımi avadanlıq və ləvazimatlarla təchiz olunub. Burada ən müasir havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. Təhsil ocağının həyatində abadlıq və quruculuq işləri görülüb.*

## MALAYZİYA RESPUBLİKASININ «PETRONAS» ŞİRKƏTİNİN RƏHBƏRİ DATUK VAN ZULKİFLİ VAN ARİFFİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Malayziya Respublikasının «Petronas» şirkətinin prezidenti və şirkətlər qrupunun rəhbəri Datuk Van Zulkifli Van Ariffinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*«Petronas» şirkətinin ölkəmizin enerji sektorunda iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Petronas» şirkəti arasında sıx əməkdaşlığın Azərbaycan–Malayziya ikitərəfli əlaqələrinin gücləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi. Hazırda ölkələrimiz arasında ikitərəfli münasibətlərin fəal mərhələdə olduğunu vurğulayan prezident İlham Əliyev əlaqələrimizin müxtəlif sahələrində, xüsusilə neft və qaz sektorunda əməkdaşlıq üçün böyük potensialın və yaxşı perspektivli təşəbbüslərin mövcud olduğunu diqqətə çatdırdı. «Petronas» şirkətinin Xəzər dənizinin Azərbaycan sektorundakı fəaliyyətinə toxunan dövlətimizin başçısı əməkdaşlığımızın yeni formatının müəyyən edilməsi ilə bağlı aparılan müzakirələrin önəmini qeyd edərək, bu müzakirələrin yeni imkanlar açacağını dedi və bunun üçün səyləri artırmağın zəruriliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Petronas» şirkətinin birgə fəaliyyətinin biznes sahəsində əməkdaşlıq üçün daha yaxşı imkanlar açacağını vurğuladı. Azərbaycan ilə Malayziya arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı bu münasibətlərin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Petronas» şirkəti arasında əməkdaşlığın inkişafında da əhə-*

*miyyətli rol oynadığını bildirdi. Dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı müəyyənləşdirilmiş məqsədlərə nail olmaq üçün fəal əməkdaşlığın zəruri olduğunu qeyd etdi.*

*Rəhbərlik etdiyi şirkətin Azərbaycan ilə bundan sonra da əməkdaşlığa sadiq olduğunu bildirən Datuk Van Zulkifli Van Ariffin ölkəmizdəki investisiya mühitinin çox yaxşı olmasından məmnunluğunu ifadə etdi. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə əməkdaşlığın bütün sahələrdə «Petronas» şirkəti üçün böyük önəm daşıdığını vurğulayan qonaq «Petronas» şirkətinin ölkəmizdə fəaliyyətini daha da genişləndirmək niyyətində olduğunu bildirdi. «Şahdəniz» yatağının işlənməsində əməkdaşlığa toxunan Datuk Van Zulkifli Van Ariffin «Petronas» şirkətinin bu layihənin həyata keçirilməsi işində bundan sonra da fəal iştirak edəcəyini dedi.*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Makedoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Makedoniya əlaqələrinin, dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişlənməsi və möhkəmlənməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 sentyabr 2015-ci il*

## XIZI VƏ SİYƏZƏN RAYONLARINA SƏFƏR

*4 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq yeni inşa olunan Taxtakörpü–Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak etmək üçün Xızı rayonuna gəlmişdir.*

*Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ildə «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi çərçivəsində mühüm əhəmiyyət kəsb edən su-elektrik stansiyası ilə birlikdə ümumi su tutumu 268 milyon kubmetr olan Taxtakörpü su anbarının, Taxtakörpü–Ceyranbatan və Vəlvələçay–Taxtakörpü kanallarının tikintisi müvəffəqiyyətlə başa çatdırılıb. 2014-cü il fevralın 5-də regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunan konfransda prezident İlham Əliyev Taxtakörpü su anbarının istifadəyə verilməsi ilə əlaqədar layihə zonasında yerləşən rayonlarda yeni suvarılan torpaqların müəyyən edilməsi üzrə tapşırıq verib. Həmin tapşırığın icrası ilə əlaqədar «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin (ASC) sifarişi ilə Türkiyənin «Təməlsu» məsləhətçi şirkətinin hazırladığı, «Evrascon» ASC və «Körpü–Bina–Tikinti» MMC tərəfindən icra olunan layihələrə əsasən «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi zonasında yerləşən Şabran rayonunda 14 min 38 hektar, Siyəzən rayonunda 6 min 972 hektar, Xızı rayonunda isə 9 min 609 hektar olmaqla, cəmi 30 min 619 hektar yeni suvarılan torpaq sahələri müəyyən edilib. «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi zonasında yerləşən yeni suvarılan torpaqlarda aparılacaq meliorativ tədbirlər Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilir.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına layihə haqqında ətraflı məlumat verdi. Bildirdi ki, «Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi» layihəsinə daxil olan Xızı rayonu üzrə hazırlanan layihədə cəmi 12 min 579 hektar sahənin 9 min 609 hektarında meliorativ tədbirlər aparılmaqla, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 2 min 970 hektarında mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur.*

*Azərbaycan prezidenti İlham Əliyev Taxtakörpü–Ceyranbatan kanalından Xızı rayonunda yeni suvarılan torpaqlara suyun verilməsi qurğusunu işə saldı. Dövlətimizin başçısına «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsinə daxil olan «Şabran, Siyəzən və Xızı rayonlarında mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi» layihəsi barədə ətraflı məlumat verildi. Diqqətə çatdırıldı ki, Xızı rayonu üzrə yeni suvarılacaq torpaq sahələrinə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlar daxildir. Su yeni inşa olunan Taxtakörpü–Ceyranbatan və Samur–Abşeron kanallarından götürüləcək. Layihədə ümumi uzunluğu 269,7 kilometr, o cümlədən 200,3 kilometr qapalı və 69,4 kilometr açıq suvarma şəbəkələrinin tikintisi nəzərdə tutulur. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə 1150 hektar sahədə kollektor-drenaj şəbəkəsi layihələndirilib. Layihə 2014-cü ildə Fövqəladə Hallar Nazirliyi tərəfindən dövlət ekspertizasının rəyi ilə təsdiq edilib. Qeyd edək ki, prezident İlham Əliyev 2014-cü ilin iyul ayının 22-də Xızı rayonuna səfəri zamanı yeni inşa olunan Taxtakörpü–Ceyranbatan kanalından rayonun yeni suvarılan torpaq sahələrinə suyun verilməsi və mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimində iştirak edib və bu işlərin vacibliyini nəzərə alaraq, onların sürətləndirilməsi üçün müvafiq tapşırıqlarını verib. «Meliorasiya və Su Təsərrüfatı»*

*Açıq Səhmdar Cəmiyyəti tərəfindən bu tapşırıqların vaxtında icrasının təmin edilməsi üçün Dövlət Neft Fondunun vəsaiti hesabına 2014-cü ildən 3 min 396 hektar torpaq sahəsində kompleks meliorativ tədbirlərin həyata keçirilməsinə başlanılıb və işlər bu ilin avqust ayında tamamlanıb. Yeni istifadəyə veriləcək 3 min 84 hektar torpaq sahəsinin 514 hektarı dövlət, 1715 hektarı bələdiyyə və 855 hektarı xüsusi mülkiyyətdədir. Bu torpaqların 170 hektarında ən son texnologiyalara əsaslanan yağış üsulu ilə suvarma sistemi quraşdırılıb. Bu sistem respublikada təbii təzyiq hesabına çiləmə aparan yeganə sistemdir. Bildirildi ki, Xızı rayonunda bu ilin sonunadək əlavə olaraq 3 min 715 hektar, o cümlədən 2 min 315 hektar yeni suvarılan torpaqların istifadəyə verilməsi və 1400 hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə meliorativ tədbirlərin başa çatdırılması nəzərdə tutulur. Bununla da 2015-ci ildə Xızı rayonu üzrə 7 min 111 hektar, o cümlədən 5 min 399 hektar yeni suvarılan torpaqların istifadəyə verilməsi və 1712 hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması təmin ediləcək. 2016-cı ildə isə layihənin başa çatdırılması üçün Xızı rayonunda 5 min 468 hektar ərazinin su təminatının yaxşılaşdırılması işləri həyata keçiriləcək. Yeni suvarılacaq torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün 1150 hektarda kollektor-drenaj şəbəkəsinin tikintisi nəzərdə tutulub.*

*Prezident İlham Əliyev yaradılmış imkanlardan səmərəli istifadə edilməsi, növbəti layihələrin vaxtında və uğurla icra olunması ilə bağlı müvafiq nazirliklərin və qurumların rəhbərlərinə tapşırıq və tövsiyələrini verdi.*

**İ l h a m Ə l i y e v:** Burada bir neçə böyük təsərrüfat yaradılmalıdır. Çünki biz bu sahəni gərək tam şəkildə işə salaq. Buna nail olmaq üçün, əlbəttə, böyük investisiyalar lazımdır. Artıq bütün bu sahə həm kreditləşdirmə yolu ilə, həm də sahibkarların öz vəsaiti hesabına gərək məhsul versin.

**H e y d ə r Ə s ə d o v** *(Kənd Təsərrüfatı naziri):* Cənab Prezident, ayırdığınız vəsait təsərrüfatları yeni cins inəklərlə də

təmin etməyə imkan verir. Fermerləri 5 min başadək inəklə təmin edə bilərik.

**İ l h a m Ə l i y e v :** Yerlər dəqiq seçilməlidir. Hansı sahədə hansı işlər görüləcək və bu işlərin əlaqələndirilməsi aparılmalıdır.

**H e y d ə r Ə s ə d o v:** Bir də drenaj işləri görülməlidir.

**Ə h m ə d Ə h m ə d z a d ə** *(«Meliorasiya və Su Təsərrüfatı» ASC-nin sədri):* Kənd Təsərrüfatı, İqtisadiyyat və Sənaye nazirlikləri ilə birlikdə bu torpaqların hamısı analiz olunub, baxılıb ki, haradan necə istifadə etmək olar.

**Ş a h i n M u s t a f a y e v** *(İqtisadiyyat və Sənaye naziri):* Bütün ərazi üzrə ümumi layihə hazırlanıb. Heydər Əsədovun dediyi kimi, torpaqların münbitliyindən asılı olaraq, harada nə əkmək məsləhətdir – bağçılıq, taxılçılıq və sair sahələr üzrə xüsusi layihələr hazırlanır. Bu layihələr sahibkarlara təqdim olunacaq. Burada deyildiyi kimi, taxılçılıq, heyvandarlıq, bağçılıq, istixanaların yaradılması üçün də şərait var. Çünki tapşırığınıza əsasən burada tam infrastruktur yaradılıb, qaz, su, həmçinin yararlı torpaqlar da var.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, siz sıx əlaqəli şəkildə işləməlisiniz. Çünki suyun verilməsinin ardıcıllığı da gərək razılaşdırılsın ki, biz bu yeni suvarılan 30 min hektar torpağın hamısından istifadə edək. Beləliklə bu, kənd təsərrüfatının inkişafına böyük təkan verəcək. Xüsusilə bu il «Kənd təsərrüfatı ili»dir. Bir neçə fərman imzalanıb. İl ərzində nəticələr də yaxşıdır. Artım kifayət qədər böyükdür. Bütün bu layihələrin icrası nəticəsində daha da böyük artım olacaq.

**Ş a h i n M u s t a f a y e v:** Cənab Prezident, tapşırdığınız kimi, iri fermer təsərrüfatlarının yaradılması əsas məqsədimizdir. Çalışırıq ki, burada iri layihələr olsun. Bu il iri təsərrüfatların göstəriciləri çox gözəldir – hektardan 60 sentner.

**H e y d ə r Ə s ə d o v:** 20 hektardan artıq sahəsi olan 21 təsərrüfatda hər hektardan 55–60 sentner arasında məhsul yığılır.

**İ l h a m Ə l i y e v:** Ümumi məhsuldarlıq 30 sentnerə qalxıb?

**H e y d ə r  Ə s ə d o v:** Cənab Prezident, 31 sentnerə çatıb. İndi qarğıdalı biçini gedir. Sizin ikinci əkinin aparılması barədə fərmanınıza əsasən bu il artıq 14 min hektara qədər sahədə ikinci əkin aparılıb. Artıq təsərrüfatların yem bazası ilə bağlı problem, demək olar ki, aradan qalxıb.

**İ l h a m  Ə l i y e v:** Bu, böyük müasir bir layihə olmalıdır. Hər şey nəzərdə tutulmalıdır. Məncə bunu etmək çətin olmayacaq. Çünki biz sıfırdan başlayırıq. Bunun əsas mənbəyi Taxtakörpü su anbarıdır. Burada qalan işləri planlı şəkildə etməliyik. Bu xəritədə torpaqların ümumi görüntüləri əks olunub. Növbəti mərhələdə siz xəritəni ya biznes-plan, ya da maket şəklində tərtib edin. Biz torpaqları artıq təsərrüfatlar üzrə bölməliyik, bilək ki, harada hansı təsərrüfat yaradılacaq, onun sahəsi nə qədər olacaq, orada hansı işlər görüləcək. Biznes-planlar, investisiya layihələri hazırlanmalıdır. Əlbəttə, dövlət də kömək edəcək, lakin əsas yük sahibkarların üzərinə düşəcək. Onlar da buna hazırdırlar.

Taxtakörpü su anbarının tikintisi tarixi hadisə idi. Bu layihənin icrasına təxminən 1 milyard manata yaxın vəsait xərclənib. Bu vəsait sahibkarlar üçün xərclənib ki, onlar istifadə etsinlər. Amma dövlət orqanları, əlbəttə, nəzarət etməlidirlər, istiqamət verməlidirlər. Bu layihə çox ciddi nəzarət altında olmalıdır. Gələcəkdə bundan özəl mülkiyyətçilər də istifadə edəcəklər. Amma indi mövcud torpaq sahibləri üçün böyük imkanlar açılır. Elə planlaşdırın ki, görülən işlər gələcəkdə bu zonanın turizm imkanlarına maneçilik törətməsin. Əminəm ki, turizmin inkişafı buralara da gəlib çatacaq. Gələcəkdə yollar salınacaq. İndi Siyəzən rayonunda sahilboyu yol çəkilir. Bu da gələcəkdə bu zonanın inkişafına xidmət göstərəcək.

Biz bütün işləri kompleks şəkildə görməliyik. Siz bütün təklifləri, biznes-planları hazırlayın. Çünki öz təşəbbüsləri ilə bu işləri görmək sahibkarlar üçün bir qədər çətin olacaq. Amma gərək biznes-planda hər şey dəqiq göstərilsin. İnvestisiya qoyuluşu nə qədərdir? Bunun iqtisadi səmərəsi nə olacaq? Ondan sonra, əlbəttə, bütün infrastruktur məsələlərini dövlət öz

üzərinə götürməlidir. Bu layihə çərçivəsində Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artacaq. Gələn ilin də dövlət büdcəsində sahibkarlığın inkişafına dövlət tərəfindən kifayət qədər böyük vəsait nəzərdə tutulmalıdır. Çünki bu həm sahibkarlığın inkişafına xidmət göstərir, həm də iqtisadiyyatın real sektoruna bilavasitə bir dəstəkdir. Bir də bu layihənin üstünlüyü ondan ibarətdir ki, bu ərazi bizim ixrac bazarlarına da çox yaxındır. Bizim əsas ixrac bazarımız Rusiyadır. Bu il ərzində Rusiyaya bizim ixrac etdiyimiz məhsullar artıb. Burada yetişdirilən məhsulları həm daxili, həm də xarici bazarlara çıxarmaq üçün çox gözəl imkanlar olacaq. Dəmir yolu, avtomobil yolu ilə Rusiya sərhədinə 100 kilometrdən bir qədər çoxdur.

Eyni yanaşma qərb zonasında da olmalıdır. Şəmkirçay su anbarı istifadəyə veriləndən sonra orada aqropark tikilir. Orada da bir neçə böyük təsərrüfat yaradılmalıdır. Yəni eyni layihələri o bölgə üçün də hazırlayın. Düzdür, orada bir layihə artıq başlayır – Şəmkir aqroparkı. Ancaq bir çox layihələr də icra edilməlidir.

**Ə h m ə d Ə h m ə d z a d ə:** Orada kanalların tikintisinə başlamışıq.

**İ l h a m Ə l i y e v:** Bilirəm, başlamısınız. Vəsait də nəzərdə tutulub.

**Ə h m ə d Ə h m ə d z a d ə:** Vəsait də verirsiniz, nəzarətdə də saxlayırsınız, gəlib yoxlayırsınız. Daha bundan yaxşı nə ola bilər?

**İ l h a m Ə l i y e v:** Keçən il biz sizinlə burada dayananda mən demişdim ki, mən gələn il gələcəyəm, görsəm ki, burada iş görülməyib, onda siz özünüzdən küsün. Əsas bunlardır. Biz Taxtakörpü su anbarını, Samur–Abşeron kanalını buna görə yaratmışıq. Onlar olmasa, bu işləri görmək mümkün deyil.

**Ə h m ə d Ə h m ə d z a d ə:** Cənab Prezident, ilin axırında bu 2 rayonda yeni suvarılan sahələr 8 min hektara çatacaq.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Bu, görülən işlərin bariz nəticəsidir.

## Yeni suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq Taxtakörpü–Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi çərçivəsində Siyəzən rayonunda yeni suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq Taxtakörpü–Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Taxtakörpü–Ceyranbatan kanalından Siyəzən rayonunda yeni suvarılan torpaqlara suyun verilməsi qurğusunu işə saldı. Məlumat verildi ki, layihə zonasındakı 12 min 137 hektar sahənin 6 min 972 hektarında meliorativ tədbirlər aparılmaqla, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və 5 min 165 hektarda mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəzərdə tutulur. Yeni suvarılan torpaqların 2300 hektarında kollektor-drenaj şəbəkələrinin tikintisi layihələndirilib. Siyəzən rayonundakı 6 min 972 hektar torpaq sahəsi dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardır. Burada da suvarma üçün əsas su mənbəyi yeni inşa olunmuş Taxtakörpü–Ceyranbatan və Samur–Abşeron kanallarıdır. Layihə Fövqəladə Hallar Nazirliyi tərəfindən dövlət ekspertizasının rəyi ilə təsdiq edilib.*

*Bildirildi ki, Dövlət Neft Fondundan ayrılan vəsait hesabına 2015-ci ilin əvvəlindən meliorativ tədbirlərin aparılmasına başlanılan 2 sahədən ibarət olmaqla, cəmi 1466 hektar ərazidə meliorativ tədbirlərin və suvarma şəbəkəsinin tikintisi işləri tamamlanıb. Yeni suvarılacaq torpaqların 24 hektarı dövlət, 1151 hektarı bələdiyyə və 249 hektarı xüsusi mülkiyyətdə olan torpaqlardır. Yeni suvarılacaq 1424 hektar torpaq sahəsinin 866 hektarında torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün kollektor-drenaj şəbəkəsinin tikintisi həyata keçirilib. Bu mərhələdə 42 hektar mövcud suvarılan torpaqların su təminatı yaxşılaşdırılıb. İlin sonunadək rayonun ərazisində əlavə olaraq 1738 hektar torpaq sahəsinin suvarılması təmin edilə-*

*cək ki, ondan 1115 hektarı yeni suvarılan torpaqlardır. Həmçinin 623 hektar mövcud əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq. Yeni suvarılacaq torpaqların 58 hektarında kollektor-drenaj şəbəkəsinin tikintisi nəzərdə tutulub. Cari ildə Siyəzən rayonu üzrə ümumilikdə 3 min 204 hektar torpaq sahəsi istifadəyə veriləcək. Bunun 2 min 539 hektarını yeni suvarılan torpaqlar təşkil edəcək, eyni zamanda, 665 hektar mövcud əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq. 2016-cı ildə isə 8933 hektar suvarılan torpaq sahəsinin istifadəyə verilməsi planlaşdırılır ki, bunun da 4433 hektarı yeni suvarılan əkin sahələri olacaq, həmçinin 4500 hektar mövcud əkin sahələrinin su təminatı yaxşılaşdırılacaq. Bununla da layihənin tam başa çatdırılması, bu torpaqların 1376 hektarında kollektor-drenaj şəbəkəsinin tikintisi nəzərdə tutulub.*

*Dövlətimizin başçısına yağışyağdırma üsulu ilə suvarma sistemi və layihə çərçivəsində Şabran rayonu ərazisində görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, Şabran rayonunda mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi üzrə hazırlanan layihədə 28 min 497 hektar torpaq sahəsinin 14 min 38 hektarında meliorativ tədbirlər aparmaqla, yeni suvarılan torpaqların istifadəyə verilməsi və 14 min 459 hektar mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması nəzərdə tutulur. Yeni suvarılacaq 14 min 38 hektar torpaq sahəsinin 1709 hektarı dövlət, 8089 hektarı bələdiyyə və 4240 hektar torpaq sahəsi xüsusi mülkiyyətə məxsusdur. Hazırda Şabran rayonu üzrə meliorativ tədbirlərin layihə sənədlərinin hazırlanması başa çatmaq ərəfəsindədir.*

*Hər 3 rayonun «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsindən bəhrələnməsi məqsədilə bu rayonlarda meliorativ tədbirləri paralel aparmaqla, tədricən 2-3 il ərzində layihənin tam başa çatdırılması nəticəsində iri kənd təsərrüfatı müəssisələrinin yaradılması, eləcə də fermer təsərrüfatlarının su təminatının yaxşılaşdırılması mümkün olacaq.*

## BELARUS RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GENNADİ AXRAMOVİÇ İLƏ GÖRÜŞ

*4 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Gennadi Axramoviçin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Gennadi Axramoviç Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

Gennadi Axramoviç etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Diplomat Gennadi Axramoviç ölkəmizə gəldiyi ilk gündən xalqımız tərəfindən ona göstərilən qonaqpərvərliyin və səmimi münasibətin onda xoş təəssürat yaratdığını dedi.

Xoş sözlərə görə səfirə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycan xalqının da Belarus xalqına böyük rəğbət bəslədiyini vurğuladı. Ölkələrimiz və xalqlarımız arasında yüksək səviyyəli əlaqələrə toxunan prezident İlham Əliyev dövlət başçıları və ayrı-ayrı qurumların rəhbərləri arasında səmimi münasibətlərin mövcud olduğunu vurğulayaraq, ikitərəfli münasibətlərimizin dostluq və qarşılıqlı yardım prinsipləri əsasında qurulmasından məmnunluğunu ifadə etdi.

Xalqlarımızı bir-birinə yaxınlaşdıran çoxlu sayda dəyərlərin olduğunu qeyd edən prezident İlham Əliyev son illər Azərbaycan ilə Belarus arasında əlaqələrin bütün sahələrdə dinamik şəkildə inkişaf etməsinin önəmini diqqətə çatdırdı. Münasibətlərimizin daha da inkişaf etdirilməsinin əhəmiyyətini bildirən prezident İlham Əliyev bu əlaqələrin möhkəmləndirilməsi baxımından səfirliyin rolunu xüsusi vurğuladı. Dövlətimizin başçısı Gennadi Axramoviçin diplomatik fəaliyyəti dövründə fəal

*çalışacağına, yeni əməkdaşlıq formalarının müəyyənləşdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirərək, ona diplomatik fəaliyyətində uğurlar arzuladı.*

*Fövqəladə və Səlahiyyətli səfir Gennadi Axramoviç Azərbaycan–Belarus ikitərəfli münasibətlərinin fəal şəkildə inkişaf etdirilməsi və əməkdaşlığımızın bütün sahələrdə daha da genişləndirilməsi ilə bağlı ölkələrimiz arasında əsaslı bazanın yaradıldığını vurğuladı. Gennadi Axramoviç Azərbaycana səfir kimi təyinatını qəbul edərkən ölkəsinin prezidenti Aleksandr Lukaşenkodan əlaqələrimizin mövcud baza üzərində əhəmiyyətli və dinamik şəkildə daha da inkişaf etdirilməsi ilə bağlı çox dəqiq göstərişlər aldığını bildirdi. Səfir ikitərəfli münasibətlərimizin bütün sahələrdə inkişaf etdirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Hakkari vilayətinin Dağlıca bölgəsində törədilmiş terror aktı nəticəsində çoxsaylı türk hərbçilərinin şəhid olması və yaralanması xəbəri məni son dərəcə kədərləndirdi.

Türkiyə xalqı əmin ola bilər ki, bu terror hadisələrini törədənlər heç vaxt öz çirkin məqsədlərinə çata bilməyəcəklər.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2015-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Tacikistanın milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan ilə Tacikistanı tarixən yaranmış dostluq və hərtərəfli əməkdaşlıq münasibətləri bağlayır. Əminəm ki, bizim birgə səylərimiz sayəsində Azərbaycan ilə Tacikistan arasında ənənəvi dostluq münasibətləri xalqlarımızın rifahı, ölkələrimizin firavanlığı naminə bundan sonra da möhkəmlənəcək və dinamik inkişaf edəcək.

Hörmətli Emoməli Şərifoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Tacikistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2015-ci il*

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ SAHİL MÜHAFİZƏSİNİN İKİNCİ DƏRƏCƏLİ YENİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞLIQ

*7 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində tikintisi başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi ilə tanış olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi. Dövlətimizin başçısı Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə və onların texniki göstəriciləri ilə bağlı stendə baxdı.*

*Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı sərəncamla təsdiq olunmuş «Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006–2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı»nın uğurlu icrası dəniz sərhədlərimizin mühafizəsinin etibarlı təşkili üçün xüsusilə əhəmiyyətli olub. Bu proqram çərçivəsində Bakı şəhərinin Türkan qəsəbəsində Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin yeni bazası inşa edilib və 2008-ci ildə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iştirakı ilə açılışı olub.*

*Dövlətimizin başçısının 2013-cü ildə imzaladığı sərəncamla təsdiq etdiyi «Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası»na əsasən Dövlət Sərhəd Xidmətinə həvalə edilmiş vəzifələrin icrası, o cümlədən Xəzər dənizində dövlət sərhədlərinin mühafizəsində mümkün təhdidlərin qarşısının alınması üzrə qüvvə və vasitələrin gücləndirilməsi istiqamətində zəruri tədbirlər görülür. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2014-cü ildə Gəmi inşası zavodunun açılışını edib. Bu gün Dövlət Sərhəd Xidməti Azərbaycan Respublikasının dəniz*

*təhlükəsizliyi strategiyasına uyğun olaraq Xəzərdə neft-qaz infrastrukturunun mühafizəsini də yüksək səviyyədə yerinə yetirir.*

*Prezident İlham Əliyevə inşası başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi barədə məlumat verildi. Bildirildi ki, inşası başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı kompleks, gecə-gündüz görmə-müşahidə sistemləri, hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələri yerinə yetirə bilən və itisürətli qayıqla təchiz olunmuş sərhəd gözətçi gəmisinin uzunluğu 62 metrdir. Dənizdə göyərtəsinə helikopterin enməsi də mümkün olan gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı geniş istifadə ediləcək.*

*Müasir tipli radioelektron və naviqasiya cihazları, qəza-xilasetmə və digər avadanlıqlar quraşdırılan sərhəd gözətçi gəmiləri və katerlərinə malik olan Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi hazırda Xəzər dənizində hər cür hava şəraitində dövlət sərhədinin mühafizəsini təmin etmək imkanlarına malikdir. Sahil Mühafizəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması xidməti-döyüş fəaliyyətinin nəticələrinə bilavasitə müsbət təsir göstərir. Şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə, ekstremal şəraitdə peşə vərdişlərinin yüksək səviyyədə olmasına xidmət edən müxtəlif mövzulu döyüş və taktiki təlimlərin keçirilməsi Dövlət Sərhəd Xidmətində artıq ənənə halı alıb. Bu zavodun fəaliyyət göstərdiyi müddətdə itisürətli və yüksək üzmə qabiliyyətli, müasir silahlar, mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı ilə təchiz edilmiş üçüncü dərəcəli 6 sərhəd gözətçi gəmisi inşa edilərək, Dövlət Sərhəd Xidmətinin döyüş sıralarına daxil edilib. Bunun sayəsində Xəzər dənizində Azərbaycan sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində*

uğurlu nəticələr əldə olunub. Dövlətimizin başçısı ikinci dərəcəli gəmidə yaradılan şəraitlə tanış oldu, üçüncü dərəcəli gəmilərin keçidinə baxdı.

Azərbaycanın Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətinin formalaşdırılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində bu xidmət keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Dövlətimizin başçısının 2005-ci ildə imzaladığı fərmanla sərhəd gözətçi gəmilər dəstəsinin əsasında Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin təsis edilməsi nəticəsində Xəzər dənizində dövlət maraqlarımızın yüksək səviyyədə qorunması və dəniz sərhədlərinin etibarlı mühafizəsi üçün daha geniş imkanlar yarandı. Dövlət Sərhəd Xidməti dənizdə sərhəd mühafizəsinin təşkili üzrə beynəlxalq təcrübədən istifadə edərək, Xəzərdə səmərəli sərhəd mühafizə sisteminin formalaşdırılması istiqamətində mühüm işlər görüb. Bu gün Dövlət Sərhəd Xidməti Xəzər dənizində beynəlxalq terrorizmə, qeyri-leqal miqrasiyaya və qaçaqmalçılığa qarşı mübarizə aparılması, döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli layihələr reallaşdırıb. Xidmət əməkdaşlarının mənzil və iş şəraitlərinin ən müasir səviyyədə qurulması, yeni inzibati və yaşayış binalarının inşası isə ümumilikdə Dövlət Sərhəd Xidmətinin fəaliyyətinə çox müsbət təsir edib.

Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin şəxsi heyəti təlim və məşqlər zamanı topladığı bilik və təcrübəni bilavasitə dövlət sərhədinin mühafizəsi zamanı bacarıqla tətbiq edir. Gəmi heyətləri Xəzər dənizində çətin şəraitdə dövlət sərhədinin mühafizəsi üzrə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Beləliklə də Azərbaycan sərhədçiləri Ali Baş Komandan İlham Əliyevin etimadını doğrultmaq üçün dənizdə dövlətimizin maraqlarını qorumağa və sərhədlərimizin toxunulmazlığını şərəflə təmin etməyə daim hazırdır.

Azərbaycan prezidenti İlham Əliyev müəssisədə yaradılan şəraitlə tanış oldu, tövsiyə və tapşırıqlarını verdi.

## DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*7 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul etmişdir.*

Azərbaycan ilə Dünya Gömrük Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini deyən prezident İlham Əliyev ölkəmizdə gömrük sisteminin müasirləşdirilməsi məqsədilə bir çox praktiki addımların atıldığını bildirdi. Gömrük xidmətinin iqtisadiyyat və təhlükəsizlik baxımından önəmini qeyd edən dövlətimizin başçısı Azərbaycanda gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində də geniş islahatların həyata keçirildiyini vurğuladı. Ölkəmizin gömrük xidməti sahəsində təşkil olunan bir sıra tədbirlərə ev sahibliyi etdiyini deyən prezident İlham Əliyev Dünya Gömrük Təşkilatının X illik PICARD «Gömrük sahəsində akademik araşdırmalar və inkişaf üzrə əməkdaşlıq proqramı» konfransının Bakıda keçirilməsinin əhəmiyyətinə toxundu.

Dünyada gömrük daşımalarının həcminin getdikcə artdığını vurğulayan baş katib Kunio Mikuriya bu sahədə peşəkarlığın mütəmadi olaraq yüksəldilməsinin çox vacib olduğunu bildirdi. Hazırda bir çox ölkələrdə beynəlxalq daşımaların idarə edilməsi məsələlərinin aktuallığının olduqca artdığını deyən Kunio Mikuriya təşkilatın Bakıda keçiriləcək X illik PICARD Araşdırmalar Konfransının bu işlərə öz töhfəsini verəcəyinə ümidvar olduğunu qeyd etdi, gömrük xidməti işinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

## BİNƏQƏDİ RAYONUNDAKI 283 SAYLI TAM ORTA MƏKTƏBDƏ APARILAN TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*7 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Bakının Binəqədi rayonundakı 283 saylı tam orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, 283 saylı tam orta məktəbin binası 1988-ci ildə istifadəyə verilib. Ümumi ərazisi 24 min kvadratmetr olan məktəbin binası üçmərtəbəli 1 korpusdan, ikimərtəbəli 2 korpusdan və birmərtəbəli 3 keçiddən ibarətdir. Ümumilikdə əsaslı təmir edilən sahə 6,5 min kvadratmetrdir. Təhsil ocağının binasında yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və prezident İlham Əliyevin paytaxtın Binəqədi rayonundakı məktəblərin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Məktəbin binasında sonuncu dəfə 2006-cı ildə cari təmir işləri aparılıb. «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın müvafiq bəndinin icrası ilə əlaqədar məktəb binasının əsaslı təmir işlərinə 2015-ci il iyunun 1-dən başlanılıb. Burada kommunikasiya, elektrik, su-kanalizasiya, istilik xətləri yenilənib. Binada 62 sinif otağı var.*

*Qeyd olundu ki, məktəbdə tədris birnövbəli rejimdə aparılır. Burada Azərbaycan və rus bölmələrində 1200 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 160 müəllim məşğul olur. 2014–*

2015-ci tədris ilində məktəbi bitirən 64 məzundan 47-si respublikanın ali məktəblərinə qəbul olunub ki, bunlardan da 7-si 600-dən yuxarı bal toplayıb. Məktəbin idman zalı da müasir səviyyədədir. Burada eyni zamanda, 2 futbol və 1 voleybol meydançası da şagirdlərin ixtiyarına veriləcək.

Bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesinin məqsədyönlü şəkildə həyata keçirilməsi təhsil sahəsinin ən müasir tələblər səviyyəsinə çatdırılmasına geniş imkanlar yaradır.

## SAN-MARİNO RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ PASKAL VALENTİNİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də San-Marino Respublikasının Xarici İşlər naziri Paskal Valentinini qəbul etmişdir.*

*Dövlətimizin başçısı San-Marino Respublikasının Kapitan-Regentlərinin I Avropa oyunlarının açılışında iştirakının, onlarla keçirdiyi görüşlərin və aparılan geniş fikir mübadiləsinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladı. Prezident İlham Əliyev əlaqələrimizin inkişafı üçün imkanların müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi. Dövlətimizin başçısı San-Marino Respublikasının Xarici İşlər nazirinin ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərimizin genişləndirilməsi ilə bağlı müxtəlif məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi.*

*San-Marino Respublikasının Xarici İşlər naziri Paskal Valentini səfər proqramının geniş olduğunu dedi. O bildirdi ki, son 2 ay ərzində San-Marinodan 2 nümayəndə heyətinin Azərbaycana səfər etməsi ölkəsinin Azərbaycan ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu nümayiş etdirir.*

## İQTİSADİ MƏSƏLƏLƏRƏ VƏ 2016-cı İLİN DÖVLƏT BÜDCƏSİNİN HAZIRLIĞI İŞLƏRİNƏ HƏSR EDİLMİŞ MÜŞAVİRƏDƏ İŞTİRAK

*8 sentyabr 2015-ci il*

*Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirə keçirilmişdir.*

*Dövlətimizin başçısı müşavirədə çıxış etmişdir.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Dünyada dərin iqtisadi və maliyyə böhranı davam edir. Xüsusilə Avrasiya məkanında bu böhran daha da ciddi formalar alıb. Həm Avropada, həm də Asiyada iqtisadi tənəzzül müşahidə olunur. Bunun müxtəlif obyektiv və subyektiv səbəbləri var. Bu səbəbləri, əlbəttə ki, təhlilçilər araşdırırlar, araşdıracaqlar. Bu bizim işimiz deyil. Bizim işimiz ondan ibarətdir ki, ölkəmizi, ölkə iqtisadiyyatını dünyada gedən mənfi proseslərdən maksimum dərəcədə qoruyaq. Biz bunu bacarırıq və uğurla ölkəmizi qoruyuruq. Ölkəmizin təhlükəsizliyini, sabitliyini, iqtisadi inkişafını təmin edirik.

Əlbəttə, Avrasiya məkanında yaşanan siyasi, hərbi və iqtisadi böhranın səbəbləri araşdırılacaqdır. Ancaq indinin özündə də təhlil aparmaq üçün kifayət qədər informasiya vardır. Biz görürük ki, bu böhranın əsas səbəbləri sabitliyin pozulmasıdır və bəzi ölkələrin siyasi maraqlarıdır.

Yaxın Şərqdə son illər ərzində yüz minlərlə insan xarici müdaxilələr, qanlı toqquşmalar nəticəsində həlak olub. Bu müharibənin, bu toqquşmanın sonu görünmür. Əksinə, yeni müharibə ocaqları yaranır və günahsız insanlar bundan əziyyət çəkir, yüz minlərlə insan, dediyim kimi, həlak olub.

Postsovet məkanında vəziyyət daha da gərginləşir, həm qanlı toqquşmalar, eyni zamanda, siyasi və iqtisadi böhranlar hökm sürür, qarşıdurma meyilləri güclənir. Postsovet məkanı, əlbəttə ki, bizim qonşuluğumuzdur. Burada da – biz hamımız yaxşı görürük və ictimaiyyət də bunu bilir – xarici müdaxilə öz rolunu oynayır və bundan əziyyət çəkən yenə də günahsız insanlardır.

İkinci dünya müharibəsindən sonra ilk dəfə olaraq Avropa məkanı, daha doğrusu, Avropa İttifaqı böyük humanitar fəlakətlə üz-üzədir. Yüz minlərlə qaçqın – hansı ki yenə də xarici müdaxilə nəticəsində qaçqın vəziyyətinə düşmüş insanlar – Avropaya üz tutub. Sığınacaq tapmaq, öz canını qurtarmaq üçün hazırda onların böyük köçü müşahidə olunur. Yenə də demək istəyirəm ki, İkinci dünya müharibəsindən sonra ilk dəfədir biz bu mənzərə ilə üzləşirik. Əlbəttə, bu, böyük humanitar fəlakətdir. İlk növbədə, bu, ağır vəziyyətə düşən insanlar üçün humanitar fəlakətdir. Onlar bu humanitar fəlakətlə artıq bir neçə ildir ki, üz-üzədir. Əfsuslar olsun ki, Qərb mediası buna tamamilə biganə və etinasız yanaşır. Ancaq bu insanların bir hissəsi Avropa qitəsinə üz tutandan sonra indi bütün Qərb mediası gecə-gündüz həmin görüntüləri yayır və bu vəziyyətə görə onları günahlandırır. Bu insanların heç bir günahı yoxdur. Onlar məqsədyönlü siyasətin qurbanlarıdır. Onlar xarici müdaxilənin qurbanlarıdır. Onların başqa yolu yoxdur. Onlar özlərini, öz ailələrini qorumalıdırlar. Ona görə bu gün bu humanitar fəlakət ilk növbədə, onların fəlakətidir.

Avropa İttifaqının siyasətinə gəlincə, indi həyat göstərər Avropa İttifaqı bəyan etdiyi dəyərlərə nə dərəcədə sadiqdir. İndi hər şey göz qabağındadır. Biz görürük ki, bu yazıq insanlara işgəncələr verilir, onların ləyaqəti alçaldılır. Onlara qarşı sanki geniş bir kampaniya aparılır. Biz bununla barışa bilmərik. Biz hər bir məsələ ilə bağlı öz sözümüzü deyirik. Azərbaycan o ölkələrdəndir ki, bütün beynəlxalq məsələlərlə bağlı öz mövqeyi var. Biz heç kimdən çəkinmədən öz mövqemizi ifadə edirik. Məhz buna görə dünyada böyük rəğbət, hörmət qazanmışıq. Bütün məsələlərlə bağlı bizim mövqemiz ədalətli mövqedir. Biz

ədalətli mövqeni müdafiə edərək, bu siyasətlə, bu işlərlə barışa bilmirik. Bir sözlə, bu gün dünya xəritəsində dəyişikliklər baş verir. İstisna olunmur ki, bu dəyişikliklər gələcəkdə də davam etsin.

O ki qaldı Azərbaycana, bütün bu mənfi mənzərə fonunda ölkə iqtisadiyyatı inkişaf edir. Ölkədə sabitlik möhkəmlənir. Bizim beynəlxalq mövqelərimiz daha da güclənir. Bizimlə əməkdaşlıq edənlərin sayı gündən-günə artır. Azərbaycan beynəlxalq birliyin dəyərli, böyük hörmətə malik bir üzvüdür. Ölkədə proseslər müsbət istiqamətdə gedir. Xalq bizim siyasətimizi dəstəkləyir. Hətta böhranlı illərdə də bizim iqtisadiyyatımız uğurla inkişaf edir.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün Yaxın Şərqdə həyata keçirilən çirkin ssenarilər Azərbaycan üçün də hazırlanmışdır. 2011-ci ildə, 2012-ci ildə bəzi xarici dairələr Azərbaycanda «Ərəb baharı»nın yaranmasından söhbət açırdılar və deyirdilər ki, bu qaçılmazdır. Burada vəziyyəti gərginləşdirmək, sabitliyi pozmaq üçün min cür işlərdən çıxmışlar. Bizim hüquq-mühafizə orqanları bütün bu işlərin üstünü açıb. Azərbaycanda «Maydan hərəkatı»nı yaratmaq, gəncləri bu çirkin işlərə sövq etmək, bədbəxt etmək istəyirdilər. Azərbaycanda vəziyyəti gərginləşdirmək üçün böyük pullar xərclənib. On milyonlarla dollar vəsait aşkarlanıb ki, qanunsuz yollarla, yerli «beşinci kolon»un vasitəsilə, qeyri-hökumət təşkilatları adı ilə Azərbaycana gətirilsin, vəziyyət gərginləşsin və burada bəzi xarici dairələrin xidmətində olan insanları hakimiyyətə gətirsinlər. 2013-cü ilin əvvəlindən başlayaraq bu proseslər daha da ciddi formalar almışdı. Prezident seçkiləri ərəfəsində vəziyyəti gərginləşdirmək, sabitliyi pozmaq, Azərbaycanı məhv etmək cəhdləri müşahidə olunurdu. Mən bunu açıq deyirəm. Mən bunu başqa cür qəbul etmirəm. Ancaq Azərbaycan xalqının, dövlətinin düşmənləri bu işlərdə iştirak edə bilərdi.

Çünki bu gün Azərbaycan dünya miqyasında müasir, dünyəvi, inkişafda olan, açıq, tolerant bir dövlətdir. Biz kimə mane oluruq?! Heç kimə! Bizim bütün ölkələrlə qarşılıqlı hörmət

əsasında münasibətlərimiz var. Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Biz kimə mane oluruq?! Ancaq o dairələrə ki, hər yerə hakim olmaq, hər yerdə «marionetka» görmək istəyirlər. Ləyaqətli, öz xalqına güvənən, xalq tərəfindən dəstəklənən siyasətçiləri artıq görmək istəmirlər.

Ancaq iş burasındadır ki, Azərbaycanda hər şey xalqın iradəsi ilə həll olunur, xarici dairələrin təhriki ilə yox. Azərbaycan xalqı bütün bu çirkin niyyətlərə yox dedi, Azərbaycan iqtidarını dəstəklədi və bu gün bu dəstək bizim əsas güc mənbəyimizdir. Xalq ilə iqtidar arasındakı birlik Azərbaycanda sabitliyin qarantıdır. Bizim bütün uğurlarımıza xor baxanlar da bunu bilsinlər. Biz heç kimin qabağında gözükölgəli deyilik və öz sözümüzü deyirik, deyəcəyik. Azərbaycanın müstəqil həyatını təmin edəcəyik.

Məhz bunun, bu siyasətin nəticəsində biz ölkəmizi bu böyük bəlalardan qoruya bildik. Bir daha demək istəyirəm ki, baxın, indi Ukraynada, Yaxın Şərqdə, Suriyada, İraqda, Liviyada, başqa ölkələrdə nələr baş verir. O ölkələrin artıq ərazi bütövlüyü, demək olar ki, pozulubdur. Bu ölkələr idarəedilməz vəziyyətə düşübdür. Yaxın Şərqdə bundan sonra vəziyyəti sabitləşdirmək, sülhü bərpa etmək üçün bilinmir ki, nə kimi işlər görülməlidir. Yəni bu müsbət meyillər gözə dəymir.

Azərbaycanda sabitlik, inkişaf, normal həyat davam edir. Biz ölkəmizi, bax, bu bəlalardan qorumuşuq. Bizə qarşı uzanan o çirkin əlləri kəsmişik və bundan sonra da ölkəmizi qoruyacağıq, xalqımızın inamlı inkişafını təmin edəcəyik.

Bu müddət ərzində neftin qiyməti kəskin şəkildə aşağı düşüb. Əlbəttə, mütəxəssislər, təhlilçilər bunun səbəblərini araşdırmalıdırlar. Ancaq istisna edilmir ki, bu da siyasi sifarişin nəticəsidir. Buna baxmayaraq, biz bu vəziyyətə də hazır olmalı idik. Şaxələndirmə, qeyri-neft sektorunun inkişafı ilə bağlı bu günə qədər atılan addımlar bizə kömək etdi ki, bu vəziyyətdən minimum itkilərlə çıxaq. Təbii ki, bizim gəlirlərimiz xeyli azalıb. Keçən il neftin qiyməti 100 dollardan yuxarı idisə, bu gün 50 dollardan aşağıdır, 2 dəfədən çox düşübdür. Ancaq biz

çalışırıq və çalışacağıq ki, Azərbaycan xalqı bundan əziyyət çəkməsin. Bütün sosial proqramlar, sosial infrastruktur layihələri icra edilir və insanların təhlükəsizliyi, sosial müdafiəsi təmin olunur. Bax, biz bu xoşagəlməz mənzərə ilə üzləşmişik və çalışmalıyıq ki, 2016-cı ildə iqtisadi inkişafı təmin edək.

Bu il Azərbaycanda iqtisadi inkişaf çox sürətlidir. Gələn ay biz ənənəvi olaraq hökumətin geniş iclasında 9 ayın yekunlarını və bu inkişafı müzakirə edəcəyik. Ancaq 6 ayın yekunları deməyə əsas verir ki, biz bu ili çox yüksək nəticələrlə başa vuracağıq. Ümumi daxili məhsul təxminən 6 faiz, qeyri-neft iqtisadiyyatı 9 faizdən çox artıb. İnflyasiya çox aşağı səviyyədədir. Kənd təsərrüfatı 7,3 faiz, qeyri-neft sənayesi 14 faiz artıb. Yəni bu, böhranlı ildə əldə edilən nailiyyətlərdir və dünya miqyasında buna bənzər yüksək nəticələr görmək çox çətindir. Yenə də nəyə görə? İlk növbədə, bizim güclü siyasi iradəmiz var və biz öz siyasətimizi ancaq Azərbaycan xalqının maraqları üzərində qururuq. İkincisi, biz uzun illər düşünülmüş iqtisadi siyasət əsasında islahatlar aparmışıq. Bu islahatlar bu gün beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Onu da qeyd etməliyəm ki, bu il «Fitch» reytinq agentliyi Azərbaycanın sabit reytinqini bir daha təsdiqləyib. Bizim «BBB» səviyyəsində reytinqimiz var. Bu da çox böyük nailiyyətdir. Bunu geniş ictimaiyyət bəlkə də bilmir və mətbuatda da çox qısa bir xəbər kimi təqdim edilib. Halbuki bu çox böyük hadisədir. İndi başqa ölkələrin kredit reytinqlərinə baxsınlar, hamısı aşağı düşür. Azərbaycanda bu reytinq sabitdir. Nəyə görə? Əvvəllər bizim uğurlarımızı bədxahlar, paxıllar neftlə bağlayırdılar. Deyirdilər ki, Azərbaycanda neft hasil olunur, ona görə Azərbaycan inkişaf edir. Yaxşı, Azərbaycanda neft hasilatı artmır, düşür. Neftin qiyməti 2 dəfədən çox düşüb. Ancaq biz yenə də inkişaf edirik. Qəbul etmək istəmirlər ki, bizim inkişafımızın təməlində düşünülmüş siyasət dayanır. Antiazərbaycan qüvvələr, islamofob qüvvələr, bizim müstəqilliyimizlə barışmaq istəməyənlər həmişə çalışırlar ki, işimizə kölgə

salsınlar. Bu gün də bizə qarşı çirkin kampaniya davam edir – Avropa oyunları ərəfəsində, oyunlar zamanı və indi. Nəyə görə? Çünki biz ölkəmizi qoruyuruq. İmkan vermirik və verməyəcəyik ki, «beşinci kolon», milli satqınlar, xainlər burada meydan oxusunlar.

Bax, budur bugünkü ümumi siyasi və iqtisadi mənzərə. Mən bir daha demək istəyirəm, biz ilin sonuna qədər bütün lazımi tədbirləri görəcəyik ki, iqtisadi inkişaf davam etsin. Əlbəttə, hökumət daha fəal, çevik işləməlidir ki, bizim iqtisadiyyatımız gələn il də artsın.

Bir neçə gün bundan əvvəl hökumətin iclasında gələn ilin büdcəsi müzakirə edildi. Mənə artıq məruzə edilib. Biz bu məsələni daha da geniş müzakirə edəcəyik. Demək istəyirəm ki, gələn ilin büdcəsi real vəziyyəti nəzərə almalıdır. Gələn ilin büdcəsi daha çox sosialyönümlü büdcə olmalıdır. Əlbəttə ki, ən böyük prioritet təşkil edən investisiya layihələri də icra edilməlidir. Ancaq prioritet olmayan, o qədər də vacib xarakter daşımayan layihələri biz büdcə proqramına, investisiya proqramına salmamalıyıq. İsrafçılığa yol verilməməlidir. Maliyyə nizam-intizamı daha da gücləndirilməlidir və çalışmalıyıq ki, vəsaitə qənaət edək. Bütün ölkələr indi bu siyasəti aparır və biz də bu siyasəti daha da ciddi şəkildə aparmalıyıq.

Əvvəlki illərdə biz daha çox çalışırdıq ki, ölkə qarşısında duran bütün sosial-iqtisadi məsələləri tezliklə həll edək. Məhz ona görə biz bəzi hallarda o qədər də böyük prioritet təşkil etməyən layihələrə də vəsait ayırırdıq ki, inkişaf daha da sürətlə getsin. Çünki görüləsi işlər kifayət qədər çox idi. Bu gün biz əsas infrastruktur layihələrini icra etmişik, bəziləri davam edir. Ancaq burada köklü şəkildə çox ciddi dönüş yaranıbdır. Sosial infrastruktur layihələrinin bir çoxunu icra etmişik. Ölkədə sahibkarlığın, biznesin inkişafı üçün möhkəm zəmin yaradılıbdır – infrastruktur layihələri, kreditləşmə və əlbəttə ki, dövlət siyasəti. Ona görə biz gələn ilin büdcəsinə çox diqqətlə baxmalıyıq. Yenə də demək istəyirəm ki, orada ən əsas məsələlər öz həllini tapacaq.

İlk növbədə qeyd etməliyəm ki, bütün sosial proqramlar ixtisarsız icra ediləcək. Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, burada heç bir ixtisar ola bilməz. Mən onu da qeyd etməliyəm ki, sosial infrastruktur layihələri icra olunacaqdır. Məktəb tikintisi, uşaq bağçalarının, xəstəxanaların tikintisi davam edəcək. Sosial siyasətlə bağlı institusional islahatlar da davam etdiriləcək. Dərman preparatları bazarının tənzimlənməsi işində çox ciddi dönüşə nail olduq və sentyabrın 15-dən sonra hər bir Azərbaycan vətəndaşı bunu hiss edəcək. Dərmanların qiymətinin orta hesabla 2-3 dəfə aşağı salınması təmin edilib.

İdarəetmə sahəsində islahatlar dərinləşməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı daha da ciddi mübarizə aparılmalıdır. Bu yaxınlarda imzaladığım fərman əsasında «ASAN xidmət»ə yeni funksiyalar verilibdir. Mənzil-kommunal təsərrüfatının vəziyyətini hər bir Azərbaycan vətəndaşı bilir: nə qədər qanunsuz tələblər irəli sürülür, insanları nə qədər incidirlər. İndi «ASAN xidmət»də hər şey asan olacaq.

Nəqliyyat sektorunda da ciddi pozuntular var. İnsanları incidirlər, onların qarşısına əsassız tələblər qoyulur. Biz artıq bu sahənin bir hissəsini «ASAN xidmət»ə vermişik. Gələcəkdə də hər sahədə «ASAN xidmət»in standartları olmalıdır. Ona görə də gələn il hökuməti, əlbəttə ki, böyük işlər gözləyir. Hökumət yeni situasiyada işləyəcəkdir. Neft gəlirləri azalır, ona görə daha çox innovasiyalara üstünlük verilməlidir. Sahibkarlığın inkişafı üçün, əlbəttə ki, addımlar atılacaq və maliyyə sabitliyi təmin ediləcəkdir. Mənim buna heç bir sübhəm yoxdur. Bizim maliyyə vəziyyətimiz sabitdir. Kifayət qədər valyuta ehtiyatlarımız var. Biz yenə də düşünülmüş siyasət apararaq valyuta ehtiyatlarımızı ildən-ilə artırırdıq. Bu il də biz Dövlət Neft Fondunun vəsaitini qoruyuruq. Düzdür, indi vaxtilə alınmış bəzi əmlakların qiymətlərinin düşməsi, xüsusilə avro, dollar məzənnələri arasında olan bəzi dəyişmələr elə fikir yarada bilər ki, bizim Dövlət Neft Fondunun ehtiyatları azalıb. Ancaq reallığa baxanda görürük ki, azalmayıb. Çünki qiymətləndirmə ilə bağlı və dünya valyuta kurslarının səviyyəsi

ilə əlaqədar bəzi dəyişikliklər edilib. Ancaq biz gələn il də valyuta ehtiyatlarımızı, xüsusilə Dövlət Neft Fondunun ehtiyatlarını qorumalıyıq və qoruyacağıq.

Bütün işləri bu səpkidə görürük. Bir daha demək istəyirəm ki, mən Azərbaycanın uğurlu inkişafı ilə bağlı heç bir problem görmürəm. Biz 2016-cı ildə də uğurla inkişaf edəcəyik, ölkə qarşısında duran bütün vəzifələri icra edəcəyik. Sadəcə olaraq, hökumət ilin sonuna qədər, xüsusilə gələn ilin xərcləri, investisiya proqramı, maliyyə vəziyyətimiz ilə bağlı daha da ciddi işləməlidir, yeni təkliflər verilməlidir. Bir daha demək istəyirəm, ən əsas məsələ ondan ibarətdir ki, gələn ilin büdcəsi balanslaşdırılmış, reallığı əks etdirən və lazımsız xərclərə yol verməyən bir büdcə olmalıdır.

## İSVEÇRƏ KONFEDERASİYASININ AZƏRBAYCANDAKI SƏFİRİ PASKAL ABİŞER İLƏ GÖRÜŞ

*9 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da İsveçrə Konfederasiyasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Paskal Abişeri fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında dostluq münasibətlərinin mövcud olduğunu deyən dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi, bu səfərlər və görüşlər zamanı məhsuldar danışıqların aparıldığını vurğuladı. Prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif sahələrdə, o cümlədən iqtisadi, biznes, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə genişləndirilməsindən məmnunluğunu ifadə etdi.*

*Səfir Paskal Abişer ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurlu inkişafına toxunaraq iqtisadi sahədə həyata keçirilən birgə layihələrin bu əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verdiyini bildirdi.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın yəhudi icmasını Yeni il bayramınız Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Ölkəmizdə yaşayan bütün xalqlar və etnik azlıqlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq münasibətlərinin, etnik-mədəni müxtəlifliyin, zəngin multikultural ənənələrin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi bu gün Azərbaycanda həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Belə düşünülmüş siyasətin nəticəsidir ki, müasir Azərbaycan cəmiyyəti dünyada tolerantlığın, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq mühitinin uğurlu örnəyi kimi qəbul edilir. Məmnuniyyətlə qeyd etmək istərdim ki, yəhudi icması ölkəmizin ictimai-siyasi və mədəni həyatında özünəməxsus koloriti ilə seçilir və hazırda Azərbaycanda gedən böyük tərəqqi və inkişaf prosesində, vətəndaş cəmiyyəti quruculuğunda fəal mövqe nümayiş etdirir.

Əziz dostlar!

Hər il Azərbaycanda böyük təntənə ilə qeyd etdiyiniz Roş-Ha-Şana yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirir. Qoy bu əziz bayram həyatınıza sevinc və səadət, süfrənizə xeyir və bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 sentyabr 2015-ci il*

## NƏSİMİ RAYONUNDAKI TEXNİKİ-HUMANİTAR LİSEYDƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*10 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bakının Nəsimi rayonundakı Texniki-Humanitar liseydə görülən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, təhsil ocağının binası 1963-cü ildə istifadəyə verilib. Əvvəllər axşam məktəbi kimi fəaliyyət göstərən binada 2000-ci ilə qədər Dağıstan Universitetinin filialı yerləşib. Həmin il Texniki-Humanitar lisey təsis olunub və bu binada fəaliyyətə başlayıb. Liseyin binasında bu günədək əsaslı təmir işləri aparılmayıb. Üçmərtəbəli binada yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib.*

*Dövlətimizin başçısına Texniki-Humanitar liseyin şagirdləri üçün nəzərdə tutulan məktəbli formaları və çantalar barədə də məlumat verildi. Qeyd edildi ki, bu ildən tətbiq olunacaq bu formalar şagirdlərin rahatlığı nəzərə alınaraq hazırlanıb.*

*Liseyin foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və prezident İlham Əliyevin paytaxtın Nəsimi rayonundakı təhsil ocaqlarının müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb.*

*Liseydə 43 otaq var. Onlardan 24-ü sinif otağı, digərləri isə fənn kabinetləri və laboratoriyalardır. Müasir səviyyədə qurulan təhsil ocağının həyətində geniş abadlıq və quruculuq işləri görülüb.*

*Prezident İlham Əliyev siniflərdə yaradılan şəraitlə tanış oldu.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxtda və ətraf qəsəbələrdə, eləcə də respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür. Texniki-Humanitar liseydə də bütün sinif otaqları, fənn kabinetləri ən müasir səviyyədə qurulub. Lisey yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib.*

*Qeyd olundu ki, liseydə tədris ikinövbəlidir. Təhsil ocağına qəbul beşinci sinifdən aparılır. Burada Azərbaycan və rus bölmələrində 1077 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 91 müəllim məşğul olur. Texniki-Humanitar lisey 2008-ci və 2014-cü illərdə ilin ən yaxşı məktəbi seçilib. 2014–2015-ci tədris ilində liseyi bitirən 112 məzunun hamısı ali məktəblərə qəbul olunub. Onlardan 17-si 600-dən yuxarı bal toplayıb.*

*Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının inkişafına xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.*

## QAZAXISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*10 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitində iştirak etmək üçün sentyabrın 10-da Qazaxıstan Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Prezident İlham Əliyevi Qazaxıstan Respublikasının yüksəkvəzifəli şəxsləri qarşılamışlar.*

## QAZAX XANLIĞININ 550 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ ASTANADA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Astana*

*11 sentyabr 2015-ci il*

*Qazaxıstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Qazax xanlığının 550 illik yubileyi münasibətilə Astanadakı Müstəqillik sarayında keçirilən təntənəli mərasimdə iştirak etmişdir.*

*Təntənəli mərasim Qazaxıstanın Dövlət himninin səsləndirilməsi ilə başlandı.*

*Sonra prezident Nursultan Nazarbayev mərasimdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi, Qırğız prezidenti Almazbek Atambayevi, Türkiyə Böyük Millət Məclisinin Sədri İsmət Yılmazı və Türkmənistan Baş nazirinin müavini Sapardurdu Toyliyevi salamladı.*

*Qazax xanlığının 550 illik yubileyinin ölkəsində geniş qeyd edildiyini vurğulayan prezident Nursultan Nazarbayev xanlığın yaranma tarixindən danışdı. Qeyd etdi ki, əsası 1465-ci ildə qoyulan Qazax xanlığı sonrakı dövrdə daha da qüdrətlənərək, Qazaxıstanda milli mədəniyyətin, dövlətçilik ənənələrinin formalaşmasında, qorunmasında və inkişafında mühüm rol oynayıb.*

*Qazaxıstan Prezidenti vurğuladı ki, ölkə müstəqilliyə qovuşduqdan sonra qədim dövlətçilik ənənələrinə malik olan türkdilli xalqların tarixi, o cümlədən Qazax xanlığı ilə bağlı sanballı tədqiqat əsərləri yazılıb, tarixi şəxsiyyətlərin adları əbədiləşdirilib.*

*Qazaxıstanın müstəqilliyə qovuşmasından sonrakı dövrdən danışan Nursultan Nazarbayev ölkəsinin son illərdə sürətlə*

*inkişaf* etdiyini, *mühüm layihələrin həyata keçirildiyini* diqqətə *çatdırdı.*

*Qazaxıstan Respublikasının Prezident Nursultan Nazarba-yev türkdilli* xalqların ortaq *kökə və tarixə malik* olduğunu *bildirərək, türkdilli dövlətlər və* xalqlar *arasında* birliyin, *həmrəyliyin, əməkdaşlığın* vacibliyini *vurğuladı, ulu türk* elinin ortaq *Vətənimiz* olduğunu *söylədi.*

# QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*Astana*

*11 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.*

**N u r s u l t a n N a z a r b a y e v:** Hörmətli İlham Heydər oğlu, Sizi Astanada salamlayıram! Sizin səfəriniz bizim üçün həmişə xoşdur. Xalqlarımız arasında bütün istiqamətlər üzrə yaxınlıq var. Bu gün biz qaynaqlar barədə danışdıq. Bundan başqa, ölkələrimiz arasında həll edilməmiş heç bir problem olmayıb – istər sovet dövründə, istərsə də müstəqillik illərində. Bir-birimizə etimad, bir-birimizin qayğısına qalmaq və dostluq hissləri olub, Sizinlə bərabər sevinmişik, Sizinlə bərabər kədərlənmişik. Buna görə də düşünürəm ki, Sizin hər bir səfəriniz, bizim hər görüşümüz ölkələrimiz arasında qarşılıqlı münasibətlərdə yeni səhifədir.

İndi çətin dövrdür. Dünyada böhran yaşanır, bizim ixrac mallarının qiyməti azalır. Qiymətlər ölkələrimiz arasında ticarətə də, əmtəə dövriyyəsinə də mütləq mənada təsir göstərir. Lakin bunu dəf etmək və ümumi təmas nöqtələri tapmaq lazımdır.

Siz Türkdilli Ölkələrin Sammitində iştirak etməyə gəlmisiniz. Bu gün lütfkarlıq göstərərək bizim ciddi tədbirlərdə iştirak etdiniz. Biz öz tariximizə, öz qaynaqlarımıza nəzər saldıq. Bu zalda əyləşən bütün qazaxıstanlılar üçün qardaş Azərbaycan xalqının rəhbərini burada görmək çox xoş idi.

Mən Sizin səfərinizi alqışlayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, hörmətli Nursultan Abişeviç! Dəvət üçün sağ olun. Mən qardaş Qazaxıstana sevinc hissi ilə yenidən səfər edirəm.

Sizin qeyd etdiyiniz kimi, bu gün səhər biz Qazax xanlığının yubileyinə həsr edilmiş təntənəli tədbirdə birlikdə olduq. Sizin çıxışınız, Qazaxıstanın tarixi keçmişinin və bugünkü inkişafının təhlili bir daha göstərdi ki, müstəqil Qazaxıstanın uğurlarının çox dərin milli, tarixi kökləri var.

Sizin qeyd etdiyiniz kimi, xalqlarımızı həmişə dostluq, əməkdaşlıq, qardaşlıq telləri bağlayıb. Biz bir-birimizə həmişə böyük hörmət bəsləmişik, bir-birimizi dəstəkləmişik. İkitərəfli münasibətlərin dinamik inkişafı bu gün də davam edir. Bizim aramızda bütün istiqamətlər üzrə tam qarşılıqlı anlaşma var. Prezidentlər səviyyəsində biz çox tez-tez görüşürük – həm Qazaxıstanda, həm Azərbaycanda, həm də başqa ölkələrdə keçirilən tədbirlər çərçivəsində. Həmişə də ikitərəfli və regional məsələləri açıq müzakirə edirik. Əlbəttə, bu gün dünya iqtisadiyyatında yaranmış vəziyyət bizi narahat edir və düşünürəm ki, bu gün biz bu mövzunu da müzakirə edəcəyik. Hesablamalara görə, Qazaxıstan bu vəziyyətdən minimal itki ilə çıxır. Hərçənd, ölkələrimiz neftin istehsalçıları və ixracatçıları kimi, bu sınağa məruz qalıblar. Lakin bu da bizim səmərəliliyimiz üçün bir test olacaq. Düşünürəm ki, Sizin qeyd etdiyiniz kimi, biz bunun öhdəsindən ləyaqətlə gələcək və uğurla irəli gedəcəyik.

* * *

*Söhbət zamanı prezidentlər ortaq tarixi, mədəniyyəti, milli maraqları olan ölkələrimiz arasında əlaqələrin perspektivlərinin daha da geniş olduğunu qeyd etdilər və mövcud potensialdan səmərəli istifadə edilməsində belə tədbirlərin xüsusi önəm daşıdığını vurğuladılar.*

*Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi apardılar.*

*Görüşdə bir sıra regional və beynəlxalq məsələlər müzakirə olundu.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ V SAMMİTİNDƏ İŞTİRAK

*Astana*

*11 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V Sammitində iştirak etmişdir.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev Sammitdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi, Qırğız prezidenti Almazbek Atambayevi, Türkiyə Böyük Millət Məclisinin Sədri İsmət Yılmazı və Türkmənistan Baş nazirinin müavini Sapardurdu Toyliyevi qarşıladı.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev ötən il ərzində təşkilata uğurla sədrlik etdiyinə görə Türkiyəyə minnətdarlığını bildirdi. Tarix boyunca türkdilli xalqların birlikdə mühüm uğurlar qazandıqlarını söyləyən Qazaxıstan Prezidenti bölgədə sülhün və sabitliyin bərqərar olunması üçün səylərin daha da gücləndirilməsinin, Türk Şurasının beynəlxalq qurumlarda fəal təmsil olunmasının əhəmiyyətini vurğuladı.*

*Xəzər dənizinin tranzit qabiliyyətinin artırılmasının, Avrasiya quru nəqliyyat dəhlizi layihəsinin vacibliyini qeyd edən prezident Nursultan Nazarbayev bu layihələrin Türk Şurasına üzv dövlətlər arasında müxtəlif sahələrdə, o cümlədən turizmin inkişafında mühüm rol oynayacağını bildirdi. Qazaxıstan Prezidenti 2017-ci ildə Astanada keçiriləcək «Expo» sərgisində Türk Şurasına üzv ölkələrin geniş təmsil olunacaqlarına əminliyini vurğuladı, türkdilli dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, texnologiya və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırdı. Təhsil sahəsində əməkdaşlığın rolundan danışan Qazaxıstan Prezi-*

*denti ortaq türk tarixi fənninin tədrisinin vacibliyindən danışdı, bu baxımdan Türk Akademiyasının rolunu yüksək qiymətləndirdi. Ortaq Türk İnvestisiya Fondunun qurulmasının vacibliyini bildirən Nursultan Nazarbayev, həmçinin ortaq türk televiziya kanalının da yaradılması istiqamətində fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini vurğuladı.*

*Türkiyə Böyük Millət Məclisinin Sədri İsmət Yılmaz 2009-cu ildə Naxçıvan Sazişi ilə yaradılan Türk Şurasının ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırdı. Müasir dövrdə dünyada sürətli dəyişikliklərin baş verdiyini bildirən İsmət Yılmaz məhz bu baxımdan informasiya texnologiyalarının əhəmiyyətini qeyd etdi. Türkiyə parlamentinin Sədri dünyanın müxtəlif bölgələrində regional əməkdaşlığın sürətlə inkişaf edərək, mühüm önəm qazandığını vurğuladı, türkdilli dövlətlər arasında əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini bildirdi. Qeyd etdi ki, bu prosesdə informasiya texnologiyaları mühüm rol oynadığından, builki Sammitin bu mövzuya həsr olunması çox vacibdir. İsmət Yılmaz məhz bu baxımdan türkdilli dövlətlər arasında ortaq televiziya və xəbər agentliklərinin yaradılmasının əhəmiyyətini bildirdi.*

*Regionda mövcud münaqişə ocaqlarından danışan İsmət Yılmaz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bölgədə sabitliyə ən böyük təhdid olduğunu vurğuladı. Bildirdi ki, Türk Şurasına üzv ölkələr bu problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi üçün səylərini artırmalıdır. Münaqişənin həlli prosesində Türkiyə və digər üzv ölkələr Azərbaycanın yanındadır.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Nursultan Abişeviç!
Hörmətli nümayəndə heyətlərinin üzvləri!
Xanımlar və cənablar!

İlk növbədə, Nursultan Abişeviç, bizə göstərdiyiniz yüksək qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən qardaş qazax torpağında olmağımdan çox məmnunam.

Nursultan Abişeviç, Siz bu gün bizi Qazax xanlığının 550 illik yubiley tədbirinə dəvət etmisiniz. Buna görə də Sizə minnətdaram. Qazax xalqının böyük tarixi, mədəniyyəti var. Siz bu gün öz çıxışınızda bu barədə geniş fikir söylədiniz.

Əslində türkdilli ölkələrin əməkdaşlığının təməlində bizim ortaq tariximizdir, ortaq mədəniyyətimizdir, etnik köklərdir. Budur bizi birləşdirən amillər və biz öz fəaliyyətimizi bu təməl üzərində qururuq. Bu gün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası artıq beynəlxalq aləmdə də özünə layiq yer tuta bilib. Əminəm ki, gələcəkdə Şuranın fəaliyyəti daha da uğurlu olacaq.

Bizim humanitar sahə ilə bağlı çox böyük planlarımız var. Humanitar sahə əslində bizi birləşdirən əsas sahədir. Bu baxımdan mən xüsusilə TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. TÜRKSOY nəinki bizim dövlətlərimizi, bütün türk xalqlarını birləşdirir. Əminəm ki, biz gələcəkdə də bu təşkilatın fəaliyyətinə öz dəstəyimizi verəcəyik.

TÜRKSOY ilə yanaşı, yeni qurumlar da yaranır. Onların içərisində Türk Akademiyasını xüsusilə qeyd etmək istəyirəm. Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması, hesab edirəm ki, gələcəkdə müxtəlif konkret layihələrin icrası üçün gözəl imkan yaradacaqdır. Ortaq televiziya kanalının yaradılması da bizim həm niyyətimizi ifadə edir, həm də siyasətimizi göstərir. Bir neçə il ərzində bu məsələ ilə bağlı danışıqlar aparılmışdır. Artıq bu qərar da qəbul olundu. Hesab edirəm ki, həm xalqlarımız, həm dünya üçün bizim mədəniyyətimiz, tariximiz, milli dəyərlərimiz, o cümlədən bugünkü həyatımız böyük maraq doğuracaqdır.

Əminəm ki, ortaq televiziya kanalı qısa müddət ərzində beynəlxalq auditoriyaya çıxacaq və böyük maraq doğuran, bizim siyasətimizi əks etdirən kanala çevriləcəkdir. Çünki bu gün dünyada informasiya təhlükəsizliyi xüsusi yer tutur və hər bir ölkə buna hazır olmalıdır. Biz öz informasiya təhlükəsizliyimizi

təmin etməliyik, eyni zamanda, ölkələrimiz haqqında həqiqətləri dünyaya olduğu kimi çatdırmalıyıq.

Regional təhlükəsizlik məsələləri də böyük əhəmiyyət daşıyır. Bu gün qəbul edəcəyimiz Bəyannamədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox dəyərli fikirlər var. Bu sənəddə beynəlxalq hüququn norma və prinsipləri öz əksini tapır.

Bildiyiniz kimi, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Nəinki Dağlıq Qarabağ, eyni zamanda, qədim türk torpağı olan Zəngəzur da bizim əzəli torpağımızdır. XX əsrin əvvəllərində Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana verməklə, əslində bütün türk dünyasının coğrafi bağlılığını artıq aradan götürüblər. Bizim bağlılığımız təbii ki, gündən-günə güclənir. Amma coğrafi baxımdan biz bir-birimizdən ayrıyıq.

Azərbaycan xalqına qarşı ədalətsizliklər olmuşdur. Bu gün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və ətraf 7 bölgə erməni işğalı altındadır. Ermənistan bütün hüquq normalarını kobudcasına pozub, bu bölgələrdə etnik təmizləmə siyasəti aparıb, 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşüb.

Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz fikirlərini bildirmişlər. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması tələb edilir. Əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur, işğalı davam etdirir, danışıqlar prosesində özünü səmimi və konstruktiv aparmır. Bu münaqişə və bütün başqa münaqişələr ancaq beynəlxalq hüququn norma və prinsipləri, ölkələrin suverenliyi, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü əsasında öz həllini tapmalıdır.

Biz eyni zamanda, iqtisadi əməkdaşlığımıza da çox böyük önəm veririk. Azərbaycan qonşu ölkələrə, türkdilli dövlətlərə investisiyalar yatırır və bizim ölkəyə də investisiyalar qoyulur. Azərbaycan Qazaxıstan, Türkmənistan üçün artıq tranzit ölkəyə

çevrilibdir. Həm enerji daşıyıcıları, həm digər yüklər Azərbaycan ərazisindən keçir. Nəqliyyat təhlükəsizliyi Şuraya üzv olan hər bir ölkə üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan çalışır ki, müasir infrastrukturun yaradılması ilə bu işə töhfəsini versin. Hazırda Bakıda böyük Yeni Beynəlxalq Dəniz Ticarət Limanı inşa edilir. Bu limanın ümumi yükaşırma qabiliyyəti 25 milyon tona bərabər olacaqdır. Eyni zamanda, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi davam edir. Azərbaycan üzərinə götürdüyü bütün öhdəlikləri əminəm ki, yaxın aylarda yerinə yetirəcək. Bu dəmir yolu əslində Asiyanı Avropa ilə birləşdirən dəmir yoludur. Qeyd etməliyəm ki, keçən ay Çindən Qazaxıstan ərazisindən Azərbaycana birinci sınaq konteyner qatarı da yola salınmışdır və hesab edirəm ki, artıq bu birinci addım çox uğurlu olmuşdur. Əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun inşası başa çatandan sonra on milyonlarla yeni yük bizim ərazimizdən keçəcək və beləliklə, həm iqtisadi, həm siyasi maraqlarımızı təmin edəcək.

Bir sözlə, əziz dostlar, əməkdaşlıq üçün kifayət qədər geniş imkanlar var. Enerji təhlükəsizliyi məsələləri də xüsusi əhəmiyyət daşıyır. Bu gün hər bir ölkənin təhlükəsizliyi, o cümlədən və bəlkə də ilk növbədə, enerji təhlükəsizliyi ilə bağlıdır. Burada da artıq çoxformatlı əməkdaşlıq yaranıbdır. Azərbaycan, Qazaxıstan, Türkmənistan Xəzər dənizində uğurlu fəaliyyət göstərirlər. Eyni zamanda, bizim əsas ixrac yollarımız Türkiyə ərazisindən keçir və beləliklə, bu amillər bizi bir-birimizlə daha da sıx bağlayır.

Bizim əsas birləşdirici amilimiz birliyimizdir, etnik köklərdir, ortaq tarixdir, mədəniyyətdir. Budur bu gün bizi birlikdə gücləndirən amillər. Əminəm ki, gələcək nəsillər də bu amallarla yaşayacaq və bizim birliyimiz daimi olacaqdır.

Sağ olun.

* * *

Qırğız prezidenti Almazbek Atambayev türkdilli xalqların böyük tarixə və zəngin mədəniyyətə malik olduqlarını vurğulayaraq, bu Sammitin humanitar sahədə də əməkdaşlığın inkişafına böyük töhfə verdiyini qeyd etdi. Dünyada və regionda qarşıdurmaların yaşandığını bildirən Qırğız Prezidenti bu baxımdan türkdilli xalqlar arasında əməkdaşlığın əhəmiyyətini vurğuladı. İnformasiya sahəsində mühüm layihələrin həyata keçirilməsinin vacibliyini qeyd edən Almazbek Atambayev ortaq türk televiziya kanalının fəaliyyətə başlamasının önəmini bildirdi.

Qırğız Respublikasının gələn il Türk Şurasına sədrlik edəcəyini deyən dövlət başçısı əsas mövzunun türkdilli xalqların milli idman növlərinin inkişafı olmasını təklif etdi. O bununla yanaşı, İssıkgöl yaxınlığında II Köçəri oyunlarının keçiriləcəyini diqqətə çatdırdı.

Türkmənistan Baş nazirinin müavini Sapardurdu Toyliyev prezident Qurbanqulu Berdıməhəmmədovun təbrik və salamlarını tədbir iştirakçılarına çatdırdı. O, türkdilli dövlətlərin əməkdaşlığının inkişafında Şuranın rolunu qeyd edərək, xalqlarımız arasında mədəniyyət, tarix, dil və digər sahələrdə əsrlərdən bəri mövcud olan ortaq dəyərlərin qorunmasının və təbliğinin vacibliyini qeyd etdi.

Daha sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov qurumun keçənilki fəaliyyəti ilə bağlı dövlət başçılarına məlumat verdi.

Türk Şurasının üzv ölkələrin dövlət başçılarının dəstəyi ilə sürətlə inkişaf edərək, iqtisadiyyat, elm, təhsil, nəqliyyat, turizm, idman və digər sahələrdə ortaq qurum kimi uğurla fəaliyyət göstərdiyini bildirən Ramil Həsənov Şuraya sədrliyin Türkiyədən Qazaxıstana keçdiyini söylədi. O, Türk Şurasının artıq bir sıra mötəbər beynəlxalq qurumlarda təmsil olunduğunu vurğulayaraq, builki Sammitin mövzusu olan informasiya və media məsələləri ilə bağlı üzv ölkələrin nümayəndə heyətləri ilə silsilə görüşlərin, tədbirlərin keçirildiyini bildirdi. Qeyd etdi ki, artıq

*ortaq türk televiziya kanalının və ortaq xəbər agentliyinin yaradılması ilə əlaqədar Anlaşma memorandumları imzalanıb ki, bu da xalqlarımızın əlaqələrinin inkişafına müsbət təsir göstərəcək.*

*Sammitə yekun vuran prezident Nursultan Nazarbayev Şuranın keçənilki fəaliyyətinin qənaətbəxş olduğunu söylədi, qəbul edilən qərarların və atılan addımların türkdilli dövlətlər arasında əməkdaşlığın daha da gücləndiriləcəyinə mühüm töhfə verəcəyinə əminliyini bildirdi.*

*Sonra nümayəndə heyətlərinin rəhbərləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammitinin Bəyannaməsini, Şuranın baş katibi müavininin, Türk Mədəniyyəti və İrsi Fondunun prezidentinin təyin edilməsi ilə bağlı sənədləri imzaladılar.*

*Bununla da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammiti işini başa çatdırdı.*

## DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*Astana*

*11 sentyabr 2015-ci il*

*Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammitində iştirak edən dövlət başçılarının şərəfinə sentyabrin 11-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından rəsmi qəbul təşkil olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir.*

## QAZAX XANLIĞININ 550 İLLİK YUBİLEYİ İLƏ BAĞLI TEATRLAŞDIRILMIŞ TAMAŞAYA BAXIŞ

*Astana*

*11 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Astanada Qazax xanlığının 550 illik yubileyinə həsr olunan teatrlaşdırılmış tamaşaya baxmışdır.*

*Tamaşa Astanadakı «Barıs» arenasında nümayiş olundu.*

*Mədəni tədbirdə Qazax xanlığının yaradılması, onun inkişafı və müxtəlif mərhələləri səhnələşdirilmiş kompozisiya ilə təqdim edildi.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri sentyabrın 11-də başa çatmışdır.*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,
SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI
ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ
AL SƏUDA**

Əlahəzrət!
Əziz qardaşım!

Məkkə şəhərindəki Məscidi-Həramda baş vermiş faciə nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 sentyabr 2015-ci il*

## XƏTAİ RAYONUNDAKI 5 SAYLI BAKI PEŞƏ LİSEYİNDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*12 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də paytaxtın Xətai rayonundakı 5 saylı Bakı Peşə liseyində həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Qeyd edildi ki, bu təhsil ocağı 1971-ci ildə respublikada radio-elektronika sənayesi üçün fəhlə kadrlarının hazırlanması məqsədilə Bakı Radiozavodunun nəzdində açılıb. Peşə məktəbi 1985-ci ildə 960 yerlik bu kompleksə köçürülüb. 1996-cı ildə isə məktəbə 5 saylı Bakı Peşə liseyi statusu verilib. Liseydə 2013-cü ildə yenidənqurma işləri başlanılıb və yeni emalatxanalar yaradılıb. Bu il isə təhsil ocağının üçmərtəbəli tədris korpusunda təmir işlərinə başlanılıb və yüksək səviyyədə həyata keçirilib.*

*Dövlətimizin başçısı liseydə yaradılan şəraitlə yaxından tanış oldu. Bildirildi ki, liseydə 41 kabinet yaradılıb. Bunlardan 7-si fənn kabineti, 3-ü laboratoriya, 23-ü isə ümumtəhsil fənn kabinetidir. Təhsil ocağında 8 tədris emalatxana var.*

*Qeyd olundu ki, lisey 2013-cü ildən ilk peşə ixtisas təhsili müəssisələrinin infrastrukturunun inkişafına yönələn, dövlət–biznes tərəfdaşlığına əsaslanan «Müasir Azərbaycan peşəkarları» layihəsinin icrasına başlayıb. Layihə çərçivəsində müxtəlif peşələr üzrə yüksək maddi-texniki bazaya malik tədris ocaqları yaradılıb. Liseydə turizm sektoruna aid ixtisasların hazırlanmasına da böyük əhəmiyyət verilir. Bunun nəticəsidir*

*ki, bu il ölkəmizdə keçirilən ilk Avropa oyunlarının iştirakçılarına xidmət göstərmək üçün müxtəlif peşələr üzrə 200 nəfərdən artıq kadr hazırlanıb.*

*5 saylı Bakı Peşə liseyində istehsalat təlim dərslərini yüksək səviyyədə həyata keçirmək üçün bütün ixtisaslara uyğun emalatxanalar yaradılıb və lazımi avadanlıqlarla təchiz olunub. Təhsil ocağının geniş akt zalında isə həm rayon, həm də respublika əhəmiyyətli tədbirlər keçirmək mümkündür.*

*Məktəbin idman zalı da müasir səviyyədədir. Liseydə bu ildən yeni fizika və kimya laboratoriyaları və kitabxana yaradılıb.*

*2015–2016-cı tədris ilində bir neçə dövlət qurumu və özəl təşkilatın sifarişi əsasında liseydə kadr hazırlığı nəzərdə tutulub.*

## XƏTAİ RAYONUNDAKI 264 SAYLI MƏKTƏB-LİSEYİN BİNASINDA ƏSASLI SURƏTDƏ YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Xətai rayonundakı 264 saylı məktəb-liseyin binasında əsaslı surətdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına burada görülən təmir və yenidənqurma işləri barədə məlumat verildi.*

*Bildirildi ki, bu təhsil ocağı 1981-ci ildə təsis olunub və elə həmin ildən bu binada fəaliyyətə başlayıb. Məktəb-liseyin binasında indiyədək əsaslı təmir işləri aparılmayıb.*

*Binada yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib.*

*Foyedə ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və prezident İlham Əliyevin paytaxtın Xətai rayonundakı təhsil ocaqlarının müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Təhsil ocağının həyətində də abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol, voleybol və basketbol meydançaları yaradılıb.*

*Dövlətimizin başçısının təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bölgələri də əhatə edib. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib.*

*Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib.*

*Təhsil ocağında tədris ikinövbəli rejimdə aparılır. Məktəbdə Azərbaycan və rus bölmələrində 1399 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 117 müəllim məşğul olur. Şagirdlər 7-ci sinifdən etibarən texniki və humanitar siniflərə bölünürlər.*

*264 saylı məktəb-lisey 2008-ci və 2014-cü illərdə ilin ən yaxşı məktəbi seçilib. 2014–2015-ci tədris ilində məktəbi bitirən 98 məzunun 76 faizi ali məktəblərə qəbul olunub. Onlardan 7-si 600-dən yuxarı bal toplayıb.*

*Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.*

## BAKI–SUMQAYIT MARŞRUTU İLƏ HƏRƏKƏT EDƏN İLK SƏRNİŞİN QATARININ YOLA SALINMASI MƏRASİMİ

*12 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakı sərnişin stansiyasında Bakı–Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınması mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Bakı–Biləcəri–Sumqayıt dəmir yolu layihəsi ilə bağlı görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Yolun ümumi uzunluğu 84 kilometrdir. Marşrut üzərində Bakı, Keşlə, Biləcəri, Xırdalan, Güzdək, Sumqayıt sərnişin stansiyaları, 10-cu və 6-cı blok post-ayırma məntəqələri yerləşir. Stansiya və ayırma məntəqələrinin baş yolları üzərində 106 dəst yoldəyişən qurğu quraşdırılıb. Sahədə sonuncu təmir işləri 1985-ci ildə aparılıb.*

*Bakı sərnişin stansiyasının yenidən qurulması işləri çərçivəsində 4 yeni platforma inşa olunub. Onların birinin uzunluğu 310, digərlərinin uzunluğu isə 254 metrdir. Stansiyada qatarların qəbulu və yola salınması üçün nəzərdə tutulan yolların dördündə əsaslı təmir işləri görülüb, kontakt şəbəkəsi və işarəvermə avadanlıqları yenilənib. Hazırda ümumi sahəsi 8 min kvadratmetr olan 17 mərtəbəli «Vağzal» mehmanxanasında və sərnişinlərin gözləmə zalında da əsaslı təmir işləri aparılır. Sahəsi 10 min kvadratmetr olan beşmərtəbəli Sumqayıt vağzalının binası yararsız halda olduğu üçün sökülüb və yeni binanın tikintisi nəzərdə tutulub.*

*Qatara biletləri həm avtomatik köşklərdən, həm də kassalardan almaq mümkün olacaq.*

*Yeni qatarın ilk sərnişin bileti xatirə olaraq dövlətimizin başçısına təqdim edildi.*

*Ümumilikdə, layihə üzrə burada 55 turniket, 10 satış köşkü quraşdırılıb. Hazırda «BakuBus» avtobusları və metropolitendə istifadə olunan vahid ödəmə kartı – «BakıKart»dan burada istifadə, ödəmə terminalları və mobil telefonla biletlərin alışı mümkün olacaq.*

*Prezident İlham Əliyev Bakı–Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınmasını bildirən rəmzi lenti kəsdi və zəngi vurdu.*

*Bu marşrut xətti üzrə sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçün «Stadler Rail Group» şirkətinin sürətli elektrik qatarları istismara verilib. 4 vaqondan ibarət olan elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 919 nəfər, oturacaq yerlərinin sayı isə 396-dır. İkimərtəbəli elektrik qatarlarında biznes-sinfə aid 84 oturacaq da var. Sumqayıtdan Bakıya və əks istiqamətə qatarların hərəkəti müxtəlif intervallarla həyata keçiriləcək. Sərnişinlərin sayından asılı olaraq hərəkət cədvəlinə əlavələr edilə bilər. Bakı–Sumqayıt şəhərətrafı yüksək sürət və rahatlıqla sərnişindaşımanı təmin etmək məqsədilə genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işlərinə start verilib. Sahə üzrə yeraltı piyada keçidi, hündür platformalar, müasir keçid postları inşa edilib, dəmir yollarının əsaslı təmirinə başlanılıb. İndiyədək 60 kilometr yol əsaslı təmir olunub.*

*Dövlətimizin başçısı yeni marşrut üzrə hərəkət edəcək qatarların xidməti heyəti ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Belə gözəl qatarlarda çox yüksək xidmət də olmalıdır. Əminəm ki, belə də olacaq. Azərbaycan dəmir yolu öz səviyyəsini qaldırır. Daha da yüksək səviyyədə olmalıdır. Ən müasir standartlara cavab verməlidir. Bütün imkanlar var. Yeni gözəl qatarlar alınıb. Dəmir yolları çəkilir, yeni xətlər açılır. Bütün bu işlər görülür. Əminəm ki, yaxın zamanlarda Azərbaycan vətəndaşları bu müsbət dəyişiklikləri görəcəklər. Azərbaycan dəmir yolu ölkəmizin ümumi tərəqqisinə uyğun şəkildə inkişaf edir. Çünki bu sahədə islahatlara

böyük ehtiyac var. Bu çox vacib sahədir. Dəmir yolu sistemində minlərlə insan işləyir. Bizim xətlərimiz yenilənməlidir.

Bakı–Sumqayıt xətti qısa müddət ərzində tikilib, bu gün istifadəyə verilir. Həm xətt yenilənib – indi qatarlar yüksək sürətlə işləyəcək – həm də qatarlar ən yüksək səviyyəyə malikdir. Dünyanın inkişaf etmiş ölkələrində olan qatarlar bu gün Azərbaycanda da var. Sizin üçün gözəl uniformalar da tikilib. Əminəm ki, çox gözəl mədəni xidmət göstərəcəksiniz, sərnişinlər də razı qalacaqlar. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 sentyabr 2015-ci il*

# SABUNÇU RAYONUNDA ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN 148 SAYLI TAM ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də – Bilik Günündə Bakının Sabunçu rayonunda əsaslı şəkildə yenidən qurulan 148 saylı tam orta məktəbin açılışı mərasimində iştirak etmişdir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, məktəbin köhnə binası 1936-cı ildə hərbi hospital kimi fəaliyyət göstərib. Burada indiyədək heç vaxt əsaslı təmir işləri aparılmayıb. 2014-cü ilin noyabrından bu tədris ocağının əsaslı surətdə yenidən qurulmasına başlanılıb və yüksək standartlara uyğun şəkildə başa çatdırılıb.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Diqqətə çatdırıldı ki, yenidənqurma və əsaslı təmir işləri çərçivəsində məktəbin əsas binası sökülərək əvəzində yenisi inşa olunub, əlavə korpus isə əsaslı təmir edilib. Məktəbin foyesində ulu öndər Heydər Əliyevin təhsilə göstərdiyi qayğını, prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına əsasən Sabunçu rayonunda təhsil ocaqlarının müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində görülən işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Üçmərtəbəli binanın yeni korpusunda 22, əlavə korpusunda isə 18 sinif otağı var. Burada fizika, kimya, biologiya, informatika, hərbi hazırlıq fənn kabinetləri, əmək təlimi otaqları var. Məktəbin binasında kitabxana, akt və idman zalları, linqafon, tibb, musiqi və rəsm otaqları yaradılıb. Otaqların hamısı müasir avadanlıq və əyani vəsaitlərlə təchiz edilib.*

*Məktəbdə tədris 1 növbədə aparılacaq. Burada Azərbaycan və rus bölmələri üzrə ümumilikdə 930-a yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 75 müəllim məşğul olur.*

*Məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Ötən tədris ilində məktəbi bitirən 58 məzunun əksəriyyəti ali məktəblərə qəbul olub. Məzunların 2-si 600-dən, 5-i isə 500-dən yuxarı bal toplayıb.*

*Təhsil ocağında müxtəlif musiqi dərnəkləri də fəaliyyət göstərir. Bu dərnəklərdə musiqiyə xüsusi marağı olan 100-dən çox istedadlı şagird məşğul olur. Təhsil ocağının yeməkxanası və konfrans zalı da ən müasir səviyyədədir. Məktəbin həyətində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Həyətyanı sahədə futbol, voleybol və basketbol meydançaları inşa edilib.*

*Azərbaycanda məktəblərin bu cür yüksək standartlara uyğun, əsaslı şəkildə yenidən qurularaq şagirdlərin istifadəsinə verilməsi təhsilə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Yeni məktəb binalarının inşası, mövcudlarının isə ən müasir tələblər səviyyəsində qurulması ümumilikdə ölkəmizdə təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi və xalqımızın intellektual potensialının üzə çıxarılması işinə xidmət etmək baxımından olduqca əhəmiyyətlidir.*

*Məktəbdə yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev təhsil ocağının müəllim və şagirdləri ilə görüşdü.*

*Dövlətimizin başçısı yeni dərs ili münasibətilə məktəbin müəllim və şagird kollektivini təbrik etdi.*

**İlham Əliyev:** Hörmətli müəllimlər, uşaqlar!

Sizi yeni dərs ili münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, uşaqlar yaxşı oxusunlar, müəllimlər də uşaqlara yaxşı bilik versinlər.

Eyni zamanda, bu gün çox əlamətdar gündür, bu məktəb faktiki olaraq yenidən tikilib.

Buraya gələndə mənə əvvəlki məktəbin vəziyyətini göstərdilər. Gördüm ki, məktəbin binası çox bərbad, təmirsiz və qəzalı

vəziyyətdə olub. Əvvəlki məktəb sökülüb, onun yerində indi gözəl, yaraşıqlı, rahat bina tikilib. Əlavə korpus da əsaslı təmir edilib. Qısa müddət ərzində tikinti işləri aparılmışdır. İndi bu məktəb bütün yüksək standartlara cavab verir – geniş sinif otaqları, geniş dəhlizlər, gözəl, yaraşıqlı akt zalı, açıq, qapalı idman zalları. Yəni burada yaxşı oxumaq üçün bütün imkanlar var. Bu məktəbin tikintisi bir daha onu göstərir ki, Azərbaycan dövləti təhsilə, gənc nəslin hazırlanmasına çox böyük əhəmiyyət verir.

Bu il Bakı şəhərində 10-dan çox məktəb binası əsaslı şəkildə təmir edilib və tikilib. Son illər Bakıda 250-dən çox məktəb yenidən qurulub, tikilib, təmir edilib. Bakıda məktəblərin sayı təqribən 350-dən çoxdur. Bu proses davam edir. Əminəm ki, yaxın 1-2 il ərzində Bakıda bir dənə də təmirsiz məktəb binası qalmayacaq.

Həmçinin ölkəmizdə də bütün işlər yaxşı gedir. Son 10 il ərzində bölgələrdə 3 mindən çox məktəb tikilib. Demək olar ki, təhsilin maddi-texniki bazası xeyli möhkəmlənib. Təhsilin keyfiyyəti artır və daha da artmalıdır. Belə gözəl məktəbdə nəticələr daha yaxşı olmalıdır. Çünki təhsilin səviyyəsi hər bir ölkənin ümumi səviyyəsini şərtləndirir. O ölkələr sürətlə inkişaf edir ki, orada insanlar biliklidir, savadlıdır.

Bizdə savadlılıq ən yüksək səviyyədədir, təxminən 100 faizə yaxındır. Hesab edirəm ki, bu da böyük nailiyyətdir. Ancaq dünyada gedən texnoloji inkişaf, elmin inkişafı, yeni texnologiyaların yaranması tələb edir ki, biz də öz inkişafımızı dünyada gedən meyillərə uyğunlaşdıraq. Burada təhsilin səviyyəsi ən başlıca şərtdir.

Bizim gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, həyatda özlərinə layiqli yer tutsunlar və eyni zamanda, ölkəmizin ümumi inkişafına da töhfələrini versinlər. Bilikli, savadlı cəmiyyətdə heç bir xoşagəlməz təsirin əhəmiyyəti olmayacaqdır. Çünki biz görürük ki, bu gün dünyada bəzi hallarda ideoloji müharibələr gedir, əsasən də gənclərlə bağlı xüsusi proqramlar icra edilir. Qloballaşma adı ilə müxtəlif ölkələrdə müəyyən tədbirlər görülür.

Nəticə etibarilə bu, ölkələrdə problemlərə gətirib çıxarır. Biz çalışmalıyıq ki, Azərbaycanın dayanıqlı, uğurlu inkişafını əbədi edək. Çünki biz bu gün dünyada inkişafla bağlı öz modelimizi ortaya qoymuşuq. Bu gün dünyada Azərbaycanın inkişaf modeli haqqında danışılır. Bu modelin əsasında bizim müstəqilliyimiz, milli dəyərlərimiz, vətənpərvərliyimiz və müstəqil siyasətimiz dayanır.

Bu gün dünyanın bir çox yerlərində gedən prosesləri gənclər də izləyir və görür. Gənclər formalaşmaqda olan insanlardır və onlara təsir etmək bəzi hallarda o qədər də çətin olmur. Ona görə biz gənclərimizi yad təsirlərdən, bizə xas olmayan dırnaqarası dəyərlərdən qorumalıyıq.

Qloballaşma adı altında eyniləşmə gedir. Bəzi beynəlxalq dairələr sanki təsir məntəqələrini yaratmaq istəyirlər. Bizim isə öz yolumuz var. Biz əsrlərboyu müstəqillik arzusu ilə yaşamışıq və bu gün müstəqil ölkə kimi yaxşı yaşayırıq. Ölkədə təhlükəsizlik, əmin-amanlıq hökm sürür, ictimai-siyasi asayiş qorunur, sabitlik, inkişaf var. İndi baxın, ölkələrin bir çoxunda böhran yaşanır. Azərbaycanda isə belə gözəl məktəblər tikilir, yollar salınır, abadlıq işləri aparılır. Bu il biz Avropa oyunlarını ən yüksək səviyyədə keçirdik. Burada da gənclərimizin rolunu xüsusilə vurğulamaq istəyirəm. Çünki medalları qazananlar da, bizim şöhrətimizi ucaldanlar da gənclərdir. Bu oyunların təşkilində minlərlə gənc könüllü kimi iştirak edirdi. Budur bugünkü Azərbaycan reallıqları və biz bunu qorumalıyıq. Gənclər gələcəkdə ölkəmizi idarə edəcəklər. Azərbaycanın gələcəyi onların biliyindən, savadından, Vətənə bağlılığından asılıdır.

Bu gün Azərbaycan etibarlı əllərdədir. Heç bir kənar qüvvə bizim iradəmizə, müstəqilliyimizə təsir edə bilməz. Nə qədər çalışsalar da bunun heç bir əhəmiyyəti yoxdur. Bizə qarşı yönələn təzyiqlər, təhdidlər, hücumlar da müstəqil siyasətimizə görədir. Bəzi qüvvələr istəyirlər Azərbaycanı özlərinə tabe etsinlər ki, biz başqalarının iradəsi ilə yaşayaq, hərəkət edək. Bu mümkün deyil. Çünki bizim uğurlu inkişafımız ancaq müstəqil siyasətdədir. Müstəqil siyasət xalqımızın iradəsinə, milli dəyərlərimizə və

maraqlarımıza əsaslanır. Bizim üçün ilk növbədə, Azərbaycanın maraqlarıdır, Azərbaycan vətəndaşlarının təhlükəsizliyi, rifahıdır.

Görəndə ki, bu təzyiqlər və şər-böhtan kampaniyaları səmərə vermir, başqa üsullara əl atırlar. Biz buna hazırıq, layiqli cavabımızı veririk və verəcəyik. Elə etməliyik ki, bizim uğurlu inkişafımıza heç bir kənar qüvvə mane olmasın. Əminəm ki, belə də olacaq. Çünki bu gün Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulub, kifayət qədər güclü potensiala malikdir və biz ölkəmizi inamla idarə edirik.

Əsas məsələ ondadır ki, gənc nəsil də, bax, bu milli ruhda tərbiyə alsın. Bu, bu gün biliklə, savadla eyni əhəmiyyətə malik məsələdir. Siz müəllimlər də çalışın ki, gənclərimiz, uşaqlarımız milli ruhda tərbiyə alsınlar, Vətənə bağlı olsunlar, Vətəni sevsinlər və müstəqilliyi hər şeydən üstün bir dəyər kimi qəbul etsinlər. Xüsusilə bugünkü reallıqlar kifayət qədər əsas verir ki, hər bir vətənpərvər insan öz ölkəsi ilə fəxr etsin. Çünki bizim həm beynəlxalq müstəvidə, həm ölkə daxilində siyasətimiz, görülən işlər doğrudan da çox dəyərlidir.

Vətənpərvərlik, milli ruh, milli dəyərlər – budur bizim cəmiyyətimizin əsasları. Bəzi xarici qüvvələr bu əsasları sarsıtmaq, bizi öz köklərimizdən ayırmaq istəyirlər. Biz əsrlərboyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq öz milli mənliyimizi, dilimizi, dinimizi, adət-ənənələrimizi qorumuşuq. Bu gün də qoruyuruq və qoruyacağıq. Bizim cəmiyyətimizin mənəvi dayaqlarını sarsıtmaq istəyənlər ölkəmizi məhv etmək istəyirlər. Budur məqsəd. Ona görə güclü milli-mənəvi dəyərlər əsasında qurulmuş bugünkü Azərbaycan regionun sabitliyində də öz rolunu oynayır. Gənc nəsil Vətənə bağlı, vətənpərvər, Vətəni hər şeydən üstün tutan insanlar olmalıdır.

Bu gün biz informasiya əsrində, internet dövründə yaşayırıq. Azərbaycanda internet istifadəçilərinin sayı 75 faizə qalxıb. Balaca uşaqlar da internetdən bizdən yaxşı istifadə edirlər. Bütün informasiyalar da göz qabağındadır. Görün indi Avropada hansı dəhşətli hadisələr baş verir, müharibədən qaçan yazıq insanlara,

qaçqınlara hansı işgəncələr verilir. Budurmu Avropa dəyərləri?! Budurmu uzun illər bəyan etdikləri prinsiplər?! Bəs haradadır tolerantlıq, haradadır multikulturalizm, xeyirxahlıq, mərhəmət?! Biz bunu görmürük. Nəyi görürük – dini, milli zəmində ədavət, ayrı-seçkilik, diskriminasiya, ksenofobiya, islamofobiya, faşizm, irqçilik. Budurmu dəyərlər?! Bəziləri bunları bizdə də tətbiq etmək istəyirlər. Belə dəyərlər bizə lazım deyil. Qoy özləri üçün qalsın.

Bu gün Avropa məkanında yaşanan böhran mənəvi böhrandır, mənəvi sarsıntıdır. Avropa dəyərləri, demək olar ki, onların bəyan etdikləri kimi görünmür, biz bunu görmürük. Bu gün dünya dəyişir, beynəlxalq hüquq pozulur, bəzi ölkələr və dairələr iç üzlərini açırlar, daha pərdələnə bilmirlər. Ona görə biz buna hazır olmalıyıq.

Milli dəyərlər, mənəviyyat, vətənpərvərlik, ləyaqət, milli qürur – budur bizim dəyərlərimiz. Biz bu dəyərləri qoruyacağıq və bizə qarşı aparılan kampaniyalara layiqli cavabımızı veririk və verəcəyik. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə, bizi müstəqillik, azadlıq yolundan döndərə bilməz. Mən xüsusilə bu gün bunu Bilik Günündə deyirəm ki, gənclər də eşitsin, siz də, bütün Azərbaycan gəncləri, bütün Azərbaycan ictimaiyyəti də bunu bilsin. Biz ölkəmizi qoruyacağıq və Azərbaycan xalqının seçimini müdafiə edəcəyik. Bizim seçimimiz isə inkişaf, tərəqqi, sabitlik, xoş niyyət, xeyirxahlıqdır. Budur Azərbaycan dəyərləri – bəyan etdiyimiz və həyatda gördüyümüz dəyərlər.

Ona görə mən əminəm ki, qarşımızda duran bütün vəzifələri uğurla icra edəcəyik. Bizim iradəmiz, güclü iqtisadi imkanlarımız və müstəqil siyasətimiz var. Belə gözəl əsərləri biz yaradırıq və yaradacağıq ki, bizim uşaqlar yaxşı məktəblərdə oxusunlar, müəllimlər də yaxşı yerlərdə işləsinlər. Sizi bir daha təbrik edirəm.

**Esmira Babayeva** *(məktəbin direktoru):* Biz çox şadıq və həqiqətən, çox sevinirik ki, Sizin göstərişiniz əsasında çox qısa müddətdə belə bir gözəl, əzəmətli məktəb binası şagirdlərimizin istifadəsinə verilib. Biz kollektivimiz adından Sizi əmin edirik ki, bundan sonra da məktəbimizin göstəriciləri zirvələrə qalxacaq.

**İlham Əliyev:** Çox sağ olun!

# RUSİYA FEDERASİYASININ SƏHİYYƏ NAZİRİ VERONİKA SKVORTSOVA İLƏ GÖRÜŞ

*15 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Rusiya Federasiyasının Səhiyyə naziri xanım Veronika Skvortsovanı qəbul etmişdir.*

*Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının açılışını əlamətdar hadisə kimi dəyərləndirən dövlətimizin başçısı Rusiya Federasiyasının nüfuzlu ali təhsil ocaqlarından artıq ikincisinin ölkəmizdə fəaliyyətə başladığını vurğulayaraq, bu universitetdə də təhsilin yüksək səviyyədə olacağına əminliyini bildirdi.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetində mükəmməl səviyyədə təhsil aldığını qeyd edən Rusiya Federasiyasının Səhiyyə naziri Veronika Skvortsova Mehriban Əliyevanın bu ali təhsil ocağını əla qiymətlərlə bitirdiyini və bunu təsdiq edən sənədlərin universitetin muzeyində saxlanıldığını məmnuniyyətlə vurğuladı. Rusiyanın Səhiyyə naziri Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında təhsilin nəzəri və praktiki hazırlıq baxımından ən yüksək və müasir səviyyədə olacağına əminliyini ifadə etdi.*

*Tələbələrdə ilk kursdan xəstələrlə işləmək bacarığının formalaşdırılmasının əhəmiyyətinə toxunan Rusiyanın Səhiyyə naziri bu məqsədlə xüsusi klinikanın seçilməsi məsələsinin də müzakirə olunduğunu dedi. Professor-müəllim heyətinin peşəkarlığının ən yüksək səviyyədə olduğunu deyən nazir bu məsələnin daim nəzarətdə saxlanılacağını bildirdi.*

*Prezident İlham Əliyev Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının yaradılması ideyasının qısa vaxt ərzində uğurla həyata keçirildiyini dedi. Azərbaycanda səhiyyə sahəsində*

*görülən işlərə toxunan dövlətimizin başçısı paytaxtda və regionlarda ən müasir tibb ocaqlarının inşa edildiyini və yüksək tələblərə cavab verən tibbi avadanlıqlarla təchiz edildiyini diqqətə çatdırdı. Dünyada səhiyyənin sürətlə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanda da əhaliyə yüksəkkeyfiyyətli tibbi xidmət göstərilməsinə böyük diqqət ayrıldığını bildirdi. Hər il Dövlət Proqramı çərçivəsində azərbaycanlı gənclərin dünyanın müxtəlif ali məktəblərinə təhsil almaq üçün göndərildiyini deyən dövlətimizin başçısı bu cür ixtisaslaşmış universitetlərin ölkəmizdə yaradılmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu söylədi.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində inkişaf etdiyi bildirildi və bu sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ÇEX RESPUBLİKASININ PREZİDENTİ MİLOŞ ZEMANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*15 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Çex Respublikasının Prezidenti Miloş Zemanın sentyabrın 15-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Çex Respublikasının Prezidenti Miloş Zemanı və xanımı İvana Zemanovanı qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Çex Respublikasının Prezidentinə raport verdi.*

*Çex Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndirildi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Çex Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Miloş Zemana, Çex Respublikasının nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

# ÇEX RESPUBLİKASININ PREZİDENTİ MİLOŞ ZEMAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*15 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın sentyabrın 15-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu səfərin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi. Əlaqələrimizin möhkəmləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*15 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın sentyabrın 15-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Nümayəndə heyətinin üzvləri!

Bir daha Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, Sizi görməkdən məmnunam. Bu Sizin ölkəmizə ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaq və biz ikitərəfli əlaqələrdə irəli addımlayacağıq.

Bir qədər əvvəl müzakirələrdə dediyimiz kimi, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Əlaqələr bir çox sahələri əhatə edir və yaxşı təmələ malikdir. Biz siyasi, iqtisadi, mədəni, enerji sahələrində əməkdaşlıq edirik. İkitərəfli səviyyədə bizim aramızda tam qarşılıqlı anlaşma var.

Biz Sizinlə bir neçə dəfə Çex Respublikasında, digər yerlərdə görüşmüşük və indi Bakıda görüşürük. Əlaqələrimizin inkişafı və regional məsələlərlə bağlı bizim aramızda tam qarşılıqlı anlaşma var.

Bu gün biz regional vəziyyəti də müzakirə etdik. Regional sabitlik, proqnozlaşdırma imkanı müsbət inkişafın mühüm elementlərindəndir. Sabitliyin pozulduğu ölkələrdə biz çox mənfi nəticələrin şahidi oluruq. Çex Respublikası və Azərbaycan yaxşı tərəfdaş, dost ölkələrdir. Sözsüz ki, biz əsas diqqəti iqtisadi əməkdaşlığın stimullaşdırılmasına yönəldəcəyik.

Sabah biz ölkələrimizin biznes dairələri ilə görüşəcəyik. Biznes sahəsində böyük potensial var. Biz sözsüz ki, indi bunu nümayəndə heyətlərinin iştirakı ilə geniş müzakirə edəcəyik, lakin Sizin səfəriniz ərəfəsində mənim əldə etdiyim məlumat

qarşılıqlı ticarətdə yaxşı irəliləyişin, artımın olduğunu göstərir. Biz ticarətin strukturuna diqqət yetirməli və onu indikindən daha da balanslaşdırılmış etməliyik.

Cənab Prezident, bir daha xoş gəlmisiniz! Əminəm ki, Azərbaycanda vaxtınızı mənalı keçirəcəksiniz, ölkəmiz barədə daha çox məlumat əldə etmək imkanınız olacaq. Çox sıx səfər proqramınız var. Sizə ən xoş arzularımı çatdırıram. Təşəkkür edirəm.

**M i l o ş  Z e m a n:** Təşəkkür edirəm, cənab Prezident!

İcazə verin, Sizin sözünüzü təkrarlayım. Dediyiniz kimi, əməkdaşlıq barədə xoş sözlər söyləmək gözəldir, lakin konkret müqavilələri imzalamaq bundan da yaxşıdır. Mən haqlıyammı? Çox gözəl. Mən və mənim həmkarlarım ölkənizə hansısa problemi həll etmək üçün gəlməmişik. Çünki bizim aramızda, ümumiyyətlə, problem yoxdur. Biz iqtisadi əməkdaşlığımızın potensialından istifadə etmək, bu potensialı daha da artırmaq üçün buradayıq.

* * *

*Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd olundu, iqtisadi əməkdaşlığımızın inkişafından məmnunluq ifadə edildi və bu əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi. Nəqliyyat, energetika, qarşılıqlı investisiya qoyuluşu, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*15 sentyabr 2015-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın iştirakı ilə Azərbaycan–Çexiya sənədləri imzalanmışdır.*

*«Azərbaycan Respublikası ilə Çex Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çex Respublikasının Prezidenti Miloş Zeman imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Çex Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Çex Respublikasının Kənd Təsərrüfatı nazirinin müavini xanım Yaroslava Beneş Şpalkova imzaladılar.*

## ÇEX RESPUBLİKASININ PREZİDENTİ MİLOŞ ZEMAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*15 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın sentyabrın 15-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra birgə mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfər çox uğurlu keçəcək və səfərin nəticələri ölkələrimizi bir-birinə daha da yaxın edəcəkdir.

Əlaqələrimiz uğurla inkişaf edir. Siyasi, iqtisadi, mədəniyyət sahəsində çox gözəl nəticələr vardır. Biz siyasi sahədə uğurlu əməkdaşlıq edirik. Beynəlxalq müstəvidə də, beynəlxalq təşkilatlar çərçivəsində də birgə fəaliyyət göstəririk, əməkdaşlıq edirik. Bu gün biz Sizinlə əlaqələrimizin müxtəlif aspektlərini geniş və səmimi şəkildə müzakirə etdik. Bir daha görürük ki, ikitərəfli əməkdaşlığın dərinləşməsi üçün heç bir maneə yoxdur, əksinə, bizim aramızda tərəfdaşlıq və dostluq əlaqələri yaranıbdır.

Bu gün imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə bu sözlərimin əyani sübutudur. Bu çox ciddi siyasi sənəddir, ikitərəfli əlaqələrimizin səviyyəsinin mahiyyətini əks etdirir və doğrudan da əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə qaldırıbdır.

Mən Sizə məlumat verdim ki, bizim Avropa İttifaqına üzv ölkələrlə buna bənzər 7 müqavilə, anlaşma, Bəyannaməmiz vardır. Artıq Avropa İttifaqına üzv ölkələrin 8-i ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlər imzalanıbdır.

Bu Bəyannamədə əlaqələrimizin müxtəlif aspektləri öz əksini tapıb. Eyni zamanda, bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və münaqişənin həlli yolları da göstərilib. Bu mövqeyə, bu dəstəyə görə Sizə minnətdaram. Bəyannamədə göstərilir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun Aktı, ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı əsasında öz həllini tapmalıdır. Bu, yeganə mümkün həll variantıdır. Bütün münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır.

Uzun illərdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi – Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 bölgə erməni işğalı altındadır. Bu bölgələrdə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bu siyasət nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Torpaqlarımızın 20 faizi işğal altındadır və Ermənistan bu işğalçı siyasətini davam etdirir, beynəlxalq vasitəçilərin çağırışlarına məhəl qoymur. Bu məsələ ilə məşğul olan Minsk qrupunun həmsədrləri – Rusiya, Fransa və Amerika Birləşmiş Ştatları ən yüksək səviyyədə bəyan etmişlər ki, bu münaqişə ilə bağlı status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi təbii ki, işğala son qoyulması deməkdir. Biz bunu istəyirik, beynəlxalq birlik də bunu istəyir və əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və beləliklə, beynəlxalq hüquq və ədalət zəfər çalacaqdır.

Bəyannamədə digər sahələr də öz əksini tapıb. Bizim iqtisadi sahədə çox uğurlu əməkdaşlığımız var. Deyə bilərəm ki, bu gün biz həm heyətlər səviyyəsində, həm də ikitərəfli formatda daha çox iqtisadi əməkdaşlığı müzakirə etmişik. Burada gözəl

potensial var. Ölkələrimiz arasında ticarət dövriyyəsi artır. Eyni zamanda, Çex banklarının Azərbaycanda müvafiq layihələrinin icrasına böyük miqdarda vəsait ayrılır. Buna görə də minnətdarıq. Çünki bu vəsait imkan verir ki, Azərbaycanda müxtəlif infrastruktur layihələri icra edilsin, ilk növbədə, nəqliyyat sektorunda. Bu barədə də biz geniş fikir mübadiləsi apardıq və əlbəttə ki, biz əldə edilmiş nəticələri yüksək qiymətləndiririk. Eyni zamanda, biz gələcəyə baxmalıyıq. Əminəm ki, sabah keçiriləcək Çexiya–Azərbaycan biznes-forumu ikitərəfli iqtisadi əməkdaşlığın dərinləşməsi üçün mühüm hadisə olacaqdır.

Qarşılıqlı investisiyaların qoyuluşu məsələləri əhəmiyyət kəsb edir. Həm Çex Respublikası, həm Azərbaycan xarici sərmayə üçün çox məqbul ölkələrdir. Xarici sərmayələr yüksək səviyyədə qorunur. Çalışmalıyıq ki, bizim iş adamlarımız bir-birini daha da yaxından tanısınlar və əməkdaşlıq dərinləşsin. Bu yaxınlarda hökumətlərarası Komissiyanın iclası keçirilmişdir. Bu da çox önəmli formatdır. Beləliklə, əminəm ki, gələcək illərdə iqtisadi sahədə daha da uğurlu nəticələr olacaqdır. Bu gün artıq deyə bilərəm ki, ticarət dövriyyəsinin səviyyəsi müəyyən dərəcədə bizi qane edə bilər.

Energetika sektorunda əməkdaşlıq da, əlbəttə ki, danışıqlar mövzusudur. Azərbaycan Çexiyaya xam neft ixrac edir. Çexiyanın enerji balansında Azərbaycan nefti müəyyən bir hissəni – təxminən 30 faizi təşkil edir. Bu da çox önəmli hadisədir. Azərbaycan hazırda «Cənub Qaz Dəhlizi»nin icrası ilə məşğuldur. Bu, nəhəng enerji layihəsidir. Bu layihənin ümumi dəyəri 45 milyard dollara bərabərdir. Burada «Şahdəniz-2» qaz yatağının ikinci fazasının işlənməsi məsələsi öz həllini tapacaq. Eyni zamanda, 3 yeni qaz kəməri çəkiləcəkdir. «Cənubi Qafqaz» qaz kəməri – Azərbaycanı Gürcüstanla birləşdirən, TANAP – Türkiyə ərazisindən keçən və TAP – Türkiyə sərhədindən İtaliya sərhədlərinə qədər uzanan 3-cü qaz layihəsidir. «Şahdəniz-2» qaz yatağının işlənməsi ilə bərabər, bu 4 nəhəng layihə «Cənub Qaz Dəhlizi»ni formalaşdırır və burada Azərbaycan öz liderlik funksiyalarını uğurla yerinə yetirir.

Azərbaycan bütün bu layihələrdə investor kimi iştirak edir. Bəzi layihələrdə əsas investor kimi iştirak edir. Baxmayaraq ki, dünyada neftin qiyməti son aylar kəskin şəkildə aşağı düşüb, bu layihənin icrasında heç bir yubanma yoxdur, bütün işlər vaxtında görülür. Azərbaycan tam əmindir ki, beynəlxalq əməkdaşlıq nəticəsində bu layihə öz həllini tapacaq və beləliklə, Avropaya Azərbaycandan yeni qaz kəmərinin tikintisi təmin ediləcəkdir.

Digər sahələrdə də əməkdaşlıq üçün yaxşı perspektivlər var. Mən xüsusilə humanitar sahəni qeyd etmək istəyirəm. Azərbaycanda Çexiya mədəniyyətinə, tarixinə çox böyük maraq var. Əminəm ki, cənab Prezident, Siz və Sizinlə bərabər Azərbaycana gəlmiş nümayəndə heyətinin üzvləri bu sahə ilə də tanış olacaqsınız.

Bir daha Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Əminəm ki, səfəriniz çox uğurlu olacaqdır.

## Çex prezidenti Miloş Zemanın bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İcazə verin, cənab prezident Əliyevin sözlərinə davam olaraq təkrar edim ki, Azərbaycan ixracımız baxımından bizim üçün mühüm ölkədir. Biz neftimizin təxminən 30 faizini Azərbaycandan idxal edirik. Bununla belə, Azərbaycan digər səbəblərə görə də bizim üçün yaxın ölkədir. Əhalimizin sayı, demək olar ki, eynidir. İqtisadi artım tempi kifayət qədər məqbuldur. İşsizliyin səviyyəsi isə aşağıdır. Lakin bir məsələni də qeyd etmək istərdim. Prezident Əliyev təvazökarlıq baxımından onu demədi. Azərbaycan öz öhdəliklərini yerinə yetirən ölkədir. Sizi əmin edə bilərəm ki, Azərbaycanda olan əla maliyyə durumu heç də bütün ölkələrdə yoxdur. Mənə bildirildi ki, Azərbaycan ərazisində apardığımız fəaliyyətin sığortalanmasına gəldikdə, heç bir işin pozulması və ya sığorta halı olmamışdır. Cənab Prezident, mən bunu yüksək dəyərləndirirəm. Bütün bunlar hamıya aydın olan, lakin adı

çəkilməyən ölkələrlə müqayisədə Azərbaycana olan etimadı daha da artırır.

Biz həmçinin bir sıra iqtisadi və ticari məsələləri müzakirə etdik. Qeyd etmək istərdim ki, Çexiyanın iş adamları Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin birinci mərhələsinə uğurla sərmayə qoymuşlar. Artıq tikintinin ikinci mərhələsi başlanılır. Ümidvaram ki, bu sahədə də əməkdaşlığımız uğurlu olacaq. İnfrastruktur baxımından bu layihə kifayət qədər genişmiqyaslıdır. Azərbaycanın ikinci şəhəri Gəncənin İcra Hakimiyyətinin başçısı şəhər nəqliyyatı, o cümlədən aşağıgərginlikli tramvaylarla bağlı Çex Respublikasına müraciət etmişdir. Çünki heç kəsin xətrinə dəyməmək üçün bildirim ki, adı çəkilməyən ölkənin verdiyi ilk təklif qəbuledilməz idi. Çexiyanın təklifi daha münasib oldu. Əlbəttə, işlədiyimiz ənənəvi sahələr, xüsusən də müdafiə sənayesi, eləcə də Azərbaycanın polis qüvvələri üçün istər radar, istərsə də digər silah növləri baxımından əməkdaşlığa hazırıq.

İmzalanmış sənəddə göstərildiyi kimi, biz kənd təsərrüfatı sahəsində əməkdaşlığa açığıq. Bildiyimiz qədər, bu sahədə Azərbaycan öz məhsullarının bir hissəsini ixrac edir və bu baxımdan özünü təmin edən ölkədir. Bundan əlavə, onlarla digər nümunə gətirə bilərəm. Lakin fikrimcə, onlar haqqında biz sabah biznes-forumda söhbət açacağıq. Hamınızı həmin tədbirdə görməyi arzulayıram. Sabah bu haqda daha dolğun danışacaq şəxsləri qabaqlamaq istəməzdim.

Yekun olaraq, bildirmək istərdim ki, mən cənab Prezidenti Çex Respublikasına səfərə dəvət etdim. Qeyd edim ki, Prezidentin rəhbərliyi altında Çex Respublikasına da bir sıra Azərbaycan sərmayələri qoyulsa, çox şad olaram. Ölkəmizdə mehmanxanalar və kurortlar, investisiya baxımından digər münasib məkanlar var. Tam əmin ola bilərsiniz ki, Çexiyada qoyulmuş maliyyə sərmayələri özünü doğruldacaq. Çex Respublikası bu baxımdan Mərkəzi Avropada kifayət qədər təhlükəsiz yerdir. Təbii ki, digər tədbirlər çərçivəsində də görüşəcəyik. Lakin Praqada gələcək görüşümüzü səmimiyyətlə

arzulayıram. İnanıram ki, bu görüş baş tutacaq və həmin görüşdə atılmış yeni iqtisadi addımları qeyd edə biləcəyik.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**M i r o s l a v  K a r a s:** *(Çex Televiziyası):* **Azərbaycan parlamenti müvafiq parlamentar qurumla əməkdaşlığını dayandırır və ölkənin «Şərq Tərəfdaşlığı» Proqramındakı iştirakına yenidən baxmağı planlaşdırır. Cənab prezident Əliyev, Azərbaycan deputatlarının mövqeyi ilə bağlı nə deyə bilərsiniz?**

**İ l h a m  Ə l i y e v**: Azərbaycan parlamentinin dünənki qərarının səbəblərini yəqin ki, siz bilirsiniz. Bir neçə gün bundan əvvəl Avropa Parlamenti Azərbaycan ilə bağlı qətnamə qəbul etmişdir. Deyə bilərəm ki, bu qətnamə tamamilə əsassızdır, yalan, böhtan, qərəzli münasibət üzərində qurulmuş bir siyasi təxribatdır. Biz bilirik ki, bunun arxasında hansı qüvvələr dayanır. Bu qüvvələr bundan əvvəl dəfələrlə Azərbaycana qarşı əsassız ittihamlar irəli sürmüş, bizi şantaj etmişlər. Onların yeganə məqsədi ondan ibarətdir ki, inkişafda olan, müasir, müstəqil siyasət aparan, tolerant, multikulturalizmin məkanı olan Azərbaycanı ləkələsinlər, gözdən salsınlar və Avropada Azərbaycan haqqında yanlış, tamamilə həqiqətə zidd bir rəy yaratsınlar. Burada, əlbəttə ki, biz erməni lobbisinin rolunu da görürük və hesab edirəm ki, Avropanın müvafiq hüquq-mühafizə orqanları Avropa Parlamentinin bəzi üzvləri ilə erməni lobbiçiləri arasındakı gizli əlaqələri araşdırsalar pis olmaz.

Onu da qeyd etmək istəyirəm ki, bizə qarşı bu çirkin əməllərdə fəal iştirak edən deputatların bəziləri Azərbaycanın ayrılmaz hissəsi olan və işğal edilmiş Dağlıq Qarabağa bu vaxta qədər dəfələrlə qanunsuz səfərlər etmişlər və beləliklə, Azərbaycan qanunlarını kobudcasına pozmuşlar. Eyni zamanda, bir daha demək istəyirəm, əfsuslar olsun ki, bu gün Avropa məkanında, xüsusilə Avropa Parlamentində antiazərbaycan qruplaşması

yaranıbdır. Bu qruplaşma əlindən gələni etməyə çalışır ki, Azərbaycanı gözdən salsın və imicini ləkələsin. Bizim üçün, bir prezident kimi, mənim üçün Avropa Parlamenti tərəfindən qəbul edilmiş bu qətnamə kağız parçasından başqa bir şey deyil. Mən buna əhəmiyyət vermirəm. Bunu pisləyirəm, bu qətnamə bizim iradəmizə, tutduğumuz mövqeyə heç bir təsir etməyəcək. Azərbaycanı özünə tabe etmək istəyən xarici dairələrə də sözüm ondan ibarətdir ki, sizin bütün səyləriniz əbəsdir. Azərbaycanın müstəqil, milli maraqlar üzərində formalaşmış siyasətinə heç bir kənar qüvvə şantaj, böhtan yolu ilə təsir edə bilməz.

O ki qaldı Azərbaycan parlamentinin reaksiyasına, hesab edirəm ki, bu reaksiya gözlənilən idi. Çünki Azərbaycan parlamenti müstəqil qurum kimi, öz rəyini ifadə etdi, deputatların çoxu öz çıxışlarında fikirlərini söylədilər və onların sözündə həqiqətdən başqa heç bir şey yoxdur.

Birincisi, kimisə ittiham etməzdən əvvəl sən bir güzgüyə bax. Bu gün Yaxın Şərqdən bütün dünyanın gözü qarşısında Avropaya pənah aparan qaçqınların taleyi göz qabağındadır. O insanlar xarici müdaxilənin qurbanlarıdır. O insanların ölkələri dağıdılıb, yerlə yeksan edilib. Kim bunu edib? Xarici qüvvələr o ölkələri dağıdıb. Ölkələrin ərazi bütövlüyünü pozub. Yüz minlərlə insanı məhv edib. Milyonlarla insan öz yaxınlarını itirib. Bu faciəvi şəraitə dözməyən insanlar artıq Avropaya gəlməyə başlayıblar. Görün onları Avropada nələr gözləyir – islamofobiya, irqçilik, ksenofobiya! Budurmu Avropa dəyərləri?! Avropa Parlamenti bu məsələlərlə məşğul olsa daha yaxşı olar.

Bu gün Avropa dəyərlərinin sarsıdılması prosesi gedir. Avropa həmişə bizim bölgədən mütərəqqi, müasir, tolerant bir məkan kimi görünürdü. Ancaq bu gün bunu, əfsuslar olsun ki, çox nadir hallarda görürük. Aqressiv, başqa ölkələrin işinə müdaxilə edən, tolerantlığı, demək olar ki, itirən dairələr bu gün, əfsuslar olsun, Avropa Parlamentində və bəzi digər qurumlarda hökmranlıq edir.

Ona görə bir daha demək istəyirəm ki, Azərbaycan parlamentinin qərarı tam əsaslıdır. Bildiyiniz kimi, Avronest Avropa

Parlamenti ilə «Şərq Tərəfdaşlığı» ölkələri arasında Parlament Assambleyası qurumu kimi nəzərdə tutulmuşdu. Əgər hansısa bir ölkə ilə bağlı suallar olarsa, onlara Avronest çərçivəsində baxıla bilərdi. Amma Avronest faktiki olaraq amorf bir qüvvəyə çevrilib və heç bir fəaliyyət göstərmir. Belə olan halda, təbii ki, Azərbaycan parlamenti Avronestdəki fəaliyyətini dayandırır. Bu, Azərbaycan parlamentinin suveren hüququdur və siz yəqin onu da bilirsiniz ki, Avropa Parlamenti ilə Azərbaycan parlamenti arasındakı əməkdaşlıq fəaliyyəti də artıq dayandırılıbdır. Budur bizə qarşı aparılan çirkin kampaniyanın nəticələri. Azərbaycan bizə qarşı atılan hər bir addıma adekvat cavab verib və bundan sonra da verəcəkdir.

**İlham Əhmədov** *(Azərbaycan Televiziyası):* **Sualım Çex Prezidentinədir. Cənab Prezident, Siz öz müsahibənizdə qeyd etmişdiniz ki, Çexiya Azərbaycan iqtisadiyyatına investisiya qoymaqda maraqlıdır. Dünyada gedən maliyyə-iqtisadi böhranı şəraitində ölkələrimizin iqtisadi inkişaf baxımından davamlılığının təmin edildiyini nəzərə alsaq, bu sahədə əməkdaşlıq üçün yaxşı perspektivlər var. Sizin fikrinizcə, Çexiya Azərbaycanda hansı konkret sahələrə investisiya qoya bilər? Çox sağ olun.**

**Miloş Zeman**: Fikrimcə, giriş nitqimdə bu haqda artıq danışmışam. Söhbət dəmir yolu xətlərinin çəkilməsi, vaqon və lokomotivlərin təchizatı, enerji sahəsində əməkdaşlıqdan gedir. Bu cür işbirliyi nəinki Azərbaycan, o cümlədən Gürcüstan ərazisində aparıla bilər. Onlarla müxtəlif layihənin olduğu kənd təsərrüfatı sahəsində əməkdaşlıq qurula bilər.

Nəqliyyat sahəsinə gəldikdə, aşağıgərginlikli tramvaylarla bağlı layihəni artıq qeyd etdim. Əlbəttə, dediyim kimi, silah, yükdaşıyan nəqliyyat sahəsində də əməkdaşlığa hazırıq. İstərdim ki, Azərbaycanda Çex avtomobilləri təşviq olunsun və burada 30-a yaxın digər layihə siyahısını təqdim edə bilərəm. Lakin istərdim ki, bu haqda biznes-forumda danışaq.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*15 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Çex Respublikasının Prezidenti Miloş Zemanın şərəfinə sentyabrın 15-də rəsmi ziyafət verilmişdir.*

*Çex Respublikasının Prezidenti Miloş Zemanı bir daha Azərbaycanda salamlayan prezident İlham Əliyev bu səfərin ölkələrimiz arasında münasibətlərin yaxşı göstəricisi olduğunu bildirdi. İndiyə qədər müxtəlif yerlərdə bir neçə dəfə səmərəli görüşlər keçirdiklərini deyən dövlətimizin başçısı bunun da ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı zəmin yaratdığını diqqətə çatdırdı. «Çexiya bizim üçün strateji tərəfdaşdır» – deyən prezident İlham Əliyev qeyd etdi ki, həm Çexiya, həm də Azərbaycan ikitərəfli münasibətlərin inkişafı, əməkdaşlığın daha da gücləndirilməsi üçün əlindən gələni edir.*

*Səfər zamanı əməkdaşlığa dair yeni layihələrlə bağlı müzakirələrin aparıldığını deyən dövlətimizin başçısı onların reallaşacağı təqdirdə ölkələrimiz arasında əmtəə dövriyyəsinin artacağını diqqətə çatdırdı. Prezident İlham Əliyev investisiya, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə toxunaraq qarşılıqlı səfərlərin, iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası Komissiyanın fəaliyyətinin buna daha da təkan verəcəyini bildirdi. Dövlətimizin başçısı səfər çərçivəsində strateji tərəfdaşlığa dair imzalanan Birgə Bəyannamənin əhəmiyyətindən danışdı, onun ikitərəfli münasibətləri daha da möhkəmləndirəcəyini bildirdi.*

*Çex Respublikasının Prezidenti Miloş Zeman prezident İlham Əliyevlə görüşündən məmnun qaldığını dedi. O, Azərbaycan dövlətinin başçısı ilə hər bir görüşünün qarşılıqlı anlaşma*

*şəraitində keçdiyini vurğuladı. Çex Respublikasının Prezidenti Azərbaycana ilk dəfə səfər etdiyini və bu səfərin uğurla keçdiyini diqqətə çatdırdı. O, Azərbaycanda müdrikliklə idarə olunan güclü dövlətin bərqərar olmasını, sabitliyin və inkişafın hökm sürməsini yüksək qiymətləndirdi.*

## AZƏRBAYCAN–ÇEX BİZNES-FORUMU

*16 sentyabr 2015-ci il*

*Bakıda sentyabrın 16-da Azərbaycan–Çex biznes-forumu keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çex Respublikasının Prezidenti Miloş Zeman biznes-forumda iştirak etmişlər.*

*Dövlət başçıları biznes-forumda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Biznes-forum iştirakçıları!

Sizi bir daha Azərbaycanda salamlamaq istəyirəm. Dünən cənab Prezidentlə bizim ikitərəfli münasibətlərimiz barədə çox geniş müzakirələrimiz və fikir mübadiləsi oldu. İkitərəfli münasibətlərimizin inkişafı çox müsbət və dinamikdir. Əlaqələrimiz iki ölkənin maraqlarına xidmət edir. Bu cür müsbət inkişaf sayəsində biz Çex Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığımızın bütün sahələrini, o cümlədən iqtisadi əlaqələrimizi əhatə edən strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzaladıq.

Münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsi ölkələr arasında mümkün ən yüksək səviyyədir. Fikrimcə bu, iqtisadi münasibətlərin və işgüzar dairələr arasında təmasların daha fəal şəkildə inkişaf etdirilməsi üçün möhkəm zəmindir. Hesab edirəm ki, işgüzar dairələrimizin biznes fəaliyyətini əlaqələndirmək üçün iqtisadi sahədəki işlərə aid mühüm məsələlərlə məşğul olan birgə hökumətlərarası iqtisadi Komissiya kimi səmərəli mexanizmə malikik.

Bu tədbir biznesmenlərimiz arasında keçirilən ilk biznes-forum deyil. Lakin bu biznes-forumda hər iki prezident ölkələrimizin iş adamlarını daha fəal şəkildə əməkdaşlıq etməyə həvəsləndirəcək. İqtisadi tərəfdaşlığın genişləndirilməsi üçün bir çox imkanlar mövcuddur.

Dünən cənab Prezidentlə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşlər zamanı artıq hansı işlərin görüldüyünü və gələcək planlarımızı müzakirə etdik. Biz Çex Respublikası banklarının Azərbaycanda həyata keçirilən layihələrdə iştirakından çox məmnunuq. Bu layihələr bizə öz infrastrukturumuzu müasirləşdirməyə imkan yaradır. Eyni zamanda, Azərbaycan etibarlı tərəfdaş kimi, maliyyə öhdəliklərini tam yerinə yetirir. Fikrimcə, bu həmçinin münasibətlərimizdə yaxşı göstəricidir və biz bir-birimizə etimad göstərə bilərik. Artıq sınaqdan keçmişik.

Hesab edirəm ki, gələn illər ərzində əməkdaşlığın ənənəvi sahələrinə diqqət yetirəcəyik və yeni sahələri müəyyən edəcəyik. Mən əməkdaşlığın ənənəvi sahələri arasında daşımalar sektorunu qeyd etmək istərdim. Çünki biz coğrafi mövqemizdən mümkün qədər geniş şəkildə istifadə olunması üçün Azərbaycanda daşımalar infrastrukturunun müasirləşdirilməsinə böyük sərmayələr yatırırıq. Hazırda Şərq–Qərb dəmir yolu dəhlizinin tamamlanması mərhələsindəyik. Həmçinin Çex Respublikası banklarının dəstəyi ilə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həyata keçirilməsinin son mərhələsindəyik. Bu layihə Azərbaycan və digər ölkələr vasitəsilə Asiyanı Avropa ilə birləşdirəcək və yeni daşımalar dəhlizini açacaq. Bu, Bakıda Yeni Beynəlxalq Dəniz Ticarət Limanının və Xəzər dənizinin şərq sahilində oxşar məkanların tikintisi ilə eyni zamanda baş tutacaq. Bununla olduqca etibarlı, iqtisadi baxımdan sərfəli daşımalar marşrutlarını yaradacağıq.

Dünən mən qonağımıza, həmçinin Azərbaycanın fəal iştirak etdiyi Şimal–Cənub dəhlizi haqqında məlumat verdim. Şimal–Cənub dəhlizi milyonlarla ton əlavə yükün Azərbaycan və qonşu ölkələr vasitəsilə daşınmasını mümkün edəcək. Bu isə

fikrimcə, Asiyada, bizim bölgəmizdə və Avropada bütün iştirakçılar üçün faydalıdır. Mən Çexiya maliyyə təsisatlarını bu layihəyə sərmayə qoymaq və maliyyə dəstəyi göstərmək üzərində ciddi düşünməyə dəvət edirəm.

Hesab edirəm ki, yeni addımlar atılacaq digər əməkdaşlıq sahəsi enerji sektorudur. Bu gün biz artıq çox fəal şəkildə işləyirik. Azərbaycan Çex Respublikasının olduqca etibarlı neft təchizatçısıdır. Bildiyimiz qədər, ölkənizdə neft istehlakının təxminən üçdəbir hissəsi Azərbaycan tərəfindən təmin edilir. Biz bu əməkdaşlığı davam etdirməyi planlaşdırırıq.

Azərbaycan artıq Avropanın qaz bazarında mühüm iştirakçıya çevrilməkdədir. Azərbaycan tərəfindən irəli sürülmüş «Cənub Qaz Dəhlizi» layihəsi hazırda fikrimcə, Avropada gələcək bir neçə il ərzində ümumi investisiya həcmi 45 milyard dollardan çox olan ən böyük infrastruktur layihələrindən biridir. Bu layihədə Azərbaycan investor, podratçı və layihənin təşkilatçısı kimi, geniş şəkildə iştirak edir. Bunun sayəsində biz hasil edə biləcəyimiz qədər qazı ixrac edə biləcəyik və Avropa istehlakçılarına təchizat marşrutlarını şaxələndirməkdə yardım edəcəyik. Bu vəziyyətdən biz – hasilatçılar, tranzit haqlarından geniş şəkildə fayda götürəcək tranzit ölkələr və alternativ marşrutlara malik olacaq istehlakçılar, yəni bütün tərəflər udur. Enerji təhlükəsizliyi və digər sahələrdə alternativin olması istənilən halda yaxşıdır.

Azərbaycan hazırda Avropa üçün mövcud olan yeganə yeni qaz mənbəyidir. Bütün digər potensial təchizatçıları da tanıyırıq. Lakin digər təchizatçılara gəldikdə, təchizatın mümkünlüyü hələ də çox aydın deyil. Bizə gəldikdə isə artıq bəzi qonşularımızla qazın satışı ilə bağlı müqavilə də imzalamışıq. Azərbaycanın nəhəng qaz ehtiyatlarını, yəni ölkəmizin təsdiqlənmiş 2.6 trilyon kubmetrlik qaz ehtiyatlarını nəzərə alsaq, bu layihə gələn onilliklər üçün kifayət edəcək layihədir.

Fikrimcə, bu layihənin icrasında biz Çex şirkətləri ilə əməkdaşlıq yollarını müəyyən edə bilərik və müəyyən mərhələdə Çex Respublikasına təchizat məsələlərini də nəzərdən keçirə

bilərik. Çünki Azərbaycan təbii resurslarını təchiz edəcək ölkələrin coğrafiyasını da genişləndirə bilər.

Əlbəttə, Azərbaycanda daha çox Çex şirkətlərini investor kimi görmək istərdik. Ölkəmizdə yaxşı sərmayə mühiti var və xarici sərmayələr qanunvericiliyimizlə lazımi şəkildə qorunur. Ötən il Azərbaycana 27 milyard dollar sərmayə yatırılmışdır. Onların təqribən 30–35 faizi birbaşa xarici sərmayələrdir. Hətta iqtisadi böhranın ağır illərində ölkədə çox yüksək xarici sərmayə səviyyəsini görürük. Xarici şirkətlər bizə etimad göstərir, bizi tanıyır. Biz etibarlı tərəfdaşıq və hər zaman öhdəliklərimizi yerinə yetiririk. Sərmayə mühiti çox müsbətdir.

Bundan əlavə, Azərbaycan iqtisadiyyatı dünyanın 40 ən rəqabətcil iqtisadiyyatlarından biridir. Davos Dünya İqtisadi Forumunun hesablamalarında qlobal rəqabətədavamlılıq indeksinə görə, biz 38-ci yerdəyik. Bu nəticəni biz qısa müddət ərzində əldə etmişik. Müstəqilliyimizi bərpa etdiyimiz vaxt iqtisadiyyat 100 faiz dövlət sektorunda formalaşırdı. Hazırda iqtisadiyyatın, ümumi daxili məhsulun 80 faizindən çoxu özəl sektor tərəfindən təmin edilir.

Fikrimcə, şirkətləriniz üçün kənd təsərrüfatı sahəsi cəlbedici ola bilər. Çünki ölkəmizdə həyata keçirilmiş infrastruktur layihələri, o cümlədən geniş qonşu bazarlara asan çıxış kənd təsərrüfatı sahəsində sərmayə qoymaq və birgə müəssisə qurmaq baxımından Azərbaycanı maraqlı məkana çevirir. Hesab edirəm ki, bu imkan da nəzərdən keçirilə bilər.

Son bir neçə il ərzində biz müasir yüksək texnologiyalar sahəsinə böyük sərmayələr qoymuşuq. Artıq kosmos sənayesini yaratmışıq. 2 peykimiz var. Biri telekommunikasiya sahəsində «Azərspace», digəri müşahidə işində «Azərsky» peykləridir. Bir sözlə, ölkədə kosmik sənaye də inkişaf edir. Elmi təsisatlarımız səviyyəsində birgə fəal iş apara və əməkdaşlığımızı daha da genişləndirə bilərik.

Azərbaycanda ümumi iqtisadi vəziyyətə gəldikdə, durum sabitdir. Bu ilin ilk 8 ayı ərzində iqtisadiyyat 4 faizdən çox artıb. Qeyri-enerji sektorunda artım 7 faizdən çox olub. Birbaşa

xarici borcun səviyyəsi çox aşağıdır və təxminən 10 faizdən bir az çoxdur. Bütün bunlar sərmayələrin cəlb edilməsində və müxtəlif şirkətlərlə əməkdaşlıq qurulmasında çox müsbət elementlərdir.

Dünən biz Azərbaycan şirkətlərinin Çex Respublikasına sərmayə yatırmaq imkanlarını da müzakirə etdik. Sizin ölkə sərmayələr baxımından çox cəlbedicidir və inkişaf edib. Ölkəniz güclü sənaye potensialına və iqtisadi sabitliyə malikdir. Bildiyimizə görə, bir çox Avropa ölkələrində çətin iqtisadi və maliyyə vəziyyəti inkişafınıza mənfi təsir göstərməyib. Rəhbərliyinizi bu nailiyyətlərə görə təbrik etmək istərdim.

Hesab edirəm, ölkələrimiz öz bölgələrində nümayiş etdirirlər ki, güclü siyasi iradə, yalnız milli maraqlara əsaslanan müstəqil xarici siyasət və çox düşünülmüş iqtisadi siyasət ilə biz uğurları əldə edə və hətta çətin vaxtlarda da iqtisadi sabitliyi qoruyub saxlaya bilərik. Çünki təsəvvür edin, neftin qiymətlərinin 2 dəfədən çox aşağı düşməsi bizim üçün ciddi çağırışdır. Bu il üçün büdcəmiz qəbul edilən zaman, neftin qiyməti bir barrelə 90 dollar səviyyəsində hesablanmışdı. Lakin indi qiymət 46 dollar olmuşdur. Aydındır ki, gözlədiyimiz gəlirləri almadıq. Amma şaxələndirmə sayəsində və ümumi daxili məhsulun 70 faizinin qeyri-enerji sektorunda istehsal olunması nəticəsində sabitliyi qoruyub saxlaya bildik, bütün sosial proqramları həyata keçirdik və sərmayələri hələ də davam etdiririk.

Başqa sözlə, mən işgüzar dairələrimiz arasındakı əməkdaşlığa çox nikbin baxıram. Birincisi, güclü siyasi dəstək var. Bunu bu gün biz nümayiş etdiririk. İkincisi, əməkdaşlıq sahəsində artıq çox müsbət təcrübə var. Üçüncüsü isə, iqtisadiyyat və işgüzar qruplarımızın potensialı çox böyükdür və biz yeni əməkdaşlıq sahələrini tapmaq üçün hər şeyi etməliyik. Əminəm ki, bu biznes-forum bu istiqamətdə çox mühüm addım olacaq.

Cənab Prezident, Sizə və bütün qonaqlara bir daha «Xoş gəlmisiniz!» – deyirəm. Əminəm ki, Azərbaycana səfərinizdən məmnun olacaqsınız. Sağ olun.

* * *

*Çex Respublikasının Prezidenti Miloş Zeman ölkələrimiz arasında müəyyən oxşarlıqların olduğunu və bu bənzərliyin iqtisadi sahədə də özünü göstərdiyini dedi. Belə ki, Azərbaycan kimi, Çex Respublikası da Avropa məkanında işsizliyin və xarici borcun aşağı həddə olması ilə fərqlənir.*

*Ölkəsinin idxal etdiyi neftin 30 faizdən çoxunun Azərbaycandan gəldiyini deyən Miloş Zeman Çexiyada 200-dən çox azərbaycanlı tələbənin təhsil aldığını bildirdi, bu sahədə əlaqələrin genişləndirilməsinin mümkünlüyünə toxundu.*

*Prezident Miloş Zeman ölkələrimiz arasında sıx əməkdaşlığın qurulduğunu vurğulayaraq bu nailiyyətin biznes dairələrini də əhatə etməsinin vacibliyinə diqqət çəkdi və əmin olduğunu bildirdi ki, yaradılan imkanlardan hər iki tərəf faydalanacaq.*

*Forum işini təqdimatlar və iş adamları arasında ikitərəfli görüşlərlə davam etdirdi.*

# TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ FERİDUN SİNİRLİOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Türkiyə Respublikasının Xarici İşlər naziri Feridun Sinirlioğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Feridun Sinirlioğlunu Türkiyə Respublikasının Xarici İşlər naziri təyin edilməsi münasibətilə təbrik etdi, fəaliyyətində ona uğurlar arzuladı. Feridun Sinirlioğlunun ilk xarici səfərini Azərbaycana etməsinin önəmini vurğulayan prezident İlham Əliyev bir ənənə olaraq ölkələrimizin prezidentlərinin də ilk xarici səfərlərini qardaş ölkələrə etmələrini münasibətlərimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan–Türkiyə ikitərəfli əlaqələrinin təməlində qardaşlıq duyğularının dayandığını deyən dövlətimizin başçısı bu təməl üzərində çox gözəl ikitərəfli münasibətlərin qurulduğunu məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, bu gün ölkələrimiz arasında elə bir sahə yoxdur ki, uğurla inkişaf etməsin. Azərbaycan ilə Türkiyənin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, mədəniyyət və digər sahələrdə uğurlu əməkdaşlığının yaxşı nəticələr verdiyini deyən dövlətimizin başçısı əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı mütəmadi olaraq aparılan müzakirələrin önəmini qeyd etdi. Prezident İlham Əliyev bu yaxınlarda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışdığını və ikitərəfli məsələlərlə bağlı müzakirələr apardığını xatırladaraq Azərbaycanın bütün məsələlərdə daim Türkiyənin yanında olduğunu dedi. Dövlətimizin başçısı Türkiyə Respublikasının Xarici İşlər naziri Feridun Sinirlioğlunun ölkəmizə bu səfərinin*

*də ikitərəfli və regional məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.*

*Feridun Sinirlioğlu Türkiyə Respublikasının Xarici İşlər naziri kimi, Azərbaycana səfər etməkdən qürur duyduğunu dedi. O, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyənin Baş naziri Əhməd Davudoğlunun salamlarını dövlətimizin başçısına çatdırdı. Feridun Sinirlioğlu öz növbəsində, həm Azərbaycanın, həm də Türkiyənin dövlət və hökumət başçılarının, müxtəlif səviyyəli qurumların rəhbərlərinin ilk səfərlərini qardaş ölkələrə etməsinin gözəl bir ənənə olduğunu və bunun davam etdirilməsinin önəmini qeyd etdi. Azərbaycanın Türkiyə üçün qardaş və tərəfdaş ölkə olduğunu vurğulayan qonaq dövlətimizin müstəqilliyinin ilk illərindən başlayaraq xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin zamanında və prezident İlham Əliyevin rəhbərliyi dövründə ölkəmizdə gedən sürətli inkişaf proseslərinin şəxsən şahidi olduğunu bildirdi. O, ölkəmizə budəfəki səfəri zamanı da gördüklərinin onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd edərək, Azərbaycanın son 23 ildə fövqəladə şəkildə inkişaf etdiyini vurğuladı. Feridun Sinirlioğlu Türkiyənin Azərbaycanı «G-20»nin Antalyada keçiriləcək Zirvə toplantısına dəvətini bir daha diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Əhməd Davudoğlunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## KÜRDƏMİR RAYONUNA SƏFƏR

*17 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmir rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzində Heydər Əliyev adına parkda ümummilli liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov prezident İlham Əliyevə ulu öndərin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, bu parkdakı fəvvarə yenidən tikilib, burada oturacaqlar quraşdırılıb, yaşıllıq işləri görülüb. Parkda istər rayon sakinləri, istərsə də qonaqların mənalı istirahəti üçün bütün şərait yaradılıb.*

### Bayraq Meydanının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmir şəhərində Bayraq Meydanının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Bayraq Meydanının yerləşdiyi ərazinin əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə baxdı.*

*Sonra dövlət başçısı Bayraq Meydanının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, meydanda hündürlüyü 62 metr olan bayraq dirəyi ucaldılıb. Dirəyin yerləşdiyi üst meydançada Dövlət himninin mətni, Dövlət gerbinin və Azərbaycanın xəritəsinin təsvirləri yerləşdirilib. Burada prezident İlham Əliyevin Dövlət bayrağı haqqında söylədiyi kəlam qızıl hərflərlə həkk olunub. Bayraq Meydanı əhalinin asudə vaxtının səmərəli təşkili, dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik*

*ənənələrinə sədaqət* ruhunda *tərbiyə* edilməsi *işinin* yaxşılaş-dırılması *məqsədilə inşa* olunub.

Qeyd edildi ki, 5 hektar *sahədə yerləşən* Bayraq Meydanının *ərazisində* geniş *abadlıq*-quruculuq *işləri* görülüb, *fəvvarələr quraşdırılıb.* Meydanda Bayraq Muzeyi *inşa* edilib, rayon *gənclərinin asudə* vaxtının *və istirahətinin səmərəli təşkili məqsədilə gənclər* kafesi *inşa* olunub. Burada, *həmçinin* idman *qurğuları meydançası,* velosiped *zolağı salınıb.*

Prezident İlham *Əliyev* Bayraq Muzeyi *ilə tanış* oldu.

*Diqqətə çatdırıldı* ki, *muzeydə ölkəmizin tarixində* mövcud olmuş bayraqlar, *şəhərlərin gerbləri, Azərbaycanın* orden *və medallarının, həmçinin qədim pullarının nümunələri* yer *alır. Muzeydə* ulu *öndər Heydər Əliyevin və* prezident İlham *Əliyevin Dövlət bayrağına bəslədikləri hörmət və* ehtiramları *özündə əks* etdirən tarixi fotolar *böyük* maraqla *qarşılanır.*

*Möhtəşəmliyi ilə diqqəti cəlb edən* Bayraq Meydanı *kürdəmirlilər və* rayona *gələn qonaqların hər* birinin *qəlbində* iftixar *və* qürur hissi *oyadır. Bütövlükdə,* geniş *yaşıllıq işlərinin* aparıldığı kompleks rayonda *gedən abadlıq*-quruculuq *tədbirlərinin ardıcıl* xarakter *aldığını* nümayiş etdirir. Müasir *səviyyədə inşa* olunan bu meydan indi rayonun *ən gözəl yerlərindən birinə* çevrilib.

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 100 yerlik Körpələr evi-uşaq bağçasının açılışı mərasimi**

*Azərbaycan* Respublikasının Prezidenti İlham *Əliyev* sentyabrın 17-*də Kürdəmirdə Heydər Əliyev* Fondunun *təşəb-büsü ilə inşa* olunan 100 yerlik *Körpələr* evi-uşaq *bağçasının açılışında iştirak* etmişdir.

Bu gün *dövlətimizin həyata* keçirdiyi sosial-iqtisadi si-*yasətdə uşaqların təlim-tərbiyəsinin təşkili,* onların *sağlamlığı-nın* qorunması da xüsusi *diqqət mərkəzindədir.* Bu *məsələdə dövlətin həyata* keçirdiyi *layihələrə Heydər Əliyev* Fondu mühüm *töhfələr* verir. Bunu *Heydər Əliyev* Fondunun «*Mək-*

*təbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı bir daha təsdiqləyir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb və mühüm nəticələr əldə edilib. Kürdəmirdə inşa olunan uşaq bağçası da Fondun həyata keçirdiyi bu cür layihələrin ardıcıl xarakter aldığını bir daha aydın göstərir.*

*Dövlətimizin başçısı əvvəlcə binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ikimərtəbəli binanın foyesində ümummilli lider Heydər Əliyevin və Azərbaycan prezidenti İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Burada geyinib-soyunma, oyun, yataq, kompüter otaqları, idman, musiqi və gimnastika zalları fəaliyyət göstərəcək. Bundan başqa, binada tibb və müəllimlər otaqları da var. Körpələr evi-uşaq bağçasında 30 nəfər pedaqoji işçi çalışacaq.*

*Bir sözlə, binada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait qurulub. Burada qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Təhsil ocağındakı bütün otaqlar lazımi avadanlıqlarla təchiz edilib. Burada balacaların intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanacaq. Bağçanın ərazisində dekorativ hasar çəkilib, yaşıllıq zolağı salınıb, gül kolları əkilib, 2 yay çardağı, attraksion meydançası quraşdırılıb. Ümumi sahəsi 1200 kvadratmetr olan bina havalandırma sistemləri, camaşırxana, transformator yarımstansiyası, nasosxana ilə təchiz olunub.*

# MOLLAKƏND–AXTAÇI –ÖYLƏQULU AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmirdə Mollakənd–Axtaçı–Öyləqulu avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycanın dövlət siyasətinin sosialyönümlülüyü görülən hər bir işdə, icra olunan hər bir layihədə özünü büruzə verir. Uzun illər boyu təmir olunmadığına görə yararsız vəziyyətə düşmüş kənd yollarının abadlaşdırılması bunun əyani sübutudur. Hər bir yaşayış məntəqəsinin abadlığının əsas şərti onun yolunun rahat olmasıdır. İndi ölkənin, demək olar ki, əksər regionlarında kənd yollarının təmiri və yenidən qurulması prosesi davam edir. Bu proses Kürdəmir rayonundan da yan keçməyib. İndiyədək rayonun bir çox yaşayış məntəqələrini birləşdirən yollar müasir vəziyyətə gətirilib. Növbəti yenidənqurma işləri Mollakənd–Axtaçı–Öyləqulu avtomobil yolunda həyata keçirilib.*

*Dövlət başçısına məlumat verildi ki, 12 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Mollakənd–Axtaçı–Öyləqulu avtomobil yolunun tikintisinə dövlətimizin başçısının 2012-ci il 7 mart tarixli Sərəncamına əsasən başlanılıb və bu məqsədlə Prezidentin ehtiyat fondundan 3 milyon manat, yol tikinti işlərinin tam başa çatdırılması üçün əlavə 4 milyon manat vəsait ayrılıb. İlkin mərhələdə yolun tikintisi keyfiyyətsiz aparıldığına görə sonradan «Azəryolservis» Açıq Səhmdar Cəmiyyəti tərəfindən texnoloji ardıcıllığa riayət olunmaqla davam etdirilib. Avtomobil yolunun ümumi uzunluğu 28 kilometr, eni 8–10 metrdir. Yolda lazım olan bütün infrastruktur quraşdırılıb.*

*Sonra prezident İlham Əliyev burada sakinlərlə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Yenidən Kürdəmir rayonunda olmağımdan çox məmnunam. Birinci dəfə deyil ki, Kürdəmirdəyəm. Əvvəlki səfərlərdə də bərabər olmuşuq, müxtəlif tədbirlərdə iştirak etmişik. Bir neçə gözəl hadisə baş vermişdi – Kürdəmir Olimpiya İdman Kompleksinin açılışında, Mərkəzi Rayon Xəstəxanasının təmirdən sonra istifadəyə verilməsində, digər obyektlərin açılışlarında iştirak etmişəm. Bu gün isə kənd yolunun açılışını qeyd edirik. Artıq bir müddətdir ki, əhali bu yoldan istifadə edir. Amma bu gün bu yolun rəsmi açılışı günüdür. Çox gözəl layihədir və şadam ki, nəhayət, bu kənd yolu tikilibdir. Vəsait prezident tərəfindən 3 il bundan əvvəl ayrılmışdır. Ancaq əfsuslar olsun ki, əvvəlki rəhbərlik bu işə o qədər də böyük məsuliyyətlə yanaşmamış və yol keyfiyyətsiz tikilmişdir. Mənə məlumat çatdırılandan sonra göstəriş verildi və yeni rəhbərlik bu işlərlə çox ciddi məşğul oldu, bütün nöqsanlar aradan götürüldü. O nöqsanları buraxan şəxslər özləri də bərpa işlərində iştirak etmişlər və nəticədə bu yol artıq bütün yüksək standartlara cavab verir.

Kənd yollarının tikintisi Azərbaycanda, ümumiyyətlə, geniş vüsət alıb. Bir çox hallarda yollar keyfiyyətli tikilir, amma keyfiyyətsiz yollar da hələ ki, var. Ona görə bu məsələyə daim diqqət göstəriləcəkdir. Büdcədən, Prezidentin ehtiyat fondundan vəsait ayrılır, amma yerlərdə insanlar da gərək buna məsuliyyətlə yanaşsınlar.

Kənd yollarının tikintisi indi yerli icra orqanları tərəfindən həyata keçirilir. Burada, əlbəttə ki, ictimai nəzarət də güclü olmalıdır. Mənə icra başçısı məlumat verdi ki, o bura təyin olunandan sonra insanlar bu yolla bağlı çoxsaylı şikayətlər etmişlər, yəni ictimai nəzarət budur. Əgər insanlar bu məsələni qaldırmasaydılar, mən heç bilməyəcəkdim. Amma bu gün bu yol lazımi səviyyədə tikilib, istifadəyə verilir və hər yerdə də belə olmalıdır.

Bu gün məni eşidən bütün icra orqanlarının nümayəndələri bilməlidirlər ki, hər bir sahədə ciddi nəzarət var və ən güclü nəzarət ictimai nəzarətdir. Siz, burada yaşayan insanlar görəndə ki, hər hansı bir ədalətsizlik var, keyfiyyətsiz yollar salınır, yaxud da

başqa xoşagəlməz hallar baş verir, əlbəttə, siqnal verməlisiniz, ilk növbədə, yerli icra orqanlarına, əgər nəticə olmazsa, mərkəzi icra orqanlarına. Beləliklə, Azərbaycanda ictimai nəzarət daha da güclü olmalıdır. Mən dəfələrlə bu barədə demişəm, bir daha demək istəyirəm ki, bizim gördüyümüz bütün işlər xalqın maraqlarına xidmət edir. Bu yolların çəkilişi, infrastruktur layihələrinin icrası da bu məqsədi güdür – hər şey insanlar üçün, Azərbaycan xalqı üçündür. İstəyirəm ki, hər bir yerdə, hər bir rayonda yaxşı yollar, yaxşı tibbi xidmət, gözəl məktəblər olsun ki, insanlar bundan istifadə edib rahat yaşasınlar.

İnfrastruktur layihələrinə gəldikdə, Kürdəmir rayonunda içməli su layihəsi artıq başa çatıb və şəhərə fasiləsiz keyfiyyətli içməli su verilir. Bu, böyük hadisədir. Çünki uzun illər içməli su problemi çox ciddi problem kimi qalmışdı. Bu məsələ öz həllini tapdı. Gözəl, təmiz mənbədən su xətləri çəkilib və şəhərdə indi heç bir problem yoxdur.

Kanalizasiya ilə bağlı işlər də davam etdirilir və yəqin ki, bu layihə 2016–2017-ci illərdə başa çatacaq. Beləliklə, bu ciddi problem də aradan qalxacaqdır.

İçməli su insanın sağlamlığı üçün əsasdır. İndi bütün bölgələrdə içməli su, kanalizasiya layihələri icra edilir. Bu çox ciddi məsələdir və bu, sırf sosial xarakter daşıyır. Bu layihələrə qoyulan vəsait dövlətə heç vaxt qayıtmayacaq, çünki bizdə su tarifləri çox aşağı səviyyədədir və görülən bütün bu işlər ancaq insanların sağlamlığı, rahat yaşamaları üçün nəzərdə tutulur.

Digər infrastruktur layihələri icra edilir. Kürdəmir rayonunda qazlaşdırma yaxşı gedir. Söz verilib ki, ilin sonuna qədər qazlaşdırma təxminən 90 faizə çatacaq. İndi bir çox kəndlərdə işlər davam edir. Bu da mənim göstərişimlə icra edilən layihələrdir. Azərbaycanın hər bir yerində qaz xətləri çəkilir. Elektrik enerjisi, qaz, içməli su, kənd yolları – bunlar əsas infrastruktur layihələridir. Magistral yollar da çəkilir.

Bu gün Bakıdan gəlirəm. Bakı–Kürdəmir yolu artıq genişlənir. Vaxtilə Hacıqabuldan Kürdəmirə qədər ikizolaqlı yol çəkmişdik. Bir neçə il bundan əvvəl onun açılışında iştirak etmişdim. Sonra

göstəriş verdim ki, bunu dördzolaqlı edək. Çünki ikizolaqlı yol bir az təhlükəlidir, xüsusilə gecə vaxtlarında. Dördzolaqlı olanda təhlükəsizlik tam təmin edilir, insanlar rahat gedə bilərlər. İndi yolun böyük hissəsinin tikintisi artıq başa çatıb. Bakıdan Gürcüstan sərhədinə qədər bizim bütün bu İpək yolumuz dördzolaqlı olacaqdır.

Bu gün İmişli–Kürdəmir–Ağsu yolunun açılışını da qeyd edəcəyik. Magistral yollar, bizi başqa ölkələrlə birləşdirən yollar, şəhərlərarası və kənd yolları – bunlar 3 əsas yol layihəsidir.

Beləliklə, nəzərdə tutduğumuz bütün proqramlar icra olunacaq. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Bildiyiniz kimi, bu il «Kənd təsərrüfatı ili» elan edilibdir. Kənd təsərrüfatında çox yaxşı nəticələr var. Tarixdə ilk dəfə olaraq, biz taxılçılıqda hektardan 30-31 sentner məhsul əldə edə bilmişik. Yəni kənd təsərrüfatı ilə məşğul olanlar yaxşı bilirlər ki, heç vaxt belə nəticələr olmamışdı. Nəyə görə? Müasir texnologiyalar tətbiq olunur, gübrələr verilir. İndi subsidiyaların verilməsində şəffaflıq təmin edilir, texnika alınır, lizinq yolu ilə verilir. Əlbəttə, biz ən mütərəqqi təcrübəni öyrənməliyik. İri fermer təsərrüfatları da yaradılır. İri fermer təsərrüfatlarında məhsuldarlıq daha da yüksəkdir – hektardan 50–60 sentner. Görün Azərbaycanda nə vaxt belə nəticələr olub? Hektardan 50–60 sentner ən inkişaf etmiş ölkələrdə olan göstəricidir. Bizim indi 20-yə yaxın iri fermer təsərrüfatımız var. Burada minlərlə insan işləyir. Müasir səviyyə yaradılıbdır və beləliklə, mövcud torpaqlar hesabına biz öz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edə bilərik.

Əlavə tədbirlər görüləcək. Suvarılan torpaqların əraziləri genişlənir. Bilirsiniz ki, böyük su anbarları, kanallar tikilir. Kürdəmir rayonunda da kənd təsərrüfatının inkişafı üçün əlavə tədbirlər görüləcək. Mən bilirəm ki, buna ehtiyac var. Kanallar tikilməlidir. Bu işlər də bizim planımızdadır. Çünki bu gün dünyada ərzaq təhlükəsizliyi ön plana çıxır və getdikcə bu problem daha da kəskinləşəcək. Dünyada əhali artır, amma torpaq sahələri arta bilmir. Ona görə hər bir ölkə məşğul olmalıdır. Biz xaricdən niyə ərzaq məhsulları almalıyıq?! Biz özümüz istehsal etməliyik,

özümüz xaricə satmalıyıq. İndi bəzi məhsullar üzrə buna nail olmuşuq, amma hələ ki, idxaldan asılılığımız var. Fermerlər, kəndlilər üçün şərait yaradılır ki, onlar həm dolansınlar, pul qazansınlar, həm də bizim əhalimizi keyfiyyətli yerli məhsullarla təmin etsinlər. Əgər infrastruktur layihələri olmasa, bunu etmək mümkün deyil. Yol olmasa, indi biznes necə inkişaf edə bilər?! Qaz, elektrik, su, suvarma olmasa, kənd təsərrüfatı necə inkişaf edə bilər?! Ona görə bu məsələlərə kompleks şəkildə yanaşanda nəticələr də əldə olunur.

Hələ 2004-cü ildə birinci regional inkişaf proqramı qəbul olunanda bu məqsədlər qarşıya qoyulub. İndi üçüncü proqram icra edilir, 2018-ci ildə başa çatacaq. Düzdür, indi müəyyən mənada bizim gəlirlərimiz azalır. Özünüz yaxşı bilirsiniz ki, neftin qiyməti düşüb, bu da təbiidir. Ancaq buna baxmayaraq, ölkə iqtisadiyyatının inkişafı, sosial məsələlərin həlli ilə bağlı bütün layihələr icra edilir və gələn ilin büdcəsində də kənd təsərrüfatının inkişafına, sosial məsələlərin həllinə kifayət qədər vəsait ayrılacaq. Bizim maliyyə vəziyyətimiz sabitdir. Öz gücümüzə güvənirik, arxalanırıq. Xarici borcumuz da çox aşağı səviyyədədir. Biz bütün xarici borcumuzu bir gündə ödəyə bilərik. Ona görə ödəmirik ki, buna ehtiyac yoxdur. Hələ ki, kreditlərdən istifadə edirik, amma kreditlərsiz də yaşaya bilərik. İndi ikinci belə ölkə tapılarmı ki, bir gündə xarici borcunu ödəyə bilsin? Çətin.

Bəzi ölkələrin xarici borcu ümumi daxili məhsuldan çoxdur. Onlar borc içində yaşayırlar və borcun üstünə borc gəlir. Nəticə etibarilə xalq əziyyət çəkəcək. Nə vaxtsa, necə deyərlər, bu piramida çökəcək. Əgər mən əmr versəm, biz bütün xarici borcumuzu bir gündə ödəyə bilərik. Budur bizim reallıqlarımız. Bizdə güclü iqtisadiyyat, güclü siyasi iradə, xalq–iqtidar birliyi və bu yol kimi, konkret işlər, nəticələr var. Uşaq bağçasının açılışında olmuşam, kənd məktəbinin açılışında iştirak edəcəyəm. Diyarşünaslıq Muzeyi təmir olunubdur. Gözəl Bayraq Meydanı tikilibdir. 1  ildir ki, yeni rəhbərlik bu işlərlə məşğul olur. Əlbəttə, siz də iştirak edirsiniz, öz dəstəyinizi verirsiniz ki, ölkəmiz daha da güclü olsun, heç kimdən asılı olmasın və Azərbaycanın taleyi

əbədi olaraq Azərbaycan xalqının əlində olsun. Sizi bir daha təbrik edirəm.

**H a c ı o ğ l a n  H a c ı y e v** *(Xəlsə kənd sakini):* Cənab Prezident, mən bir kənd ağsaqqalı kimi, gördüm ki, Siz yolun tarixçəsini bizdən gözəl bilirsiniz. Amma deməyi özümə borc bilirəm, çünki bu lazımdır. Bu yolun aqibətini Siz bizdən gözəl bilirsiniz. Yol çox pis vəziyyətdə idi, çox əziyyət çəkirdik. Təyin etdiyiniz icra başçısına biz iradları bildirdik. O Sizə məlumat verən kimi, çox gözəl nəticəsi oldu. Dədə-babalarımızın görmədiyi bu gözəl yolu Allah Sizin sayənizdə bizə qismət etdi. Allah Sizi, övladlarınızı qorusun! Çəkdiyiniz yollar qədər Allah Sizə uzun ömür qismət etsin.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

**E l m i r a  Ş i x ə l i y e v a** *(müəllimə):* Cənab Prezident, Kürdəmirdə nəinki belə yollar çəkilib, çox işlər görülüb. Son zamanlar Kürdəmir regionun ən gözəl, ən abad şəhərinə çevrilib. Biz buna görə Sizə çox minnətdarıq. Kürdəmirdə hazırda belə şəhərdaxili yollar da salınıb. Özünüz gördünüz – Bayraq Meydanı, uşaq bağçası, məktəblər, səhiyyə ocaqlar – saymaqla qurtarmaz. Yeni Azərbaycan Partiyasının çox gözəl binası tikilib. Bunların hamısına görə Sizə çox böyük təşəkkürümüzü bildiririk.

Mən demək istəyirəm ki, bu gün Azərbaycan nəinki regionun, hətta Avropanın ən gözəl ölkəsidir. I Avropa oyunlarında biz bir möcüzə gördük. Həqiqətən, bütün xalqımızın əli göydə idi ki, Allah-Taala işimizi avand etsin. Allah Mehriban xanıma da cansağlığı versin. Çox böyük iş gördü. Xahiş edirəm, bizim təşəkkürümüzü ona çatdırın. Biz Mehriban xanımın xətrini həddindən çox istəyirik. Allah Sizi, ailənizi, övladlarınızı qorusun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. I Avropa oyunları doğrudan da ən yüksək səviyyədə keçirilib. İstəyirəm onu da biləsiniz ki, məşəlin ölkə üzrə səyahəti də, əlbəttə, tarixi bir hadisə idi. Çünki mən o vaxt göstəriş verdim ki, məşəl hər bir rayona gətirilməlidir. Birinci variantda 10 və ya 12 rayon nəzərdə tutulurdu. Xarici tərəfdaşlarımız belə təklif etmişdilər. Dedim ki, yox, hər bir şəhərdə olmalıdır. Hər bir rayonda məşəl bayramı keçirilməlidir.

Bildiyimə görə, bu bayram Kürdəmirdə də çox möhtəşəm keçib. Minlərlə insan meydanlara, küçələrə axışıb.

**Elmira Şixəliyeva:** Görünməmiş hadisə idi.

**İlham Əliyev:** Biz nəyə qadir olduğumuzu bütün dünyaya göstərdik. 24 il ərzində görün haradan-haraya gəlmişik. Bütün Avropa bizə heyran oldu.

Vaxtilə deyirdilər ki, biz Avropa standartlarına çatmalıyıq. Bu gün biz deyirik ki, hər bir sahədə Azərbaycan standartları var – ictimai həyatda, multikulturalizm məsələlərində, insanlar arasında əlaqələrdə, iqtisadi inkişafda, sabitlikdə. İndi hər şey göz qabağındadır, internet dövründə yaşayırıq. Hər gün televizorda görürük ki, harada nələr baş verir. Azərbaycanda sabitlik var, insanlar sülh, əmin-amanlıq şəraitində rahat yaşayırlar. Biz inkişafla məşğul oluruq. Biz bir çox ölkələr üçün gözəl nümunəyik.

**Gülməmməd Eyvazov** *(Carlı kənd sakini):* Cənab Prezident, dünyanın hər yerində müharibələr gedir, aclıq, böhran, rəzalət, səfalət, haqqa nahaq demək, qaçqınlar. Bu qədər proseslərin içərisində bizi də özlərinə cəlb etmək istəyirlər. Bizdəki sabitliyi, inkişafı görmək istəmirlər. Onlar haqqa nahaq deyirlər. Ona görə ki, cənab Prezident, onların güzgüləri əyridir. Əyri güzgü düz, inkişaf edən, sabit Azərbaycanı görmək istəmir. Çünki o güzgünün özü əyridir. Allah Sizi qorusun. Sizə minnətdarıq.

**İlham Əliyev:** Çox sağ olun.

## Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Azərbaycanda regionların sürətli sosial-iqtisadi inkişafı bir daha göstərir ki, ölkədə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya uğurla davam etdirilir. Paytaxtla yanaşı, bölgələrdə də mühüm sosial layihələr icra olunur. Bu*

*fakt özünü regionlarda, yeni inzibati binaların tikintisində daha aydın büruzə verir. Bölgələrdə inşa olunan inzibati binalar sırasında Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün tikilən binalar da xüsusi yer tutur. Bu sırada partiyanın Kürdəmir rayon təşkilatının binasını da qeyd etmək olar.*

*Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Bunun nəticəsidir ki, ulu öndər Heydər Əliyevin yaratdığı bu siyasi partiya sıralarını getdikcə daha da genişləndirir. Partiyanın ümumi amallar naminə uğurlu fəaliyyətində rayon təşkilatlarının böyük rolu var. Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının yeni inşa olunan inzibati binalarında yaradılan müasir şərait isə əməkdaşlara günün tələbləri səviyyəsində fəaliyyət göstərməyə geniş imkanlar açır. Respublikanın hər yerində olduğu kimi, Kürdəmirdə də YAP üzvləri rayonun inkişafı üçün əllərindən gələni əsirgəmirlər.*

*Tikintisinə 2014-cü ilin noyabr ayında başlanılan bina zəruri infrastruktur, inventar və avadanlıqlarla təchiz edilib. Sahəsi 630 kvadratmetr olan ikimərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası haqqında söylədikləri kəlamlar yazılıb, ümummilli liderin büstü qoyulub.*

*Binada xidməti otaqlarla yanaşı, akt zalı da yerləşir. İkinci mərtəbədə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin partiya ilə bağlı fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb.*

*Bu gün ölkənin həyatında baş verən bütün mühüm hadisələrdə fəal mövqe tutan, inkişafa öz töhfəsini verən Yeni Azərbaycan Partiyası tarixin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranıb. İndi bu partiyanın hər bir üzvü respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir, ümumi amallar naminə həyata keçirilən siyasətə dəstək verir. Kürdəmir rayon təşkilatının timsalında bu siyasi qurumun hər bir üzvü partiyanın yaradıcısı ulu öndər Heydər*

*Əliyevin siyasi kursuna sadiq olduğunu və partiyanın sədri, dövlətimizin başçısı İlham Əliyevin ətrafında sıx birləşdiyini nümayiş etdirir.*

*Yeni binanın ətrafı abadlaşdırılıb, geniş yaşıllıq zolağı salınıb. Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün bu cür müasir binaların inşası bir daha sübut edir ki, ölkəmizin inkişafına mühüm töhfələr verən bu partiyaya inam və etimad daha da artır və onun sıraları həm kəmiyyətcə, həm də keyfiyyətcə zənginləşir.*

## Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı muzeyin yerləşdiyi Qələbə parkına gəldi.*

*Məlumat verildi ki, parkda İkinci dünya müharibəsində həlak olmuş kürdəmirlilərin xatirəsini əbədiləşdirmək məqsədilə tikilmiş abidə son vaxtlar tamamilə yenidən qurulub. Parkda fəvvarələr yenilənib, geniş abadlıq və yaşıllıq işləri görülüb. Bir sözlə, park şəhər əhalisinin istirahət yerinə çevrilib.*

*Tarixi keçmişimizə həssas münasibət dövlət siyasətinin tərkib hissəsidir. Tarixi abidələrin, müqəddəs yerlərin bərpası yeni muzeylərin, mədəniyyət mərkəzlərinin tikintisi milli-mənəvi dəyərlərimizə hörmət və ehtiramın təzahürüdür. Bu proses ölkənin bütün regionlarını əhatə edir. Kürdəmirdəki Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı şəkildə yenidən qurulması qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Muzeydə həm ölkəmizin, həm də Kürdəmirin tarixini əks etdirən çoxlu sayda eksponat var.*

*Bu muzey 33 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb və cəmi 627 eksponatla fəaliyyətə başlayıb. İndi isə prezident İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələrinə*

*əsasən bu maddi-mədəniyyət mərkəzi tamamilə yenilənib və eksponatları zənginləşdirilib.*

*Dövlətimizin başçısı Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, muzeydə əsaslı yenidənqurma işlərinə 2014-cü ildə başlanılıb. Əlavə tikinti-quraşdırma işləri aparılaraq ümumi sahəsi 400 kvadratmetrə çatdırılıb. Burada 2 yeni salon tikilib, əməkdaşlar üçün iş otağı və digər xidməti otaqlar yaradılıb.*

*Muzeyin mövzu-ekspozisiya planı tam şəkildə yenidən işlənib. Hazırda burada 4070 eksponat var. Bu mədəniyyət ocağının mövzu-ekspozisiyası 4 salonda 7 bölmədə nümayiş etdirilir. Ekspozisiyanın 4 bölməsində Kürdəmir rayonunun tarixinə, mədəniyyətinə, məişətinə aid eksponatlar sərgilənir.*

*Muzeydə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Kürdəmir rayonuna səfərlərini, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən fotolar yerləşdirilib.*

*Muzeyin birinci bölməsi Paleolit dövrünün mədəniyyətini və tarixini özündə əks etdirən materiallarla zəngindir. Bölmədə eramızdan əvvəl XVI–XII əsrlərə aid əşyalar nümayiş etdirilir. Qədim Kürdəmir haqqında və ərazidə aparılan arxeoloji qazıntıları əks etdirən materiallar da böyük maraq doğurur. Vaxtilə rus çarı II Nikolayın Kürdəmirdəki Şərab zavodunun açılışında iştirakını əks etdirən foto tarixiliyi ilə diqqəti cəlb edir. Üçüncü bölmədə isə son orta əsrlərə və XX əsrin əvvəlinə aid eksponatlar sərgilənir. Burada erməni terroruna, xüsusilə 1918-ci ildə ermənilərin Kürdəmirdə törətdikləri qırğınlara həsr olunan çoxlu sayda foto və sənədlər toplanılıb.*

*Kürdəmirin tanınmış ziyalılarına həsr olunan bölmədə isə rayonun yetişdirməsi olan tanınmış insanlar barədə geniş məlumatlar toplanılıb. Rayonda aparılan abadlıq-quruculuq işlərinin tarixi, mühüm layihələrin açılışı mərasimləri də xüsusi bölmədə nümayiş etdirilir.*

*Muzeydə aparılan təmir-tikinti işləri çərçivəsində ərazi abadlaşdırılıb, geniş yaşıllıq işləri görülüb, yeni fəvvarə inşa olunub.*

## Möhübbət Əzimov adına Atakişili kənd tam orta məktəb binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Möhübbət Əzimov adına Atakişili kənd tam orta məktəb binasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı sayəsində bu sahədə tamamilə yeni və keyfiyyətli mərhələ başlanıb. Ölkədə müasir məktəb binaları, yeni tədris korpusları inşa olunur, mövcud təhsil müəssisələri isə günün tələbləri səviyyəsində yenidən qurulur. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bütün bölgələri əhatə edib.*

*Yeni məktəb binalarının inşası və onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən mühüm işlər şübhəsiz ki, müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından çox mühüm addımlardandır. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir, dövlət siyasətinin əsas prioritetlərindən biridir. Möhübbət Əzimov adına Kürdəmir rayon Atakişili kənd tam orta məktəb binasının inşası bunu bir daha aydın göstərir. Regionlarda bu cür məktəb binalarının yaradılması həm də ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin uğurla davam etdiyini göstərir.*

*Dövlətimizin başçısı məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi, yaradılan şəraitlə tanış oldu.*

*Təhsil naziri Mikayıl Cabbarov məlumat verdi ki, 624 şagird yerlik bu məktəb nazirliyin sifarişi əsasında inşa olunub. İnşaat işlərinə 2014-cü ilin oktyabr ayında başlanılıb və işlərin keyfiyyətlə, həmçinin qısa müddət ərzində yekunlaşdırılması üçün bütün zəruri addımlar atılıb. Ümumi sahəsi 6 min kvadratmetrə yaxın olan binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Kürdəmir rayonuna səfərlərini əks etdirən fotoguşələr yaradılıb. Məktəbin ərazisində idman meydançası salınıb. 3 mərtəbədən ibarət bina 53 otaqdan, o cümlədən 26 sinif*

*otağından, linqafon, hərbi, kompüter otaqlarından, hər biri 2 ədəd olmaqla, kimya, fizika, biologiya fənn kabinetlərindən, idman zalından və 156 yerlik yeməkxanadan ibarətdir. Məktəbin 96 yerlik akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür.*

*Dövlətimizin başçısı təhsilin yüksək səviyyədə aparılması üçün tapşırıq və tövsiyələrini verdi.*

## AĞSU RAYONUNA SƏFƏR

*17 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmirə səfərini başa çatdıraraq Ağsu rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev məlumat verdi ki, ulu öndərin abidəsinin ucaldıldığı Heydər Əliyev parkında son vaxtlar geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Park rayon sakinlərinin ən sevimli istirahət mərkəzlərindən birinə çevrilib.*

### Ağsu–Kürdəmir–İmişli avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində Ağsu–Kürdəmir hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Ağsu–Kürdəmir–İmişli avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində Ağsu–Kürdəmir hissəsinin açılışında iştirak etmişdir.*

*Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yeniləşdirilməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Ölkə ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yolların müasir standartlar səviyyəsində tamamilə yenidən qurulması ilə yanaşı, regionları, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Bu cür yolların inşası, müasir səviyyədə yenidən qurulması regionların inkişafına müsbət təsirini göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir, həmçinin*

*nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir.*

*Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, dünyanı bürümüş iqtisadi böhrana baxmayaraq, Azərbaycanda bütün layihələr uğurla icra olunur. Bu isə dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasətin bəhrəsini isə hər bir Azərbaycan vətəndaşı öz həyatında hiss edir. Ölkənin yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, bilavasitə dövlətimizin başçısının sərəncam və göstərişləri əsasında dövlət büdcəsi vəsaiti hesabına da iri-miqyaslı layihələr uğurla həyata keçirilir. Onlardan biri də Ağsu–Kürdəmir–İmişli avtomobil yolunun yenidən qurulması layihəsidir.*

*«Azəryolservis» ASC-nin sədr əvəzi Saleh Məmmədov dövlətimizin başçısına Ağsu–Kürdəmir–İmişli avtomobil yolunun yenidən qurulması layihəsi barədə məlumat verdi.*

*Bildirildi ki, ümumi dəyəri 102 milyon manat olan layihənin icrasına 2014-cü ilin iyul ayında başlanılıb. Ümumi uzunluğu 108 kilometr olan yolun 37 kilometrlik Ağsu–Kürdəmir hissəsində tikinti işləri başa çatdırılıb.*

*Ağsu və Kürdəmir rayonları arasında yerləşən, 14 kənddən keçən bu yol həmin ərazidə yaşayan 25 min nəfər əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcək. Üçüncü texniki dərəcəli yolun eni 12, hərəkət hissəsinin eni isə 7 metrdir. Yola 3 laydan ibarət asfalt örtük döşənib. Yol çəkilərkən Yuxarı Şirvan kanalı üzərində uzunluğu 21 metr olan körpü tikilib, Nazirçay və Girdimançay üzərindəki körpülər əsaslı təmir olunub. Çoxlu sayda suötürücü qurğu inşa edilib. Nəqliyyatın təhlükəsiz hərəkəti üçün lazım olan bütün yol nişanları və göstəriciləri quraşdırılıb. Yolun üstündəki bütün yaşayış məntəqələrində müasir tipli dayanacaq tikilib. İnşaat zamanı geniş ərazidə kommunikasiya xətlərinin yerləri dəyişdirilib.*

*Dövlətimizin başçısına Ağsu–Kürdəmir–İmişli avtomobil yolunun qalan hissəsində görülən işlər barədə də məlumat verildi.*

*Diqqətə çatdırıldı ki, layihənin davamı olaraq, magistralın Kürdəmir–İmişli hissəsində 27 kilometr uzunluğunda yolun tikintisi başa çatmaq üzrədir. Hazırda Kürdəmir–Bəhramtəpə hissəsində yolun 38,5 kilometrində asfalt-beton örtüyün üst layının tikintisi və çiyinlərin bərkidilməsi işləri davam etdirilir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı inşaatçılarla görüşdü, layihənin uğurla başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*1997-ci ildə İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda olimpiya hərəkatında yeni mərhələ başlandı və ölkəmiz dünyanın idman ailəsinə daxil oldu. Bu sahənin inkişafının təmin edildiyi Azərbaycan beynəlxalq əhəmiyyətli idman yarışlarının keçirilməsi üçün əlverişli məkan funksiyasını yerinə yetirməyə başladı. 2003-cü ildən prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiyaya uyğun olaraq idman ölkədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Bu dövrün əsas xarakterik xüsusiyyəti ölkədə geniş maddi-texniki bazaya malik idman infrastrukturunun yaradılması, sahənin inkişafı ilə bağlı dövlət proqramlarının qəbul olunması, idmançıların sosial problemlərinin həlli ilə bağlı daha təsirli tədbirlərin görülməsi idi. İlk növbədə, regionlar da daxil olmaqla, bütün ölkə üzrə beynəlxalq standartlara cavab verən yeni, müasir idman qurğularının, olimpiya idman komplekslərinin tikilməsinə başlanıldı. Təxminən bir neçə il ərzində bu məqsədə yüksək səviyyədə nail olundu. Bununla da ölkədə yeni idmançı nəslinin yetişməsini, idmanın kütləviliyinin təmin olunmasını qarşıya əsas məqsəd qoyan prezident İlham Əliyevin bu sahənin inkişafına göstərdiyi diqqət və qayğısı id-*

*mançılarımızın beynəlxalq yarışlarda yüksək nəticələr qazanmasına gətirib çıxardı. Azərbaycan atletləri dünya miqyaslı turnirlərdə, Olimpiya oyunlarında qızıl medallar qazanaraq, ölkəmizin idman statusunu daha da yüksəltdilər.*

*2015-ci ildə tarixdə ilk dəfə Bakıda keçirilən I Avropa oyunlarında da idmançılarımız böyük uğura imza ataraq, ölkəmizin aktivinə 56 medal yazdılar ki, onlardan 21-i qızıl, 15-i gümüş, 20-si isə bürünc medal oldu. Beynəlxalq idman ictimaiyyəti bu oyunların yüksək səviyyədə təşkil olunduğunu bəyan etməklə, prezident İlham Əliyevin və I Avropa oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın rəhbərliyi altında güclü hazırlıq prosesindən sonra ilk Avropa oyunlarının yüksək standartının yarandığını etiraf etdilər.*

*Beləliklə, dövlətimizin idman siyasəti bu gün uğurla davam edir və Ağsuda inşa olunan İdman Kompleksi də bu siyasətin mühüm komponentidir.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan kompleksin tikintisinə 2013-cü ilin may ayında başlanılıb. Tikinti işləri ən yüksək səviyyədə aparılıb və bu ilin sentyabrında başa çatdırılıb.*

*Kompleksin həyətində geniş abadlıq-quruculuq işləri görülüb. Burada ümummilli lider Heydər Əliyevin idmançılara göstərdiyi qayğını, müxtəlif dövrlərdə Ağsuya səfərlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Burada, həmçinin prezident İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqəti və bu rayona səfərlərini əks etdirən fotolar da maraq doğurur.*

*Kompleksdə idmanın bir çox növləri ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılıb. Dövlətimizin başçısı kompleksin üzgüçülük hovuzu ilə tanış oldu.*

*Qeyd edildi ki, uzunluğu 18,5, eni isə 11 metr olan hovuz böyüklər və balacalar üçün nəzərdə tutulub. Burada sauna, masaj otağı və türk hamamı da yaradılıb.*

*Prezident İlham Əliyev kompleksin taekvondo və boks zalında yaradılan şəraitlə maraqlandı.*

*Burada istər yerli, istərsə də beynəlxalq əhəmiyyətli idman tədbirləri keçirmək mümkün olacaq. Bu idman qurğusundakı güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Müasir idman qurğuları ilə təchiz edilən trenajor zalı da idmançıların ixtiyarına veriləcək. Kompleksdə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı və inzibati otaqlar mövcuddur. Binada tennis, bilyard zalları da yaradılıb və bununla da mükəmməl infrastruktur formalaşdırılıb.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi.*

## Yeni Azərbaycan Partiyasının Ağsu rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Yeni Azərbaycan Partiyasının Ağsu rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Yeni Azərbaycan Partiyası ölkəmizin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında və bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir. Azərbaycanın əsas və aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası bütün bu məsələlərdə yaxından iştirak etməklə, xalqın partiyası olduğunu aydın nümayiş etdirir. Bu da ulu öndər Heydər Əliyevin «Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır» kəlamının real həyatda təsdiqini tapdığını göstərir.*

*Yeni Azərbaycan Partiyasının sıralarının ildən-ilə genişlənməsi və fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, şübhəsiz ki, cəmiyyətdə bu siyasi quruma olan etimad, hörmət və nüfuzdan qaynaqlanır. Partiyanın uğurlu fəaliyyətində onun rayon təşkilatlarının da rolu böyükdür. Respublikanın bütün bölgələrində inşa olunan Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarının inzibati binaları müasirliyi ilə seçilməklə yanaşı, həm də inşa olunduğu şəhərin və rayonun gözəlliyinə əlavə çalarlar qatır. Bu binalarda səmərəli fəaliyyət göstərmək üçün maksimum şərait yaradılır.*

*Yeni Azərbaycan Partiyası Ağsu rayon təşkilatının yeni inzibati binası da bu baxımdan diqqəti cəlb edir.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısına məlumat verildi ki, partiyanın inzibati binasının tikintisinə 2014-cü ilin may ayında başlanılıb və bu ilin avqustunda başa çatdırılıb. Tikinti ən müasir standartlara uyğun həyata keçirilib. Ümumi sahəsi 535 kvadratmetr olan bina müasir inventar və avadanlıqlarla təchiz olunub. Binanın foyesində Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası ilə bağlı fəaliyyətlərini əks etdirən maraqlı fotolardan ibarət guşə var. 100 nəfərlik akt zalında partiyanın fəaliyyəti ilə bağlı müxtəlif tədbirlər keçirilə bilər.*

*Partiyanın bölgələrdəki qurumları arasında Ağsu rayon təşkilatı da fəaliyyəti ilə seçilir. Təşkilat hazırda 5 mindən çox siyasi həmfikiri bir araya toplayıb və onun üzvləri rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatına mühüm töhfələr verirlər, aparılan abadlıq-quruculuq və yenidənqurma işlərində yaxından iştirak edirlər. Yeni Azərbaycan Partiyası təşkilatları üçün bu cür müasir inzibati binaların tikilməsi ilk növbədə, işçilərin yüksək səviyyədə fəaliyyət göstərməsinə hesablanıb. Bu eyni zamanda, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikanın ağır günlərində yaranan, çətin və şərəfli yol keçən, ölkənin çiçəklənməsində mühüm xidmətləri olan Yeni Azərbaycan Partiyasına dövlətimizin göstərdiyi diqqəti nümayiş etdirir.*

## AĞSUYA İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Ağsuya içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı «Milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihə» çərçivəsində həyata keçirilən «Ağsu rayonunda su təchizatı, çirkab su sistemləri və çirkab su təmizləyici qurğunun tikintisi» layihəsi ilə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verən «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə bildirdi ki, Ağsu şəhərinin içməli suya tələbatını təmin etmək üçün suyun Külüllü ərazisində Girdimançayın məcrası altından və Ağsuçayın yuxarı hissəsində mövcud olan quzey bulaqlarından götürülməsi nəzərdə tutulub. Külüllü ərazisində dəniz səviyyəsindən 175 metr yüksəklikdə yerləşən mövcud su qəbuledici qurğudan içməli suyun borularla qəbul edilərək, Ağsu şəhərinə və rayonun 8 kəndinə ötürülməsi məqsədi ilə həmin ərazidə məhsuldarlığı 52,5 litr/saniyə olan nasos stansiyası və magistral boru kəməri, o cümlədən nasos stansiyasından təzyiq tənzimləyici anbarına qədər magistral təzyiqli boru kəməri tikilib. Bundan başqa, Ağsu rayonunun Padar, Gursulu, Kalağaylı, Yenilik, Pirhəsənli və Elabad kəndlərinin 5260 nəfər əhalisini içməli su ilə təmin etmək üçün magistral boru kəmərindən su çıxışı verilib. Su şəbəkəsindən rayonun Təklə və Muradlı kəndlərinin 1080 nəfər əhalisini içməli su ilə təmin etmək üçün su çıxışı da hazırdır.*

*Bildirildi ki, Ağsuçayın yuxarı hissəsində yerləşən quzey bulaqlarından Ağsu şəhərinə 2010-cu ildə Prezidentin ehtiyat*

*fondundan ayrılan vəsait hesabına magistral suötürücü xətti Ağsu Rayon İcra Hakimiyyəti tərəfindən inşa edilib. Quzey bulaqlarından həmin boru xətti ilə nəql edilən içməli su layihə çərçivəsində əsaslı təmir edilərək, müasir avadanlıqla təchiz olunan 500 kubmetrlik su anbarına nəql olunur və buradan əhaliyə paylanılır. Bundan əlavə, layihə üzrə təzyiq tənzimləyici və paylayıcı anbarlar inşa olunub, Ağsu şəhərindəki daha bir su anbarı əsaslı təmirdən sonra müasir standartlara cavab verən yeni avadanlıqla təchiz edilib.*

*Dövlətimizin başçısına məlumat verildi ki, artıq layihə üzrə müxtəlif diametrli içməli və magistral su xətləri, o cümlədən şəbəkə su xətti çəkilib və bunun üzərində 5493 ev birləşməsi və 481 yanğın hidrantı quraşdırılaraq nəzərdə tutulan işlər yekunlaşıb. Abonentləri içməli su ilə təmin etmək üçün 5020 sayğacın quraşdırılması başa çatdırılıb. Bundan əlavə, müxtəlif diametrli kanalizasiya xətləri, o cümlədən kollektor xətti çəkilib. Kanalizasiya şəbəkə xətləri üzərində 5301 ev birləşməsi və 3136 baxış quyusu quraşdırılıb. Çirkab sutəmizləyici qurğunun tikintisi üçün Muradlı kəndinin ərazisində torpaq sahəsi ayrılıb və hazırlıq işlərinə başlanılıb. Çirkab sutəmizləyici qurğusundan çıxan təmizlənmiş suyun mövcud Ağsu kollektoruna axıdılması nəzərdə tutulub.*

*Sonra dövlət başçısı Ağsu ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün biz çox əlamətdar hadisəni birlikdə qeyd edirik. Ağsu rayonunun içməli su layihəsi artıq başa çatır və nəhayət, bu problem öz həllini tapır. Artıq şəhərə təmiz, gözəl mənbədən içməli su verilir və hesab edirəm ki, bu çox böyük nailiyyətdir. Çünki siz də yaxşı bilirsiniz, mən də bilirəm ki, Ağsunun içməli su problemi həmişə çox ciddi problem kimi qalmışdı. Yadımdadır, birinci dəfə prezident kimi, Ağsuya gələndə vətəndaşlar bu məsələni qaldırmışdılar ki, içməli suyun keyfiyyəti çox aşağıdır və insanların sağlamlığına mənfi təsir göstərir. O vaxt müəyyən tədbirlər görüldü. Ancaq bu gün Ağsu şəhərinin içməli su problemi əsaslı şəkildə tam həll olunur. Təmiz mənbədən

keyfiyyətli içməli su verilir. Kanalizasiya layihəsi də başa çatmaq üzrədir. Mənə verilən məlumata görə, gələn il bu layihə də başa çatacaq.

Bu içməli su layihəsi çərçivəsində bir neçə kəndə də suyun verilməsi nəzərdə tutulur. Gələcəkdə, əlbəttə ki, başqa kəndlərə də içməli suyun verilməsi nəzərdə tutulmalıdır. İçməli su insanların sağlamlığı üçün əsas şərtdir və əminəm, indi yaradılan bu şərait imkan verəcək ki, insanlar daha da sağlam olsunlar. Xüsusilə gənclər, yetişən gənc nəsil sağlam böyüyəcək. Çünki içməli su, təmiz hava, keyfiyyətli ərzaq məhsulları, tibbi xidmət, fiziki hərəkət və əlbəttə ki, sağlam həyat tərzi insanların sağlamlığı üçün əsas amillərdir. Onların da, demək olar ki, hamısı indi Ağsuda var. Yalnız xəstəxana çatışmır. Keçən dəfə mən burada olanda stadion açıldı. Bu gün isə idman mərkəzi açılıb, şəhərə içməli su verilir. Mən artıq buradan Səhiyyə Nazirliyinə tapşırıq verirəm ki, xəstəxananın tikintisini sürətləndirsinlər. Tezliklə o da sizin sərəncamınıza veriləcək.

**A k i f M i r z ə y e v** *(Ağsu sakini):* Çox sağ olun, cənab Prezident! Allah Sizdən razı olsun. Bu gün Siz suyun verilməsi mərasimində iştirak edirsiniz. Ömrünüz su qədər uzun olsun. Minnətdarıq. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v**: Sağ olun.

**Ş ə f ə q B a l i y e v a** *(Ağsu sakini):* Möhtərəm cənab Prezident, icazə verin, bir-iki kəlmə də mən öz ürək sözümü deyim. Bu gün dünya çox çətin dövr yaşayır – istər təbii fəlakətlər, istər hərbi münaqişələr. Mən bütün Azərbaycan xalqı adından cəsarət edib çox xoşbəxt olduğumuzu bildirmək istəyirəm ki, bizim Sizin kimi sipərimiz, prezidentimiz var və biz arxayın, aramla öz zəhmətkeş həyatımızı yaşayırıq. Allah Sizi qorusun ki, Siz də bizi qoruyasınız.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun. Ağsu rayonunun uğurlu inkişafı məni çox sevindirir. Çünki mən artıq dördüncü dəfədir ki, prezident kimi, rayona səfər edirəm və görürəm çox böyük inkişaf var. Abadlıq, quruculuq işləri, sosial məsələlər öz həllini tapır, müəssisələr yaradılır. Burada böyük bir Şirə zavodu istifadəyə

verilmişdir, indi müxtəlif ölkələrə öz məhsullarını ixrac edir. Kənd təsərrüfatı inkişaf edir. Son vaxtlar yaratdığımız iri fermer təsərrüfatları arasında Ağsu rayonunda olan təsərrüfat məhsuldarlığa görə birinci yerdədir, rekord göstəricidir. Sizi təbrik edirəm.

**S a k i n l ə r**: Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Taxılçılıqda orta məhsuldarlıq bu gün Azərbaycanda ilk dəfə olaraq 30 sentnerdən yuxarıdır. Ağsuda təqribən 35 sentnerdir. Amma iri fermer təsərrüfatında bu, 50 sentnerdir. Bu, görünməmiş nailiyyətdir, yüksək nəticədir. Biz bu təcrübəni gərək başqa təsərrüfatlarda da tətbiq edək ki, daha bol məhsul yetişdirək. Çünki insanların məşğulluğu, ərzaq təhlükəsizliyi, ümumiyyətlə, iqtisadi inkişaf üçün kənd təsərrüfatı xüsusi yer tutur.

Biz neft siyasətində bütün lazımi işləri gördük. Bu gün ölkəmiz, xalqımız üçün onilliklər bundan sonra da imkan yaradan «Cənub Qaz Dəhlizi» layihəsini icra edirik. İnfrastruktur layihələri, demək olar ki, başa çatır. Bax, bugünkü layihə bunun bariz nümunəsidir. Kənd yolları tikilir. Mən bu gün Kürdəmir–Ağsu yolunu açmışam, o yolla gəlmişəm. Bakı–Şamaxı–Ağsu yolu. Bu da həll olunub. «Azərişıq» burada elektrik təsərrüfatının yenilənməsi ilə məşğuldur. Qazlaşdırma gedir. Mənə söz veriblər ki, Ağsuda qazlaşdırma ilin sonuna qədər 90 faizə çatacaq. Bu da tarixi nailiyyətdir. Bundan sonra yerli istehsal, kənd təsərrüfatı və sənaye məhsullarının istehsalı bizim üçün prioritet olmalıdır. Çünki bizim üstünlüyümüz ondadır ki, bizdə əhali artır. Demək olar ki, qonşu ölkələrin bir neçəsində demoqrafik tənəzzül yaşanır, xüsusilə Ermənistanda. Artıq orada yaşayanların sayı kəskin şəkildə aşağı düşüb. Ona görə ki, böyük köç var, orada insanlar artıq o şəraitə dözmürlər. Digər tərəfdən, təbii artım yoxdur. Ancaq bizdə əhali artır. Bu bizim üstünlüyümüzdür və çox böyük üstünlükdür. Amma bununla bərabər, bizim iqtisadiyyatımız da buna uyğun şəkildə artmalıdır. Hər il Azərbaycanda əhalinin sayı təqribən 100 min nəfər artır, bəlkə də çox. Gələcəkdə daha da çox artacaq. Ona görə bizim iqtisadiyyatımız buna uyğun şəkildə inkişaf etməlidir.

Son illərdə 1 milyondan artıq yeni iş yeri yaradılıb. Ancaq bu, daimi proses olmalıdır. Ona görə yeni əkin sahələrinin dövriyyəyə buraxılması, Taxtakörpü, Şəmkirçay kimi böyük su anbarlarının tikintisi, digər kiçik anbarların inşası kənd təsərrüfatının inkişafına dəstək olacaq. Çünki məşğulluq artmalıdır, işsizlik tam aradan qaldırılmalıdır və insanlar daha da yaxşı yaşamalıdırlar.

Gələcəkdə elə məhsul istehsal olunmalıdır ki, biz o məhsulu istənilən xarici bazara ixrac edə bilək. Sizin Ağsudakı zavodun məhsulları kimi. Belə zavodlar çox olmalıdır. Azərbaycan dünyaya özünü böyük həcmdə ərzaq istehsal və ixrac edən ölkə kimi də təqdim edəcək. Bu halda iqtisadi inkişaf dayanıqlı olacaq. Bizim iqtisadiyyatımız neftin qiymətindən daha da az asılı olacaq. Çünki indi dünyada gedən maliyyə-iqtisadi böhran istər-istəməz bizə də təsir edir. Neftin qiyməti 2 dəfədən çox aşağı düşüb, gəlirlərimiz azalıb. Amma biz bütün sosial layihələri icra edirik, biri də dayandırılmayıb. Bu gün göstəriş vermişəm ki, xəstəxana da tezliklə tikilib istifadəyə verilsin.

İnfrastruktur layihələri icra edilir, ölkəyə investisiyalar qoyulur. Azərbaycan dünyada yaşanan bu çətin dövrdə də nümunə göstərir. Ona görə də təsadüfi deyil ki, bu gün Azərbaycanın uğurlu inkişaf modeli haqqında məqalələr yazılır. Əminəm ki, yaxın gələcəkdə elmi əsərlər yazılacaq, dissertasiyalar müdafiə ediləcək. Azərbaycan möcüzəsi doğrudan da möcüzədir. Belə bir geosiyasi vəziyyətdə inkişaf etmək, sabitliyi möhkəmləndirmək, ölkəni qabağa aparmaq Azərbaycan xalqının böyük qəhrəmanlığıdır.

Görün bu gün dünyanın müxtəlif yerlərində nələr baş verir. 1 il bundan əvvəl bunların heç biri yox idi. Qanlı toqquşmaların sayı artır, coğrafiyası genişlənir. Bu qarşıdurmaya, müharibələrə yeni ölkələr qoşulur. Avropada böhran yaşanır. Mən artıq demişəm, bu daha çox mənəvi böhrandır. Qaçqınlara münasibətdə bu ayrı-seçkilik, bu pis rəftar heç bir çərçivəyə sığmır. Özləri prinsiplər, dəyərlər bəyan edirlər. Başqa ölkələrin daxili işlərinə qarışmaq üçün bunu bayraq edib hər yerdə bəyan edirlər. Onda bu prinsipləri öz ölkənizdə də göstərin. Qadınları, uşaqları, qocaları döyürlər, onlara işgəncə verirlər. Bu insanların nə günahı var?! Ayrı-seçkilik

göstərirlər, deyirlər ki, müsəlman qaçqınları buraxmayacağıq, bu nə deməkdir?! Bu faşizmdir, irqçilikdir, ksenofobiyadır. Yenə də Avropada faşizm baş qaldırır?! Axı faşizm bir bəla kimi, müsəlman aləmində yaranmayıb. Biz yaxşı bilirik ki, harada yaranıb. Yəni bunu unutdurmaq istəyirlər. İkinci dünya müharibəsi haqqında Qərbdə qəsdən təhrif edilmiş informasiyalar gedir. Sovet xalqının, o cümlədən Azərbaycan xalqının iştirak etdiyi o müharibədə sovet ordusunun qəhrəmanlığını aşağılamaq istəyirlər. Televiziyada, internetdə gördüyümüz bu mənzərə yenə də o günləri bizə xatırladır. Yenə də faşizm baş qaldırır? Yenə də insanları təbəqələrə, millətlərə, dinlərə bölürlər? Ona görə islamofobiya çox böyük təhlükədir. Bu bizim üçün təhlükədir. Çünki biz müsəlmanıq. Onlar üçün də təhlükədir.

Bu qarşıdurma həm ideoloji qarşıdurmadır, həm təbii resurslar uğrunda gedən mübarizədir, müharibədir və təsir imkanlarını genişləndirmək üçün qarşıdurmadır. Ona görə biz buna hazır olmalıyıq və hazırıq. Biz bütün tədbirləri vaxtında gördük. Qoymadıq ki, yad qüvvələr, bizim inkişafımızı istəməyən qüvvələr Azərbaycanda kök salsın. O kökü biz kəsdik. Kəsdiyimiz üçün də indi bizə qarşı olmazın iftiralar uydururlar. Amma biz buna hazırıq. Əsas odur ki, Azərbaycan inkişaf etsin, insanlar sülh, əmin-amanlıq, sabitlik şəraitində yaxşı yaşasınlar. Azərbaycan burada həm iqtisadi, həm siyasi, həm mənəvi cəhətdən bütün dünyaya nümunə göstərir. Axı Azərbaycan çoxmillətli ölkədir. Azərbaycanda bütün millətlər bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur. Müxtəlif dinlərin nümayəndələri qardaşlıq şəraitində yaşayırlar.

Mən dəfələrlə demişəm, bizim aramızda heç bir ayrı-seçkilik ola bilməz. Dinindən, millətindən asılı olmayaraq hamımız Azərbaycan vətəndaşlarıyıq, hamımızın eyni, bərabər hüquqlarımız var. Budur normal həyat tərzi. Əslində bizim yaşadığımız bu mühit normal həyat tərzidir. Ancaq görün indi başqa yerlərdə nələr baş verir. Ona görə mən əminəm ki, Azərbaycan modeli öyrəniləcək və nümunə kimi göstəriləcək. Biz, əlbəttə, öz işimizi ona görə qurmamışıq ki, kiminsə xoşuna gələk, yaxud da kimsə

bizdən örnək götürsün. Biz bunu özümüz üçün edirik. Biz istəmirik kimsə bizim işimizə qarışsın. Yəni kənardan oturub Azərbaycana mühazirə oxumaq istəyən məgər bizi bizdən daha çox istəyir? Təbii ki, yox. İstəyir ki, burada təsir imkanları genişlənsin, Azərbaycanı müxtəlif təxribatlara sövq etsin, cəlb etsin, təhrik etsin.

Biz bu təxribatlara getmirik. Getməyəndə də onlar üçün pis oluruq. Eybi yoxdur, qoy onlar üçün pis olaq. Əgər onlar bizi tənqid edirlərsə, deməli, biz düzgün yoldayıq. Bu da var. Azərbaycan xalqı güclü xalqdır, bütün təzyiqlərə dözür, dözəcək, öz sözünü deyir, heç bir yalanı cavabsız qoymur, qoymayacaqdır və bütün dünyaya sübut edir ki, bizimlə ancaq dostluq münasibətləri qurmaq olar. Biz buna hazırıq. Əgər onlar hazırdırlarsa, biz də hazırıq. Əgər yox, onda, necə deyərlər, səninki səndə, mənimki məndə.

*Daha sonra xatirə şəkli çəkdirildi.*

*Sonda prezident İlham Əliyev Ağsu şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## Ağsu Şahmat məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də yenidənqurma işlərindən sonra Ağsu Şahmat məktəbinin açılışında iştirak emişdir.*

*Hazırda ölkəmizdə nəhəng idman qurğuları tikilir və ya yenilərinin yaradılması istiqamətində mühüm addımlar atılır. Prezident İlham Əliyevin Azərbaycan idmanının inkişafına göstərdiyi diqqət və qayğı ölkəmizi nəinki yerləşdiyi coğrafi məkanda, həm də bütün dünyada lider mövqeyə yüksəldib. Ölkəmizin hər yerində olimpiya komplekslərinin, sağlamlıq mərkəzlərinin tikilib istifadəyə verilməsi Azərbaycanı bu gün nəhəng idman hərəkatının yaşandığı məkanlardan birinə çevirib. Bu istiqamətdə şahmata olan diqqət və qayğı da vurğulanmalıdır. Şahmatçılarımızın beynəlxalq yarışlarda yüksək nəticələr əldə etməsi bunu bir daha təsdiqləyir. Görülən işlərin nəticəsidir ki,*

*artıq ölkəmiz beynəlxalq səviyyəli şahmat turnirlərinə ev sahibliyi etməyə başlayıb. Təsadüfi deyil ki, hazırda Bakı şahmat üzrə növbəti dünya kubokuna ev sahibliyi edir. Sentyabrın 11-də təntənəli açılışı olan bu nüfuzlu yarışa ümumilikdə 45 ölkədən 128 zəka sahibi qatılıb. Bu təbii ki, idmanın digər sahələri ilə yanaşı, şahmatın, onun infrastrukturunun möhkəmləndirilməsinin də dövlətin diqqət və qayğısı ilə əhatə olunmasının göstəricisidir.*

*Məlumat verildi ki, Şahmat məktəbinin ümumi sahəsi 430 kvadratmetrdir. Burada yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Ağsu Şahmat məktəbində uşaqların və yeniyetmələrin idmanın bu qədim növünün sirlərinə dərindən yiyələnmələri üçün hər cür şərait yaradılıb. Məktəbdə şahmat dərslərinin keçirilməsi üçün zəruri avadanlıqla təchiz olunan əsas yarış zalı, 2 tədris sinfi, müəllimlər otağı və xidməti otaqlar var. Burada şahmatla bağlı biliklərin əldə olunması və müasir yeniliklərin qavranılması üçün ayrıca kompüter guşəsi yaradılıb. Bu da dərslərin müasir innovativ vasitələrin köməyi ilə keçirilməsinə və ən son yeniliklərin qısa müddətdə öyrənilməsinə şərait yaradır. Şahmat məktəbi bir sıra respublika səviyyəli yarışlara da ev sahibliyi etməyə hazırdır. Onu da deyək ki, Ağsu idmançıları son illərdə respublika və beynəlxalq şahmat turnirlərində medal, diplom və kuboklara layiq görülüblər.*

*Məktəblə tanışlıqdan sonra prezident İlham Əliyev ərazidə salınan Şahmat parkına da baxdı.*

*Burada sakinlərin, eləcə də məktəbə gələnlərin istirahəti üçün hər cür şərait yaradılıb. Parkda açıq hava şəraitində şahmat taxtası qurulub, yaşıllıq zolaqları salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.*

**TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RÜSTƏM MİNNİXANOVA**

Hörmətli Rüstəm Nurqaliyeviç!

Sizi Tatarıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasında sıx dostluq telləri və mehriban münasibətlər bundan sonra da möhkəmlənəcək və Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında çoxplanlı əməkdaşlığın dinamik inkişafına kömək edəcək.

Sizi və Tatarıstanın bütün müsəlmanlarını həm də birlik, xeyirxahlıq və mərhəmət kimi ali mənəvi dəyərlərin təcəssümü olan müqəddəs Qurban bayramı münasibətilə təbrik edirəm.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Tatarıstan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2015-ci il*

## DƏRBƏND ŞƏHƏRİNİN 2000 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ TƏDBİRİN İŞTİRAKÇILARINA

Hörmətli tədbir iştirakçıları!

Sizi, habelə qədim Dərbənd şəhərinin sakinlərini əlamətdar tarix – şəhərin əsasının qoyulmasının 2000 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Dərbənd şəhərinin – böyük İpək yolu üzərində yerləşən, həmişə sivilizasiyalararası dialoq məkanı olmuş, müxtəlif xalqların və etnik qrupların nümayəndələrinin daim səmimi bir ailə kimi yaşadığı bu böyük yaşayış məntəqəsinin adına ən nüfuzlu tarixi mənbələrdə rast gəlirik.

Ən qədim dövrlərdən Qafqazın «dəmir qapısı» kimi məşhur olan Dərbənd orada yaşayan çoxsaylı millətlərin və xalqların nümayəndələrinin sevgisini qazanıb. Bu şəhəri haqlı olaraq özlərinin vətəni sayan sakinlər ona xas olan çoxəsrlik multikultural ənənələri və tolerantlığı qoruyub saxlayırlar. Bizim tarixi yaddaşımızda alınmaz qala kimi iz qoymuş Dərbənd əsrlərboyu bu şəhərə gələnlərin hamısını öz möhtəşəmliyi ilə heyran edirdi. O özünün bənzərsiz memarlıq nümunələri, mənəvi və mədəni sərvətləri ilə bu gün də bizi heyran qoyur, Dağıstanın sosial-iqtisadi həyatında mühüm rol oynamaqda davam edir.

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Dağıstan Respublikası çox sıx iqtisadi, siyasi və mədəni əlaqə saxlayırlar. Bizim dostluğumuz çoxəsrlik tarixə malikdir. Hər iki ölkənin siyasi rəhbərliyi və vətəndaş cəmiyyəti təşkilatları həm Azərbaycanda, həm də Dağıstanda yaşayan, soy-kökləri eyni olan, eyni dinə etiqad bəsləyən, ortaq etnomədəni dəyərlərə, adət və ənənələrə malik olan xalqların qardaşcasına qarşılıqlı münasibətlərini daha da gücləndirməyə çalışırlar.

Əziz dərbəndlilər, əziz dağıstanlılar!

Dərindən əmin olduğumu bildirirəm ki, Azərbaycan ilə Rusiya və Dağıstan Respublikası arasında münasibətlər bundan sonra da əcdadlarımızın bizə vəsiyyət etdikləri dostluq və qardaşlıq ruhunda inkişaf edəcək.

Sizin hamınızı Dərbənd şəhərinin 2000 illiyi münasibətilə bir daha təbrik edirəm. Sizə sülh və firavanlıq, Dərbənd şəhərinin isə daha da çiçəklənməsini arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2015-ci il*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ
XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA**

Hörmətli xanım Prezident!

Malta Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi yolunda atdığımız addımlar xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2015-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN ƏL-MƏKTUMA

Əlahəzrət!

Oğlunuz şeyx Rəşid bin Məhəmməd əl-Məktumun vaxtsız vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2015-ci il*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2015-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, DAXİLİ İŞLƏR NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN NAYİF BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş xalqınıza daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2015-ci il*

## RESPUBLİKA ƏLİLLƏRİN BƏRPA MƏRKƏZİNİN ƏSASLI YENİDƏN QURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*21 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Əlillərin Bərpa Mərkəzinin əsaslı yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişdir.*

*Görülən işlərlə bağlı dövlətimizin başçısına hərtərəfli və geniş məlumat verildi.*

*Respublika Əlillərin Bərpa Mərkəzi 1986-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Cənubi Qafqazda bu sahədə ilk tibb ocağı kimi fəaliyyətə başlayıb. Müəssisənin ilk adı Respublika Əlillərin Həkim-Əmək Ekspertizası və Sosial Reabilitasiya Dispanseri olub. Bir neçə il sonra «Dispanser» sözü «Mərkəz» sözü ilə əvəz edilib. 1992-ci ildə Nazirlər Kabinetinin qərarı ilə mərkəz 2 yerə ayrılıb: Respublika Həkim Əmək Ekspertizası Mərkəzi və Respublika Əlillərin Bərpa Mərkəzi. Mərkəz üçün 1994-cü ildə dördmərtəbəli korpus inşa edilib və 1998-ci ildə əlavə funksional diaqnostika şöbəsi yaradılıb. O vaxtdan burada əsaslı təmir və yenidənqurma işləri aparılmayıb. 2013-cü ildə mərkəzdə başlanan yenidənqurma işləri artıq yüksək səviyyədə başa çatıb.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin sağlamlıq imkanları məhdud olan insanlara qayğıları, onlarla keçirdikləri görüşləri əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Prezident İlham Əliyevin 2015-ci il martın 16-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Xidməti yaradılıb. Respublika Əlillərin Bərpa Mərkəzi hazırda həmin xidmətin tərkibində fəaliyyət göstərir. Mərkəz yarandığı gündən bu günədək*

*respublikada olan bütün əlillərin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə sağlamlıqlarını itirmiş Qarabağ müharibəsi əlillərinin, 20 Yanvar, Çernobıl, Əfqanıstan hadisələri zamanı əlil olmuş insanların müayinə və müalicəsində yüksək peşəkarlıq göstərir. Mərkəzdə fizioterapiya və psixoloji korreksiya, tibbi-sosial reabilitasiya və funksional diaqnostika şöbələri var.*

*Fizioterapiya və psixoloji korreksiya şöbəsində parafin vannaları, su ilə müalicə kabinetləri, hovuz, müalicəvi vannalar, müxtəlif duşlar, şarko sirkulyator, müalicə otaqları və fitobar fəaliyyət göstərir. Bu şöbədə, həmçinin müasir fizioterapiya aparatları, skelet dartması üçün traksion masa və müasir kineterapiya aparatları var. Böyük idman zalı, həmçinin əlavə məşğələ otaqları müasir avadanlıq və qurğularla təmin edilib. Burada robot aparatlar da quraşdırılıb. Bu robot aparatlar vasitəsilə hərəkət funksiyası məhdud xəstələr hərəkət edirlər.*

*Hazırda ölkədə əlillərin tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu da Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılmasının dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildiyini açıq göstərir. Odur ki, dövlətin iqtisadi siyasətinin sosialyönümlü olması, prezident İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət insan amilinə verilən yüksək dəyərin nümunəsidir. Bu çərçivədə son illərdə əlilliyi olan şəxslərlə bağlı ölkə qanunvericiliyi təkmilləşdirilib, yeni hüquqi normativ aktlar qəbul edilib. Əlillərə ödənilən təqaüd və müavinətlərin məbləği də artırılır. Dövlət əlil vətəndaşların çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət, texniki-bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq, Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin edilib.*

*Dövlətimizin başçısına tibbi sosial reabilitasiya şöbəsində yaradılan şəraitlə bağlı məlumat verildi. 50 çarpayılıq şöbədə palatalar 1, 2 və 3 nəfərlikdir. Otaqların hamısında məhz bu kateqoriyadan olan insanların rahat yaşaması üçün lazımi şərait yaradılıb.*

*Bərpa müalicəsi alanların mərkəzə qəbulu tibbi-sosial ekspert komissiyalarının, müalicə-profilaktika müəssisələrinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişlərinə əsasən həyata keçirilir. Mərkəzdə 16 yaşdan yuxarı bütün kateqoriyalardan olan əlillərə xidmət göstərilir. Birinci qrup əlillər 21 gün, ikinci və üçüncü qrup əlillər isə 18 gün tam bərpa kursu keçirlər. Bu müddətdə onlar gündə 3 dəfə sağlam və təbii qida ilə təmin olunurlar. Mərkəz il ərzində 1000 nəfərə yaxın əlilin reabilitasiya və müalicəsi ilə məşğul olur. Əlillərin xarici ölkələrdə də müalicəsinə diqqət göstərilir. Mərkəzin həkim və tibb heyəti vaxtaşırı xarici ölkələrdə təkmilləşmə kursuna cəlb olunur, öz bilik və bacarıqlarını artırır.*

*Funksional diaqnostika şöbəsində xəstələrin diaqnostikası üçün ən müasir avadanlıq quraşdırılıb.*

*Qarabağ müharibəsində sağlamlığını itirənlərin və şəhid ailələrinin problemlərinin həlli ölkədə həmişə diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin göstərişləri və sərəncamları əsasında bu kateqoriyadan olan vətəndaşların mənzillə təmin olunması məqsədilə son bir neçə ildə paytaxtda və regionlarda yeni çoxmənzilli yaşayış binaları, o cümlədən fərdi evlər tikilib. Dövlətin əlil vətəndaşlara qayğısı çərçivəsində yeni reabilitasiya mərkəzlərinin tikintisi də həyata keçirilib. Respublika Əlillərin Bərpa Mərkəzində yaradılan şərait bir daha sağlamlıq imkanları məhdud insanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu nümayiş etdirir.*

*Bu ildən başlayaraq mərkəzdə xəstələr üçün mütaliə otağı istifadəyə verilib. Xəstələr həm kitablardan, həm də elektron kitabxana sistemindən istifadə edə bilərlər.*

*Bildirildi ki, mərkəz, həmçinin bərpa müalicəsi alanların yaşını və sağlamlıqlarını nəzərə almaqla, onların mədəni-kütləvi tədbirlərə, müalicə idmanına cəlb edilməsi, onlarda gigiyenik vərdişlərin tərbiyə edilməsi, sağlam həyat tərzinin təbliği, bərpa müalicəsi alanlarla bağlı məlumat bankının yaradılmasını da həyata keçirir.*

*Mərkəzin həyətində geniş yaşıllaşdırma işləri görülüb, xəstələrin təmiz havada gəzintisi və istirahəti üçün bütün şərait yaradılıb.*

## DÜNYA ŞÖHRƏTLİ AKTYOR VƏ REJİSSOR STİVEN SİQAL İLƏ GÖRÜŞ

*21 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də dünya şöhrətli aktyor və rejissor Stiven Siqalı qəbul etmişdir.*

*Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirən Stiven Siqal ölkəmizdə gördüklərinin onda dərin təəssürat yaratdığını dedi. Stiven Siqal Bakıda I Avropa oyunlarının yüksək səviyyədə təşkil olunmasının və bu yarışlarda çoxlu sayda idmançının iştirakının onda böyük heyranlıq yaratdığını dedi. I Avropa oyunları ilə bağlı görülən işlərin misilsiz dərəcədə möhtəşəm olduğunu vurğulayan qonaq, ümumiyyətlə, Azərbaycanda qazanılan nailiyyətlərin dünyada tanıdılması və təbliğinin önəmini qeyd etdi.*

*Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı I Avropa oyunlarının ölkəmiz və eləcə də Avropa üçün tarixi hadisə olduğunu dedi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan bu oyunları yüksək səviyyədə keçirməklə, əslində Avropa oyunlarının standartlarını müəyyən etdi. Dövlətimizin başçısı ölkəmizin artıq müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən mühüm idman yarışlarının keçirildiyi bir məkana çevrildiyini vurğuladı.*

*Görüşdə son illər Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən mədəniyyət və idman sahələrində əldə edilən uğurlardan danışıldı.*

**YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALEKSİS TSİPRASA**

Hörmətli cənab Baş nazir!

Ölkənizdə keçirilmiş parlament seçkilərində başçılıq etdiyiniz partiyanın qələbəsi və Yunanıstan Respublikasının Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Yunanıstan münasibətlərinin inkişafı, ikitərəfli əlaqələrimizin, dostluq və əməkdaşlığımızın möhkəmlənməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yunanıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2015-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlıqlarının bərqərar edildiyi Azərbaycan Respublikasında Qurban bayramı hər il dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunur. Bu günlər ölkəmizin möminləri tərəfindən dini ayinlər yerinə yetirilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnsanlar Tanrıya yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq ifadəsinə və təcəssümünə çevrilir.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, uca Tanrıdan xalqımızın və dövlətimizin əmin-amanlığı və rifahı naminə etdiyiniz duaların qəbul olunmasını diləyirəm. Qoy bu müqəddəs bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2015-ci il*

# İRAQ RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ HEYDƏR ŞİYA ƏL-BARRAK İLƏ GÖRÜŞ

*22 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də İraqın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Heydər Şiya əl-Barrakı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Azərbaycan–İraq ikitərəfli münasibətlərinin çox yaxşı səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin beynəlxalq səviyyədə əməkdaşlıq etməsini və bir-birinə qarşılıqlı dəstək verməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, enerji və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev Heydər Şiya əl-Barrakın ölkəmizdə diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə verdiyi töhfəni vurğulayaraq səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Heydər Şiya əl-Barrak qarşıdan gələn Qurban bayramı münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırdı. O, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycanda çoxlu dostlar qazandığını dedi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi istiqamətində əlindən gələni əsirgəmədiyini deyən Heydər Şiya əl-Barrak səfirliyin fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

# İTALİYA RESPUBLİKASININ «SNAM» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU KARLO MALAKARNENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də İtaliyanın «Snam» şirkətinin baş icraçı direktoru Karlo Malakarnenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Karlo Malakarne Azərbaycana ilk dəfə səfər etdiyini və qısa zamanda Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin onlarda dərin təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı bu səfər zamanı İtaliyanın «Snam» şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə əməkdaşlıqla bağlı məsələlərin müzakirə olunacağına və 2 şirkət arasında imzalanacaq Anlaşma Memorandumunun bu əməkdaşlığın perspektivlərini müəyyənləşdirəcəyinə ümidvar olduğunu bildirdi.*

*Karlo Malakarne rəhbərlik etdiyi şirkətin Avropada aparıcı infrastruktur operatorlarından olduğunu vurğulayaraq, «Snam» şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə əməkdaşlıq etməsindən məmnunluğunu ifadə etdi. O bu əməkdaşlığın təkcə İtaliya deyil, Avropa səviyyəsində qaz təchizatı baxımından önəmini vurğuladı.*

*Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verdiyini söyləyən dövlətimizin başçısı bu istiqamətdə İtaliyanın «Snam» şirkəti ilə Azərbaycan arasında müxtəlif sahələrdə güclü əməkdaşlığın həyata keçirilməsinin mümkün olduğunu dedi.*

*Avropanın qaz təchizatı sahəsində rəhbərlik etdiyi şirkətin fəaliyyəti barədə məlumat verən qonaq Azərbaycanın Avropanın yeni qaz təchizatçısı kimi önəmini diqqətə çatdırdı.*

*«Cənub Qaz Dəhlizi»nin bütün tərəflər üçün çox əhəmiyyətli layihə olduğunu vurğulayan prezident İlham Əliyev Azərbaycanın bu istiqamətdə aparıcı rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın təşəbbüsü ilə irəli sürülən TANAP layihəsinin əhəmiyyətinə toxunaraq bildirdi ki, ölkəmiz «Cənub Qaz Dəhlizi»nin bütün seqmentlərində fəal təmsil olunur. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın gələcəkdə qaz təchizatçısı kimi rolu daha da artacaq.*

*Görüşdə İtaliyanın «Snam» şirkəti ilə əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI TƏŞKİLAT KOMİTƏSİNİN BİRİNCİ İCLASINDA İŞTİRAK

*23 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəyliyi oyunlarının Təşkilat Komitəsinin birinci iclası keçirilmişdir.*

*Dövlət başçısı İlham Əliyev iclasda çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

2017-ci ildə Bakıda IV İslam Həmrəyliyi oyunları keçiriləcək. Bu, böyük beynəlxalq tədbirdir. Həm dünya, həm islam aləmi üçün çox önəmli idman yarışmasıdır. Bu oyunların Azərbaycanda keçirilməsi bir daha onu göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Azərbaycanda bu günə qədər bütün mötəbər beynəlxalq tədbirlər ən yüksək səviyyədə keçirilib. Eyni zamanda, biz bunu islam aləminin Azərbaycana, onun inkişafına verdiyi yüksək dəyər kimi qiymətləndiririk və öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, bu oyunlar yüksək səviyyədə keçirilsin.

Bir neçə gün bundan əvvəl mənim sərəncamımla oyunların Təşkilat Komitəsi yaradıldı. Biz bu gün Təşkilat Komitəsinin birinci toplantısını keçiririk. Oyunların önəmini nəzərə alaraq, bu birinci toplantını mən özüm aparıram. Əminəm ki, bundan sonrakı dövrdə Təşkilat Komitəsi bütün vəzifələri uğurla icra edəcək və bu oyunlar ən yüksək səviyyədə keçiriləcəkdir.

Təşkilat Komitəsinə rəhbərlik Mehriban Əliyevaya həvalə olunub. Həm «Eurovision» mahnı müsabiqəsinin Təşkilat Komitəsinə, həm I Avropa oyunlarının Təşkilat Komitəsinə Mehriban Əliyeva rəhbərlik edib. Nəticələr də göz qabağındadır. Hər 2 beynəlxalq tədbir ən yüksək səviyyədə keçirilmişdir. Həm

«Eurovision» müsabiqəsində, həm Avropa oyunlarının gedişatında bütün təşkilati məsələlər öz həllini tapmış və bu yarışmalarda iştirak etmiş bütün idmançılar və Azərbaycana gəlmiş qonaqlar bunu yüksək qiymətləndirmişlər.

Mən xüsusi olaraq I Avropa oyunlarının nəticələrini qeyd etmək istəyirəm. Bu, birinci belə yarışma idi. Bu günə qədər Avropada qitə yarışları keçirilməmişdi. Bu yarışın yüksək səviyyədə keçirilməsi bizim səylərimizdən asılı idi. Biz bu oyunların standartlarını müəyyən etdik. Bu, ən yüksək standartlar idi. Həm qonaqlar, həm Azərbaycan vətəndaşları bir daha gördülər ki, I Avropa oyunları Yay Olimpiya oyunları səviyyəsində keçirildi. Məhz qarşıya belə məqsəd qoyulmuşdu. Baxmayaraq ki, bu oyunların hazırlanmasına bizim cəmi 2 il yarım vaxtımız var idi. Həm yeni idman infrastrukturunun yaradılması, həm mövcud idman obyektlərinin təmiri, bütün təşkilati məsələlərin həlli ən yüksək səviyyədə həyata keçirilmişdi və şübhəsiz, bu işlərdə Təşkilat Komitəsinin xüsusi rolu və əməyi var idi.

Avropa oyunları bizə imkan verdi ki, öz potensialımızı ortaya qoyaq. Azərbaycan Avropaya və bütün dünyaya bir daha göstərdi ki, sürətli inkişaf dövrünü yaşayır. Azərbaycan dostluq, əməkdaşlıq məkanıdır, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri rahat bir ailə kimi yaşayır və biz bütün qonaqları qəbul etməyə hazırıq, buna qadirik. Azərbaycan xalqı öz qonaqpərvərliyini, öz tolerantlığını, qonaqlara olan hörmətini bir daha ifadə etdi. Eyni zamanda, bizim təşkilatçılıq qabiliyyətimiz də ən yüksək səviyyədə idi. Bu da ölkəmizin ümumi inkişaf potensialının göstəricisi kimi, artıq qonaqlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Baxmayaraq ki, Avropa oyunları ərəfəsində və oyunlar zamanı Azərbaycana qarşı çox çirkin kampaniya aparılırdı. Bu kampaniya əlaqələndirilmiş şəkildə aparılırdı. Bəzi xarici dairələr Azərbaycanda gedən inkişafı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında həqiqətə uyğun olmayan rəy yaratmaq üçün sanki yarışa çıxmışdılar. Azərbaycan haqqında yalan, böhtan, uydurma informasiyalar xarici media orqanlarında geniş yer

almışdı. Əlbəttə, biz yaxşı başa düşürdük və bilirdik ki, bu, təsadüfi deyil. Bu, çox düşünülmüş, məqsədyönlü təşkil edilmiş qarayaxma, şər-böhtan kampaniyası idi. Bu kampaniyanı aparan və onu sifariş edən qüvvələr bir məqsədi güdürdü ki, Azərbaycanı gözdən salsınlar və oyunlara ləkə vursunlar. Ancaq onların bütün səyləri Azərbaycanda alt-üst edildi. Ona görə ki, ölkəmizə, oyunlara gəlmiş idmançılar, nümayəndə heyətlərinin üzvləri, qonaqlar Azərbaycan reallıqlarını öz gözləri ilə gördülər. Gördülər ki, Azərbaycan müasir, dinamik inkişaf edən, demokratik ölkədir. Azərbaycan multikulturalizmin mərkəzidir. Son illər ərzində Azərbaycanda quruculuq, abadlıq işləri o qədər sürətlə gedir ki, bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Gördülər ki, Azərbaycan gəncləri və bu oyunlarda fəal iştirak etmiş könüllülər öz Vətənini sevir, öz Vətəni ilə fəxr edirlər. Fəxr edirlər ki, onlar Azərbaycan vətəndaşlarıdır. Gördülər ki, Azərbaycan idmançıları həm peşəkar, həm vətənpərvər idmançılardır.

Bu oyunlar Azərbaycan dövlətinin təntənəsi idi. Bizə qarşı bu çirkin əməlləri sifariş və icra edən qüvvələr heç bir məqsədə nail ola bilmədilər. Baxmayaraq ki, oyunlar ərəfəsində Avropa Parlamenti antiazərbaycan qətnaməsi qəbul etməyə çalışdı, ancaq məqsədə nail ola bilmədi, o qətnamə qəbul edilmədi. Oyunların açılışı günündə – iyunun 12-də Almaniya Bundestaqı Azərbaycanın əleyhinə yalan-böhtan üzərində qurulmuş çirkin bir qətnamə qəbul etdi. Onu da Azərbaycan xalqı və dövləti rədd etdi. Bütün bu səylər onu göstərir ki, biz hətta misli görünməmiş təzyiqlər şəraitində yolumuzdan dönmədik, Azərbaycan bir daha öz imkanlarını ortaya qoydu.

Əlbəttə, oyunlardan sonra da bizə qarşı təzyiqlərin olacağını proqnozlaşdırırdıq. Çünki Azərbaycan öz müstəqil siyasətinə sadiqdir. Bu siyasət Azərbaycan xalqının milli maraqlarını hər şeydən üstün tutur. Azərbaycan heç bir xarici qüvvənin diktəsi ilə oturub-durmur, müstəqil siyasət aparır və sürətlə inkişaf edir, eyni zamanda, sübut edir ki, bu gün müsəlman aləmində dinamik, müasir, öz milli-mənəvi dəyərlərinə sadiq, güclü bir dövlət vardır. Bu da bəzi xarici dairələrin stereotiplərinə, yaxud da ki,

yaratdıqları stereotiplərə sığmır. Əfsuslar olsun ki, bu gün islam aləmi daha çox münaqişələr zonası kimi təqdim edilir, islamofobiya meyilləri güclənir, islam dininə qarşı təhqir-böhtan kampaniyası aparılır və görəndə ki, müsəlman aləmində belə gözəl, dinamik inkişaf edən, müasir ölkə var, əlbəttə, bu da onların planlarını alt-üst edir.

Oyunlarla bağlı qeyd etməliyəm ki, idmançılarımız bizi sevindirdilər. Azərbaycan tarixi qələbə qazanmışdır, komanda hesabında ikinci yerə layiq görülmüşdür. İdmançılarımız 21-i qızıl olmaqla, 56 medal qazanmışlar. I Avropa oyunları Azərbaycan dövlətinin, xalqının hərtərəfli bayramı, təntənəsi idi. Əminəm ki, gələcəkdə belə bayramlar, qələbələr çox olacaq.

İslam Həmrəyliyi oyunları da qeyd etdiyim kimi, çox önəmli beynəlxalq yarışma olacaqdır. Azərbaycan islam aləminin bir parçasıdır. Bu bizim ailəmizdir və biz çalışmalıyıq ki, bu oyunlar da ən yüksək səviyyədə keçirilsin. Bütün idmançılara, qonaqlara, nümayəndə heyətlərinin üzvlərinə gözəl şərait yaradılmalıdır ki, ölkəmizlə tanış olsunlar, Azərbaycanın qədim tarixini görsünlər, öyrənsinlər və Azərbaycanda özlərini rahat hiss etsinlər.

Deyə bilərəm ki, bu oyunlardan başqa, Azərbaycan müxtəlif beynəlxalq yarışlara da ev sahibliyi edəcəkdir. 2016-cı ildə «Formula-1» yarışması ilk dəfə olaraq Azərbaycanda keçiriləcəkdir. Bu da futbol üzrə dünya çempionatı ilə bir səviyyədə olan yarışmadır. Bütün dünyanın gözü yenə də Azərbaycanda olacaq. Əminəm ki, biz bu yarışmanı da yüksək səviyyədə keçirəcəyik. Gələn il Azərbaycanda Dünya Şahmat Olimpiadası keçiriləcək. Biz bu yolla gedirik və gedəcəyik. Çünki bizim imkanımız var və eyni zamanda, biz bu yolla ölkəmizi dünyaya tanıdırıq.

Bədxahlara, antiazərbaycan, islamofob qüvvələrə ən yaxşı cavabımız bizim reallıqlarımızdır. Gəlsinlər, öz gözləri ilə görsünlər. Deyə bilərəm ki, Azərbaycana gələn xarici qonaqların mütləq əksəriyyəti ölkəmizdən ən xoş arzularla ayrılır. Çünki onlar qərəzsizdir, Azərbaycana xoş niyyətlə gəlirlər. Mən demişəm və bir daha demək istəyirəm ki, biz xoş niyyətlə ölkəmizə gələn bütün xarici qonaqlara qucaq açırıq. Azərbaycan multikulturalizm

diyarıdır. Azərbaycanda dini, milli zəmində heç bir ayrı-seçkilik yoxdur, heç vaxt olmayıb və olmayacaqdır. Biz bir çox ölkələr üçün nümunəyik, xüsusilə indiki dövrdə. Bu gün hamımızın gözü qarşısında müsəlman qaçqınlara işgəncələr verilir. Bu bizi hiddətləndirir. Onu da qeyd etməliyəm, Azərbaycan o ölkələrdəndir ki, öz səsini ucaldır. Biz ədalətsizliyə dözə bilmirik. Biz ədalətin, insanlığın tərəfdarıyıq. Bütün vacib beynəlxalq məsələlərlə bağlı bizim öz mövqemiz var. Hesab edirəm ki, əgər bizim təcrübəmiz geniş şəkildə öyrənilərsə, o zaman dünyada münaqişələrin və dini, milli zəmində qarşıdurmaların sayı da azalacaqdır.

Azərbaycan bir nümunədir, bir örnəkdir. Mən bir daha demək istəyirəm ki, biz həyata keçirdiyimiz işlərdə hər hansı bir fövqəladə nailiyyət görmürük. Bu, normal həyat tərzidir. Sadəcə olaraq, bəzi ölkələrdə bu normal həyat tərzi pozulub və irqçilik, ksenofobiya, islamofobiya hökm sürür.

Əminəm, islam oyunları ilk növbədə, islam həmrəyliyini gücləndirəcək, həm islam aləminə, həm dünyaya bir daha göstərəcək ki, islam dini sülh, mərhəmət və qardaşlıq dinidir. Eyni zamanda, dünyaya göstərəcək ki, Azərbaycan böyük imkanlara malik olan ölkədir və ən mötəbər beynəlxalq yarışları keçirməyə qadirdir.

Biz çalışacağıq ki, bütün təşkilati məsələlər öz həllini tapsın. I Avropa oyunlarında əldə edilmiş təcrübə, əlbəttə ki, bizə kömək edəcək. Nəzərə alsaq ki, Təşkilat Komitəsi təxminən bu tərkibdə Avropa oyunlarının keçirilməsi ilə də məşğul idi, mən əminəm, qarşıda duran bütün vəzifələr icra ediləcək və Azərbaycan öz imkanlarını bir daha ortaya qoyacaqdır.

## IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

İlk növbədə, cənab Prezident, bizə göstərdiyiniz yüksək etimada görə Təşkilat Komitəsinin bütün üzvləri adından Sizə dərin minnətdarlığımı çatdırıram. Sizi əmin edirəm ki, Təşkilat Komitəsi IV İslam Həmrəyliyi oyunlarının ən yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün əlindən gələni əsirgəməyəcək. Biz çalışacağıq ki, Sizin və Azərbaycan xalqının yüksək etimadını doğruldaq və oyunlar ən yüksək səviyyədə keçirilsin.

Bu günə qədər ölkəmizdə bir çox böyük miqyaslı beynəlxalq tədbirlər keçirilib. O cümlədən bu il böyük uğurla keçirilən I Avropa oyunlarını qeyd etmək istəyirəm. Bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini göstərdi. Həm Siz, həm Azərbaycan xalqı, həm oyunlarda iştirak edən idmançılar, həm də qonaqlar oyunların çox yüksək səviyyədə hazırlanmasını qeyd etdilər. Ümumi fikrə görə, bu oyunlar Yay Olimpiya oyunları səviyyəsində hazırlanmışdır. Əminəm ki, IV İslam Həmrəyliyi oyunları da eyni səviyyədə hazırlanıb keçiriləcək və müstəqil Azərbaycanın tarixinə növbəti qələbə kimi daxil olacaq.

Əlbəttə, Təşkilat Komitəsi I Avropa oyunlarının hazırlanması və keçirilməsi dövründə böyük təcrübə əldə etdi. İslam Həmrəyliyi oyunlarının da hazırlığında biz həmin prinsiplərlə çalışacağıq, işləyəcəyik. Biz çalışacağıq ki, ilk növbədə, Azərbaycan xalqı üçün növbəti böyük idman bayramı təşkil edək. Çalışacağıq ki, ölkəmizə gələn, oyunlarda iştirak edən hər bir idmançı, hər bir qonaq özünü çox rahat, öz evindəki kimi hiss etsin.

Bildiyiniz kimi, 2013-cü il iyulun 24-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında səsvermə zamanı Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etməsi haqqında qərar qəbul edilmişdir. Səsvermədə 57 üzv ölkənin

nümayəndələri iştirak etmiş və qərar yekdilliklə qəbul edilmişdir. Assambleyanın qərarı bir daha göstərdi ki, Azərbaycan Respublikası dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub.

İndi isə icazənizlə, IV İslam Həmrəyliyi oyunlarının Bakıda keçirilməsi ilə bağlı hazırlıq işləri haqqında Sizə məlumat verim. Əvvəlcədən deməliyəm ki, oyunların keçirilməsinə müəyyən vaxtın olduğunu və bir çox danışıqların davam etdiyini nəzərə alaraq, bu gün səsləndirilən göstəricilər dəyişə bilər.

IV İslam Həmrəyliyi oyunlarının 2017-ci ilin may ayında keçirilməsi nəzərdə tutulur. Bu oyunlarda 57 islam ölkəsinin nümayəndələrinin iştirakı gözlənilir. İlkin razılaşmalara əsasən, 20 idman növündə yarışların aparılması planlaşdırılır. Yarışlara 5 mindən çox idmançının qatılacağı nəzərdə tutulub. Oyunlar çərçivəsində paralimpiya üzrə paraatletiklər və paracüdoçuların mübarizəsi gözlənilir. Bu oyunları fərqləndirən digər cəhətlərdən biri qeyri-ənənəvi idman növü olan milli zorxana oyunu üzrə mübarizənin aparılması olacaq. Bu idman növlərinə atletika, gimnastika, güləş, boks, cüdo, taekvondo, ağır atletika, tennis, stolüstü tennis, atıcılıq, üzgüçülük, basketbol, həndbol, voleybol, futbol, karate və sair daxildir.

IV İslam Həmrəyliyi oyunlarına hazırlığın ilkin mərhələsində yarışların keçirilmə yerləri müəyyən edilib. Yarışlar ölkəmizdə mövcud olan idman obyektlərində keçiriləcək. Bunlar Bakı Olimpiya stadionu, Tofiq Bəhramov adına Respublika stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, «Baku Crystall Hall», Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, «Bakcell Arena», Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzidir. Beləliklə, ilk Avropa oyunlarına hazırlıq mərhələsində yenidən qurulan və əsaslı bərpa edilən bütün idman obyektlərindən istifadə olunacaq. Yeni idman obyektinin tikintisinə heç bir ehtiyac yoxdur və nəzərdə tutulmur.

IV İslam Həmrəyliyi oyunlarının rəsmi açılışı və bağlanışı mərasimləri Olimpiya stadionunda keçiriləcəkdir.

Müxtəlif idman növləri üzrə yarışların keçiriləcəyi idman obyektləri haqqında ilkin təklifləri diqqətinizə çatdırmaq istərdim. Belə ki, güləş və cüdo Heydər Əliyev adına İdman Arenasında, voleybol, boks, taekvondo, karate «Baku Crystall Hall»da, üzgüçülük Su İdmanı Sarayında, stolüstü tennis Bakı İdman Sarayında, tennis Bakı Tennis Akademiyasında, atıcılıq Bakı Atıcılıq Mərkəzində, basketbol, həndbol, ağır atletika Bakı Ekspo Mərkəzində, futbol yarışlarının isə Olimpiya stadionunda və «Bakcell Arena»da keçirilməsi planlaşdırılır. Oyunlarda iştirak edəcək idmançıların Atletlər Kəndində yerləşdirilməsi nəzərdə tutulur. Media Kəndində kütləvi informasiya vasitələrinin nümayəndələri yerləşdiriləcək. Bir daha qeyd etmək istəyirəm, I Avropa oyunları zamanı əldə etdiyimiz təcrübə göstərir ki, yeni yaradılmış Atletlər Kəndi ən yüksək səviyyədə çalışmış və orada yaşayan hər bir idmançı çox yüksək rəylə bütün hazırlığı qeyd etmişdir.

Tədbirin dünyada təbliği və informasiya dəstəyi qarşımızda duran ən vacib məsələlərdən biridir. Birinci addım olaraq oyunlar haqqında hərtərəfli məlumatı əks etdirən internet portalı hazırlanacaqdır. Dünya mediasında İslam Həmrəyliyi oyunlarının keçirilməsi barədə informasiya yayılması nəzərdə tutulur.

Hörmətli cənab Prezident, I Avropa oyunlarının ölkəmizdə keçirilməsi bizə əvəzedilməz təcrübə qazandırdı və növbəti tədbirlər üçün idarəetmə, təşkilati və logistika işləri, kommunikasiya, informasiya, şəffaflıq və sair sahələrdə çox yüksək tələbləri formalaşdırdı. Avropa oyunlarının irsi IV İslam Həmrəyliyi oyunlarının keçirilməsi ilə bağlı qarşıda duran təhlükəsizlik, nəqliyyat təminatı, digər texniki təminat və təşkilati məsələlərin həllinin zəminini yaratdı. Odur ki, əsas məqsəd bu zəmində yarışlara yüksək səviyyədə hazırlaşmaqdan, bütün mövcud idman obyektlərini yarışmalar üçün tam şəkildə hazırlamaqdan və milli yığma komandanın oyunlara hazırlığından ibarətdir. Qeyd etmək lazımdır ki, qarşıda duran məsələlərdən biri də qısa müddət ərzində açılış və bağlanış mərasimlərinin ideyasının formalaşdırılması, texniki məsələlərin həlli, o cümlədən medalların və loqotipin eskiz

layihələrinin və dizaynının hazırlanması işlərinin başlanmasıdır. Bu mötəbər idman yarışlarının yayımı xüsusi əhəmiyyət kəsb edir. Tədbirin yayım hüququnun verilməsi ilə bağlı hazırda müvafiq təşkilatlarla danışıqlar aparılır. Beynəlxalq və yerli sponsorların cəlb edilməsi istiqamətində də işlər görülür. Oyunların keçiriləcəyi müddətdə Azərbaycana gələcək çoxsaylı idmançıların, rəsmi nümayəndə heyətlərinin, turistlərin və qonaqların yerləşdirilməsi üçün Bakıda və Abşeronda mövcud olan hotellərin sayı və tutumu dəqiqləşdirilib. Bu sahədə heç bir problem gözlənilmir.

İslam Həmrəyliyi oyunlarında gənclərin könüllü qismində cəlb edilməsi geniş yer tutacaq. Cənab Prezident, Siz qeyd etdiniz ki, I Avropa oyunları zamanı Azərbaycan gəncləri, könüllüləri öz bacarıqlarını çox yüksək səviyyədə nümayiş etdirdilər. Bütün qonaqlar dəfələrlə bizim gənclərin peşəkarlığı, vətənsevərliyi haqqında danışırdılar. Əlbəttə, İslam Həmrəyliyi oyunlarının təşkilati işlərində könüllülərin aktiv fəaliyyəti nəzərdə tutulur. İlkin hesablamalara görə, oyunlara təxminən 10 min nəfər könüllü cəlb ediləcəkdir.

Oyunların yüksək səviyyədə keçirilməsi məqsədilə müvafiq qurumların nümayəndələrindən ibarət işçi qrupu yaradılacaqdır. Hazırda yarışların keçirilməsi ilə bağlı bütün istiqamətləri əhatə edən və hər bir qurumun vəzifəsini müəyyənləşdirən geniş Tədbirlər Planı hazırlanır. Həmin Tədbirlər Planı qısa müddət ərzində Sizin diqqətinizə təqdim olunacaqdır.

Cənab Prezident, sonda bir daha bizə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək, Sizi və bütün Azərbaycan xalqını müqəddəs Qurban bayramı münasibətilə təbrik edirəm. Çox sağ olun.

## Gənclər və İdman naziri, Təşkilat Komitəsinin üzvü Azad Rəhimovun çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli iclas iştirakçıları!

24 illik müstəqillik tariximiz ölkənin inamlı gələcəyinə yönəlmiş çox mühüm və strateji hadisələrlə zəngindir. Müstəqilliyimizin ilk illərində idmanın inkişafına xüsusi diqqət göstərilməsi ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur. Bu diqqətin səbəbi də ulu öndər tərəfindən aydın ifadə edilmişdir: «Azərbaycanın müstəqilliyinin rəmzlərini idman kimi nümayiş etdirən ikinci bir vasitə yoxdur».

Möhtərəm cənab Prezident, Azərbaycanda Sizin rəhbərliyiniz altında ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafı da ardıcıl, məntiqli, bir-birini dəstəkləyən qərarlar və tədbirlər əsasında həyata keçirilir. Bütün bunların nəticəsidir ki, idman sahəsində ölkəmiz yüksək beynəlxalq nüfuz qazanıb. I Avropa oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı, Azərbaycanın gücünü və potensialını bütün dünyaya nümayiş etdirdi. Sevindirici haldır ki, bu oyunlar zamanı yüzlərlə azərbaycanlı gənc zəngin təcrübə qazandı. Müxtəlif təlimlər, kurslar vasitəsilə xarici mütəxəssislərlə əməkdaşlıq, birgə layihələrdə iştirak yerli mütəxəssislərimizin formalaşmasına müsbət təsir göstərmişdir. Əminik ki, ölkəmizdə böyük beynəlxalq idman tədbirlərinin keçirilməsi zamanı bu potensialdan geniş istifadə olunacaqdır.

I Avropa oyunları ərəfəsində yaradılmış maddi-texniki baza imkan verir ki, IV İslam Həmrəyliyi oyunlarını da mövcud idman obyektlərində keçirək. Onların hazırlıq səviyyəsi beynəlxalq federasiyaların texniki tələblərinə tam şəkildə cavab verir. Bu

tələblər məşq prosesinin təşkil edilməsinə də aiddir. İştirakçıların sayında ciddi fərq olmadığından yarışlar zamanı idmançıların və məşqçilərin, eyni zamanda, qonaqların yerləşdirilməsi, qidalanması, tibbi xidmət, nəqliyyat, təhlükəsizlik və digər texniki təminat məsələləri əsasən mövcud imkanlar daxilində həll ediləcəkdir.

Jurnalistlər və digər media təmsilçilərinin Media Kəndində yerləşdirilməsi üçün bütün lazımi şərait vardır. Atletlər Kəndində bütün mebel və avadanlıqlar hazır vəziyyətdə, toxunulmaz saxlanılıb və qarşıdan gələn tədbir üçün tam hazırdır. Eyni zamanda, mətbəxlər, əyləncə mərkəzləri, poliklinika üçün müvafiq avadanlıqlar, daxili nəqliyyat vasitələri və digər texniki vasitələr də işlək vəziyyətdədir. Əməliyyat heyətinin işini təmin etmək üçün 6 mindən çox müxtəlif adda İT avadanlığı, kompüter, skaner, printer, server və digər vasitələr yenidən istifadəyə tam yararlıdır.

Möhtərəm cənab Prezident, Azərbaycanın birinci xanımı, IV İslam Həmrəyliyi oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın da qeyd etdiyi kimi, idman təkcə yarış deyil, eyni zamanda, böyük mədəniyyət bayramı olmaqla bərabər, ölkəmizin tolerantlıq və multikulturalizm prinsiplərinə sadiqliyinin bariz nümunəsidir. I Avropa və IV İslam Həmrəyliyi oyunlarında, ümumiyyətlə, dünya dövlətlərinin yarısından çoxunun iştirak etməsi Azərbaycanın gücünü və potensialını nümayiş etdirir. Hazırlıq mərhələsindəki təqdimatlar və oyunların yayımı ölkəmizin dünyaya tanıtdırılması, Bakının gözəlliyinin nümayişi, tarixi və mədəni irsimizin təbliği üçün geniş imkanlar yaradır.

Gənclər və İdman Nazirliyi son ildə keçirdiyi beynəlxalq tədbirlər zamanı gənclərin könüllü kimi iştirakına xüsusi diqqət yetirmişdir. Ən böyük könüllü qüvvəsi isə Avropa oyunları zamanı toplaşmışdı. Minlərlə gənc öz işinə məsuliyyətlə yanaşaraq vətənpərvər mövqelərini bir daha sübut etdi. Həmin gəncləri gələcəkdə də bir araya yığmaq məqsədilə məlumat bazası yaradılıb.

İdmançılarımızın bundan sonra da uğurlu çıxış etmələri üçün onların çoxsaylı idman yarışlarında iştirakı olduqca vacibdir. Bu

məqsədlə ölkəmizdə bir sıra idman növlərini özündə birləşdirən kompleks yarışların təşkil edilməsi ölkə idmanına böyük töhfə verir. Bu, idmançıların Olimpiya oyunlarına hazırlıq səviyyəsini də artırır, nəticələrin daha da yaxşılaşdırılmasına zəmin yaradır, daha çox idmançının təcrübə qazanmasına səbəb olur.

Qeyd etmək istərdim ki, Azərbaycanda futbol üzrə Avropa çempionatının dörddəbir mərhələ yarışları, «Formula-1» Avropa Qran-pri yarışları, Şahmat Olimpiadası ilə yanaşı, 17 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının final mərhələsi və yelkənli qayıqların 470 olimpiya sinfi üzrə 23 yaşadək gənclərin dünya çempionatı keçiriləcək. Qeyd etmək istərdim ki, noyabrın 2–4-də ilk dəfə olaraq İslam Həmrəyliyi İdman Federasiyasının IX Baş Assambleyası və İslam Həmrəyliyi oyunları ilə bağlı yaradılmış koordinasiya komissiyasının ilk toplantısı tədbirin ənənəvi məkanından kənarda – Bakıda keçiriləcək.

I Avropa oyunlarında komandamız uğurla çıxış edərək, şərəflə ikinci yer tutmuşdur. Bütün qüvvələrimizi səfərbər edəcəyik ki, İslam Həmrəyliyi oyunlarında da milli yığmamız Sizin və xalqımızın yüksək etimadını doğrultsun. Əminik ki, Azərbaycan xalqı bu oyunlara da böyük maraq və dəstək göstərəcək. Avropa oyunlarında olduğu kimi, yarışlar zamanı tribunalar tamaşaçılarla dolu olacaq. Əminik ki, bu oyunlar islam ölkələrinin böyük bayramına çevriləcək.

Diqqətinizə görə çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin iclasda yekun çıxışı

Hesab edirəm ki, məruzələrdə kifayət qədər geniş məlumat verildi. Əminəm ki, Təşkilat Komitəsi qarşıda duran vəzifələri uğurla icra edəcək. Əlbəttə, Təşkilat Komitəsinin üzvləri və digər qurumların rəhbərləri burada fəal iştirak etməli və işləməlidirlər. Avropa oyunlarının keçirilməsi bizə çox böyük təcrübə qazandırdı. Bu barədə artıq deyildi. Bütün mərhələlərdə yenə əlaqələndirmə

olmalıdır və yüksək peşəkarlıq göstərilməlidir. Qonaqların, idmançıların ölkəmizə gəlişi, aeroportda qarşılanması, viza problemlərinin həlli, onların müasir nəqliyyat vasitələri ilə təmin edilməsi, burada həm qonaqlara, həm idmançılara, nümayəndə heyətlərinin üzvlərinə yüksək qonaqpərvərliyin göstərilməsi – bütün bu məsələlər əminəm ki, öz həllini tapacaq.

Təhlükəsizlik tədbirlərinə xüsusi diqqət göstərilməlidir. Əminəm ki, bu sahəyə rəhbərlik edən şəxslər İslam Həmrəyliyi oyunlarını da yüksək səviyyədə təşkil edəcəklər. Avropa oyunları zamanı təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təşkil edilmişdi. Mən bunu demişəm, bir daha demək istəyirəm. Mən son illər ərzində bir çox Yay Olimpiya oyunlarının açılışlarında iştirak etmişəm və özüm görmüşəm ki, bəzi hallarda küçələrdə əlisilahlı insanlar, hətta müasir xüsusi qurğular yerləşdirilir, binaların damında hava hücumuna qarşı qurğular yerləşdirilir. Bakıda isə bir dənə də olsun əlisilahlı insana rast gəlmək mümkün deyildi. Yəni budur bizim yanaşmamız. Təhlükəsizlik ən yüksək səviyyədə təşkil edilmişdi. Təhlükəsizlik tədbirləri adi insanlara problem yaratmamalıdır, xüsusilə Bakı sakinlərinə. Qonaqlar da bunu hiss etməməlidir. Ona görə mən əminəm ki, bu dəfə də bütün təhlükəsizlik tədbirləri yüksək səviyyədə təşkil ediləcəkdir.

İnformasiya-kommunikasiya sahəsində də Avropa oyunları ilə bağlı heç bir problem olmamışdı. İndi İslam Həmrəyliyi oyunlarına qədər əlavə tədbirlər də görülməlidir ki, bütün informasiya-kommunikasiya sistemləri yaxşı vəziyyətdə işləsin və heç bir problem yaranmasın.

Şəhər nəqliyyatının tənzimlənməsi prosesi gedir, yeni qurumlar yaradılır, yeni metro stansiyaları inşa edilir. Bakı sakinləri də bunu görür. Şəhər nəqliyyatı ilə bağlı yeniliklər artıq tətbiq edilir. Hesab edirəm ki, oyunlara qədər bu sahədə təkmilləşmə işləri daha da sürətlə getməlidir. Yenə də Avropa oyunlarındakı kimi, xüsusi nəqliyyat zolaqları müəyyən edilməlidir. Hesab edirəm ki, bu sahədə də heç bir problem olmayacaq.

Bakı şəhərinin abadlaşması prosesi gedir. Bunun oyunlarla heç bir əlaqəsi yoxdur. 2017-ci ilə qədər əlavə tədbirlər görüləcək.

Bakıda yeni küçələr açılır, binalar tikilir, şəhər gözəlləşir. Göstəriş verilmişdir ki, şəhərimizin hər bir yerində çox ciddi və böyük quruculuq işləri davam etdirilsin. Bakı şəhəri təkcə mərkəzdən ibarət deyil, bütün mikrorayonlarda, şəhərimizin kənarlarında da sürətlə quruculuq-abadlıq işləri, infrastruktur layihələri icra edilməlidir və edilir.

Tibbi xidmətlə bağlı deyə bilərəm ki, indi Azərbaycanda, son vaxtlar xüsusilə Bakıda tikilmiş yeni böyük tibb mərkəzləri fəaliyyət göstərir, ən müasir avadanlıqlar quraşdırılıbdır. Hesab edirəm, oyunlar zamanı xüsusi briqadalar təşkil olunacaq, xüsusi mərkəzlər müəyyən ediləcəkdir ki, əgər hər hansı bir bədbəxt hadisə baş verərsə, dərhal tibbi xidmət göstərilsin.

Atletlər və Media kəndləri ən yüksək səviyyədə qurulubdur. Avropa oyunlarında orada qalmış idmançılar, nümayəndə heyətlərinin üzvləri bunu xüsusilə qeyd edirdilər. Mənə verilən məlumata görə, bəzi idmançılar hətta öz yarışları başa çatdıqdan sonra da Bakını tərk etmək istəmirdilər. Çünki özlərini çox rahat hiss edirdilər. Bütün işlər ən yüksək səviyyədə təşkil edilmişdi. Təbii ki, 2017-ci ilə qədər həm Atletlər Kəndi, həm də Media Kəndi boş qalacaq. Ona görə, əlbəttə, baxmaq lazımdır ki, orada cari təmir işləri aparılsın ki, oyunlara qədər biz yenə də o yüksək səviyyəni saxlaya bilək.

İdman obyektlərimiz ən yüksək səviyyədədir. Burada qeyd edildi ki, heç bir yeni obyektin tikintisinə ehtiyac yoxdur. Bu oyunların keçirilməsi üçün heç bir kapital qoyuluşu nəzərdə tutulmur. Əlbəttə, istismar xərcləri olacaq. Biz oyunların keçirilməsi üçün yenə də xarici mütəxəssisləri cəlb edəcəyik. Onlar yerli mütəxəssislərlə bərabər çalışacaqlar. Yəqin yenə də Beynəlxalq Əməliyyat Şirkəti yaradılacaqdır ki, biz bu oyunları da Avropa oyunlarının səviyyəsində keçirək.

Oyunlar zamanı çox geniş mədəni proqramların – tamaşaların, konsertlərin keçirilməsi nəzərdə tutulmalıdır ki, qonaqlar bizim zəngin mədəniyyətimizlə tanış olsunlar. Xüsusi ekskursiya turları təşkil edilməlidir. Əgər ehtiyac olarsa, əlavə səyahət avtobusları da alına bilər. Çünki bildiyimə görə, bu avtobusların indi çox böyük funksiyaları var. Həm şəhər sakinləri, həm də turistlər onlardan

istifadə edirlər. Biz öz zəngin tariximizi, mədəniyyətimizi təqdim etməliyik. Eyni zamanda, bu oyunlar 2 həftədən çox davam edəcək. Buraya gələcək turistlər üçün bölgələrə ekskursiya turları da təşkil edilməlidir. Hər bir mehmanxana xüsusi bukletlər, broşürlərlə təmin olunmalıdır. Bu sahədə sizin təcrübəniz var.

Yenə də, əlbəttə ki, biz könüllülərin fəaliyyətini səbirsizliklə gözləyirik. Könüllülər üçün də bu, yeni bir imkan olacaq ki, öz məharətlərini, peşəkarlıqlarını göstərsinlər. Mən bilirəm ki, Avropa oyunları başa çatandan sonra könüllülər də bir qədər darıxırlar. Biz hamımız darıxırıq. Biz, əlbəttə, istəyirik ki, o unudulmaz günləri bir daha yaşayaq. Əminəm ki, İslam Həmrəyliyi oyunlarında da könüllülərimiz çox fəal işləyəcəklər. Onların rolu həddindən artıq böyükdür. Bildiyiniz kimi, bütün könüllülər tərifnamə ilə təltif olunublar. Onlar gələcəyimizdir, gənclərdir, hazırlıqlı, vətənpərvər, bilikli, artıq böyük təcrübəyə malik olan insanlardır. Ümumiyyətlə, idarəetmə sistemlərimizdə biz gəncləşmə siyasətini aparmalıyıq. Azərbaycan müasirləşir, inkişaf edir, nəsillər dəyişir və belə gənclər hazırlanmalıdır ki, gələcəkdə onlar ölkəmizi inamla idarə etsinlər.

Oyunların başlamasına 2 ildən az vaxt qalır. Oyunlar 2017-ci ilin may ayında keçiriləcəkdir. Ona görə Təşkilat Komitəsi artıq bu gündən fəal işə başlamalıdır. Bilirəm ki, bu günə qədər hazırlıq işləri aparılıb. Bu gün bu, məruzələrdə də səsləndi. Bütün qurumlar əlaqəli şəkildə işləməlidir ki, oyunları yüksək səviyyədə keçirək. Bir daha demək istəyirəm, biz Avropa oyunlarına göstərdiyimiz yanaşmanı bu oyunlarda da göstərməliyik. Bu oyunlar Avropa oyunlarından az əhəmiyyət kəsb etmir. Elə etməliyik ki, bir daha Azərbaycan öz qonaqpərvərliyini, təşkilatçılıq qabiliyyətini, ümumiyyətlə, öz potensialını bütün dünyaya göstərsin.

Təşkilat Komitəsinə uğurlar arzulayıram. Sizi və bütün Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Həcc ziyarəti zamanı yaranmış qarışıqlıq nəticəsində çox sayda zəvvarın həlak olması və yaralanması xəbəri bizi son dərəcə sarsıtdı.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 sentyabr 2015-ci il*

## VI RUSİYA–AZƏRBAYCAN REGİONLARARASI FORUMUN İŞTİRAKÇILARINA

Hörmətli Forum iştirakçıları!

VI Rusiya–Azərbaycan Regionlararası Forumun işə başlaması münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm. Əlamətdar haldır ki, bu il həmin forum Yekaterinburqda – ölkəmizlə ənənəvi sıx ticari-iqtisadi və humanitar əlaqələri olan Sverdlovsk vilayətinin inzibati mərkəzində keçirilir. Bu əlaqələrin qorunub saxlanılmasında və möhkəmlənməsində regionun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edən çoxsaylı Azərbaycan diasporunun nümayəndələri mühüm rol oynayır.

Fərəhli haldır ki, regionlararası forumlar nisbətən qısa zaman kəsiyində özünün həyat qabiliyyətini və səmərəliliyini sübut edib. Bu forumlar haqlı olaraq tələbat duyulan elə məkan hesab edilir ki, orada mövqelər əlaqələndirilir, birgə fəaliyyət üçün səylər cəmləşir, işgüzar əlaqələr tənzimlənir və onların genişləndirilməsi perspektivləri müzakirə edilir. Başqa sözlə desək, bu görüşlərdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının subyektləri arasında birbaşa qarşılıqlı faydalı əlaqələr yaratmağa imkan verən konstruktiv və açıq dialoq aparılır.

Forumun formatı ticari-iqtisadi və investisiya tərəfdaşlığından başlanmış, humanitar sahədə qarşılıqlı fəaliyyətlə bağlı məsələlərin geniş dairəsini nəzərdən keçirməyə imkan verir. Təqdirəlayiq fakt ondan ibarətdir ki, budəfəki tədbir çərçivəsində hər iki tərəfdən olan tələbələrin, gənc alimlərin və sahibkarların iştirakı ilə ayrıca «dəyirmi masa» təşkil edilib. Bu cür dialoq platforması həm əməkdaşlığın daha səmərəli formalarını və istiqamətlərini axtarmağa kömək edir, həm də gənclər arasında yeni dostlar və həmfikirlər qazanmağa şərait yaradır. Sirr deyil ki, dövlətlərimiz arasında qarşılıqlı münasibətlərin inkişaf perspektivləri məhz yüksək intellektə və kommunikabelliyə malik olan bugünkü gənc nəsildən asılıdır.

Azərbaycan–Rusiya əlaqələrinin müasir vəziyyətini qiymətləndirərək məmnunluqla qeyd etmək olar ki, birgə səylərimiz sayəsində bu əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Əminəm ki, sizin nüfuzlu forumunuz inteqrasiya proseslərinin dərinləşməsinə və iki ölkənin daha da yaxınlaşmasına yeni təkan verəcək.

Forum iştirakçılarına uğurlu iş və qarşıya qoyulmuş məqsədlərə çatmağı arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 sentyabr 2015-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Çin münasibətləri dinamik inkişaf yolundadır. Əlaqələrimizin bütün sahələrdə genişlənməsi və dərinləşməsi möhkəm siyasi iradəyə, qarşılıqlı inam və etimada əsaslanır. Əminəm ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin daim möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran işgüzar əməkdaşlığımızın daha da inkişaf etdirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 sentyabr 2015-ci il*

## SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ RASİM LJAJİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Serbiya Respublikası Baş nazirinin müavini, Ticarət, Turizm və Telekommunikasiya naziri Rasim Ljajiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayaraq siyasi əlaqələrimizin yüksək səviyyəsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev iqtisadi sahədə də artıq yaxşı nəticələrin əldə edildiyini bildirdi, Bakıda keçirilən Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə hökumətlərarası Komissiyanın növbəti iclasının səmərəli olacağına və gələcək əməkdaşlığımızın inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu qeyd etdi.*

*Serbiya Respublikası Baş nazirinin müavini, Ticarət, Turizm və Telekommunikasiya naziri Rasim Ljajiç ölkəsi ilə Azərbaycan arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini və bu sahədə həll edilməmiş hər hansı bir məsələnin olmadığını vurğuladı. Qonaq bildirdi ki, Serbiya tərəfi iqtisadi sahədə də əməkdaşlığımızı inkişaf etdirmək və ölkələrimizin iş adamları arasında yaxşı əlaqələr yaratmaqda maraqlıdır.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ BAYMURAD XOCAMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*28 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Türkmənistan Respublikası Baş nazirinin müavini Baymurad Xocaməhəmmədovu qəbul etmişdir.*

*Baş nazirin müavini Baymurad Xocaməhəmmədov Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev xalqlarımız arasında qardaşlıq münasibətlərinin mövcud olduğunu və əsrlərboyu dost kimi yaşadıqlarını, hazırda isə ölkələrimizin müstəqil dövlətlər kimi uğurla inkişaf etdiyini və sosial-iqtisadi sahədə yaxşı nəticələr qazandığını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Türkmənistan Baş nazirinin müavini Baymurad Xocaməhəmmədovun Azərbaycana səfərini dinamik şəkildə inkişaf edən ikitərəfli münasibətlərimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi.*

## MACARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İMRE LASLOTSKİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Macarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri İmre Laslotskinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir İmre Laslotski Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*İmre Laslotski etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Fövqəladə və Səlahiyyətli səfir İmre Laslotski Macarıstanın Baş naziri Viktor Orbanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, əməkdaşlığımızın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən energetika, informasiya-kommunikasiya texnologiyaları, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İlham Əliyev Baş nazir Viktor Orbanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Macarıstanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

# KOREYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ ÇOİ SUK-İN İLƏ GÖRÜŞ

*29 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Koreya Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Çoi Suk-İni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Prezident İlham Əliyev Koreya Respublikasının Baş naziri Çanq Honqvonun ölkəmizə səfərini və onunla keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı səfir Çoi Suk-İnin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə keçirilən çoxlu sayda tədbirlərin xalqlarımızın daha da yaxınlaşması baxımından əhəmiyyətini vurğuladı. Koreya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinə toxunan prezident İlham Əliyev Azərbaycan ilə Koreya arasında mövcud olan sıx əməkdaşlıq əlaqələrinin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı səfirin Azərbaycan–Koreya ikitərəfli əlaqələrinin genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.*

*Koreya hökuməti başçısının ölkəmizə keçənilki səfərinə toxunan Çoi Suk-İn bildirdi ki, Azərbaycanın Koreya ilə sıx əməkdaşlıq əlaqələrini genişləndirmək niyyətində olması Baş nazir Çanq Honqvonda böyük təəssürat yaratmışdır. Diplomat səfirlik tərəfindən ölkəmizdə təşkil olunan irimiqyaslı mədəni tədbirlərin əhəmiyyətini vurğulayaraq bu sahədə Azərbaycan hökumətinin dəstəyini yüksək qiymətləndirdi. Azərbaycan ilə Koreya arasında iqtisadi əməkdaşlıq məsələlərindən danışan səfir Çoi Suk-İn gələcəkdə daha çox Koreya şirkətinin Azərbaycanda fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAHİM QAUKA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Ümidvaram ki, Azərbaycan–Almaniya münasibətlərinin konstruktiv məcrada inkişafı, əməkdaşlığımızın səmərəli şəkildə davam etdirilməsi işinə bundan sonra da töhfələr verəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2015-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ XANIM PAK KIN HEYƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Dövlətin Yaranması Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, ölkələrimiz və xalqlarımız arasında daim möhkəmlənən dostluq əlaqələri, müxtəlif sahələri əhatə edən səmərəli əməkdaşlığımız bundan sonra da ikitərəfli münasibətlərimizin inkişafına xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2015-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Herbert Salber ölkəmizə səfərinin Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrin hazırkı mərhələsində bəzi məsələlərin və eləcə də regiondakı münaqişənin müzakirəsi üçün yaxşı imkan yaradacağını bildirdi.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin Azərbaycana son səfərindən ötən dövr ərzində regionda və eləcə də dünyada bir çox hadisələrin baş verdiyini qeyd edən dövlətimizin başçısı bu məsələlərlə bağlı fikir mübadiləsi aparılmasının vacibliyini qeyd etdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev bildirdi ki, münaqişənin həlli regional sabitlik üçün ən əhəmiyyətli amillərdən biridir. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan tərəfinin məqsədi danışıqlar prosesini uzatmaq və mövcud status-kvonu saxlamaqdan ibarətdir. Prezident İlham Əliyev status-kvonun uzun müddət davam etməsinin qəbuledilməz olduğunu və bu məsələnin ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri tərəfindən də dəfələrlə bəyan edildiyini vurğuladı. Təmas xəttində baş verən hadisələrə toxunan prezident İlham Əliyev Ermənistan tərəfinin Azərbaycanı təxribata çəkdiyini vurğuladı. Belə halların Ermənistan tərəfinin taktikası olduğunu qeyd edən dövlətimizin*

*başçısı beynəlxalq vasitəçilərin də bu məsələyə tam ciddiliyi ilə yanaşmadıqlarını dedi.*

*Azərbaycan–Avropa İttifaqı əlaqələrinə toxunan prezident İlham Əliyev Avropa İttifaqının bəzi dairələrinin ölkəmizlə bağlı qərəzli mövqeyinin yolverilməz olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA SKAUT KOMİTƏSİNİN SƏDRİ JOAO ARMANDO QONSALVES VƏ BAŞ KATİBİ SKOT TEARE İLƏ GÖRÜŞ

*30 sentyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Dünya Skaut Komitəsinin sədri Joao Armando Qonsalvesi və təşkilatın baş katibi Skot Teareni qəbul etmişdir.*

*Dünya Skaut Komitəsinin 2017-ci ildə Bakıda keçiriləcək 41-ci konfransına və 13-cü Dünya Skaut Gənclər Forumuna Azərbaycanın ev sahibliyi etməsinin təşkilat üçün çox mühüm əhəmiyyət daşıdığını deyən baş katib Skot Teare tədbirlərdə 150 ölkədən 1000-dən artıq nümayəndənin iştirak etməsinin nəzərdə tutulduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Dünya Skaut Komitəsinin 41-ci konfransının və 13-cü Dünya Skaut Gənclər Forumunun Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilən qərarın əhəmiyyətini xüsusi qeyd etdi. Bu cür vacib qlobal tədbirin Azərbaycanda keçirilməsinin ölkəmizin daha da yaxından tanıdılması baxımından yaxşı fürsət yaradacağına ümidvar olduğunu deyən dövlətimizin başçısı beynəlxalq səviyyəli müxtəlif tədbirlərin ölkəmizdə həmişə uğurla təşkil olunduğunu bildirdi.*

*Görüşdə Dünya Skaut Komitəsinin növbəti konfransının və 13-cü Dünya Skaut Gənclər Forumunun səs çoxluğu ilə Avrasiya regionunda ilk dəfə olaraq 2017-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilən qərardan məmnunluq ifadə olundu, bu tədbirlərin ölkəmizdə yüksək səviyyədə təşkil olunacağı əminliklə qeyd edildi.*

## SANKT-PETERBURQ ŞƏHƏRİNİN QUBERNATORU GEORGİ POLTAVÇENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Rusiya Federasiyası Sankt-Peterburq şəhərinin qubernatoru Georgi Poltavçenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev qubernator Georgi Poltavçenkonun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Sankt-Peterburq şəhəri ilə gələcək əməkdaşlığın möhkəmləndirilməsi və bütövlükdə Azərbaycan–Rusiya ikitərəfli münasibətləri çərçivəsində qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Dövlət başçıları, nazirlər və digər səviyyələrdə qarşılıqlı səfərlərin və görüşlərin önəmini qeyd edən prezident İlham Əliyev belə müsbət əlaqələr fonunda regional əməkdaşlığın möhkəmləndirilməsinin zəruri olduğunu dedi. Bu günlərdə Rusiyanın Yekaterinburq şəhərində keçirilən Rusiya–Azərbaycan Regionlararası Forumuna toxunan dövlətimizin başçısı bu tədbirin artıq ənənəyə çevrildiyini vurğulayaraq forumun regionların əməkdaşlığı ilə yanaşı, iqtisadi layihələrin həyata keçirilməsi baxımından da əhəmiyyətli olduğunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Rusiyanın Sankt-Peterburq şəhəri arasında əməkdaşlığın daha da genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Sankt-Peterburq şəhərinin qubernatoru Georgi Poltavçenko doğulduğu və onun üçün doğma olan Bakının son illər ərzində çox sürətlə inkişaf etdiyini məmnunluq hissi ilə vurğuladı. Bakıda keçirilən I Avropa oyunlarının ölkəsində böyük maraqla izlənildiyini deyən qubernator şəxsən prezident İlham Əliyevin rəhbərliyi ilə bu tədbirə hazırlığın yüksək səviyyədə və keyfiyyətlə həyata keçirilməsinin mümkün olduğunu dedi. Sankt-Peterburq şəhəri ilə əməkdaşlıq məsələsinə toxunan Georgi Poltavçenko bu əməkdaşlığın ənənəvi olaraq həmişə səmimi münasibətlərə əsaslandığını qeyd etdi. Özündən əvvəlki qubernator Valentina Matviyenkonun bu əməkdaşlığa böyük önəm verdiyini vurğulayan Georgi Poltavçenko əlaqələrimizin daha da möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini bildirdi. O, Sankt-Peterburq şəhərinin Azərbaycan ilə iqtisadi, ticari və digər sahələrlə yanaşı, gəmiqayırma sektorunda da əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi.*

## İSRAİL DÖVLƏTİNİN SABİQ PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*1 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İsrail Dövlətinin sabiq prezidenti Şimon Peresi qəbul etmişdir.*

*Görüşdə prezident İlham Əliyev ilə Şimon Peresin bundan əvvəl Bakıda və Davosda keçirilən görüşləri məmnunluqla xatırlandı.*

*İsrail Dövlətinin sabiq prezidenti ölkəmizə budəfəki səfəri zamanı paytaxt Bakıda böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Söhbət zamanı Azərbaycan ilə İsrail arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ GÖMRÜK VƏ TİCARƏT NAZİRİ CENAP AŞÇININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Türkiyə Respublikasının Gömrük və Ticarət naziri Cenap Aşçının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Ankarada Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iki ölkənin gömrük orqanları arasında birgə Komissiyanın yaradılması ilə bağlı qəbul edilən qərara uyğun olaraq, bu gün Bakıda Komissiyanın ilk toplantısının keçiriləcəyini vurğulayan nazir Cenap Aşçı bildirdi ki, dövlət başçıları səviyyəsində qəbul edilən qərarların icrasının reallaşdırılması qarşıda duran vəzifələrdən biridir.*

*Prezident İlham Əliyev Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantılarının məzmunlu olduğunu və orada qəbul edilən bütün qərarların icrasının önəmini qeyd etdi. İki ölkənin gömrük orqanlarının birgə Komissiyasının fəaliyyətə başlamasının əhəmiyyətinə toxunan dövlətimizin başçısı Komissiyanın iclasında bu sahə ilə bağlı müxtəlif məsələlərin müzakirə ediləcəyinə, qarşılıqlı təcrübə mübadiləsinin aparılacağına ümidvar olduğunu bildirdi.*

*Ulu öndər Heydər Əliyevin «bir millət – iki dövlət» kəlamını xatırladan Cenap Aşçı Türkiyənin Azərbaycan ilə bütün istiqamətlərdə, o cümlədən gömrük sahəsində çox yaxşı əlaqələrə malik olduğunu vurğulayaraq, bu sahədə ölkələrimiz arasında qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün böyük əhəmiyyət daşıdığını dedi.*

*Ölkələrimizin bütün məsələlərdə bir-birini daim dəstəklədiyini deyən dövlətimizin başçısı digər sahələrdə olduğu kimi, gömrük orqanları arasında əməkdaşlığın da yüksək səviyyədə olmasının önəmini qeyd etdi. Dünyada gedən maliyyə-iqtisadi böhran şəraitində ölkələrimizin gömrük orqanları qarşısında mühüm vəzifələrin dayandığını deyən prezident İlham Əliyev iqtisadi böhranın nəticələrinin araşdırılması, təhlili və gömrük orqanlarının işinin təkmilləşdirilməsində birgə fəaliyyət göstərməyin vacibliyini qeyd etdi.*

# POLO İDMAN NÖVÜ ÜZRƏ AZƏRBAYCAN YIĞMA KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də polo idman növü üzrə Bakıda keçirilən I Avropa çempionatının qalibi olmuş Azərbaycan yığma komandasının üzvləri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Keçən ay Bakıda polo üzrə I Avropa çempionatı keçirilmişdir. Bizim milli komandamız bütün rəqiblərə qalib gələrək, çempion titulunu qazanmışdır. Bu gözəl hadisə münasibətilə sizi, ilk növbədə, idmançıları, məşqçiləri, idman mütəxəssislərini, Atçılıq Federasiyasının nümayəndələrini ürəkdən təbrik edirəm. Bu doğrudan da böyük, gözəl qələbədir.

Avropa çempionatı ilk dəfə keçirilmişdir. Bildiyimə görə, çempionatın keçirilməsinin təşəbbüskarı da Azərbaycan Atçılıq Federasiyası olmuşdur. Çempionat yüksək səviyyədə keçirilmişdir. Bu da təbiidir, çünki Azərbaycanda bütün beynəlxalq idman yarışları ən yüksək səviyyədə keçirilir. Əlbəttə ki, bizim komandamız öz gücünü göstərdi. Bu bizim növbəti idman qələbəmizdir.

Polo idman növü bizim xalqımıza çox yaxındır, bizim çövkən milli idman oyununa çox oxşayır. Əlbəttə ki, idmançılarımızın təcrübəsi də kifayət qədər böyükdür. Ancaq Avropa çempionatı çox mötəbər idman yarışıdır. Bildiyimə görə, bu çempionatda çox güclü komandalar iştirak etmiş və mübarizə də çox gərgin olmuşdur. Siz xalqımızı, azarkeşləri sevindirdiniz. Bir daha demək istəyirəm ki, Azərbaycan öz idman gücünü göstərdi.

Bu vaxta qədər biz dəfələrlə bütün mötəbər yarışlarda ləyaqətlə çıxış etmişik. Müxtəlif idman növləri üzrə bizim dünya, Avropa, olimpiya çempionlarımız var. Bu idman növündə də Azərbaycan

tarixə öz adını yazdı. Çünki birinci çempionat Bakıda keçirildi və birinci qalib də Azərbaycan komandası oldu.

Atçılıq idman növünün inkişafına böyük diqqət göstərilir. Son vaxtlar həm Bakıda, həm bölgələrdə bu idman növünə çox böyük maraq var. Şadam ki, çövkən üzrə respublika çempionatları mütəmadi qaydada keçirilir və bu çempionatlarda iştirak edən komandaların sayı artır. Bu çox böyük maraq doğuran idman növünə çevrilib. Həm böyük tamaşaçı auditoriyasını cəlb edir, həm də artıq bizim böyük idman ordumuz var.

Bu idman növü ilə məşğul olan gənclər öz güclərini göstərirlər, lazım olan başqa şərait də yaradılıb. Son illər ərzində həm Bakıda, həm də bölgələrdə bu sahəyə çox böyük diqqət göstərilir.

Bütövlükdə idman Azərbaycanda prioritet istiqamətdir. Bizim idmançılarımız xalqımızı mötəbər yarışlarda sevindirirlər. Xüsusilə I Avropa oyunlarında Azərbaycan milli komandası 2-ci yerə layiq görüldü. Bu da hesab edirəm ki, Azərbaycan idmanının təntənəsi idi. Həm təşkilatçılıq məsələləri, həm idmançılar, qonaqlar üçün təşkil edilmiş mədəni proqram ən yüksək səviyyədə həll olunmuşdu. Əlbəttə, Azərbaycan vətəndaşları bütün yarışlarda bizim idmançılarımızı çox böyük sevgi, məhəbbətlə dəstəkləmişlər və bu dəstək əminəm ki, bizim idmançılarımıza əlavə güc vermişdir.

Bütün Avropa ölkələri arasında 2-ci yeri tutmaq tarixi qələbədir. Bu, ölkəmizin, xalqımızın, müstəqil Azərbaycanın qələbəsidir. Bildiyiniz kimi, 2 ildən sonra İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Azərbaycan yenə də tarixə öz adını yazacaq. Birinci ölkədir ki, həm Avropa, həm islam oyunları bu ölkədə keçirilir. Yenə də əminəm ki, bu, növbəti idman bayramına çevriləcəkdir. İndi hazırlıq işləri gedir və İslam Həmrəyliyi oyunları Avropa oyunlarının, yəni Yay Olimpiya oyunlarının səviyyəsində keçiriləcəkdir. Çünki biz qarşıya bu məqsədi qoymuşuq, bu məqsədə də nail olacağıq. Gələn il biz yenə də tamaşaçıları sevindirəcəyik, Azərbaycanda gözəl, mötəbər, dünya miqyaslı yarışlar keçiriləcək.

Azərbaycan artıq dünyada idman ölkəsi kimi özünü təqdim edə bilib və idmançılarımız bizi çox sevindirirlər. Bütün bölgələrdə

idmanla məşğul olmaq üçün gözəl şərait – olimpiya idman kompleksləri, idman meydançaları var. Gənclər idmana çox meyillidirlər. Bu da gəncləri sağlam ruhda və fiziki cəhətdən sağlam şəraitdə böyüdəcək və onlar yaxşı tərbiyə alacaqlar. İdmanla məşğul olanların böyük əksəriyyəti məişətdə də nümunə olurlar. Biz idmançılarımızla fəxr edə bilərik. İdmanla məşğul olan insan həm fiziki cəhətdən, həm mənəvi cəhətdən sağlam, dəyərli vətəndaş olur. Mən də çox istəyirəm ki, bizim gənclərimiz güclü, fiziki, mənəvi cəhətdən hazırlıqlı, Vətənə bağlı, vətənpərvər olsunlar. Vətənpərvərlik hisslərini idman qədər gücləndirən ikinci amil bəlkə də çətin ki, tapılsın. Yəni idman bütün cəmiyyəti birləşdirir və əlbəttə ki, qələbə qazanılanda bütün xalq buna sevinir. İdman yarışları o mübarizə, o rəqabət formasıdır ki, burada nəticələr göz qabağındadır. Ölkələrin müxtəlif inkişaf dinamikaları var. Ancaq Olimpiya oyunlarında, dünya çempionatlarında hər şey açıq-aydın görünür: kim birinci yerdədir, kim ikinci yerdədir. İdmanın inkişafı hər bir ölkənin ümumi inkişafını göstərir. Ona görə dünya, Avropa çempionatlarının, Olimpiya oyunlarının nəticələrinə fikir versək görərik ki, birinci yerlərdə, adətən, inkişaf etmiş ölkələr qərarlaşır. Azərbaycan bu ölkələrin sırasındadır.

Mən bir daha sizi ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Bundan sonra bu titulu saxlamaq asan olmayacaq, çünki sizinlə yarışacaq bütün komandalar bu yarışlara xüsusi bir həvəslə çıxacaqlar. Ona görə çalışmalısınız ki, gələcək yarışlarda da Azərbaycanın idman şöhrətini həmişə uca tutasınız. Bir daha təbrik edirəm.

**E l ç i n C a m a l l ı** *(komandanın üzvü):* Möhtərəm cənab Prezident, əvvəlcə Azərbaycan atçılığının inkişafına göstərdiyiniz ali diqqət və qayğıya görə bütün çaparlar adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin diqqət və qayğınızın nəticəsidir ki, artıq Azərbaycanda digər idman növləri ilə yanaşı, atçılığın polo növü üzrə də qızıl medallar əldə edilib. Sizin qəbulunuzda olmaq hər bir vətəndaş kimi, bizim üçün də çox böyük qürur və fəxarət hissidir.

Son illər ərzində Azərbaycanda atçılıq idmanının bütün növləri üzrə mühüm işlər görülüb. Yüksək səviyyədə beynəlxalq turnirlər keçirilib. Mükəmməl at cinslərimiz yetişdirilib. Qədim oyunlarımız Sizin sayənizdə daha da inkişaf edib. Azərbaycan milli komandasının üzvü olmaq hər bir idmançı kimi, bizim üçün də çox məsuliyyətli işdir. Çünki Sizin idmançılara, idmana olan etimadınızı doğrultmalıyıq.

Ölkəmizdə Avropa çempionatı keçirildi və biz bu çempionatda qalib olduq. Bu qələbəmizi Sizə və qüdrətli Azərbaycan xalqına həsr edirik. Çox sağ olun.

**E l ç i n  Q u l i y e v** *(Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti):* Möhtərəm cənab Prezident, icazə verin, bir daha göstərdiyiniz bu ali diqqətə, qayğıya görə Sizə Azərbaycanın bütün atçılıq idmansevərləri adından dərin minnətdarlığımı, hörmət və ehtiramımı bildirim.

Sözsüz, göstərdiyiniz bu dəstəyin nəticəsidir ki, Azərbaycan idmançıları dünya meydanlarında, beynəlxalq yarışlarda ardıcıl olaraq yüksək nəticələr əldə edirlər. Əgər əvvəllər idmançılarımız yalnız Azərbaycan üçün ənənəvi idman növlərində nəticələr əldə edirdilərsə, bu gün artıq bu idman növləri şaxələnməkdədir və digər idman növləri üzrə də Azərbaycan idmançıları yüksək nəticələr əldə edirlər.

Azərbaycanın polo üzrə yığma komandasının Avropa çempionatında əldə etdiyi nəticə də məhz belə qələbələrdəndir. Mən çox şadam ki, biz bu qələbəni, bu yüksək nəticəni əldə etdik. İdmançımızın iftixar hissi ilə dediyi kimi, bu qələbəni Sizin rəhbərliyiniz altında qüdrətli Azərbaycana həsr etdik. Bir daha dərin minnətdarlığımızı bildiririk, cənab Prezident. Göstərdiyiniz bütün diqqətə, qayğıya görə çox sağ olun.

* * *

*Sonra prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim olundu.*

*Prezident İlham Əliyev əldə olunmuş nailiyyətdə komandanın məşqçisinin xidmətlərini xüsusi qeyd etdi.*

*Polo üzrə milli komandamızın məşqçisi Silvester Qarros Azərbaycana gəldiyi gündən Bakıda gördüklərindən məmnunluğunu ifadə etdi. O, ölkəmizdə idmanın inkişafı üçün görülən nəhəng işlərin nəticəsi olaraq, Azərbaycan idmançılarının müxtəlif beynəlxalq yarışlarda, o cümlədən olimpiadalarda əldə etdiyi nailiyyətlərin dünya idman ictimaiyyətində yaratdığı təəssüratlardan danışdı.*

*Bakıda keçirilən I Avropa oyunlarına toxunan Silvester Qarros bu oyunların möhtəşəm idman bayramı kimi, təkcə Avropanın deyil, bütün dünyanın idman tarixinə ən yaddaqalan hadisə kimi düşdüyünü vurğuladı. O, polonun Azərbaycanın milli çövkən oyununa çox oxşar olduğunu və idmanın bu növünün inkişafı üçün yaradılan şəraiti və potensialı heç bir başqa ölkədə müşahidə etmədiyini bildirdi və bütün bunlara görə prezident İlham Əliyevə minnətdarlıq etdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

# «XƏYAL ADASI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SABIS SUN BEYNƏLXALQ MƏKTƏB KOMPLEKSİNİN VƏ QOLF KLUBUNUN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 4-də «Azərsun Holdinq» Şirkətlər Qrupunun «Xəyal Adası» layihəsi çərçivəsində SABIS Sun Beynəlxalq məktəb kompleksinin və Qolf klubunun açılışında iştirak etmişlər.*

*«Azərsun Holdinq» Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Abdulbari Gözəl dövlətimizin başçısına «Xəyal Adası»nda görülən işlərlə bağlı ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyev SABIS Sun Beynəlxalq məktəb kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, məktəb kompleksində uşaq bağçası, SABIS Sun Beynəlxalq məktəbi və inzibati bina inşa olunub. İnzibati binanın foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi diqqəti əks etdirən fotolardan ibarət stend yaradılıb. Burada müəllim kollektivinin fəaliyyəti üçün ən yüksək şərait var. Məktəb kompleksinin növbəti mərhələləri üzrə də inşaat işləri uğurla davam etdirilir. Bu kompleks ən müasir tələblərə cavab verməklə, təlim-tədris üçün bütün zəruri avadanlıqlarla təchiz ediləcək.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin uşaq bağçasında yaradılan şəraitlə də maraqlandılar. Binanın foyesində ulu öndər Heydər Əliyevin müxtəlif illərdə uşaqlarla bağlı keçirilən tədbirlərdə iştirakını əks etdirən fotostend yaradılıb. Fotostenddə uşaqların həm fiziki, həm də mənəvi cəhətdən sağlam vətəndaş kimi formalaşması sahəsində prezident İlham Əliyevin rəhbərliyi altında görülən işlər və Heydər Əliyev*

*Fondunun prezidenti Mehriban Əliyevanın gələcəyimiz olan körpələrə qayğısını əks etdirən fotolar da yer alıb.*

*Uşaq bağçasının bütün məşğələ otaqları müasir standartlar səviyyəsində qurulub. Burada uşaqların təlim-tərbiyəsi ilə beynəlxalq təcrübədən istifadə etməklə, məşğul olmaq üçün hər cür şərait var. Belə uşaq müəssisələrinin yaradılması bir daha sübut edir ki, gələcəyimiz olan körpələrə diqqət və qayğı ən yüksək səviyyədədir. Bu gün dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətdə uşaqların təlim-tərbiyəsinin təşkili, onların sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır.*

*Uşaq bağçasında üzgüçülük hovuzu və zəruri avadanlıqlarla təchiz edilən idman zalı da var. Belə idman qurğularının yaradılması göstərir ki, uşaq bağçasında balacaların fiziki cəhətdən sağlam yetişməsi diqqətdə saxlanılacaq. Yaradılan şərait balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafına, onların istedad və qabiliyyətlərinin üzə çıxarılmasına, sağlamlıqlarının qorunmasına, ünsiyyət qurmaq vərdişlərinə yiyələnməsinə imkan verəcək.*

*Sonra dövlətimizin başçısı və xanımı SABIS Sun Beynəlxalq məktəbində yaradılan şəraitlə tanış oldular. Bu təhsil ocağı bütün siniflər üzrə təlim-tərbiyə işinin müasir standartlar səviyyəsində qurulması baxımından hər cür şəraitə malikdir. Otaqların hamısı zəruri avadanlıq və dərs vəsaitləri ilə təchiz edilib. Dördmərtəbəli məktəbdə təhsil sahəsində keyfiyyəti ilə fərqlənən SABIS sistemi tətbiq olunur. Bu təhsil sistemi fəaliyyət göstərdiyi dövrdə təkmilləşdirilmiş əhatəli tədris proqramı ilə seçilir. Dünyanın 16 ölkəsində 60 məktəbi fəaliyyət göstərən SABIS sistemi üzrə 65 min şagird təhsil alır. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanda təhsil sahəsində əldə olunan inkişaf beynəlxalq təcrübəni də özündə ehtiva edir. Bu prinsip maddi-texniki bazanın möhkəmləndirilməsinə geniş yer verir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət, ölkəmizdə təhsillə bağlı qəbul edilən proqramlar bu sahənin yeni və keyfiyyətcə daha üstün mərhələyə qədəm qoymasına şərait yaradır.*

*Dövlətimizin başçısı təhsil kompleksinin müəllim və şagirdləri üçün nəzərdə tutulan xüsusi nəqliyyat vasitələrinə də baxdı.*

*«Xəyal Adası»nda yaradılan yüksək şərait bir daha təsdiqləyir ki, bu cür mühüm layihələrin keyfiyyətlə və qısa müddətə reallaşdırılmasında əsas məqsəd ölkəmizin ümumi inkişafına təkan verən yeni infrastrukturun qurulmasıdır.*

*Sonra dövlətimizin başçısı və xanımı «Xəyal Adası»nın Qolf klubuna gəldilər. Binada idman avadanlığı mağazası var. Mağazada qolf oyunu zamanı istifadə olunan idman malları müştərilərə təqdim edilir.*

*Qolf klubu binasının interyeri müasirliyi ilə diqqəti cəlb edir. Binada qolf oyunçularının hazırlaşması, istirahət etməsi, komanda ilə birlikdə əylənməsi üçün bütün şərait yaradılıb. Sahəsi 5000 kvadratmetr olan Qolf klubunun yüksək zövqlə və keyfiyyətlə qurulması bir daha layihənin uğurunu nümayiş etdirir. Binada müasir səviyyədə yaradılan kafe və restoranlar qonaqların ixtiyarına veriləcək. Burada qonaqlara istər Avropa, istərsə də milli mətbəx nümunələrinin təamları təqdim ediləcək. Qolf klubunun binasındakı satış mərkəzi həm qolf, həm də layihə ilə maraqlanan müştərilərə xidmət edəcək.*

*Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yolun üzərində yerləşən «Xəyal Adası»nın ərazisi 330 hektardır. Ərazi paytaxtın mərkəzindən 24 kilometr məsafədə yerləşir. Reallaşmasına 2013-cü ildən start verilən layihənin yüksək səviyyədə yerinə yetirilməsi və qısa zamanda tamamlanması üçün bütün qüvvələr səfərbər olunub.*

*«Xəyal Adası»nda «ASAN xidmət» Mərkəzi də yaradılacaq. Ən yüksək ekoloji standartlara uyğun olaraq inşa edilən «Xəyal Adası»nda gələcəkdə müasir səhiyyə komplekslərinin yaradılması nəzərdə tutulub. Layihə çərçivəsində məktəb kompleksi, ticarət mərkəzləri, mehmanxana, beynəlxalq səviyyəli yarışların keçirilməsinə imkan verən Qolf Mərkəzi, göllər və peyzaj sahələri yaradılır. Burada 1 milyon kvadratmetrdən çox yaşıllıq sahəsi var. 10-dan artıq süni göllə əhatə olunmuş ərazidə xüsusi ekosistem mövcuddur. Ən yüksək səviyyəli yaşayış standartlarını özündə*

*birləşdirən «Xəyal Adası» layihəsinin həyata keçirilməsi ölkəmizdə beynəlxalq turizmin və qeyri-neft sektorunun inkişafına da mühüm töhfə verəcək.*

*Qolf klubunun binasında prezident İlham Əliyev bu idman növündə oynamağa gələn xarici ölkələrin nümayəndələri ilə görüşdü. Qonaqlar Qolf klubunda yaradılan şəraitdən razılıqlarını bildirdilər. Qeyd edildi ki, dünyanın bir çox yerindən iş adamları, müxtəlif peşə sahibləri ailələri ilə birlikdə Bakıya gəlir, burada həm qolf oynayır, həm istirahət edir, həm də vaxtlarını səmərəli keçirirlər. Qonaqlar qeyd etdilər ki, ölkəmizdə yaradılan idman infrastrukturu müasirliyi ilə seçilir.*

*Daha sonra prezident İlham Əliyev Qolf klubunun dünyanın müxtəlif ölkələrindən olan üzvləri ilə və Qolf Akademiyasında təhsil alanlarla görüşdü. Onlar da burada qolf oynamaq üçün hərtərəfli şəraitin yaradıldığını dedilər.*

*Dövlətimizin başçısı və qolf üzrə 3 dəfə Major kubokunun sahibi Kolin Montqomeri qolf meydançasının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Kolin Montqomeri bildirdi ki, burada yaradılan qolf sahəsi müasir dünya standartlarına cavab verir. Peşəkar Qolf Assosiasiyasının standartlarına tam uyğun olan və beynəlxalq təcrübə nəzərə alınaraq yaradılan qolf sahəsində 18 çuxur var. Ərazisi 65 hektar olan qolf sahəsindəki şərait beynəlxalq səviyyəli yarışların təşkilinə imkan verir. Burada yaradılan Qolf Akademiyasında kiçik yaşlarından başlayaraq uşaqlara peşəkarlar tərəfindən qolf öyrədiləcək, müxtəlif treninqlər keçiriləcəkdir. Qolf Akademiyası gələcəkdə ölkəmizin adını bütün dünyada ləyaqətlə təmsil edəcək idmançıların yetişdirilməsində mühüm rol oynayacaq.*

*Sonra Kolin Montqomeri prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi və xatirə şəkli çəkdirildi.*

*Prezident İlham Əliyev layihə çərçivəsində inşa edilən villada yaradılan şəraitlə maraqlandı. Məlumat verildi ki, «Xəyal Adası»nda 2100 mənzil, fərqli ölçülərdə və konseptlərdə 300 villa inşa olunub. Onların hamısı müasir tələblərə cavab verir və yüksək keyfiyyətləri ilə seçilir. Buradakı villaların bir hissəsi artıq ha-*

zırdır, digərlərinin inşası davam edir. Yaşayış binalarında isə inşaat işləri gələn ilin ortalarında bitəcək. «Xəyal Adası» layihəsi burada yaşayacaq insanların bütün ehtiyaclarını ödəməyə hesablanıb. Yüksək standartlara cavab verən yaşayış, ticarət, əyləncə və idman sahələrindən ibarət «Xəyal Adası» şəhərciyi həm də ətraf ərazilərdə yaşayan insanlar üçün böyük məşğulluq mərkəzi olacaq.

Beləliklə, belə mühüm infrastruktur layihələrinin icrası Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin ardıcıl və məqsədyönlü olduğunu bir daha aydın nümayiş etdirir. Bu işlər sübut edir ki, bütün dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, dövlətimizin həyata keçirdiyi siyasət nəticəsində nəzərdə tutulan bütün layihələr uğurla icra olunur.

Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq tapşırıq və tövsiyələrini verdi.

# FRANSA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ PASKAL MÖNYE İLƏ GÖRÜŞ

*5 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Fransa Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Paskal Mönyeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Ölkəmizdən və xalqımızdan xoş təəssüratla ayrıldığını deyən səfir Paskal Mönye gələcək fəaliyyəti dövründə də əlaqələrimizin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi. Səfir prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində Fransa ilə Azərbaycan arasında əlaqələrin daha da gücləndirildiyini vurğuladı.*

*Paskal Mönyenin Azərbaycan–Fransa ikitərəfli münasibətlərinin inkişafına verdiyi töhfəni qeyd edən dövlətimizin başçısı onun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə əməkdaşlığımızın yüksək səviyyəyə qalxdığını dedi. İkitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və eləcə də Heydər Əliyev Fondunun bu istiqamətdəki fəaliyyətinin önəmini vurğulayan prezident İlham Əliyev əlaqələrimizin geniş sahələri əhatə etməsindən və əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, texnologiya, biznes, mədəniyyət və digər sahələrdə strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluğunu ifadə etdi.*

*Dövlətimizin başçısı səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.*

## TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ, ORDU GENERALI HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir*

*Dövlətimizin başçısı Azərbaycan–Türkiyə əməkdaşlığının bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyini və daim möhkəmləndiyini dedi. Hərbi sahədə əlaqələrimizin çox yaxşı tarixə malik olduğunu bildirən prezident İlham Əliyev ölkəmizin müstəqilliyi dövründə əməkdaşlığımızın daha da genişləndiyini vurğulayaraq son illər həm Azərbaycanda, həm də Türkiyədə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini və Azərbaycan ilə Türkiyənin dünya miqyasında ən yaxın dövlətlər olduğunu qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin bir-birini bütün məsələlərdə daim dəstəkləməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılacağına əminliyini ifadə etdi.*

*Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar qardaşlıq təməli üzərində həyata keçirilən birgə təlimlərin böyük əhəmiyyət daşıdığını qeyd etdi. O həm Türkiyədə, həm də Azərbaycanda keçirilən təlimlər zamanı müxtəlif sahələr üzrə nümunəvi işbirliyinə nail olunduğunu vurğuladı. Ölkələrimiz*

*arasında ikitərəfli münasibətlərə* toxunan Hulusi Akar *Türkiyə ilə* Azərbaycan *arasında əlaqələrin dünyada* misli *olmadığını və böyük önəm daşıdığını* dedi. *O, Türkiyə və* Azərbaycan *prezidentlərinin rəhbərliyi ilə* bu *əlaqələrin* qarşıdakı *illərdə* daha da *genişləndiriləcəyini əminliklə* qeyd etdi.

# UCAR RAYONUNA SƏFƏR

*6 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Ucar şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.*

*Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov abidənin ətrafında görülmüş işlər barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, ulu öndərin abidəsinin ucaldıldığı ərazidə son vaxtlar geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Bura rayon sakinlərinin ən sevimli istirahət mərkəzlərindən birinə çevrilib.*

## «Ucar Aqro» MMC-nin quş kəsimi və broyler fabriklərinin fəaliyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da «Ucar Aqro» MMC-nin quş kəsimi və broyler fabriklərinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına əvvəlcə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Aran iqtisadi rayonunda verilən güzəştli kreditlər barədə məlumat verildi. İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev bildirdi ki, indiyədək fond vasitəsilə Aran iqtisadi rayonu üzrə 11400-dək sahibkara 445 milyon manatadək, o cümlədən yeni texnologiyalara əsaslanan 10 logistik mərkəz və 9 taxıl anbarı, 8 iri fermer, 15 quşçuluq, 10 cins heyvandarlıq, 6 istixana, 4 üzümçülük, 4 intensiv bağçılıq təsərrüfatları, 6 çörək, 6 meyvə-tərəvəz, 5 süd və 2 ət*

*emalı zavodları, 1 spirtli içkilər, 5 tikinti materialları və 4 digər istehsal və emal müəssisələri olmaqla, ümumilikdə 95 müəssisənin yaradılmasına 263 milyon manatdan çox, həmçinin 10700-dək sahibkara 104 milyon manatadək kiçikhəcmli güzəştli kreditlər verilib. İqtisadi rayon üzrə verilmiş kreditlər hesabına 36300-dən çox yeni iş yeri yaradılıb. Ucar rayonu üzrə isə 180 sahibkara 19.5 milyon manat güzəştli kreditlər verilib və bunun hesabına 860-dan çox yeni iş yeri açılıb.*

*Daha sonra dövlətimizin başçısına quşçuluq sənayesinin ümumi mənzərəsi barədə məlumat verildi.*

*Məlum olduğu kimi, dövlətimizin başçısı tərəfindən təsdiq olunmuş və icrası uğurla davam etdirilən «2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı» üzrə nəzərdə tutulan tədbirlərdən biri də sənaye üsulu ilə quş əti və yumurta istehsalının artırılması, respublika əhalisinin quşçuluq məhsullarına olan tələbatının bütövlükdə yerli istehsal hesabına ödənilməsi məqsədilə quşçuluğun kompleks inkişafının təmin edilməsidir. Bu məqsədlə son illər ərzində İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə illik istehsal gücü 59.4 min ton quş əti, 132.7 milyon ədəd damazlıq və 183.1 milyon ədəd əmtəəlik yumurta olan 43 quşçuluq təsərrüfatına 121.2 milyon manat dövlətin güzəştli kreditləri verilib. Nəticədə quş ətinin illik istehsalının həcmi 2011-ci ilə nisbətən 2,15 dəfəyədək artaraq 46.6 min tondan 100 min tona, damazlıq yumurta üzrə illik istehsalın həcmi 4 dəfədən çox artaraq 32 milyon ədəddən 132.7 milyon ədədə, quş əti istehsalı 1,4 dəfədən çox artaraq 68.6 min tondan 99.4 min tona, yumurta istehsalı 1 milyard ədəddən 1,6 milyard ədədədək artıb. Sənaye üsulu ilə quş əti istehsalı 2,17 dəfə artaraq 29.5 min tondan 64.1 min tona, yumurta istehsalı 2,7 dəfə artaraq 260.2 milyon ədəddən 704.8 milyon ədədə çatıb. Bu, həmin məhsulların idxalının kəskin surətdə azalmasına səbəb olub. Belə ki, quş ətinin idxalı 7,9 dəfə azalaraq 17.4 min tondan 2.2 min tona, yumurtanın idxalı isə 5,3 dəfə azalaraq 291.9 milyon ədəddən 54.7 milyon ədədə düşüb. Bütün*

*bunların nəticəsində ölkənin quş əti ilə özünütəminetmə səviyyəsi 2011-ci ildəki 79.9 faizdən 2014-cü ildə 98 faizə, yumurta üzrə isə 77.4 faizdən 99.7 faizə çatıb.*

*Bu amillər quşçuluq məhsullarının ixracı üçün də imkanlar yaradıb. Maliyyələşdirilmiş quşçuluq fabrikləri dünyanın inkişaf etmiş ölkələrinin aparıcı şirkətləri tərəfindən ən son texnologiyalar əsasında istehsal olunmuş avadanlıqlarla təchiz edilib.*

*Sonra dövlətimizin başçısı «Ucar Aqro» MMC-nin müasir kəsim və broyler fabrikləri ilə tanış oldu.*

*Fabriklərin inşasının 1-ci mərhələsinin dəyəri 28.4 milyon manat olub və bu layihələrə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat dövlətin güzəştli krediti verilib. Rayonun Qazıqumlaq kəndi ərazisində hər biri 35 min baş quş tutumuna malik 25 ferma inşa edilib. Bununla yanaşı, Alpout kəndi ərazisində saatda 6 min baş quş kəsimi gücünə malik müasir Quş əti emalı fabriki tikilib. Fabrikdə əsas istehsal prosesi 5 sahədə – kəsim, şoklama, soyutma, bölünmə və qablaşdırma sahələrində aparılır. Kəsim fabrikində elektron idarəetmə paneli olan konveyer xətləri, avtomatik qablaşdırma sistemləri, yuyucu və dezinfeksiyaedici qurğular və s. yardımçı avadanlıqlar quraşdırılıb. Tutumu 200 ton olan soyuducu və şoklama kameraları inşa edilib. Fabrikin illik quş əti istehsalı gücü birnövbəli iş rejimində 9.5 min ton təşkil edir. Müəssisədə 65 çeşiddə istehsal olunan quş əti məhsulları «Mərcan» brendi ilə istehlakçılara təqdim edilir.*

*Prezident İlham Əliyev fabrikin işçiləri ilə görüşüb söhbət etdi. Sonra dövlətimizin başçısı quşların yetişdirildiyi müəssisəyə gəldi.*

*Layihələrin ikinci hissəsi olaraq, istehsal gücü saatda 20 ton olan Yem zavodunun, illik istehsal gücü 10 milyon ədəd damazlıq yumurta olan fabrikin və yem bazasını təmin etmək məqsədilə 4 min hektar ərazidə müasir iri taxılçılıq təsərrüfatının yaradılması nəzərdə tutulur. Azərbaycan Prezidentinin qeyri-neft məhsulları ixracının artırılması və coğrafiyasının genişləndirilməsi siyasətinə uyğun olaraq, quş əti məhsullarının ixracı üçün müəssisə Rusiya Federasiyasının müvafiq qurumlarında akkreditasiyadan keçərək,*

*bu ölkənin ərazisinə quş əti məhsullarını ixrac etmək razılığını alıb. Bu da müəssisəyə imkan verir ki, yaxın perspektivdə quş ətinin ixracına başlasın.*

*Xüsusi qeyd etmək lazımdır ki, layihənin icrası nəticəsində 240-dan artıq yeni iş yeri açılıb və orta aylıq əməkhaqqı 350 manat təşkil edir.*

## Ucar Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidentinə aparılan tikinti işləri barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, 1970-ci ildə inşa olunan köhnə bina indiyədək təmir olunmadığından yararsız hala düşmüşdü. Yeni xəstəxana üçün 4,4 hektar torpaq sahəsi ayrılıb. Bu ərazinin 1,2 hektarında 4 korpusdan ibarət ikimərtəbəli kompleks tikilib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə aparılan tikinti işlərinə 2011-ci ilin sonlarında başlanılıb və bu ilin oktyabr ayında başa çatdırılıb.*

*Prezident İlham Əliyev tibb ocağında yaradılan şəraitlə tanış oldu.*

*Burada ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə səhiyyənin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotostendlər quraşdırılıb.*

*Xəstəxana 118 çarpayılıqdır. Burada 340 tibb işçisi çalışacaq, onların 80-i həkimdir. Bu tibb ocağında cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, reanimatologiya, diaqnostika, fizioterapiya, qəbul şöbələri, konsultativ poliklinika, perinatal mərkəz, laboratoriya, təcili tibbi yardım stansiyası tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin olunub.*

*Bütün bunlar göstərir ki, son illərdə səhiyyə sahəsində yaşanan ən böyük inqilabi dəyişiklik bu sektorun dünyanın ən müasir tibbi texnika və avadanlıqları ilə təmin olunmasıdır. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı, qaraciyərin köçürülməsi və digər bu kimi mühüm nailiyyətlərə imza atıb. Bu illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafından xəbər verir. Yeni tikilən tibb ocaqları, ölkəyə gətirilən müasir tibbi avadanlıqlar ilk növbədə, bir məqsədə – Azərbaycan əhalisinin sağlam olması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.*

## UCARIN SU TƏCHİZATI SİSTEMİNİN YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar şəhərinin su təchizatı sisteminin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak etmişdir.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bölgələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Proqram çərçivəsində həyata keçirilən «Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla, rayon mərkəzində 22 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində 37 min nəfər əhalinin yaşadığı 15 kəndə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə, bu layihədən 59 min nəfər faydalanacaq. Layihə çərçivəsində Ucar Sukanal İdarəsi üçün müasir tələblərə cavab verən yeni inzibati bina tikilib.*

*Prezident İlham Əliyev idarənin binasında yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, ümumi sahəsi 720 kvadratmetr olan binada müasir tələblərə cavab verən SCADA idarəetmə mərkəzi yaradılıb. Onun vasitəsilə suyun mənbədən istehlakçıyadək ötürülməsi onlayn rejimdə tənzimlənəcək. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də Coğrafi İnformasiya Sisteminin yaradılmasıdır. Ucar şəhərində də tətbiq olunmuş bu sistem*

*sayəsində gələcəkdə bütün şəbəkə infrastrukturu coğrafi məlumatlar bazasına əsaslanan rəqəmsal xəritələrin tətbiqi ilə idarə ediləcək. Bu sistem dünyanın 2 nüfuzlu müsabiqəsinin qalibi olub.*

*2011-ci ilin oktyabrında icrasına başlanılan «Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. Ucar şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün Ağsu rayonu ərazisində Girdimançayın yatağında yerləşən Külüllü su mənbəyi seçilib. Burada sugötürücü qurğu, mənbənin yaxınlığında Ucar şəhərini təmin etmək üçün hər birinin tutumu 3750 kubmetr olan 2 su anbarı tikilib. Anbarlardan Ucar şəhərinə 57 kilometr özüaxımlı magistral su kəməri çəkilib. Artıq bu kəmərdən Ucar şəhərinin yaxınlığındakı Geraybəyli və Qarabörk kəndlərinə içməli su verilib. Ucar şəhərində inşası nəzərdə tutulan 120 kilometr içməli su şəbəkəsinin inşası tam yekunlaşıb, 4891 ünvana birləşmə verilib və smart sayğaclar quraşdırılıb. İçməli su təchizatının dayanıqlığını təmin etmək üçün şəhərdə hər birinin tutumu 1500 kubmetr olan 2 su anbarı tikilib. Hazırda Ucar şəhərinin bütün abonentləri fasiləsiz içməli su ilə təmin olunur.*

*Bildirildi ki, şəhər üzrə layihələndirilən 88 kilometrlik kanalizasiya şəbəkəsinin 20 kilometrlik hissəsi hazırdır. Şəhərdə yaranacaq tullantı suları gələcəkdə inşa ediləcək və məhsuldarlığı sutkada 10 min kubmetr olacaq təmizləyici qurğuda zərərsizləşdiriləcək.*

*Ucar şəhərində mərkəzləşdirilmiş su təchizatı sistemləri keçən əsrin 70-ci illərinin sonlarında yaradılıb. Şəhərə içməli su Göyçay rayonunun Potu kəndi ərazisində yerləşən subartezian quyulardan verilirdi və «Azərsu» ASC şəhər sakinlərinin 55 faizinə xidmət göstərirdi. Əhalinin qalan hissəsi tələbatını kanal və arx sularından istifadə etməklə ödəyirdi. Kanalizasiya sistemi indiyə qədər mövcud olmamışdı.*

*Sonra prezident İlham Əliyev şəbəkəyə suyun verilməsini bildirən düyməni basdı.*

*Bununla Ucar şəhərinin 24 saat fasiləsiz su ilə təmin olunması prosesi uğurla yerinə yetirildi.*

*Diqqətə çatdırıldı ki, idarənin binasında müasir tipli yeni laboratoriya da qurulub. Burada içməli suyun vacib 14 parametri öyrəniləcək. Daha geniş və dəqiq analizlərin aparılması zərurəti yarandıqda nümunələr xüsusi təyinatlı maşınlarda Bakıdakı mərkəzi laboratoriyaya göndərilir. İdarənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə nəqliyyat vasitələri və xüsusi texnikalar alınıb.*

*Daha sonra dövlətimizin başçısı Ucar ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Ucar rayonunda olmağımdan çox məmnunam. Şadam ki, Ucar rayonu uğurla, sürətlə inkişaf edir. Bir neçə il bundan əvvəl burada bir sıra açılışda iştirak etmişəm, o cümlədən Heydər Əliyev Mərkəzinin açılışında. O vaxtdan bu günə qədər rayon çox sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır, binalar tikilir, parklar salınır. Bu məni çox sevindirir. İstəyirəm ki, Azərbaycanın hər bir rayonu abad, gözəl olsun, şəhərlər gözəlləşsin, insanlar üçün bütün lazımi şərait yaradılsın. Şadam ki, Ucar rayonunun siması sürətlə dəyişir və gözəlləşir.

Rayonun bütün sosial və infrastruktur layihələri də uğurla icra edilir. Onların arasında içməli su layihəsi birinci yerdədir. Çünki təmiz içməli su insan sağlamlığı üçün əsas şərtdir. Bildiyiniz kimi, içməli su və kanalizasiya layihələrinin icrası ölkəmizdə çox geniş vüsət alıb. Bir neçə il bundan əvvəl qarşıya vəzifə qoyulmuşdu ki, hər bir şəhərimizin içməli su və kanalizasiya problemi həll olunsun. Artıq bir müddətdir ki, Ucar şəhərinin içməli su problemi öz həllini tapıb. Gözəl, təmiz su mənbəyindən su verilir. Mənə verilən məlumata görə, bütün evlərin su təminatı təşkil edilib. Bu, böyük tarixi nailiyyətdir. Çünki Azərbaycanda bütün dövrlərdə içməli su problemi çox ciddi problem olaraq qalmışdı. Sovet dövründə müəyyən işlər görülmüşdü. Ancaq biz bu məsələni tam şəkildə həll edə bilməmişdik. Siz də yaxşı bilirsiniz ki, vaxtilə fasilələrlə, sutkada bir neçə saat su verilirdi, ya verilmirdi. İndi isə bu problem aradan götürülüb. Əminəm ki, 2-3 il ərzində bütün başqa rayonlarda da bu məsələ öz həllini tapacaq. Çünki bir çox

rayonlarda artıq bu, həll olunub. Ucar rayonunda təkcə şəhərə deyil, 15 yaşayış məntəqəsinə də, kəndlərə də su verilir. Kanalizasiya layihəsi isə 2017-ci ildə başa çatacaq və beləliklə, bu məsələ tamamilə aradan götürüləcək.

Digər infrastruktur layihələri icra edilir. Bu ilin sonuna qədər qazlaşdırma tam şəkildə təmin ediləcək, təxminən 90 faizə çatacaq. Bu da böyük nailiyyətdir. Əvvəlki illərdə qazlaşdırma çox aşağı səviyyədə idi, hətta rayon mərkəzinin özü qazsız qalmışdı. Bu gün isə, demək olar ki, bütün kəndlərə qaz xətləri çəkilir və bu da böyük nailiyyətdir. Çünki bu həm insanlara rahatlıq verir, həm də qazdan istifadə etmək iqtisadi cəhətdən daha səmərəlidir.

Elektrik enerjisi layihələri, xüsusilə «Azərişıq» təşkil olunandan sonra daha da sürətlə aparılır. Kənd yolları tikilir. İndi Bakı–Ucar magistral yolu çəkilir, az hissəsi – Kürdəmir–Ucar hissəsi qalıb ki, o da yaxın zamanlarda başa çatacaq. Göyçay–Ucar avtomobil yolu bu gün istifadəyə veriləcək.

Ucar rayonunda sosial obyektlər yaradılır, Gənclər Mərkəzi tikilib, parklar salınır. Azərbaycan belə inkişaf etməlidir – hər bir yerdə quruculuq, abadlıq aparılmalı və sosial inkişaf olmalıdır. Sosial sahə insanları ən çox maraqlandıran və bəzi hallarda narahat edən bir sahədir. Bu gün yeni Rayon Mərkəzi Xəstəxanasının açılışını da qeyd etdik. Xəstəxana göz oxşayır, ən yüksək dünya standartlarına cavab verir. Burada şərait də, avadanlıq da ən yüksək səviyyədədir.

Bax, bizim yanaşmamız bundan ibarətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı üçün nə lazımdırsa, o da olmalıdır. Amma buna nail olmaq üçün, əlbəttə ki, iqtisadiyyatımız daha da güclü olmalıdır, daha da sürətlə inkişaf etməlidir. Regionların inkişaf proqramının məqsədi məhz bundan ibarətdir ki, bölgələrdə, kəndlərdə, qəsəbələrdə, rayon mərkəzlərində lazımi şərait yaradılsın, insanlar rahat yaşasınlar, iş yerləri açılsın, yaxşı məvacib alsınlar, biznes imkanları genişlənsin. Deyə bilərəm ki, bu əsas prioritet istiqamətlər Ucar rayonunun timsalında öz əksini tapır.

Bu gün Quşçuluq fabriki ilə tanış oldum. Çox müasir bir sənaye Müəssisəsidir. Həm iş yerlərinin yaradılması, həm yerli istehsalın gücləndirilməsi və ən əsası, biz indi özümüzü ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu fabrik işə düşəndən sonra özümüzü quş əti ilə 100 faiz təmin edirik. Amma 10 il bundan əvvəl heç 50 faiz də təmin etmirdik. Xaricdən asılı idik, idxaldan asılı idik, xaricə pul ödənilirdi. İndi pul Azərbaycanda qalır, yerli sahibkarlar işləyir, pul qazanır, işçilərə əməkhaqqı verirlər. Özü də bu fabrikdə işləyənlərin əksəriyyəti qadınlardır. Bu da qadınlar üçün iş yerləridir. Düşünülmüş siyasət olan yerdə inkişaf da var. Azərbaycanda düşünülmüş siyasət aparılır. Məhz buna görə biz bütün bölgədə, dünyada yaşanan böhranlı şəraitdən, sınaqdan şərəflə çıxırıq. Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Azərbaycan vətəndaşı təhlükəsizlik şəraitində, sabitlik şəraitində yaşayır və yaşamalıdır. Ölkə ancaq bu təqdirdə inkişaf edə bilər. Harada ki, təhlükəsizlik, sabitlik pozulur, orada ölkə dağılır, iqtisadiyyat çökür, sosial problemlər yaşanır və başqa xoşagəlməz hallar üzə çıxır.

Biz Azərbaycanda elə siyasət aparırıq ki, bütün mümkün olan risklərdən özümüzü qoruyaq, sığortalayaq və buna nail oluruq. Nəyə görə? Çünki xalqla iqtidar arasındakı birlik bunu şərtləndirir. Ona görə ki, Azərbaycan iqtisadi sahədə, beynəlxalq aləmdə müstəqil, düşünülmüş siyasət aparır. Bizim üçün əsas ancaq Azərbaycan xalqının maraqlarıdır. Azərbaycan xalqının marağında nə varsa, o da olacaq. Əgər maraqlarımız kənarında hər hansı bir təşəbbüs göstərilirsə, biz o təşəbbüsə qoşulmuruq. Ona görə bəzi hallarda təzyiqlərə də məruz qalırıq. Ancaq biz əsas məqsədi təmin edirik – Azərbaycanın təhlükəsizliyi, inkişafı, insanların rifahı və xoşbəxtliyini.

Bu gün dünyada, bölgədə yaşanan xoşagəlməz mənzərə bir daha Azərbaycanın uğurlu inkişaf modelini ortaya qoyur. Bizim ölkə nümunədir. Mən ona görə demirəm ki, özümüzü tərifləyək, qüsurlar da çoxdur. Ancaq indi dünyada gedən ümumi proseslərə baxdıqda görürük ki, Azərbaycanda həm ictimai proseslər, həm də iqtisadi inkişaf düzgün məcrada gedir. Baxmayaraq ki, neftin qiyməti 2 dəfədən çox aşağı düşüb, gəlirlərimiz azalıb Azərbaycan

vətəndaşı bunu hiss etməməlidir. Maaşlar, təqaüdlər vaxtında verilir, islahatlar aparılır, beynəlxalq imicimiz gündən-günə güclənir. Çünki bu uğurlu inkişaf modelinin təməlində, əlbəttə ki, düşünülmüş siyasət dayanır. Biz həmişə çalışmışıq və çalışırıq ki, daxili resurslara arxalanaq. Ona görə də, heç kimdən asılı deyilik, özümüz öz həyatımızı qururuq.

Bununla bərabər, hamımız yaxşı bilirik ki, hələ görüləsi işlər çoxdur, həm mərkəzdə – Bakıda, həm bütün bölgələrdə quruculuq, abadlıq, inkişaf, islahat və sosial ədalət – bütün bu məsələlər daim diqqət mərkəzindədir. Mənim bölgələrə mütəmadi səfərlərimin məqsədlərindən biri də odur ki, vəziyyətlə tanış olum, soruşum işlər necədir, hansı məsələlər insanları narahat edir, incidir ki, biz onları həll edək. Bax, biz bu yolla gedirik və əminəm ki, yaxın bir neçə il ərzində ölkə qarşısında duran bütün əsas infrastruktur və sosial məsələlər öz həllini tapacaq.

Ucar rayonunda içməli su problemi həll olundu. Qazlaşdırma bu ilin sonuna qədər, demək olar ki, tam həll olunacaqdır. Kənd yolları tikilib. Ancaq hələ ki, ehtiyac var, yenə də tikiləcək. Çoxmənzilli binaların təmiri təşkil edilməlidir. Biz bu məqsədlə əlavə tədbirlər görəcəyik. Sahibkarlığın inkişafı daha da sürətlə getməlidir. Yeni müəssisələr yaradılmalıdır. İnfrastruktur layihələri başa çatandan sonra diqqət mərkəzində olan əsas məsələlər kənd təsərrüfatı, sənaye istehsalıdır.

Bu gün Quşçuluq fabriki ilə tanış olarkən mənə, ümumiyyətlə, Aran iqtisadi rayonunda və Ucar rayonunda gedən proseslər, ayrılmış kreditlər haqqında məlumat verildi. Dövlət öz tərəfindən sahibkarları dəstəkləyir, güzəştli kreditlər verir, texnika, gübrə ilə təmin edir, şərait yaradır, siyasi dəstək də var. Sahibkar da gərək işləsin. Yerli icra orqanları da kömək etsin, mane olmasın. Onda sahibkarlıq daha da sürətlə inkişaf edəcək. Mən demişəm, bir daha demək istəyirəm, iqtisadiyyatımız elə işləməlidir ki, biz neftin qiymətindən asılı olmayaq. Hələ ki, asılıyıq. Bax, neftin qiyməti 2 dəfədən çox düşüb, gəlirlərimiz azalıb. Ancaq biz qeyri-neft sektorumuzu daha da sürətlə inkişaf etdirsək, onda neftin qiyməti

düşdü, ya qalxdı o qədər də əhəmiyyət daşımayacaq. Bax, bu, əsas istiqamətlərdir və bu istiqamətlər prioritet təşkil edir.

Əminəm ki, Ucar rayonu bundan sonra daha da gözəlləşəcək. Çünki siz burada belə gözəl şərait yaratmısınız. Mən buna çox sevinirəm. Mən son dəfə burada 2011-ci ildə olmuşam, çox böyük dəyişikliklər var. Dəyişikliklər münasibətilə sizi təbrik edirəm və yeni uğurlar arzulayıram.

**S a k i n:** Xoş gəlmisiniz, cənab Prezident! Xalqımız üçün çox böyük xeyirxah işlər görürsünüz. Onların biri də bu gün rayonumuza çəkilən yeni su xəttidir. Ona görə bütün ucarlılar adından Sizə təşəkkür edirəm. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bu gün Gənclər Mərkəzi də açılıb. Çox gözəl, funksional mərkəzdir, gənclər istifadə etməlidir. Orada həm intellektual, həm əyləncə yerləri var, stolüstü oyunlar, müxtəlif tədbirlər keçirilə bilər. İndi hər bir şəhərdə gənclər mərkəzləri yaradılır. Bu da mənim göstərişimlə həll olunan məsələdir. Çünki indi gənclərin bir mərkəzi olmalıdır ki, orada yığışsınlar, danışsınlar, asudə vaxtlarını mənalı keçirsinlər. İndi Ucarda da Gənclər Mərkəzi var.

**S a k i n:** Biz Sizin qayğınızı daim üzərimizdə hiss edirik. Buna görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Cənab Prezident, işığımız, suyumuz, qazımız, asfalt döşənmiş küçələrimiz var. Hər cür şəraitimiz var. Mən deyə bilərəm ki, bəlkə də dünyada ən yaxşı yaşayan xalqlardan biri bizik. Bunu mən cəsarətlə deyirəm. Allaha şükür, Sizin sayənizdə hər şey var. Bax, burada dayanan sadə insanlar Sizinlə görüşürlər. Bu sadə insanların adından deyirəm ki, Allah Sizi qorusun. Bizim əmin-amanlığımızın təminatçısı Sizsiniz. Bu əmin-amanlığı qoruyun. Biz Sizdən bunu xahiş edirik. Sizin arxanızda dağ kimi xalq dayanıb. Siz buna 100 faiz əmin ola bilərsiniz. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## Göyçay–Ucar avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da yenidən qurulan Göyçay–Ucar avtomobil yolunun açılışında iştirak etmişdir.*

*«Azəryolservis» ASC-nin sədr əvəzi Saleh Məmmədov dövlətimizin başçısına Göyçay–Ucar avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 3-cü texniki dərəcəli bu yolun uzunluğu 20 kilometrə yaxındır. Eni 12 metr olan yolda 2 hərəkət zolağı var. Yol üzərində müxtəlif qovşaqlar, həmçinin 1 dəmir yolu körpüsü yerləşir. Bu yol Göyçay–Ucar istiqamətində avtomobillərin rahat hərəkətini təmin etməklə yanaşı, bölgədə gedən iqtisadi inkişaf proseslərinə də öz təsirini göstərəcək.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu gün Azərbaycanda yol-nəqliyyat infrastrukturunun tamamilə yeniləşdirilməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Ölkəmizin ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yolların müasir standartlar səviyyəsində tamamilə yenidən qurulması ilə yanaşı, regionları, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Bu cür yolların müasir səviyyədə inşası regionların inkişafına müsbət təsirini göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir, həmçinin nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, dünyanı bürümüş iqtisadi böhrana baxmayaraq, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu isə dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasətin bəhrəsini isə hər bir Azərbaycan vətəndaşı öz həyatında hiss edir.*

## Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı muzeyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevə məlumat verildi ki, ümumi sahəsi 650 kvadratmetr olan bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqlarla təchiz olunub.*

*Bu gün ölkəmizdə bir sıra yeni muzeylər tikilir, eləcə də mövcud olanları əsaslı şəkildə yenilənir. Qədim tarixi olan və geniş turizm potensialına malik Azərbaycan üçün belə muzeylərin yaradılması olduqca vacib məsələdir. Bu sırada Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün tikilən yeni binanı göstərmək olar. Qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından Ucar Tarix-Diyarşünaslıq Muzeyi mühüm əhəmiyyətə malikdir. Muzeydə ölkəmizin, o cümlədən Ucarın tarixini əks etdirən və turistlər üçün böyük maraq doğuran çoxlu sayda eksponat var. Bu eksponatlar bölgənin tarixini öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Bütün bunlar onu göstərir ki, ölkədə muzey işinin təşkilində əhəmiyyətli uğurlar qazanılıb. Gənc nəslin tarixi keçmişimizə maraq göstərməsini təmin etmək, onların vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından muzeylərin böyük rolunu nəzərə alaraq, bu sahədə tədbirlərin daha da gücləndirilməsinə böyük diqqət göstərilir və bu məsələdə Ucar Tarix-Diyarşünaslıq Muzeyi xüsusi yeri ilə seçilir.*

*Ucar şəhərinin mərkəzində orijinal layihə əsasında inşa olunan Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası xüsusi dizaynı ilə də diqqəti çəkir.*

## Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Yeni Azərbaycan Partiyasının rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti binanın rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısına məlumat verildi ki, partiyanın inzibati binasının tikintisi yüksək standartlara uyğun həyata keçirilib. Ümumi sahəsi 600 kvadratmetr olan bina müasir inventar və avadanlıqlarla təchiz olunub.*

*Binanın foyesində Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası ilə bağlı fəaliyyətlərini əks etdirən maraqlı fotolardan ibarət guşə var. Binanın 110 nəfərlik akt zalında partiyanın fəaliyyəti ilə bağlı müxtəlif tədbirlər keçirilə bilər. İnzibati otaqlarda səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılıb.*

*Yeni Azərbaycan Partiyasının bölgələrdəki qurumları arasında Ucar rayon təşkilatı da fəaliyyəti ilə seçilir. 1993-cü ildə qurulan təşkilat hazırda 4000-dən çox siyasi həmfikiri bir araya toplayıb və onun üzvləri rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatına mühüm töhfələr verirlər, aparılan abadlıq-quruculuq və yenidənqurma işlərində yaxından iştirak edirlər.*

*Ölkənin avanqard partiyasının rayon təşkilatları üçün belə müasir inzibati binaların tikilməsi ilk növbədə, işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələrinə hesablanıb. Bu eyni zamanda, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikanın ağır günlərində yaranan, çətin və şərəfli yol keçən, ölkənin çiçəklənməsində mühüm xidmətləri olan Yeni Azərbaycan Partiyasına dövlətimizin göstərdiyi diqqəti nümayiş etdirir.*

## Ucar Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, üçmərtəbəli binanın tikintisinə bu ilin əvvəlində başlanılıb və inşaat işləri oktyabr ayında başa çatdırılıb. Ərazisi 2 min kvadratmetr olan Ucar Gənclər Mərkəzi respublikada ən böyük gənclər mərkəzlərindən biridir.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Mərkəzin foyesində gənclərə daim diqqət göstərən ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada, həmçinin ulu öndərin ictimai-siyasi fəaliyyətinin müxtəlif məqamlarını, gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb.*

*Prezident İlham Əliyev mərkəzdə yaradılan şəraitlə tanış oldu. Burada qurulan 7D formatlı kinozal orijinallığı ilə diqqəti cəlb edir. Xarici ölkələrdə istehsal olunan müasir avadanlıqların quraşdırıldığı zalda 7D formatlı filmlərin nümayişi üçün hər cür şərait yaradılıb. Elektron kitabxana və konfrans zalı da bütün lazımi avadanlıqlarla təchiz olunub. Mərkəzdə, həmçinin atıcılıq salonu da təşkil edilib. Ən son avadanlığın quraşdırıldığı salonda gənclərin bu sahədə ibtidai hazırlıq keçmələri və onların interaktiv, pnevmatik silahlardan atəşaçma bacarıqlarının yüksəldilməsi üçün məqsədyönlü işlər aparılacaq.*

*Bildirilib ki, mərkəzin yaradılmasında əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır. Mərkəzdə kompüter bilikləri və xarici dil üzrə xüsusi kursların təşkili də planlaşdırılır. Akt zalı müasir üslubda qurulub. Burada gənclər üçün müxtəlif mövzularda tədbirlər keçirmək mümkün olacaq. Mərkəzdə gənclər kafesi də fəaliyyət göstərəcək. Bundan əlavə, mərkəzdə prezident İlham Əliyevin gənclər siyasətini əks etdirən fotoguşələr yaradılıb. Yaradıcılıq mərkəzində gənclər həm sənət öyrənəcək, həm də onların əl işləri*

*sərgilənəcək. Respublikada ilk dəfə olaraq bu mərkəzdə aşıq məclisi və poeziya dərnəyi yaradılıb. Qeyd edilib ki, mərkəzdə gənclərin istirahətini təmin etmək üçün stolüstü oyunlar, kafe, bar, internet-klub, internet-kafe də fəaliyyət göstərir. Burada gənclərin müasir texnoloji yeniliklərlə yaxından tanış olmalarına, onların bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönələn kurslar təşkil ediləcək. Mərkəzdə yaradılan şərait gənclərin asudə vaxtlarının səmərəli keçməsinə imkan verəcək. Mərkəz, həmçinin gənclərin ictimai fəallığının yüksəldilməsində mühüm rol oynayacaq.*

*Dövlətimizin başçısı mərkəzin imkanlarından səmərəli istifadə edilməsi barədə tapşırıq və tövsiyələrini verdi.*

## «Fermer» yol-istirahət mərkəzində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da «Fermer» yol-istirahət mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına məlumat verildi ki, kompleks 3 hektar ərazidə salınıb. 2 hissədən ibarət olan kompleksin birinci hissəsinə Bakı–Gəncə magistral yolunun kənarında yerləşən yarmarka tipli satış məntəqəsi daxildir. Ümumi sahəsi 1200 kvadratmetr olan yarmarka Ucar və ətraf rayonlardan olan vətəndaşların yetişdirdikləri kənd təsərrüfatı məhsullarını rahat, heç bir müdaxilə olmadan istehlakçılara əlverişli şərtlərlə çatdırmalarına geniş imkan yaradır. Bundan əlavə, yarmarkada 24 saat fəaliyyət göstərən aptek və market də var. Ümumilikdə, layihə çərçivəsində 80-ə yaxın sakin işlə təmin olunacaq.*

*Kompleksin ərazisində süni göl yaradılıb, istirahət binaları tikilib. Kotteclərdən 2-si mətbəx olmaqla, 3-ü birotaqlı, 1-i ikiotaqlı, 1-i isə dördotaqlıdır. Burada xüsusi qonaq evi də tikilib. Kompleksdəki 80 nəfərlik banket zalında həm müəssisənin işçilərinə, həm də Ucar sakinlərinə xidmət göstəriləcək. Ərazidə geniş yaşıllıq zolağı salınıb, istirahət üçün bütün şərait yaradılıb.*

## GÖYÇAY RAYONUNA SƏFƏR

*6 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucara səfərini başa çatdıraraq Göyçay rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Göyçay şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.*

*Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Ağayev rayonda görülən abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, Göyçay şəhəri öz simasını sürətlə dəyişir. Xüsusilə son vaxtlar şəhərin ən görməli hissəsində yerləşən Heydər Əliyev Mərkəzinin ətrafındakı ərazidə böyük tikinti və abadlıq işləri görülüb. Mərkəzin yerləşdiyi ərazinin ümumi sahəsi 3 hektara çatdırılıb. Qısa müddətdə burada Gənclər Mərkəzi, Bayraq Meydanı və Bayraq Muzeyi, fəvvarə kompleksləri tikilib, qarşısında ulu öndərin ağ mərmərdən abidəsi ucaldılıb. Mərkəzin qarşısındakı ərazi başdan-başa abadlaşdırılıb. Burada genişmiqyaslı yaşıllaşdırma işləri görülüb.*

*Abidənin ətrafında yeni işıqlandırma sistemi qurulub, 500-dən artıq ağac, 10 mindən artıq gül və bəzək kolu əkilib, yaşıllıq zolağı salınıb. Parkda böyük monitor da quraşdırılıb. Burada ana və uşaq kafesi inşa edilib, uşaqlar üçün müxtəlif attraksionlar qurulub. Bir sözlə, rayon sakinləri və qonaqların istirahəti üçün hərtərəfli imkan yaradılıb.*

## GÖYÇAY RAYON MƏRKƏZİ XƏSTƏXANASININ ƏSASLI TƏMİRDƏN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Göyçay Rayon Mərkəzi Xəstəxanasının binasında əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, dördmərtəbəli, 170 yerlik xəstəxana və ikimərtəbəli konsultativ poliklinika əsaslı şəkildə yenidən qurulub. Ümumi sahəsi 12 min kvadratmetrə yaxın olan xəstəxana binası əsas, yoluxucu xəstəliklər və digər korpuslardan ibarətdir. Xəstəxananın müalicə korpusunda qəbul, şüa-diaqnostika, rentgen, kompüter-tomoqrafiya, ginekologiya, urologiya, travmatologiya, terapiya, anesteziologiya-reanimasiya şöbələri, cərrahi əməliyyat bloku və laboratoriya var.*

*Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıq və ləvazimatlarla təmin olunub. Mərkəzi Xəstəxanada və poliklinikada 102 həkim və 223 tibb işçisi əhaliyə xidmət göstərir. Xəstəxananın laboratoriyası da analizlərin dəqiq aparılması üçün zəruri avadanlıqlarla təchiz edilib. Bu tibb müəssisəsi müasir kompüter-tomoqrafiya, qrafik və skopik rentgen, rəqəmsal flüoroqrafiya aparatları ilə təchiz olunub. Buradakı ultrasəs müayinə, süni nəfəs və narkoz, fizioterapiya və tibbi bərpa, otolarinqologiya, stomatologiya və oftalmologiya aparatları dünyanın aparıcı ölkələrində istifadə edilən tibbi avadanlıqlardır. Xəstəxananın müasir reanimasiya və kardioloji avadanlığı, həmçinin*

*əməliyyatxana üçün səyyar rentgen aparatı vətəndaşlara yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir.*

*Bütün bunlar göstərir ki, müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionlarda ilk dəfə açıq ürək əməliyyatı və qaraciyərin köçürülməsi kimi mühüm nailiyyətlərə imza atıb. Ötən illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası və ya yenidən qurulması səhiyyə sisteminin köklü şəkildə inkişafından xəbər verir. Yeni tikilən tibb ocaqları, ölkəyə gətirilən müasir tibbi avadanlıqlar ilk növbədə, bir məqsədə – Azərbaycan əhalisinin sağlamlığını qorumaq kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.*

*Xəstəxana ilə tanışlıqdan sonra dövlətimizin başçısı tibb ocağının kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Xoş gördük. Bu gözəl xəstəxana ilə tanış olarkən ürəkdən sevinirəm. Çünki Göyçayda belə gözəl tibb mərkəzi yaradılıb, ən müasir avadanlıqlarla təchiz edilib, yüksək şərait var. Bu ilk növbədə, ölkəmizin qüdrətini göstərir. Çünki bu gün Azərbaycanın hər yerində gözəl tibb mərkəzləri yaradılır və bu mərkəzlər dünyanın ən yüksək standartlarına cavab verir. Dünyanın ən qabaqcıl tibb mərkəzlərində hansı avadanlıq varsa, burada da var. Belə də olmalıdır.

10 il bundan əvvəl birinci regional inkişaf proqramı icra olunanda demişdim ki, hər bir şəhərdə ən müasir standartlara cavab verən xəstəxana, ya diaqnostika mərkəzi, tibb ocağı olmalıdır. İndi nəinki Bakıda, hər bir rayonda belə gözəl tibb mərkəzləri var.

Bu gün Ucarda rayon xəstəxanasının açılışında iştirak etdim, indi isə Göyçayda. Demək olar, elə bir şəhər yoxdur ki, orada müasir tibb ocağı olmasın. Mənə verilən məlumata görə, burada yüzlərlə tibb işçisi çalışır. Bu da iş yerləri deməkdir. Əminəm ki, xəstələrə gözəl xidmət göstəriləcək. Müalicə almaq üçün Bakıya

getməyə ehtiyac qalmır. Əminəm ki, siz həkimlər xəstələrə yaxşı baxacaqsınız və onlar burada şəfa tapacaqlar.

Xüsusilə doğum şöbəsi məni çox sevindirir. Çünki son vaxtlar bu sahəyə çox böyük diqqət göstərilir. Aparılan islahatlar nəticəsində Azərbaycanda uşaq ölümü kəskin şəkildə aşağı düşüb, ana ölümü də həmçinin. Müasir doğum evlərinin, doğum şöbələrinin yaradılması bu sahədə işimizi daha da irəli aparacaq. Çünki hələ sovet dövründə Azərbaycanda uşaq ölümünün səviyyəsi digər respublikalarla müqayisədə yüksək idi. Biz isə son illər ərzində bu statistikanı kəskin şəkildə aşağı salmışıq. Növbəti illərdə biz inkişaf etmiş ölkələrin səviyyəsinə qalxmalıyıq. Çünki buna nail olmaq üçün bütün imkanlar var. İlk növbədə, səhiyyənin maddi-texniki bazası Bakıda və bütün bölgələrdə demək olar ki, sıfırdan yaradılıb.

İndi həkimlər öz peşəkarlıqlarını artırırlar, təkmilləşmə prosesi gedir, müasir avadanlıq var. Azərbaycanda səhiyyə sahəsində əldə edilmiş nəticələrin əsaslı səbəbləri var. Bu da maddi-texniki bazanın möhkəmləndirilməsi və səhiyyənin keyfiyyətcə yeni pilləyə qalxmasıdır.

İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var. Ancaq insan sağlamlığı üçün təkcə tibbi xidmət kifayət etməz. Digər şərtlər də olmalıdır. O şərtlər də artıq var.

Bu gün biz Göyçayda içməli su layihəsinin açılışını qeyd etdik. Təmiz içməli su artıq bir müddətdir ki, əhaliyə verilir. Bütün şəhər şəbəkəyə qoşulub. Uzun illər ciddi problem kimi qalan içməli su problemi artıq aradan qaldırılıb. Digər bölgələrdə olduğu kimi, bu gün biz Ucar şəhərində də içməli su layihəsinin açılışını qeyd etdik.

Bildiyiniz kimi, son aylar ərzində görülən tədbirlər nəticəsində dərman preparatları bazarında da müsbətə doğru çox ciddi dönüş yaranıb. İnsanlar artıq bunu gündəlik həyatlarında hiss etməyə başlayıblar. Bəzi dərmanların qiymətləri bir neçə dəfə aşağı düşüb. Eyni zamanda, keyfiyyətə də böyük diqqət göstərilir. Bu məsələ tədricən öz həllini tapır. Əminəm ki, ilin sonuna qədər əksər

dərman preparatlarının qiymətləri aşağı düşəcək. Çünki dövlət bu sahəni öz nəzarətinə götürüb.

Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və açıq bazar hər şeyi tənzimləyir, o cümlədən qiymətləri. Ancaq biz gördük ki, Azərbaycanda dərman preparatlarının qiyməti qonşu ölkələrlə müqayisədə yüksəkdir. Başladıq bu məsələni araşdırmağa, gördük ki, burada çox böyük boşluqlar var, həm qaydalarda, həm tənzimləmə mexanizmlərində. Ona görə indi dövlət bu missiyanı öz üzərinə götürüb. Bütün dərmanların qiyməti hər bir satış məntəqəsində eyni olacaq. Keyfiyyət də yüksək səviyyədə olacaq. Bu çox ciddi sosial təşəbbüsdür, insanların sağlamlığına, xüsusilə yaşlı nəslin sağlamlığına bunun bilavasitə böyük təsiri var.

Beləliklə, Azərbaycanda sosial siyasət elə səviyyəyə qalxıb ki, digər ölkələrdə də öyrənilə bilər. Çünki həm bazar iqtisadiyyatı, həm də sosial məsələlər paralel şəkildə həll olunur. Sosial sahə nə deməkdir? İnsanları narahat edən, onları maraqlandıran, problemlərini həll edən bir sahədir. Baxmayaraq ki, 2015-ci il iqtisadi cəhətdən ağır il olmuşdur , il artıq başa çatır, heç bir sosial proqramda yubanma olmamışdır. Əksinə, hətta iqtisadiyyat üçün ağır olan 2015-ci ildə belə, gözəl xəstəxanalar açılır.

Bu yaxınlarda mən Ağsu rayonunda səfərdə idim. Gördüm ki, vaxtilə orada mənim təşəbbüsümlə başlanmış xəstəxana binasının tikintisi yarımçıq qalıb. Maraqlandım, dedilər vəsait problemdir, yəni yoxdur. Bakıya qayıdan kimi dərhal Prezidentin ehtiyat fondundan Səhiyyə Nazirliyinə 10 milyon manat vəsait ayrıldı ki, orada o işlər başa çatsın. Yəni güclü iradə olan yerdə hər şey etmək mümkündür. Xəstəxanalar, məktəblər, uşaq bağçaları, digər sosial obyektlər, təbii ki, infrastruktur layihələri, içməli su, qazlaşdırma – budur insanların normal həyatı üçün lazım olan əsas amillər.

İndi mənə verilən məlumata görə, Göyçayda ilin sonuna qədər qazlaşdırma 96 faizə çatacaq. Heç Azərbaycan üzrə qazlaşdırma 96 faiz deyil. Hazırda təxminən 60 faiz səviyyəsindədir, 96 faizə çatacaq.

Kənd yolları tikilir. Bu gün Ucar–Göyçay avtomobil yolunun açılışını qeyd etdik. Siz də yəqin ki, tez-tez o yoldan istifadə edirsiniz, indi o fərqi görürsünüz. Bütün bunlar böyük vəsait tələb edən

layihələrdir. İnfrastruktur sektoruna qoyulan vəsaitin büdcəyə qayıtma ehtimalı çox azdır, demək olar ki, sıfıra bərabərdir. Biz bunu nə üçün edirik? İlk növbədə, insanlar üçün. Digər tərəfdən, ölkəmizin inkişafı üçün. Ona görə regional inkişaf proqramı əgər 2004-cü ildə qəbul olunmasaydı, bəlkə də bu işlərin böyük əksəriyyəti heç görülməzdi. Çünki biz bütün işləri planlı şəkildə aparırıq. Birinci regional inkişaf proqramında əsas məsələlər öz əksini tapmışdı. Bu proqram artıqlaması ilə icra edildi. İkinci proqram 2009-cu ildə qəbul edildi, icra olundu. Üçüncü proqram artıq icradadır, 2018-ci ildə başa çatacaq. O vaxta qədər bütün infrastruktur məsələləri, sosial məsələlər artıq başa çatacaq. Yəni normal inkişaf üçün əsas şərtlər artıq təmin edilir.

Əlbəttə, biz gələcəyə baxırıq. 2016-cı il də iqtisadiyyat üçün asan il olmayacaq. Biz bunu bilirik. Ancaq mən gələn il də ölkəmizin uğurlu inkişafı üçün heç bir problem görmürəm. Bütün sosial proqramlar icra ediləcək, iqtisadi inkişaf təmin olunacaq. Azərbaycana xarici və daxili investisiyaların qoyuluşu təmin ediləcək. Ölkəmizdə təhlükəsizlik, sabitlik tam şəkildə qorunacaq.

Bu gün dünyada gedən prosesləri biz hamımız izləyirik. Görürük ki, hansı faciəli, dəhşətli hadisələr baş verir. Azərbaycanda sabitlik, inkişaf, rifah, təhlükəsizlik təmin edilir. Hər şey müqayisədə müəyyən olur. Yaxşı vaxtlarda adama elə gələ bilərdi ki, elə hər yerdə yaxşıdır. Ancaq bu gün baxın, bizim region, Orta Şərq, Avropa böhran içindədir. İndi bəzi ölkələrdə həm iqtisadi, həm siyasi, həm hərbi, həm də mənəvi böhran yaşanır. O ölkələr bəyan etdikləri dəyərlərə sadiq qala bilmirlər. Ancaq bizim bəyan etdiyimiz dəyərlər göz qabağındadır. Milli-mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq, sosial-iqtisadi inkişaf və öz gücümüzə güvənməyimiz bizim inkişafımızı şərtləndirən əsas amillərdir.

Göyçay rayonunda gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Mən sonuncu dəfə 5 il bundan əvvəl Göyçayda olmuşam. Buna baxmayaraq, buradakı işlər daim diqqət mərkəzində olubdur. Ancaq burada gördüklərim məni çox sevindirir. Şəhər daha da gözəlləşir, abadlaşır. Göyçay çox gözəl şəhərdir. Tarixən

də belə olub. Əsası möhkəm qoyulub. Burada şəhərsalma prinsipləri qorunub. Şəhər çox gözəldir, yaşıllıq boldur. İndi aparılan təmir-bərpa işləri, parkların salınması, ictimai yerlərin yaradılması şəhəri daha da gözəlləşdirir.

Göyçay bu gün Azərbaycanın ən gözəl şəhərlərindən biridir. Bu məni çox sevindirir. Mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm. Sizə deyə bilərəm ki, biz rayonun və şəhərin inkişafı üçün böyük işlər görəcəyik. Sizi Mərkəzi Xəstəxananın açılışı münasibətilə bir daha təbrik edirəm.

**S a k i n:** Möhtərəm cənab Prezident, görülən bütün işlər Sizin diqqət və qayğınızın nəticəsidir. Buna görə Sizə dərin minnətdarlığımızı bildiririk, «Çox sağ olun!» – deyirik. Daim var olun, Allah daim Sizi qorusun, Azərbaycan xalqına Sizi çox görməsin.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Hörmətli cənab Prezident, Sizi bu çinarlı, gözəl Göyçayımızda görməkdən qürur duyuruq. Vaxt tapıb Göyçaya gəldiyinizə görə Sizə minnətdarıq.

Bu gün Siz bir çox obyektlərin açılışında olmusunuz. Xüsusən də bu səhiyyə ocağının açılışına görə Sizə çox minnətdarıq. Bu Sizin qayğınızın nəticəsidir. Biz də çalışacağıq ki, bu etimadı doğruldaq, əhaliyə gözəl tibbi xidmət göstərək.

## Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Yeni Azərbaycan Partiyası ölkəmizin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında, bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir. Partiya ölkənin tərəqqisinə, dövlətçiliyin möhkəm təməllər üzərində qurulmasına çox mühüm töhfələr verir. Bu gün partiyanın sıralarının genişlənməsi və fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə*

qədəm qoyması cəmiyyətdə bu siyasi quruma olan hörmət və inamdan qaynaqlanır. Ümumi məqsədlər və amallar naminə fəaliyyətdə partiyanın rayon təşkilatlarının da rolu danılmazdır. Respublikanın bütün bölgələrində Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün inşa olunan inzibati binaları müasirliyi ilə seçilməklə yanaşı, həm də yerləşdiyi şəhərin, rayonun gözəlliyinə əlavə çalarlar qatır. Bu binalarda səmərəli işləmək üçün maksimum şərait yaradılır. Partiyanın Göyçay rayon təşkilatının yeni inzibati binası da bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Prezidenti ikimərtəbəli binada yaradılan şəraitlə tanış oldu.

Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevin və partiyanın sədri, dövlətimizin başçısı İlham Əliyevin bu siyasi qurumun fəaliyyəti ilə bağlı müxtəlif tədbirlərdə çəkilmiş foto-larından ibarət stend quraşdırılıb. Dövlətimizin başçısının rayona səfərləri zamanı çəkilən fotolar da burada nümayiş etdirilir.

Binada akt zalı, elektron kitabxana, Yeni Azərbaycan Partiyası rayon təşkilatının Qadınlar Şurası və Gənclər Birliyi üçün otaqlar var. Binadakı 120 yerlik konfrans zalında istər təşkilatın fəaliyyəti, istərsə də rayonun həyatında baş verən mühüm ictimai-siyasi hadisələrlə bağlı tədbirlər keçirmək mümkündür.

Bildirildi ki, Yeni Azərbaycan Partiyasının Göyçay rayon təşkilatının 7663 üzvü var. Onlar rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatına mühüm töhfələr verir, aparılan abadlıq-quruculuq və yenidənqurma işlərində fəal iştirak edirlər.

## Şahmat məktəbinin açılışı mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Şahmat məktəbinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı Şahmat məktəbinin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda şahmatın qədim ənənələri var. Bu ənənələrin davamı olaraq ölkəmiz dünya şahmat arenasında həmişə mühüm nailiyyətlər əldə edib. İdmanın bu müdrik növü ilə məşğul olan-

*larda düşünmək, hadisələri qabaqlamaq və düzgün qiymətləndirərək, onları proqnozlaşdırmaq qabiliyyəti daha üstün olur. Məhz bu amilləri nəzərə alan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ötən əsrin 70-ci illərində respublikamızın əksər rayonlarında şahmat məktəbləri tikilib. Bu, ölkəmizdə şahmatın kütləvi xarakter almasında həlledici rol oynayıb.*

*Müstəqilliyimizin ilk illərində həmin məktəblərin əksəriyyəti yararsız hala düşmüşdü. Lakin 1993-cü ildən sonra ulu öndər Heydər Əliyev, 2003-cü ildən sonra isə prezident İlham Əliyev yeni şahmat məktəblərinin inşasına xüsusi diqqət yetirmişlər. Gənclərin istifadəsinə verilən şahmat məktəbləri bütün zəruri avadanlıqlarla təchiz edilir, onların idmanın bu qədim növünün sirlərinə yiyələnmələri üçün maksimum şərait yaradılır. Göyçayda yüksək zövqlə inşa edilən Şahmat məktəbi də bu qəbildəndir.*

*Məktəbin binasında ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin idmançılar, o cümlədən şahmatçılarla görüşlərində, dövlətimizin başçısının müxtəlif regionlarda şahmat məktəblərinin açılışlarında çəkilən fotoları nümayiş olunur.*

*Bildirildi ki, Göyçay Şahmat məktəbinin binası 1983-cü ildə istifadəyə verilib. Ötən ildən burada əsaslı yenidənqurma işlərinə başlanılıb. Binanın birinci mərtəbəsində 60 yerlik kiçik yarış zalı, kompüter, müəllimlər və 3 sinif otağı yaradılıb. Məktəbin 90 yerlik böyük yarış zalı da müasirliyi ilə diqqəti cəlb edir. ikinci mərtəbədə 4 sinif otağı yaradılıb. Məktəbin məzunlarının və şagirdlərinin müxtəlif beynəlxalq səviyyəli yarışlarda qazandıqları kuboklar, layiq görüldükləri fəxri fərmanların nümayiş olunduğu guşə də xüsusi maraq doğurur.*

*Qeyd edildi ki, hazırda məktəbdə təhsil alan 251 şagirdə şahmatın sirlərini 11 müəllim öyrədir. Məktəbin orijinal dizaynı şahmatın sirlərini öyrənənləri daha da ruhlandırır. Burada yeniyetmə və gənclərin şahmat kompozisiyalarını daha dərindən öyrənmələri üçün müxtəlif əyani vəsaitlərdən və informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunur. Respublikamızın bütün bölgələrində fəaliyyət göstərən belə şahmat məktəblərində*

*zəngin təcrübə toplayan məktəblilər beynəlxalq səviyyəli yarışlara qatılaraq ölkəmizi yüksək səviyyədə təmsil edirlər.*

*Sonda məktəbin müəllim və şagirdləri dövlətimizin başçısı ilə xatirə şəkli çəkdirdilər.*

## Göyçay şəhər Uşaq musiqi məktəbi binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Göyçay şəhər Uşaq musiqi məktəbi binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycanda mədəniyyət sahəsinə dövlət səviyyəsində qayğı gündən-günə güclənir və bu sahədə çalışanların iş şəraitinin müasir tələblər səviyyəsində qurulması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər paytaxtla yanaşı, regionlarda da geniş vüsət alıb. Son dövrlərdə bölgələrdə müasir tipli yeni mədəni infrastruktur yaradılıb, çoxlu mədəniyyət və incəsənət obyekti tikilərək istifadəyə verilib. Göyçayda inşa olunmuş Uşaq musiqi məktəbinin binası da bu sırada mühüm yer tutur.*

*Hələ kiçik yaşlarından uşaqların incəsənətin bu növünə marağını artırmaq, onların musiqi intellektini istədikləri istiqamətə yönəltmək məqsədilə zövqlə tikilən binada işlərin keyfiyyətlə həyata keçirilməsinə xüsusi diqqət yetirilib. Binanın ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Ümumi sahəsi 650 kvadratmetr olan ikimərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimləri ilə görüşlərini, həmçinin bu sahəyə göstərdikləri diqqət və qayğını nümayiş etdirən fotolar var. Binada müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün 80 yerlik konsert zalı yaradılıb. Məktəbin fortepiano, skripka, qarmon, xalq çalğı alətləri, tar, kaman, xanəndəlik şöbələrində uşaqlar zəngin incəsənətimizin və musiqimizin sirlərinə yiyələnirlər. Bütün sinif otaqları zəruri alət və avadanlıqla təchiz olunub.*

*Qeyd edildi ki, məktəbdə 430 şagirdin musiqi təlimi ilə 107 müəllim məşğul olacaq. Musiqi məktəbinə 7–13 yaşlı uşaqlar qəbul edilir. Burada təhsil müddəti 5–7 ildir.*

**Rayon mərkəzinə təmiz içməli suyun verilməsi mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da rayon mərkəzinə təmiz içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə «Göyçay şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi ilə tanış oldu.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov məlumat verdi ki, layihə Azərbaycan hökuməti və Asiya İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən «Şəhər su təchizatı və kanalizasiya layihəsi» və «Su təchizatı və kanalizasiya investisiya proqramı» çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Göyçay şəhərində 43 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.*

*«Şəhər su təchizatı və kanalizasiya layihəsi»nin icrasına 2008-ci ildə başlanılıb. Bu mərhələdə Göyçay şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 3 subartezian quyusu qazılıb, sugötürücü kamera və xlorator binası, hər birinin həcmi 2000 kubmetr olan 2 anbar inşa edilib. Eyni zamanda, «Göyçay Sukanal» Törəmə Səhmdar Cəmiyyəti üçün yeni ofis binası və istehsalat bazası inşa edilib, zəruri maşın və mexanizmlər alınıb.*

*Diqqətə çatdırıldı ki, «Su təchizatı və kanalizasiya investisiya proqramı» layihəsinin icrasına 2012-ci ildə başlanılıb. Bu mərhələdə Göyçay şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 2 subartezian quyusu qazılıb. Gələcəkdə daha 3 quyunun qazılması nəzərdə tutulur. Görülən işlər çərçivəsində artezian zonasında hər birinin tutumu 500 kubmetr olan 2 anbar tikilib, buradan şəhərə qədər 5,6 kilometr uzunluğunda magistral su xətti çəkilib. Layihə çərçivəsində inşası nəzərdə tutulmuş 147 ki-*

*lometr uzunluğunda içməli su şəbəkəsinin tikintisi tam yekunlaşıb, 9761 ünvana birləşmə verilib. Hər bir abunəçi smart tipli sayğacla təmin olunub. Hazırda şəhərin bütün əhalisi fasiləsiz içməli su ilə təmin edilir.*

*Şəhərin kanalizasiya infrastrukturunun yenidən qurulması işləri çərçivəsində layihələndirilmiş 123 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin inşası da başa çatdırılıb. Göyçay şəhərində tullantı sularının təmizlənməsi məqsədilə məhsuldarlığı sutkada 20 min kubmetr olan qurğu tikiləcək. Layihənin icrası 2016-cı ildə tam başa çatdırılacaq.*

*Qeyd edildi ki, Göyçay şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi 1930–1970-ci illərdə mərhələlərlə yaradılıb və istismara yararsız vəziyyətdə idi. Yeni layihə icra olunana qədər abonentlərə içməli su sutkada 1 saat olmaqla, qrafiklə verilirdi.*

*Prezident İlham Əliyev Göyçay şəhərinə təmiz içməli suyun verilməsini bildirən düyməni basdı.*

## Bayraq Meydanı Kompleksində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Bayraq Meydanı Kompleksində yaradılan şəraitlə tanış olmuşdur.*

*Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olan üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olub. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə ulu öndər tərəfindən Naxçıvanda qaldırılıb. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə dalğalanır. Hər bir azərbaycanlı Dövlət bayrağını özünün iftixar mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, Bakıda dünyanın ən hündür bayraq dirəyi ucaldılandan sonra ölkənin əksər bölgələrində*

*üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir.*

*Bildirildi ki, Göyçayda Bayraq Meydanının və Muzeyinin inşasına bu ilin aprelində başlanılıb. Muzeyin qarşısında hündürlüyü 66 metr olan bayraq dirəyi ucaldılıb. Burada dalğalanan bayrağın eni 12, uzunluğu isə 24 metrdir. Meydan dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işinin yaxşılaşdırılması məqsədilə inşa olunub. Bayraq Meydanının ərazisində geniş abadlıq-quruculuq işləri görülüb.*

*Prezident İlham Əliyev Bayraq Muzeyi ilə də tanış oldu.*

*Diqqətə çatdırıldı ki, muzeydə ölkəmizin tarixində mövcud olmuş dövlətlərin bayraqları, şəhərlərin gerbləri, Azərbaycanın orden və medallarının nümunələri sərgilənir. Muzeydə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Dövlət bayrağına bəslədikləri hörmət və ehtiramı özündə əks etdirən tarixi fotolar böyük maraqla qarşılanır. Müasir səviyyədə inşa olunan bu meydan indi rayonun ən gözəl məkanlarından birinə çevrilib.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Göyçayda Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb. Azərbaycanda gənclər siyasətinin formalaşdırılması, yeni inkişaf mərhələsinə qədəm qoyması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu sahənin inkişafı 2003-cü ildən sonra yeni müstəvidə davam etdirilib. 2005–2009-cu illəri əhatə edən «Azərbaycan Gəncliyi Dövlət Proqramı» bu baxımdan çox mühüm rol oynayıb. Hazırda həyata keçirilməkdə olan «Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə»*

*Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır. Gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların müxtəlif peşə və sənətə yiyələnməsi məsələsi də daim diqqətdə saxlanılır. Bu baxımdan bölgələrdə yaradılan gənclər mərkəzləri müstəsna əhəmiyyət kəsb edir.*

*Qeyd olundu ki, Göyçay Gənclər Mərkəzinin tikintialtı sahəsi 3400 kvadratmetr olan ikimərtəbəli binasının inşası yüksək zövq və keyfiyyətlə həyata keçirilib. Burada gənclər üçün hərtərəfli şərait yaradılıb. Binanın foyesində ulu öndərin büstü qoyulub, ümummilli liderin Göyçaya səfərlərini, sakinlərlə görüşlərini əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Mərkəzdə prezident İlham Əliyevin həyat və fəaliyyətini, həmçinin gənclərlə görüşlərini əks etdirən fotoguşələr də var.*

*Burada rayon gəncləri boulinq zalı, qolf, intellektual oyunlar otaqları, kafe, rəqs studiyası, xarici dil kursları, rəsm, xalçaçılıq, poliqrafiya, heykəltəraşlıq dərnəkləri və fotostudiyaların xidmətindən yararlana biləcəklər. Mərkəzdə 60 yerlik böyük iclas və 15 yerlik konfrans zalları var. Bu zallarda rayon gənclərinin müxtəlif tədbirləri keçiriləcək.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Göyçay su-elektrik stansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Göyçay su-elektrik stansiyasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli Sərəncamı ilə kiçik su-elektrik stansiyalarının respublikada geniş tətbiq edilməsi məqsədilə xüsusi proqramlar hazırlanıb. Mütəxəssislərin araşdırmalarına görə, respublikanın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su-elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Bu*

*stansiyalardan istifadə bir tərəfdən, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə imkan verir, digər tərəfdən isə ətraf mühitə heç bir zərər yetirmir. Dövlətimizin başçısının sərəncamına uyğun olaraq, respublikanın bir sıra bölgələrində kiçik su-elektrik stansiyalarının tikintisi davam etdirilir. Gücü 3,1 meqavat olan Göyçay kiçik su-elektrik stansiyası isə artıq istismara hazırdır.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev 2010-cu ilin fevralında prezident İlham Əliyev tərəfindən təməli qoyulan bu stansiyanın əsas komponentləri barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev stansiyanı işə saldı.*

*Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilmiş stansiya ildə 20 milyon kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verəcək. Bu isə Göyçay rayonunun tələbatının 25 faizini təşkil edir. Stansiyanın ərazisi 5hektardır, burada geniş yaşıllaşdırma və abadlıq işləri aparılıb, köməkçi tikililər inşa edilib. Burada hər birinin gücü 1,03 meqavat olan 3 hidroaqreqat, suqəbuledici və tutumu 4500 kubmetr olan təzyiq hovuzu, hər birinin uzunluğu 28,4 metr olan 3 dəmir-beton təzyiq qurğusu quraşdırılıb. Burada, həmçinin turbin zalı və su nəqledici kanal yaradılıb, 10 kilovoltluq yarımstansiya və elektrikverici xətlər çəkilib.*

## BEYNƏLXALQ «FAİR PLAY» KOMİTƏSİNİN PREZİDENTİ, AVROPA «FAİR PLAY» HƏRƏKATININ PREZİDENTİ VƏ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞ

*8 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Beynəlxalq «Fair Play» Komitəsinin prezidenti Jeno Kamyutini, Avropa «Fair Play» Hərəkatının prezidenti Kristian Hinterberqeri və vitse-prezidenti Ərdoğan Arıpınarı qəbul etmişdir.*

*Azərbaycanın artıq beynəlxalq idman yarışlarının yüksək səviyyəli təşkilatçısı kimi, dünyada öz sözünü dediyini vurğulayan Avropa «Fair Play» Hərəkatının vitse-prezidenti Ərdoğan Arıpınar Bakının ev sahibliyi etdiyi I Avropa oyunlarını böyük hadisə kimi qiymətləndirdi. Ərdoğan Arıpınar Beynəlxalq «Fair Play» Komitəsinin və Avropa «Fair Play» Hərəkatının ilk birgə konqresinin və Avropa «Fair Play» Hərəkatının XXI Baş Assambleyasının Bakıda təşkil olunmasına verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Avropa «Fair Play» Hərəkatının prezidenti Kristian Hinterberqer də I Avropa oyunlarını maraqla izlədiyini qeyd edərək, oyunların ölkəmizdə uğurla keçirilməsi münasibətilə prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, insanların yarışları böyük ruh yüksəkliyi ilə izləmələrinin və hər bir idmançıya səmimi dəstək nümayiş etdirmələrinin onda böyük təəssürat yaratdığını vurğuladı.*

*I Avropa oyunlarını Bakıda şəxsən izlədiyini məmnunluqla qeyd edən Beynəlxalq «Fair Play» Komitəsinin prezidenti Jeno Kamyuti də oyunların yüksək səviyyədə təşkili və Azərbaycan idmançılarının qazandığı nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi. Ölkəmizdə idman sahəsinə, xüsusən «əda-*

lətli oyunlar»a göstərilən diqqəti yüksək qiymətləndirən Jeno Kamyuti Beynəlxalq «Fair Play» Komitəsinin və Avropa «Fair Play» Hərəkatının Bakıda ilk birgə konqresinin təşkil edilməsinin qarşılıqlı əməkdaşlığın uğurlu rəmzi olduğunu bildirdi. Beynəlxalq «Fair Play» Komitəsinin prezidenti Azərbaycanın təşkilatın tədbirlərinə ev sahibliyini öz üzərinə götürdüyünə görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi, ölkəmizin müvafiq qurumları ilə əməkdaşlığı gələcəkdə də davam etdirmək arzusunda olduqlarını dedi.

Beynəlxalq «Fair Play» Komitəsinin və Avropa «Fair Play» Hərəkatının birgə konqresinin və Avropa «Fair Play» Hərəkatının XXI Baş Assambleyasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı burada çoxlu sayda nümayəndə heyətinin iştirakını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq idman qurumları ilə əməkdaşlığın önəminə toxunaraq, tədbir zamanı maraqlı müzakirələrin aparılacağına ümidvar olduğunu qeyd etdi. I Avropa oyunlarının ölkəmizdə böyük marağa səbəb olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan idmançılarının uğurlu çıxışlarını xatırlatdı.

Daha sonra Beynəlxalq «Fair Play» Komitəsinin prezidenti Jeno Kamyuti Azərbaycanda idmanın inkişafı sahəsindəki xidmətlərinə, «Ədalətli oyunlar» hərəkatına verdiyi dəstəyə və idmanda ədalət prinsiplərinə sadiqliyinə görə prezident İlham Əliyevin Beynəlxalq «Fair Play» Komitəsinin xüsusi medalı ilə təltif olunduğunu dedi və mükafatı dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Beynəlxalq «Fair Play» Komitəsinin xüsusi medalına layiq görüldüyünə görə təşəkkürünü bildirdi, dövlət başçısı, həmçinin Milli Olimpiya Komitəsinin prezidenti kimi, gələcəkdə də idmanın inkişafına ardıcıl dəstəyi davam etdirəcəyini vurğuladı.

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARI KONFRANSININ 18-ci İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*8 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 18-ci iclasının iştirakçılarını qəbul etmişdir.*

**İlham Əliyev:** Bu gün Bakıda Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları rəhbərlərinin növbəti konfransı işə başlayır. Mən sizi salamlayıram. Həmçinin qeyd etmək istəyirəm ki, konfransda tərəfdaş ölkələrin Xüsusi Xidmət Orqanlarının rəhbərləri də iştirak edirlər. Şadam ki, bu tədbirdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına daxil olmayan, lakin bizə dost dövlətlərin nümayəndələri də iştirak edirlər.

Bu, çoxplanlı və çoxşaxəli əməkdaşlığın yaxşı nümunəsidir. Əminəm ki, bu gün və sabah Bakıda aparılacaq müzakirələr, fikir mübadilələri faydalı olacaq, eləcə də bizim xüsusi xidmət orqanları arasındakı qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə, fəaliyyətin daha yaxşı əlaqələndirilməsinə və ölkələrimizin milli təhlükəsizliyinin təmin olunması üçün səylərin birləşdirilməsinə dəstək olacaq.

Sizin ölkələrdə olduğu kimi, Azərbaycanda da təhlükəsizliyin möhkəmləndirilməsinə, risklərin minimallaşdırılmasına böyük diqqət yetirilir. Deməliyəm ki, ölkə daxilində potensial təhdid və risklər yoxdur. Ancaq əlbəttə, bizim yerləşdiyimiz regionda baş verən prosesləri dəqiqliklə izləməli və ölkəmizin, xalqımızın təhlükəsizliyini maksimum təmin etməliyik ki, Azərbaycan bundan sonra da inkişaf və tərəqqi yolunu davam etdirsin. Möhkəm təhlükəsizlik sistemi, ictimai-siyasi sabitlik olmadan, heç bir ölkədə inkişaf mümkün deyil. Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəllərində sabitliyin pozulduğu dövrün çətinliklərini öz

üzərində hiss edib. Bu, qan tökülməsinə, vətəndaş müharibəsinə, sabitliyin pozulmasına gətirib çıxartdı. Ancaq 20 ildən çoxdur ki, Azərbaycanda inamlı, ardıcıl inkişaf, təhlükəsizliyin möhkəmlənməsi müşahidə olunur. Əlbəttə ki, istənilən ölkənin iqtisadi inkişafı təhlükəsizliyin təminatı səviyyəsi ilə birbaşa bağlıdır. Çünki bu gün bir çox ölkələr xarici investisiya mənbələri axtarır. Təbii ki, təhlükəsizliyi hələ lazımi səviyyədə olmayan ölkəyə investisiya qoyuluşunu gözləmək düzgün olmazdı.

Hesab edirəm ki, Bakıda keçirilən bu cür tədbirlər çox vacib praktiki əhəmiyyətə malikdir. Bir tərəfdən, bu, 10 ildən artıq keçirilən ənənəvi konfransdır. Bu, yaxşı ənənədir, onu davam etdirmək lazımdır. Praktiki nöqteyi-nəzərdən daimi informasiya mübadiləsi aparmaq lazımdır. Dünyada və regionda vəziyyət çox sürətlə dəyişir. Həm də təəssüf ki, yaxşı tərəfə yox. Mövcud təhdidləri aradan qaldırmaq əvəzinə, biz yeni təhdidlərin – həm real, həm də potensial münaqişə ocaqlarının yarandığını görürük. Amma hələ ki, biz regionlarımızdakı münaqişələrlə bağlı nizamlanma istiqamətində heç bir müsbət perspektiv müşahidə etmirik. Belə bir şəraitdə sizin qarşınızda, əlbəttə ki, yeni vəzifələr – beynəlxalq vəziyyətin daha da gərginləşdiyi şəraitdə ölkələrimizin təhlükəsizliyinin, milli təhlükəsizliyinin, dövlət təhlükəsizliyinin təmin edilməsi durur. Hesab edirəm ki, bu halda risklərin azaldılmasının ən vacib amillərindən biri məhz sizin fəaliyyətinizin əlaqələndirilməsidir. Xüsusi xidmət orqanları rəhbərləri arasında çox xoş, etibarlı, dost münasibətlər olmalıdır ki, siz bir çox məsələləri operativ şəkildə həll edəsiniz və bir-birinizə kömək göstərəsiniz.

Müasir dünyada heç bir ölkə təhlükəsizliyini təkbaşına tamamilə həll edə bilməz. Biz hamımız bir-birimizə bağlıyıq. Bu şəraitdə təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərin həllinin vacibliyində operativ informasiya mübadiləsi, birgə səylərlə qarşılıqlı dəstək xüsusi əhəmiyyət kəsb edir. Bu, bütün zamanlarda vacib amil olub, bugünkü dünyada isə xüsusilə vacibdir.

Bu gün beynəlxalq terrorizmlə mübarizə dünya birliyinin üzvü olan əksər ölkələri birləşdirir. Hesab edirəm ki, terrorçuluq

vətəndaşların təhlükəsizliyinə ən əsas hədədir. Təəssüf ki, biz yeni terror təşkilatlarının yarandığını və meydana çıxdığını görürük. Onlar yeni mübarizə üsullarından istifadə edirlər. Əlbəttə ki, xüsusi xidmət orqanları buna qarşı təsirli cavab verməyə və bu risklərin aradan qaldırılmasına hazır olmalıdır.

Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə həmişə çox fəal iştirak edib. Bu mövzunu biz həmişə ən yüksək forumlarda qaldırmışıq. Deməliyəm ki, bir neçə il əvvəl sizin təmsil etdiyiniz ölkələrin də dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçiləndə və biz Təhlükəsizlik Şurasının iclaslarına sədrlik edəndə məhz beynəlxalq terrorçuluqla mübarizə mövzusunu ortaya atdıq. Bu, vətəndaşlarımızın həyat və təhlükəsizlik məsələsi olduğuna görə bizim fəaliyyətimizin prioritetlərini göstərir. Biz beynəlxalq terrorizmə qarşı mübarizənin fəal üzvüyük. Biz regional təhlükəsizliyin möhkəmlənməsinə çox böyük töhfə veririk. Hesab edirəm ki, Azərbaycan bizim yerləşdiyimiz regionda sabitliyin möhkəmləndirilməsində çox mühüm rol oynayır. Sabitlik və inkişaf gündəlik həyatdan təcrid edilə bilməz. Terrorçuluqla mübarizə bütün bəşəriyyətin işi olmalıdır. Bu işdə vahid yanaşmalar, bütün ölkələrin səylərinin əlaqələndirilməsi vacibdir. Heç bir halda terrorçuları yaxşı və pisə ayırmaq olmaz. Yəni guya yaxşı sənin düşməninə qarşı olan, pis isə sənə qarşı olandır. Tarix dəfələrlə göstərib ki, terrorçuluq elementləri ilə istənilən «oyunlar» son nəticədə bununla məşğul olan ölkələrə təhdidlər yaradır. Ona görə dünya birliyinin beynəlxalq terrorçuluqla mübarizədə səylərinin birləşdirilməsi regional və beynəlxalq təhlükəsizliyin əsas şərtidir.

Siz yəqin ki, bilirsiniz, Azərbaycan həm də terrorizmdən zərər çəkən ölkədir. Müstəqilliyin ilk illərində, keçən əsrin 90-cı illərinin ərəfəsində və əvvəllərində erməni terrorçu təşkilatları bizim ərazimizdə 30-dan çox terror aktı törədib. Onlar metronu, gəmiləri, şəhərlərarası avtobusları partladıblar. Bu terror aktları nəticəsində 2 mindən çox günahsız Azərbaycan vətəndaşı həlak olub.

Biz beynəlxalq terrorçuluğun nə olduğunu öz üzərimizdə hiss etmişik, xüsusilə beynəlxalq birliyin bu problemlərə laqeyd qaldığı

bir zamanda. Biz ötən əsrin 90-cı illərinin əvvəllərində beynəlxalq terrorizmlə təkbətək qalmışdıq. Biz terrorizmə qarşı mübarizədə beynəlxalq birlikdən heç bir kömək almadıq və öz gücümüzlə bu şər qüvvəni əzə bildik, kökünü kəsdik və Azərbaycan vətəndaşlarına bu qədər dərd, bəla gətirənləri cəzalandıra bildik.

Azərbaycana qarşı terror hücumları Azərbaycan torpaqlarının XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq siyasətinin tərkib hissəsi idi. Bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin təxminən 20 faizi işğal olundu, 1 milyondan çox Azərbaycan vətəndaşı öz Vətənində qaçqın və məcburi köçkünə çevrildi. Biz son dərəcə ağır humanitar fəlakətlə üzləşdik. O zaman ölkənin iqtisadi vəziyyəti olduqca ağır idi. Praktiki olaraq, sənaye iflic vəziyyətə düşmüşdü, iqtisadiyyat dağılmışdı, inflyasiya ildə 1000 faizdən yuxarı idi. Bu şəraitdə erməni təcavüzü nəticəsində bütün əmlakını, evlərini itirən 1 milyondan çox insan Bakıda və Azərbaycanın digər şəhərlərində sığınacaq axtarmağa məcbur oldu. O vaxt 8 milyondan bir qədər çox əhalisi olan ölkə üçün 1 milyondan çox qaçqın və məcburi köçkün yüksək göstərici idi.

Erməni işğalı yalnız beynəlxalq hüquq normalarının deyil, həm də bütün bəşəri normaların pozulmasıdır. Ölkələr arasında müharibələr, münaqişələr olur, lakin insanlıq simasını həmişə qoruyub saxlamağa səy göstərmək lazımdır. Xocalı faciəsi – dinc şəhərin erməni quldur dəstələri tərəfindən bir gecədə məhv edilməsi xalqımızın hansı vəhşiliklə üz-üzə qaldığını göstərir. Artıq 10-dan çox ölkə Xocalı faciəsini rəsmi olaraq soyqırımı kimi tanıyıb. Bunun məsuliyyəti isə hazırkı və əvvəlki Ermənistan rəhbərliyinin üzərinə düşür.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizliyə, sabitliyə böyük hədədir. Bu, bütün beynəlxalq hüquq normalarının pozulmasıdır. Ali beynəlxalq orqan olan BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr yerinə yetirilmir. Biz BMT Təhlükəsizlik Şurasının qərarlarının icrasını tələb edirik. Bu bizim

qanuni tələbimizdir. Azərbaycan ictimaiyyəti BMT Təhlükəsizlik Şurasının qətnamələrinin bəzi hallarda 1 günə yerinə yetirildiyinə, bizim vəziyyətdə isə 20 ildən çox vaxt keçməsinə və qətnamələrin kağız üzərində qalmasına çox təəccüblənir və olduqca narazıdır. Bu, ikili standart siyasətidir. Bu, beynəlxalq hüquqa, ali beynəlxalq orqan olan BMT Təhlükəsizlik Şurasının qərarına hörmətsizlikdir.

Bax, biz bunlarla – ədalətsizlik, qeyri-obyektivlik, ikili standartlarla, bəzi hallarda isə işğalçının mükafatlandırılması ilə qarşılaşırıq. Ermənistan bütün tanınmış beynəlxalq normaları pozan təcavüzkar, işğalçı ölkədir. Axı təkcə tarixi Azərbaycan torpağı və sovet dövründə heç respublika da yox, muxtar vilayət olan Dağlıq Qarabağ işğal olunmayıb. Həmçinin keçmiş Dağlıq Qarabağ vilayətinin inzibati sərhədindən kənarda 7 rayon da işğal edilib. Bu rayonlarda praktiki olaraq ermənilər yaşamırdılar. Bütün bu rayonlarda azərbaycanlılar yaşayırdılar. Onlar qovulublar, onların evləri, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, qəbiristanlıqlarımız dağıdılıb, muzeylərimiz qarət olunub. Bunu bu gün İrəvanda ən yüksək vəzifələrdə oturanlar ediblər. Onlar hərbi canilərdir. Biz həqiqəti deməliyik. Çünki həqiqəti deməyib sussaq, özümüzü heç nə olmamış kimi göstərsək digər ölkələrdə də eyni hadisələr baş verəcək.

Tarix dəfələrlə sübut edib ki, işğalçılarla «oynamaq» siyasəti aparmaq olmaz. Keçən əsrin 30-cu illərində faşizmin, nasizmin yaranması, hitlerçiliyin bəşəriyyətə gətirdiyi bəlalar da bəzi ölkələrin işğalçılarla oyun oynamasından başlanıb. Onlar baş verənləri hiss etmək və görmək istəmirdilər. Ötən əsrin faşizmi və nasizmi ilə bu gün Ermənistanın işğal etdiyi torpaqlarda törətdikləri arasında heç bir fərq yoxdur. Bu eynimənalı anlayışdır. Dünya ictimaiyyəti bunu bilməli və regionda sülhün bərqərar olmasına səy göstərməlidir. Sülh isə yalnız ədalət əsasında bərqərar ola bilər. Azərbaycanın ərazi bütövlüyü istənilən ölkənin ərazi bütövlüyü kimi əhəmiyyət daşıyır və o, bərpa edilməlidir. Mən bunu ona görə deyirəm ki, siz – dost ölkələrin xüsusi xidmət orqanlarının rəhbərləri məsələnin məğzini daha müfəssəl biləsiniz.

Erməni dairələri beynəlxalq birliyi aldatmağa, münaqişənin mahiyyəti, nəticələri barədə yanlış informasiya, şayiələr yaymağa, özlərini «qurban» kimi göstərməyə çalışırlar. Amma həqiqəti bilmək lazımdır. Həqiqət isə mənim dediyim kimidir. Mənim dediklərimi tarix, sənədlər, faktlar təsdiq edir.

Bir daha demək istəyirəm ki, konfransa böyük əhəmiyyət verirəm. Əminəm ki, aparılacaq fikir mübadiləsinin məhz praktiki faydası olacaq. Biz vətəndaşlarımızın təhlükəsiz həyatını təmin etmək üçün daha çox əlbir olmalı, səylərimizi birləşdirməliyik. Hər bir ölkənin xüsusi xidmət orqanlarının rolu və vəzifələri dövlətin və vətəndaşların təhlükəsizliyini təmin etməkdir. Bir daha sizi salamlayıram. Sizə uğurlar arzulayıram.

**H a k a n   F i d a n** *(Türkiyə Milli İstihbarat Təşkilatının müs-təşarı):* Hörmətli cənab Prezident!

Məni və nümayəndə heyətimizi qəbul etdiyiniz üçün həmkarlarım adından Sizə çox təşəkkür etmək istəyirəm. Çıxışınız həqiqətən, bizim üçün yolgöstərici və ilhamverici idi. Bakıya hər gəlişimizdə paytaxtınızın nə qədər inkişaf etdiyini görüb heyran qalırıq. Sizin rəhbərliyiniz ilə Azərbaycanın iqtisadi, siyasi və təhlükəsizlik sahələrində bölgəyə verdiyi töhfə həqiqətən, çox təqdirəlayiqdir. Azərbaycan bölgədə həsəd aparılacaq səviyyədə nümunəvi bir siyasət yürüdür. Yəni torpaqlarının bir hissəsi işğal altında olduğu halda, bu qədər yüksək səviyyəli siyasət yürütmək hər ölkənin bacaracağı bir iş deyil. Şübhəsiz ki, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini dəstəkləyirik.

Hörmətli Prezident, Sizin də ifadə etdiyiniz kimi, hər bir ölkənin çox müxtəlif təhlükəsizlik problemləri var. Amma müştərək və birgə çalışacağımız problemlərə baxdığımız zaman burada əsasən terrorizmlə mübarizə məsələsi ön plana çıxır. Sonra transmilli cinayətkarlıqla, xüsusən mütəşəkkil cinayətkarlıqla mübarizə məsələsi əsas yer tutur. Bu masa arxasında nümayəndələri əyləşən ölkələrin xüsusilə radikalizmlə bağlı əməkdaşlığının əvvəlki illərlə müqayisədə daha yüksək səviyyəyə çatdığını Sizə bildirməkdən məmnunluq duyuram. Amma bu fəaliyyəti daha da inkişaf etdirməliyik. Bu gün Azərbaycanın ev

sahibliyi ilə keçirəcəyimiz toplantıda bu sahədə daha yaxşı qərarlar qəbul edəcəyimizə əminəm.

Hörmətli cənab Prezident, alicənablıq göstərərək, bizi qəbul etdiyinizə görə həmkarlarım adından bir daha təşəkkür edir, dərin ehtiramımızı bildirirəm.

## MƏDƏN HASİLATI ÜZRƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ İDARƏ HEYƏTİNİN SƏDRİ KLER ŞORT İLƏ GÖRÜŞ

*8 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü İdarə Heyətinin sədri Kler Şortu qəbul etmişdir.*

*İlk dəfə Azərbaycana 20 il əvvəl səfər etdiyini vurğulayan Kler Şort ötən dövr ərzində ölkəmizdə əldə olunan inkişaf münasibətilə prezident İlham Əliyevi təbrik etdi. Kler Şort Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə qoşulan ilk ölkələrdən olduğunu və bu təşəbbüsdə liderlik nümayiş etdirdiyini vurğuladı.*

*Xoş sözlərə görə təşəkkürünü bildirən prezident İlham Əliyev ölkəmizdə bütün sahələrdə böyük uğurların əldə edildiyini vurğulayaraq Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsündə iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev 2006-cı ildən böyük həcmdə neft istehsalına başlanıldığını və yüksək neft qiymətlərinin ölkəmizdə iqtisadi inkişafın şaxələndirilməsi üçün baza yaradılmasına, sosial sahədə layihələrin icra edilməsinə, infrastrukturun qurulmasına, abadlıq-quruculuq işlərinin həyata keçirilməsinə yaxşı imkanlar yaratdığını bildirdi. Hazırkı dövrdə neftin qiymətinin aşağı olmasına toxunan dövlətimizin başçısı bununla bağlı ölkəmizin gəlirlərinin azalmasına baxmayaraq, ümumi daxili məhsulda qeyri-neft sektorunun payının 70 faizə yaxın olduğunu və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük uğurların əldə edildiyini dedi.*

*Görüşdə Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsündə iştirakının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA TARİXÇİLƏRİNİN VIII BEYNƏLXALQ ATATÜRK KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən salamlayır və növbəti toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Tarixçi alimlərin mötəbər məclisinin Gəncə şəhərində keçirilməsi ölkəmizin elmi və ictimai həyatında əlamətdar hadisə olmaqla yanaşı, həm də dərin rəmzi məna daşıyır. Hələ qədim və orta əsrlər dövründə iri ticarət və mədəniyyət mərkəzi kimi tanınmış, bəşər sivilizasiyasına Nizami, Məhsəti və digər görkəmli şəxsiyyətlər bəxş etmiş bu diyar bütövlükdə şərq–müsəlman intibahının əsas ocaqlarından biri sayılır.

Tarix elmi indiyə qədər böyük inkişaf yolu keçmiş, texniki nailiyyətlərin, texnoloji yeniliklərin tətbiqi sayəsində araşdırmaların kəmiyyət və keyfiyyət göstəriciləri xeyli yüksəlmişdir. Lakin bu elmin xalqlar və cəmiyyətlər qarşısındakı başlıca missiyası dəyişməz olaraq qalır: keçmişi yaşatmaqla, bu günə və gələcək tərəqqiyə xidmət göstərmək. Yalnız obyektiv, qərəzsiz yazılan gerçək tarix bəşəriyyətin inkişafına dəyərli töhfə verə bilər. Gerçəkliyi üzə çıxarmağın səmərəli yollarından biri isə mütəxəssislərin iştirakı ilə keçirilən belə nüfuzlu elmi toplantılardır.

Konfransın region ölkələrinin XIX–XX əsr tarixinə həsr olunması həm də mühüm siyasi əhəmiyyətə malikdir. Belə ki, o dövrdə cərəyan etmiş proseslər xalqlarımızın taleyində dərin iz buraxmış, mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı təsirinin artmasına, milli şüurun formalaşmasına, dövlətçilik ənənələrinin yeni formada dirçəlməsinə şərait yaratmışdır.

Eyni zamanda, tarixin bu mərhələsi böyük sarsıntılar, müstəmləkə işğalları, türk-müsəlman toplumlarına qarşı

törədilən qırğınlar, deportasiya və etnik təmizləmələrlə yaddaşlarda qalmış, günümüzədək davam edən münaqişələr və digər faciəli hadisələrlə müşayiət olunmuşdur.

Həyat göstərir ki, tarixi həqiqətlərin gizlədilməsi və ya təhrif olunması, elmi araşdırmaların məhdud ideoloji çərçivələrə salınması, siyasi məqsədlərə və geosiyasi maraqlara tabe etdirilməsi acı nəticələrə gətirib çıxarır, xalqları çətin sınaqlarla üz-üzə qoyur. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş cinayətlərin yüzilliyin sonlarında yenidən və daha ağır formada təkrarlanması, Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən zəbt olunması, soydaşlarımızın deportasiyası, Xocalı soyqırımı kimi dəhşətli faciənin baş verməsinin əsas səbəblərindən biri də məhz tarixi hadisə və proseslərin obyektiv işıqlandırılmaması, onlara vaxtında adekvat qiymət verilməməsidir.

Təqdirəlayiq haldır ki, Beynəlxalq Atatürk Konfransı platformasında birləşən tarixçilər öz peşə borcuna böyük məsuliyyətlə yanaşaraq, keçmişi elmi prinsiplər əsasında araşdırmaq üçün gərgin əmək sərf edirlər. Əminəm ki, bugünkü toplantınızda dinlənəcək məruzə və çıxışlar, aparılacaq elmi müzakirələr həmin müsbət təcrübənin davamlı olduğunu bir daha təsdiqləyəcək, tariximizi daha yaxşı dərk etməyə və ondan ibrət dərsi götürməyə əlavə imkanlar yaradacaqdır.

Sizə çətin və şərəfli işinizdə yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 9 *oktyabr 2015-ci il*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**VI FELİPEYƏ**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İspaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 9 *oktyabr 2015-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ankarada törədilmiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca sarsıtdı.

Biz bu terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı hamılıqla mübarizəni zəruri hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 oktyabr 2015-ci il*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Gürcüstan Respublikasının Baş naziri İrakli Qaribaşvilini qəbul ermişdir.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, ölkələrimizin enerji, nəqliyyat, infrastruktur sahələrində həyata keçirdiyi birgə layihələrin əhəmiyyətinə toxunuldu.*

*Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycan Respublikasına səfərinin əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlərin müzakirəsi baxımından önəmi qeyd edildi.*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Yenidən Belarus Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin inamlı qələbəniz yürütdüyünüz davamlı sosial-iqtisadi inkişafa və əhalinin rifahının yüksəldilməsinə, ölkənizin dünya birliyində mövqelərinin möhkəmlənməsinə yönəlmiş xəttin dost Belarus xalqı tərəfindən dəstəklənməsinə dəlalət edir.

Əminəm ki, bundan sonra da bizim birgə səylərimiz Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında ənənəvi dostluq münasibətlərinin, səmərəli əməkdaşlığın və çoxplanlı qarşılıqlı əlaqələrin inkişafına və genişlənməsinə kömək edəcək.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 oktyabr 2015-ci il*

## NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN 9 AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK*

*12 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 12-də Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Nazirlər Kabinetinin bugünkü iclasında biz ilin 9 ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, bu il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu özlüyündə böyük göstəricidir. Çünki dünyada və bölgədə gedən proseslər göz qabağındadır. Həm bölgədə, həm Avropada böhran yaşanır – iqtisadi, hərbi, siyasi böhran. Belə şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Bunun bir səbəbi var – Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq.

* Наzирляр Кабинетинин 2015-си илин 9 айынын сосиал-иqтисади инкишаfынын йекинларына вя qаршыда диран вяzиfяляря щяср олинмиш исласыnda Иqтисадиййат вя Sянайе наzири Шащин Мистаfайев, Сящиййя наzири Оqтай Ширялийев və Тящсил наzири Микайыл Саббаров çıxış etdilər.

Azərbaycanda sabitlik təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib – Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək.

Əlbəttə, müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır. Çünki bu gün dünyada qütbləşmə göz qabağındadır, bu proses gedir. Böyük ölkələr öz təsir dairələrini genişləndirmək istəyir və görəndə ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, əlbəttə, bu onları qıcıqlandırır. Ancaq bu bizi narahat etməməlidir. Bu məsələlərə, ümumiyyətlə, mən fikir vermirəm. Çünki mənim üçün əsas məsələ ölkəmizin təhlükəsizliyi, inkişafı və sabitliyidir. Ona görə Azərbaycan bundan sonra da müstəqillik yolu ilə gedəcək.

Bu gün dünyada artıq Azərbaycanın inkişaf modeli haqqında danışılır, qeyd edilir. Həm siyasi sahədə, beynəlxalq münasibətlərin tənzimlənməsində, ölkədaxili proseslərin inkişafında, multikulturalizmlə bağlı bizim təcrübəmiz öyrənilir, həm də hesab edirəm ki, iqtisadi inkişaf modelimiz də bu gün bir çox ölkələr üçün cəlbedici ola bilər. Çünki biz şaxələndirmə yolu ilə gedirik. Ölkə iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir.

Biz son illər ərzində aparılan islahatlar nəticəsində bu səviyyəyə qalxa bilmişik. Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoruyacağıq, bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik. Sosial-iqtisadi göstəricilərimiz də bir daha təsdiq və sübut edir ki, biz düzgün yoldayıq.

9 ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artıb. Nəzərə alsaq ki, biz bunu qeyri-neft sektorunun hesabına əldə etmişik, bu çox böyük göstəricidir. Ümumiyyətlə, bu gün bölgədə gedən proseslər, qanlı toqquşmalar, iqtisadi tənəzzül, əlbəttə ki, istər-istəməz bizim iqtisadi inkişafımıza da mənfi təsir göstərir. Ondan əlavə, ilin

əvvəlindən neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi – 100 dollardan 50 dollara, ondan da aşağı səviyyəyə düşməsi, əlbəttə ki, bizim gəlirlərimizə mənfi təsir göstərib. Ancaq buna baxmayaraq, aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Hesab edirəm ki, indiki şəraitdə 3,7 faiz ən gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız 6 faizdən çox artıb və bu da dediyim kimi, aparılan islahatların nəticəsidir.

Sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 10 faizdən çox artıb. Bu da çox müsbət göstəricidir və onu göstərir ki, Azərbaycanda sənayeləşmə siyasəti uğurla icra edilir. Bir neçə il bundan əvvəl qarşıya qoyduğumuz vəzifə icra edilir. Çünki Azərbaycanın gələcək iqtisadi inkişaf perspektivləri sənaye istehsalı və kənd təsərrüfatı istehsalı ilə bağlı olacaqdır. Ona görə qeyri-neft sənayesinin 10 faizdən çox artması, əlbəttə ki, bizi həm sevindirir, həm də daha da ruhlandırır. Biz bu yolla getməliyik və sənayenin inkişafının stimullaşdırılması üçün əlavə tədbirlər görüləcəkdir. Bu barədə bir qədər sonra danışacağıq.

Bu il «Kənd təsərrüfatı ili» elan edilib. Şadam ki, «Kənd təsərrüfatı ili»ndə kənd təsərrüfatımız da 6,7 faiz artıb. Ölkədə aparılan islahatlar, eyni zamanda, dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiyalar, texniki təminat və bütövlükdə dövlət siyasəti, bax, bu vəziyyəti yaradır. İri fermer təsərrüfatlarının yaradılması da xüsusilə taxılçılıq sahəsində böyük dönüşə səbəb olub.

Azərbaycanda inflyasiya 9 ayda çox aşağı səviyyədədir – 3,7 faiz. Əhalinin pul gəlirləri isə 5,8 faiz artıb. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Bu da o deməkdir ki, əhalinin real gəlirləri ildən-ilə artır. Baxmayaraq ki, yenə də demək istəyirəm, bu il həm ölkə, həm bölgə üçün ağır il olaraq qalır.

Ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub. Onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir. Bu da çox gözəl göstəricidir. Çünki bu gün dünyada maliyyə və likvidlik qıtlığı yaşanır. Bir çox ölkələr öz ölkələrinə daha çox investisiyalar cəlb etmək üçün çalışırlar, o cümlədən də

Azərbaycan. Biz də əsas vəsaitimizi ölkəmizə qoyuruq. Xarici investorlar üçün də Azərbaycan cəlbedici ölkə kimi tanınır. Biz çalışmalıyıq ki, investisiya iqlimini daha da yaxşılaşdıraq və bu sahədə əlavə tədbirlər görüləcək.

Bu il sosial sahədə bir çox uğurlu layihələr icra edilib. Qeyd etməliyəm ki, sosial infrastrukturun yaradılması prosesi gedir. Baxmayaraq ki, xərclərimiz azalır, sosial infrastrukturun yaradılmasına biz bu il də kifayət qədər böyük vəsait ayırmışıq. Bu vəsait hesabına 9 ayda ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Bu da bizim niyyətimizi, siyasətimizi göstərir. Çünki dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Buna görə sosial sahə gələn il də prioritet sahə kimi, diqqət mərkəzində olacaqdır.

Hesab edirəm ki, ünvanlı sosial yardım sahəsində də çox müsbət dəyişikliklər baş verib. Şəffaflıq təmin edilir. Görülən tədbirlər, islahatlar nəticəsində bu sahə insanları daha az narahat edir. Çünki hamımız yaxşı bilirik ki, əvvəlki illərdə bu sahə ilə bağlı çoxsaylı şikayətlər daxil olurdu. Artıq yaradılan yeni sistem – şəffaflıq və sosial ədalət bu narazılığın böyük hissəsini aradan qaldırıb.

Onu da qeyd etməliyəm ki, şəffaflıq nəticəsində ünvanlı sosial yardım alanların sayı 16 faiz aşağı düşüb. Çünki heç bir kriteriyaya görə ünvanlı sosial yardım düşməyənlər şəxslər artıq bunu almırlar. Ancaq doğrudan da ehtiyac içində yaşayanlar bunu alır və onlara daha böyük məbləğ verilir. Bu gün 500 minə yaxın insan, 114 min ailə ünvanlı sosial yardım alır və hər ailəyə orta hesabla hər ay 153 manat dövlət tərəfindən yardım göstərilir. Bu çox yaxşı nəticədir və əminəm ki, gələcək illərdə yoxsulluğun aşağı düşməsi nəticəsində ünvanlı sosial yardıma möhtac olanların sayı daha da azalacaq. Bizim vəzifəmiz – bunu biz artıq neçə ildir ki, bəyan etmişik – ondan ibarətdir ki, yoxsulluq bir fenomen kimi, Azərbaycandan tamamilə yığışdırılsın. Biz bu sosial bəlanı aradan götürməliyik. Yoxsulluq Azərbaycanda aşağı səviyyədədir – 5 faiz

səviyyəsindədir. Ümumiyyətlə, olmamalıdır və əminəm ki, biz gələcək illərdə buna daha da yaxınlaşacağıq.

İnfrastruktur sektorunda, infrastruktur layihələrinin icrasında da bu il kifayət qədər böyük işlər görülüb. Təbii ki, bizim gəlirlərimiz neftin qiymətinin aşağı düşməsi nəticəsində azaldığına görə xərclərimiz də azalıb. Biz öz fəaliyyətimizi ancaq daxili resurslar hesabına qururuq. Biz xarici borclanmaya meyilli deyilik. Onsuz da manatın devalvasiyasından sonra bizim xarici borcumuz artıb. Çünki xarici dövlət borcu dollarla hesablanır və əgər devalvasiyaya qədər xarici dövlət borcumuz təxminən 7-8 faiz təşkil edirdisə, bu gün xarici borc 11-12 faizə qalxıb. Ona görə yox ki, biz əlavə kreditlər götürmüşük. Ona görə ki, manat qiymətdən düşüb. 12 faiz də çox gözəl göstəricidir. İnkişaf etmiş ölkələrin bəzilərində bu, 100 faizdən çoxdur. Ancaq biz istəyirik ki, xarici borcumuz 10 faizi keçməsin. Buna nail olmaq üçün biz gələcəkdə də öz fəaliyyətimizi ancaq daxili imkanlar hesabına qurmalıyıq. Ona görə də qazandığımıza müvafiq olaraq xərcləri nəzərdə tutmalıyıq. İnfrastruktur layihələrinin icrasında imkan daxilində işlər görülüb. Kənd yolları, içməli su, kanalizasiya layihələri, qazlaşdırma ilə bağlı layihələr – bütün bunlar bu il də icra edilib və mənim bölgələrə mütəmadi səfərlərim imkan verir ki, bu gözəl dəyişiklikləri, inkişafı öz gözümlə görüm.

Bu il 87 min yeni iş yeri yaradılıb ki, onlardan 67 mini daimi iş yeridir. Bu da gözəl göstəricidir. İş yerlərinin yaradılması prosesi daim aparılmalıdır. Mən bunu dəfələrlə demişəm və biz iqtisadi inkişaf modelimizi buna uyğun şəkildə qurmalıyıq. Çünki Azərbaycanda iqtisadi inkişaf, sabitlik, xalqın rifahının artması nəticəsində çox müsbət demoqrafik vəziyyət yaranıb. Hər il 100 mindən çox insan doğulur və belə olan halda, əlbəttə ki, gələcəkdə biz yeni iş yerlərinin yaradılması üçün əlavə tədbirlər görməliyik. Ona görə bu sahədə də yeni inkişaf strategiyamız müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq.

Regionlarda yaradılan iş yerləri ölkə iqtisadiyyatının çoxşaxəli inkişafına xidmət göstərir. Ancaq onu da qeyd etməliyəm ki, baxmayaraq 9 ayda 67 min daimi iş yeri yaradılıb, 30 minə yaxın

iş yeri də bağlanılıb. Bu da reallıqdır. Biz bu reallığı bilməliyik və burada ciddi təhlil aparılmalıdır ki, bu prosesin səbəbləri nədən ibarətdir. Əslində bu, təbii bir prosesdir. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da yeni iş yerləri açılır və bağlanır. Həmişə bizdə müsbət saldo müşahidə olunub, bu gün də belədir. Hətta böhranlı ildə 67 min daimi iş yerinin açılması böyük nəticədir. Yəni əgər bağlanan iş yerlərini çıxsaq, 40 minə yaxın yeni iş yeri yaradılıb. Ancaq bununla bərabər, biz bağlanan bu iş yerlərinin təhlilini aparmalıyıq və bilməliyik ki, bu proseslər hansı səbəblər üzündən baş verir. Obyektiv səbəblər də, subyektiv səbəblər də ola bilər. Biz bu gün bu barədə danışacağıq.

Ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb edən nəqliyyat sektorudur. Bildiyiniz kimi, son illər ərzində bu sektora bəlkə də bütün infrastruktur layihələri arasında ən böyük vəsait ayrılıb. Çünki bizim coğrafi vəziyyətimiz diktə edir ki, burada – həm ölkə daxilində müasir nəqliyyat infrastrukturu yaradılmalı, həm də tranzit imkanlarımız genişlənməli, bizə daha da böyük həcmdə siyasi və iqtisadi dividendlər gətirməlidir.

Nəqliyyat sektorunun gələcək inkişafı daha da düşünülmüş şəkildə olmalıdır. Bu gün yüklər uğrunda mübarizə gedir. Bu gün yeni tranzit marşrutları açılır. Bölgə ölkələri rəqabət aparır. Bu da təbiidir, o vaxta qədər ki, bu, sağlam rəqabətdir. Azərbaycan da burada passiv bir müşahidəçi olmamalıdır. Bəzi hallarda gözləyirik kimsə gəlib bizim qapımızı döysün ki, gəlin biz sizdən yük keçirək. Biz özümüz təşəbbüs göstərməliyik, yükləri müəyyən etməliyik, yaxşı şərtlər ortaya qoymalıyıq və bu çox ciddi məsələdir. Mən iclasın sonunda bu məsələyə daha da geniş toxunacağam.

Onu qeyd etmək istəyirəm ki, bu il Azərbaycanın tranzit imkanlarını genişləndirmək üçün çox əlamətdar hadisələr baş vermişdir. Avqust ayında Çindən Qazaxıstan ərazisindən keçməklə, Azərbaycana birinci konteyner qatarı gəlmişdir. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə Azərbaycanın məsuliyyət daşıdığı hissəsi artıq istifadə üçün hazırdır. Bildiyimə görə, Türkiyə ərazisində son işlər aparılır. Verilən məlumata görə, gələn

il Türkiyə ərazisində də bu xətt hazır olmalıdır. Belə olan halda, bütün müvafiq qurumlar, əlbəttə ki, koordinasiya şəklində işləməlidir və bu xətt bizə çox böyük xeyir gətirəcək. Eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizi ilə bağlı çox yaxşı nəticələr var və bu da Azərbaycanın geosiyasi, geoiqtisadi önəmini daha da artıracaq.

«Cənub Qaz Dəhlizi»nin yaradılması ilə bağlı 9 ayda çox gözəl, önəmli işlər görülüb, addımlar atılıb. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» ölkəmizin təşəbbüsü idi və artıq həm «Şahdəniz-2» yatağının işlənməsi, həm TANAP layihəsinin icrası istiqamətində ciddi praktiki addımlar atılır. Biz çalışırıq və çalışacağıq ki, bu layihə vaxtında icra edilsin. Biz çalışmalıyıq ki, layihənin önəmli hissəsi olan TANAP – Azərbaycan əsas səhmdardır və bütün məsuliyyət də bizim üzərimizdədir – vaxtında, 2018-ci ildə istifadəyə verilsin.

Digər layihələrdə – «Şahdəniz-2» və TAP layihələrində Azərbaycan, əlbəttə ki, səhmdardır, ancaq biz əsas səhmdar deyilik. Ona görə əsas operator məsuliyyəti başqa qurumların üzərinə düşür. O ki qaldı TANAP layihəsinə, Azərbaycan orada əsas sahibkardır. Ona görə bizim məsuliyyətimizdə olan bu layihə əminəm ki, vaxtında icra ediləcək.

Daim diqqət mərkəzində olan sahə ordu quruculuğudur. Biz bu sahəyə daim böyük diqqət göstəririk. Bu da təbiidir, çünki Azərbaycan müharibə şəraitində yaşayır, müharibə bitməyib və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Bunu artıq hamı görür, o cümlədən bu məsələ ilə məşğul olan vasitəçilər də.

Ordu quruculuğu gələn il də prioritet sahə olaraq qalacaq. Bu sahəyə nə qədər lazımdırsa vəsait ayrılacaq. İndi həm yeni texnikanın, silah-sursatın alınması, istehsalı prosesi gedir, eyni zamanda, hərbi hissələr üçün ən yüksək səviyyədə şəhərciklər, hərbi bazalar tikilir. Bu il Hərbi Dəniz Qüvvələrinin böyük bazası istifadəyə verilib. Təmas xəttinə yaxın olan bölgələrdə yeni infrastruktur yaradılır və bizim döyüş qabiliyyətimiz artır. Təmas xəttindəki vəziyyət Azərbaycan ictimaiyyəti üçün sirr deyil. Biz

tam üstünlüyü əldə etmişik, düşmənə sarsıdıcı zərbələr vururuq, düşmənin bütün təxribatlarına layiqli cavabımızı veririk.

Keçən ay düşmənin növbəti təxribatının qarşısı alındı. Bizə qarşı böyük təxribat hazırlanırdı, çoxsaylı diversantlar artıq təşkil olunmuş və səfərbər edilmişdi ki, Azərbaycanın mövqelərinə hücum etsinlər. Bizim ordumuz o təxribatın qarşısını aldı. Preventiv zərbə vurmaqla, düşmənə çox böyük ziyan yetirdi və bir çox işğalçılar məhv edildi. Əlbəttə ki, Ermənistan tərəfi dərhal həmişə olduğu kimi, hay-haray qaldırdı. Ancaq burada təbii sual yaranır, işğalçılar hansı ərazidə həlak oldular? Ermənistandamı? Xeyr, bizim torpağımızda. İşğal edilmiş torpaqlarda. Sual olunur, onların orada nə işi var? Özü də orada ölənlərin mütləq əksəriyyəti Ermənistan vətəndaşlarıdır, heç Dağlıq Qarabağ sakinləri deyil. Ermənistan ordusu bizim torpaqlarımızda işğalçılıq siyasəti aparır. Bu, gün kimi aydın bir məsələdir. Əfsuslar olsun ki, bunu beynəlxalq ictimaiyyət, vasitəçilər görmək istəmirlər və işğalçıya ciddi siqnallar göndərilmir. Ona görə onlar azğınlaşıblar və bizə qarşı müxtəlif təxribatlara əl atırlar. Ancaq hər dəfə onların təxribatları iflasa uğrayır. Necə ki, keçən ilin noyabrında bizim mövqelərimizə hücum edən helikopter məhv edildi. Bu ilin sentyabr ayında böyük itkilər verdilər və hər dəfə biz onların cəzasını verəcəyik.

Biz ölkəmizin ərazi bütövlüyünü bərpa etməliyik və edəcəyik. Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən əhəmiyyətsiz deyil. Məsələ beynəlxalq hüquq çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və tapacaq. Biz isə iqtisadiyyatımızı gücləndiririk, ordumuzu gücləndiririk və istənilən vaxtda lazımi tədbirləri də görəcəyik.

Erməni diktatoru hətta Ermənistanın rəsmi mövqeyinə tamamilə zidd olan bəyanatlar verir. Bəyan edir ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir. Birincisi, Dağlıq Qarabağ Azərbaycanın tarixi, əzəli torpağıdır və beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın ayrılmaz hissəsidir. Bunu bütün dünya ictimaiyyəti, BMT belə, qəbul edir və heç bir ölkə Dağlıq Qarabağı

Ermənistanın tərkib hissəsi kimi qəbul etmir, müstəqil qurum kimi də qəbul etmir və qəbul etməyəcək. Ona görə bu çox qəribə, yumşaq desək, qeyri-adekvat və görünür ki, çox gərgin psixoloji durumda verilən bəyanat həm Ermənistanı işğalçı ölkə kimi ifşa edir, həm də rəhbərliyini biabır edir. Çünki indi hər bir insan danışdığının məsuliyyətini daşımalıdır, xüsusilə yüksək vəzifə sahibləri. Ancaq xunta rejimindən bundan artığını gözləmək də çətindir. Çünki Ermənistanın bugünkü hakimiyyəti hərbi canilərdir, Xocalı soyqırımını törədənlərdir. Azərbaycan torpaqlarının işğalında dinc əhaliyə qarşı aparılan etnik təmizləmə siyasətində fəal iştirak edənlərdir. Onlardan bundan artığını gözləmək mümkün deyil. Ancaq o da həqiqətdir ki, bu gün Ermənistanda hökm sürən xunta və diktatura rejimi Ermənistan xalqı üçün də təhlükəyə çevrilib. Ermənistan xalqı da artıq buna dözə bilmir, bu kriminal, korrupsioner rejimdən bezib. Ermənistandan köç gedir. Vəziyyət o həddə çatıb ki, onlar indi Azərbaycana pənah gətirirlər, Azərbaycana gəlirlər. Görün bu rejim nə dərəcədə azğınlaşıb, əhaliyə qarşı nə qədər çirkin əməllər görür ki, hətta bu gün Azərbaycana Ermənistandan insanlar köçür və burada rahat yaşayır. Çünki Azərbaycanda milli, dini zəmində heç bir qarşıdurma, heç bir anlaşılmazlıq ola da bilməz.

Azərbaycan bu gün güclü ölkədir, iqtisadi və siyasi sahədə böyük uğurlara imza atıbdır. Regional təhlükəsizlik məsələlərində Azərbaycan çox müsbət rol oynayır. Azərbaycan sabitləşdirici amildir. Bizim iştirakımız, razılığımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. İqtisadi və hərbi potensialımız bizim gücümüzü daha da artırır və biz bu gün təmas xəttində vəziyyətə nəzarət edirik. Getdikcə bizim gücümüz artacaq, Ermənistan daha da zəifləyəcək. Çünki inkişaf üçün Ermənistanda heç bir imkan yoxdur. Heç bir obyektiv amil yoxdur ki, Ermənistan bu diktatura rejimi altında inkişaf etsin.

Biz isə öz yolumuzla gedəcəyik. Biz ilin sonuna qədər bütün vəzifələri icra edəcəyik. Gələn ili də əminəm ki, uğurla başa vuracağıq.

## YEKUN NİTQİ

İlin sonuna 2 ay yarım vaxt qalır. Əminəm ki, ilin sonuna qədər görüləsi bütün işlər icra olunacaq və biz 2015-ci ili yaxşı göstəricilərlə başa vuracağıq.

Makroiqtisadi sabitliyin qorunması gələn il də prioritet olaraq qalacaq. Çünki bu çox vacib sahədir. Hər bir ölkənin makroiqtisadi sabitliyi əsas şərtdir.

İslahatlar daha da dərinləşməlidir. İqtisadi islahatlar nəticəsində artıq böyük işlər görülüb. Bunu beynəlxalq qurumlar da qeyd edir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı yenə də çox yüksək pilləyə layiq gördü. Ölkələrin iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə Azərbaycan 40-cı yerdədir. MDB məkanında yenə də birinci yerdədir və bu əslində görülən işlərin bariz nümunəsidir. Biz çalışmalıyıq ki, iqtisadi islahatları daha da dərinləşdirək və iqtisadiyyatı liberallaşdırmaq üçün əlavə tədbirlər görək.

«Fitch» reytinq agentliyinin də yüksək qiyməti bizi sevindirir. Bu, ədalətli yanaşmadır. Azərbaycanda görülən işlərin nəticəsidir ki, «Fitch» – baxmayaraq, bölgədə iqtisadi-maliyyə böhranı davam edir və dərinləşir – Azərbaycana iqtisadi sahədə 3B investisiya reytinqini vermişdir. 3B reytinqi çox yüksək nəticədir. Ancaq biz çalışmalıyıq ki, daha da yüksək reytinqlərə nail olaq. Hesab edirəm ki, görüləcək əlavə tədbirlər nəticəsində biz buna da nail olacağıq.

Maliyyə nizam-intizamı gücləndirilməlidir. İsrafçılığa, izafi xərclərə yol verilməməlidir. Bəzi hallarda dövlət qurumları Maliyyə Nazirliyinə təkidlə müraciət edirlər ki, əlavə vəsait ayrılsın. Bu da yığışdırılmalıdır. İndi biz imkanımız nəyə çatırsa, onu da edirik. Hər bir insan, o cümlədən ölkələr yorğanına görə ayağını uzatmalıdır və məhz bu siyasət bizi bütün mümkün olan iqtisadi risklərdən qorudu. Əgər biz qazandığımızdan daha çox xərcləsəydik, indi iqtisadi vəziyyətimiz ağır ola bilərdi. Ona görə prioritet təşkil etməyən layihələrə vəsaitin ayrılması dayandırılmalıdır, bu tapşırıqlar verilmişdir. Bununla bərabər, vacib olan bütün layihələrə kifayət qədər vəsait ayrılacaq.

Büdcə xərclərinin strukturuna yenidən baxılmalıdır və büdcə vəsaiti qənaətlə xərclənməlidir. Bir sözlə, maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir.

Vergi və gömrük orqanları da şəffaf və səmərəli işləməlidir. Daha çox büdcəyə vəsait toplaya bilərlər. Belə imkanlar, ehtiyatlar var. Həm vergi, həm gömrük orqanlarına müvafiq göstərişlər verilib ki, gələn il bu ehtiyatları aşkarlasınlar və büdcəyə əlavə vəsait toplasınlar. Əlbəttə ki, vergi bazası genişləndirilməlidir. Bunu hamımız yaxşı bilirik ki, imkanlar kifayət qədər genişdir. Sahibkarlar da vergiləri verməlidir, dövlətin vergisini hər kəs, hər bir sahibkar tam şəkildə ödəməlidir. Əfsuslar olsun ki, bizdə vergivermə mədəniyyəti hələ ki, tam oturuşmayıb.

Bununla bərabər, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalıdır. Yəni başqa sözlə, onlardan rüşvət, heç bir haqq tələb edilməməlidir. Belə olan halda, bizim büdcəmiz daha da böyüyəcək, qeyri-neft sektorunun hesabına təmin ediləcək və bizim məqsədimiz də bundan ibarətdir. Mən artıq müvafiq qurumlar qarşısında vəzifə qoymuşam. Bizim bütün cari xərclərimiz qeyri-neft sektorunun, vergi və gömrüyün hesabına formalaşdırılmalıdır. O ki qaldı Dövlət Neft Fondundan ənənəvi transfertlərə, o transfertlər ancaq investisiya layihələrinə yönəlməlidir.

Mövcud vergidən azadolmalar və güzəştlər sisteminə yenidən baxılmalıdır. Bu praktika bizdə var. Biz bu praktikanı yerli istehsalı stimullaşdırmaq, yeni müəssisələrin yaradılması və xaricdən gətirilən avadanlıqları burada quraşdırmaq üçün tətbiq etmişik. Hesab edirəm ki, bu işlərə artıq yenidən baxılmalıdır. İxracyönümlü qeyri-neft sektorunun inkişafı o cümlədən vergi mexanizmləri vasitəsilə stimullaşdırılmalıdır.

Korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılmalıdır. Bu mübarizə aparılır. Ancaq deyə bilmərəm ki, biz istədiyimizə tam nail ola bilmişik. Əlbəttə ki, inzibati və cəza tədbirləri tətbiq ediləcək. Bununla yanaşı, sistem xarakterli tədbirlər, institusional islahatlar aparılmalıdır. Çünki görürük ki, inzibati tədbirlər və cəza tədbirləri bir çox hallarda öz səmərəsini

vermir, müvəqqəti xarakter daşıyır, bəzi hallarda insanların dəyişməsi o qədər də böyük səmərə vermir. Ona görə sistem xarakterli islahatlar davam etdirilməlidir, yeni təkliflər verilməlidir və əlbəttə ki, «ASAN xidmət»in təcrübəsi geniş tətbiq edilməlidir.

«ASAN xidmət»in yaradılması ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 6 milyon insan qısa müddət ərzində «ASAN xidmət»ə müraciət edib. İnsanların mütləq əksəriyyəti onlara göstərilən xidmətlərdən razıdır. «ASAN xidmət»də korrupsiya, rüşvətxorluq, bürokratiya yoxdur. Bu nəyi göstərir? Birincisi, onu göstərir ki, bizim korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmağa böyük siyasi iradəmiz var. İkincisi, onu göstərir ki, korrupsiyanı, rüşvətxorluğu aradan götürmək mümkündür. «ASAN xidmət»də bu mümkündürsə, başqa sahələrdə niyə mümkün deyil? Ona görə burada hər bir dövlət qurumu nəticə çıxarmalıdır. «ASAN xidmət»in praktikası bütün yerlərdə tətbiq edilməlidir və «ASAN xidmət»in funksiyaları genişləndirilməlidir. Bu il də biz «ASAN xidmət»ə yeni funksiyalar vermişik, məhz o funksiyaları ki, ən çox korrupsiyaya uğramış sahələrə aid idi. Ona görə burada mən hökumətdən yeni təkliflər gözləyirəm ki, hansı xidmətləri, hansı funksiyaları biz «ASAN xidmət»ə əlavə olaraq verməliyik. Bir daha demək istəyirəm ki, bütün başqa qurumlar da bu praktikanı tətbiq etməlidir.

Əlbəttə, vətəndaşlardan da çox şey asılıdır. Mən dəfələrlə çıxışlarımda vətəndaşlara müraciət edərək, onları daha da fəal olmağa çağırmışam. İctimai nəzarət gücləndirilməlidir. İctimai nəzarət olmadan korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə biz qalib gələ bilmərik. Ona görə dövlət siyasəti, güclü siyasi iradə artıq özünü göstərir və müsbətə doğru dəyişikliklər də var. İnstitusional tədbirlər görülür, islahatlar aparılır və bu mübarizə geniş ictimai dəstəyə də malikdir. Ancaq bu dəstək daha da fəal olmalıdır.

Gələcək inkişafımızın uğurlu və dayanıqlı davamı üçün sahibkarlığın inkişafı prioritet olaraq qalır. Bu gün özəl sektor inkişaf edir, o cümlədən dövlət dəstəyi hesabına güzəştli kreditlər verilir. Bu kreditlər iqtisadiyyatın real sektoruna verilir. Biz

gələcəkdə bu sahədə daha da fəal işlər aparmalıyıq ki, sahibkarlığı maksimum dərəcədə inkişaf etdirək. Sahibkarlara həm siyasi dəstək, həm metodik tövsiyələr, eyni zamanda, əlbəttə, maliyyə resursları verilir ki, onlar iş qursunlar. İndi bölgələrdə əsas infrastruktur layihələri, demək olar, başa çatır, yollar, kommunikasiyalar, elektrik, qaz, su xətləri çəkilir. Ona görə biznesin inkişafı üçün bölgələrdə və Bakıda yaxşı imkanlar var.

Biz isə çalışmalıyıq ki, xarici investisiyaları qeyri-neft sektoruna cəlb edək. Bu günə qədər xarici sərmayədarlar daha çox neft-qaz sektoruna maraq göstəriblər. Bu da təbiidir, çünki orada daha böyük qazanc əldə edirlər. Əlbəttə, neft-qaz sektoruna da xarici sərmayə qoyulmalıdır və qoyulur. İndi «Cənub Qaz Dəhlizi» icra edilir – bu da böyük vəsait tələb edir. Ancaq bizim əsas prioritetimiz xarici sərmayəni qeyri-neft sektoruna cəlb etməkdir. Hesab edirəm ki, burada bütün qurumlar daha da fəal işləməlidir. Həm təqdimatlar keçirilməlidir – əlbəttə, biznes-forumlar keçirilir, biz xarici investorları maraqlandırırıq – eyni zamanda, Azərbaycanda biznes mühiti yaxşılaşdırılmalıdır. Bunun üçün əlavə tədbirlər görülməlidir və mən hökumətdən təkliflər gözləyirəm ki, biznes mühitini biz hansı yollarla yaxşılaşdıra bilərik.

Qeyd etməliyəm ki, Azərbaycanda aparılan islahatlara beynəlxalq maliyyə qurumları, mötəbər beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymət verilir. Əslində bugünkü Azərbaycan reallıqları bunu göstərir. Belə çətin geosiyasi vəziyyətdə – həm siyasi, həm iqtisadi – maliyyə böhranının mövcudluğu şəraitində biz iqtisadiyyatımızı inkişaf etdiririk. Ancaq mən istəyirəm ki, inkişaf daha da sürətli olsun. İnkişafa mane olan bütün əngəllər, süni maneələr aradan götürülsün. Bir çox hallarda bu süni əngəllər yenə də korrupsiya və rüşvətxorluqla bağlıdır. Korrupsiya, rüşvətxorluq sadəcə olaraq, ictimai yara, xəstəlik deyil. Bu bizim iqtisadiyyatımıza çox böyük əngəldir, maneədir. Ona görə biznes mühitinin yaxşılaşdırılması prioritet məsələ kimi qeyd edilməlidir.

Bununla bərabər, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə də böyük ehtiyac var, bu sahəyə yenidən baxmalıyıq.

İndi Azərbaycan iqtisadiyyatı yeni situasiyada inkişaf edir. Vaxt var idi bizim iqtisadi artım ildə 20–30 faiz təşkil edirdi. Bu, əlbəttə, neft hasilatının kəskin şəkildə artması və neft qiymətlərinin qalxması ilə bağlı idi. İndi o dövr arxada qalıb. İndi neft hasilatı Azərbaycanda sabitləşib və əminəm ki, uzun illər bundan sonra sabit olaraq qalacaqdır. İndi böyük qaz layihəsi üzərində işləyirik. Bu da bizə əlavə gəlir gətirəcək. Bununla bərabər, hesab edirəm ki, inkişafa mane olan, xüsusilə idarəetmə sahəsində problem yaradan amillər aradan qaldırılmalıdır. Burada çox ciddi islahatlara ehtiyac var. Bəzi strukturlar bir-birinin fəaliyyətini təkrarlayır, biz buna yol verməməliyik, burada optimallaşdırma siyasəti aparılmalıdır və bu sahəyə də diqqət verilməlidir.

Qeyri-neft sektorunun inkişafı, əlbəttə ki, iqtisadi inkişafımızın əsas hərəkətverici sahəsidir. Qeyd etdiyim kimi, artıq ümumi daxili məhsulumuzun təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Bu çox gözəl göstəricidir. Ancaq o da həqiqətdir ki, ixracda başqa mənzərə ilə üzləşirik. Bu da yəqin ki, təbiidir, çünki bizim əsas ixrac məhsullarımız neft-qaz məhsullarıdır. Bununla bərabər, son illər ərzində biz daha çox daxili bazarı yerli məhsullarla təmin etməyə, idxaldan asılılığı azaltmağa çalışmışıq və demək olar ki, buna nail olmuşuq. Ona görə bundan sonra çalışmalıyıq ki, qeyri-neft sektorunda istehsal edilən məhsullar rəqabətqabliyyətli məhsullar olsun və biz ixracyönümlü siyasət aparaq.

Biznes mühitini yaxşılaşdırmaq və biznesin inkişafına təkan vermək üçün əminəm ki, çox ciddi addımlar atılacaq. Deməliyəm ki, yoxlamalarla bağlı çoxsaylı şikayətlər gəlir. Yoxlamaların sayı kifayət qədər çoxdur, yoxlayan təşkilatlar da sanki bir-biri ilə rəqabətə çıxıblar. Bu da dözülməzdir. Yoxlamaların böyük əksəriyyətinin arxasında yenə də maddi təmənna dayanır. Yoxlayan gəlir, nəyi yoxlayır, nəyi yoxlamır, ancaq nəticə etibarilə öz payını alır, çıxıb gedir. Budur reallıq. Bu heç kim üçün sirr deyil. Buna da son qoyulmalıdır. Ona görə qısa müddət ərzində mənə yoxlamalarla bağlı müfəssəl məlumat verilməlidir ki, hansı qurumlar kimi yoxlayır, ildə neçə dəfə yoxlayır, nə üçün yoxlayır? Burada bir sistem olmalıdır. Yoxlamaların tənzimlənmə

mexanizmi işlənməlidir. Burada müəyyən şərtlər qoyulmalıdır – kim, nə vaxt, hansı müddət ərzində kimi yoxlaya bilər! Ümumiyyətlə, biz bu yoxlamaların sayını kəskin şəkildə aşağı salmalıyıq.

Yerli icra hakimiyyəti orqanları, o cümlədən hüquq-mühafizə orqanları bəzi hallarda sahibkarlara problemlər yaradırlar, bəzi hallarda onlardan pul tələb edirlər. Sahibkar heç kimə – nə yerli icra orqanlarının, nə də hüquq-mühafizə orqanlarının nümayəndələrinə borclu deyil, ancaq dövlətin vergisini ödəməlidir, vəssalam. Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır. 67 min daimi iş yeri yaradılıb, 30 mini bağlanıb. Bax, bunun təhlilini aparmaq lazımdır. Mənə məlumat verilsin ki, o iş yerləri hansı səbəblər üzündən bağlanıb. O müəssisələrin rəhbərlərini dəvət etmək, soruşmaq lazımdır. Buna son qoyulmalıdır. Əlbəttə, bunun obyektiv səbəbləri var. Amma subyektiv səbəblər də var. Gəlirlər, əsassız tələblər irəli sürürlər, sanki bunlara kimsə borcludur. Heç kim heç kimə borclu deyil. Bu əməlləri törədənlər ciddi şəkildə cəzalandırılacaqlar. Onlar bu çirkin əməllərdən əl çəkməlidirlər. Bu ilk növbədə, bizim siyasətimizə ziddir. Digər tərəfdən, bu, imkan vermir ki, iqtisadiyyatımız tam şəkildə inkişaf etsin, sahibkarlar ölkədə rahat işləsinlər.

Bizdə lisenziyaların sayı həddindən artıq çoxdur. Mənə verilən məlumata görə, lisenziyaların sayı getdikcə artır. Əksinə, azalmalıdır, amma bizdə artır. Nəyə görə? Çünki müvafiq qurumlar çalışırlar ki, lisenziyaların sayını artırsınlar. Lisenziya da nədir? Pul mənbəyidir. Qanunsuz varlanma metodudur. Nəyə lazımdır bu? Buna da çox ciddi baxmaq lazımdır. Hökumət təklif versin ki, hansı lisenziyalar verilməlidir. Hansı əsaslıdır, hansı əsaslı deyil və lisenziyaların sayı kəskin şəkildə azaldılmalıdır. Biz liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmişik və bu yolla gedirik. Görün nə qədər böyük uğurlar əldə etmişik. Əgər ölkə daxilində mane olanlar olmasaydı, gör biz daha necə böyük uğurlar əldə edərdik. Əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün büdcəmiz nə qədər arta

bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yəni hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq.

İqtisadiyyat üçün əsas problemlərdən biri də inhisarçılıqdır. Əfsuslar olsun ki, biz bu sahədə də hələ ciddi nəticələrə nail ola bilməmişik, həm istehsalda, həm də idxalda. Burada da bilmirəm bu nə psixologiyadır düşünürlər, əgər mən bu məhsulu istehsal edirəmsə, başqası gərək istehsal etməsin. Başqasına da imkan vermək lazımdır ki, rəqabət olsun. Rəqabət olmasa, inkişaf da olmaz, keyfiyyətli məhsullar da olmaz. Qoy hər kəs istehsal etsin. Yaxşı bazarımız hazırda bir qədər məhduddur. Elə məhsullar yetişdirin, istehsal edin ki, xaricə sata biləsiniz. Dövlət də bunu təşviq etsin. Bizim gələcəkdə iqtisadiyyatımızın inkişafını təmin edən əsas sahə ixrac olacaqdır. Bunu mən dəfələrlə demişəm. Biz buna çox ciddi hazırlaşırıq. Burada artıq deyildi ki, biz xaricdə logistika mərkəzləri yaradırıq. Nə üçün? Ona görə xaricə vəsait qoyuruq ki, məhsullarımız oraya – yeni bazarlara çıxsın. Bunu ona görə edirik ki, sahibkarların gedib öz məhsullarını rahat satmaq imkanları olsun. Burada isə kimsə nəyisə istehsal edirsə, qoymur ki, başqası da istehsal etsin. Yaxud da ki, himayədarları müxtəlif yollarla bu işlərə cəlb edir. Buna yol vermək olmaz. O cümlədən idxalla bağlı inhisarçılığa yol vermək olmaz. Yenə də deyirəm, biz açıq bazar iqtisadiyyatı siyasətini aparırıq. Bizim siyasətimiz, dövlət siyasəti, prezidentin siyasəti, bax, budur. Ona görə bütün qurumlar bu siyasəti aparmalıdır, vəssalam!

Bu il «Kənd təsərrüfatı ili»dir. Qeyd etdiyim kimi, kənd təsərrüfatı istehsalı 6,7 faiz artıb. Kənd təsərrüfatının inkişafı, artımı həm sosial, həm də iqtisadi sahədir. Biz çalışırıq və çalışacağıq ki, özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz səviyyəsində təmin edək. Biz bu hədəfə yaxınlaşırıq. Burada artıq qeyd edildi ki, 30 iri fermer təsərrüfatı yaradılıb, 40 min hektar yeni torpaq sahəsi dövriyyəyə buraxılıb. Taxılçılıq üzrə iri fermer təsərrüfatlarında hər hektardan 50–60 sentner məhsul götürülür. Bu çox yüksək göstəricidir. Nəzərə alsaq ki, son illərə qədər bizdə orta məhsuldarlıq 25-26 sentner idi, bu il isə orta məhsuldarlıq 30

sentnerdən çoxdur – bu rekord göstəricidir. Ona görə ərzaq təhlükəsizliyi məsələlərinin həlli üçün əlavə tədbirlər görüləcək. İndi yeni əkin sahələri dövriyyəyə buraxılacaq. Yaradılmış 2 böyük su anbarının – Taxtakörpü və Şəmkirçay su anbarlarının hesabına on minlərlə hektar torpağa suyun verilməsi nəzərdə tutulur. İqtisadiyyat və Sənaye Nazirliyi işləyir, biznes-plan hazırlanır. Özəl qurumlar da buna maraq göstərsinlər. Yeni yaradılacaq əkin sahələrində məhsullar yetişdiriləcək və onların böyük hissəsi ixrac edilməlidir.

Azərbaycanda sənayeləşmə siyasəti uğurla aparılır. Qeyd etdiyim kimi, Azərbaycanda qeyri-neft sənayesi 10,2 faiz artıb. Texnoparklar salınır. Bu da öz səmərəsini verir. Sumqayıt Kimya Sənaye parkında 1 milyard dollar dəyərində sərmayə qoyuluşu gözlənilir. Artıq işlər başlanıb. Bizim bütün rayonlarımızda xüsusi sənaye zonaları yaradılmalıdır. Pilot layihəsi həyata keçirilir, əminəm ki, uğurlu olacaq.

İnfrastruktur layihələrinin davam etdirilməsi nəzərdə tutulur. Kənd yolları, qazlaşdırma, içməli su layihələri – bütün rayonlarda bu proseslər geniş vüsət alıb. Ceyranbatan su anbarında yeni təmizləyici qurğunun artıq istismarı gözlənilir. Bu da çox böyük layihədir. Bir neçə il bundan əvvəl mənim iştirakımla o layihənin təməl daşı qoyulmuşdu. Bu gün artıq, demək olar ki, bu layihə hazırdır. Bakını təmiz, içməli su ilə təmin etmək üçün bu layihənin əvəzsiz rolu olacaqdır. Eyni zamanda, sosial infrastrukturun yaradılması davam etdirilməlidir. Məktəb, xəstəxana, uşaq bağçası – bu, daim diqqət mərkəzindədir. Gələn ilin dövlət investisiya proqramında bu layihələr nəzərdə tutulmalıdır.

Dərman preparatları bazarında çox ciddi dönüş yaradılıb. Dövlət bu sahəni artıq öz nəzarətinə götürüb. Əvvəlki illərdə bu daha çox biznes sahəsi kimi qəbul edilirdi. Yəni ki, bazar var, tələbat var, təklif var. Bazar hər şeyi tənzimləyir. Ancaq bu məsələ ilə bağlı dərindən məşğul olmağa başlayanda gördük ki, burada çox böyük pozuntular var.

Bəzi dərmanların qiyməti bir neçə dəfə şişirdilib. Keyfiyyət baxımından da bizi o qədər qane etmir. İndi artıq yeni dövlət

tənzimləmə mexanizmi tətbiq edilir. Sentyabrın 15-dən insanlar bunu hiss etməyə başlayıblar. İlin sonuna qədər əksər dərman preparatlarının yeni qiymətləri olacaqdır. Dərmanların keyfiyyətinə də çox böyük diqqət göstərilir. Dərmanların qiyməti aşağı düşür və düşəcək. Bu da ilk növbədə, çox ciddi sosial addımdır. Digər tərəfdən, bu o sahədir ki, orada işlər düzgün qurulmayıb. Elə sahələr kifayət qədər çoxdur. Ona görə hər bir sahə təhlil edilməlidir. Harada qüsurlar, çatışmayan cəhətlər var, aradan qaldırılmalıdır. Dərman preparatları bazarı ilə bağlı, demək olar ki, bir ilə yaxın çox ciddi iş, təhlil aparılırdı və artıq gözəl nəticə də var. İnsanlar da razıdır. Dövlət  indi bu sahəni öz nəzarətinə götürüb. Əminəm ki, idxal olunan dərmanlardan əldə ediləcək vergi, gömrük rüsumu formasında vəsait daha da böyük həcmdə olacaq. Büdcəmizə də bunun böyük xeyri olacaq.

Mən giriş sözümdə qeyd etdim ki, nəqliyyat sektoru gələcək inkişafımız üçün çox mühüm əhəmiyyət kəsb edir. Həm Şimal–Cənub, həm Şərq–Qərb nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçməlidir. Bu gün Azərbaycan ərazisindən yükdaşımaları aparılır, ancaq bəzi hallarda yüklərin həcmi azalır. Bunun obyektiv səbəbləri var. Qeyd etməliyik ki, indi dünyada böhran yaşanır, həm Asiyada, həm Avropada, ümumiyyətlə, iqtisadi fəallıq xeyli aşağı düşüb. Asiya, Avropa bizim ərazimiz vasitəsilə ticarət aparır. Ona görə də həm obyektiv, həm subyektiv səbəblər var.

Biz son illərdə çalışmışıq ki, Azərbaycanda nəqliyyat, logistika mərkəzini yaradaq və buna nail ola bilmişik. Yeni gəmilər, bərələr, tankerlər, yük gəmiləri, yeni yük təyyarələri alınıb. Azərbaycanda bir neçə beynəlxalq aeroport tikilib. Dəmir yolunun inkişafı ilə bağlı tədbirlər görülür. Bizi qonşu ölkələrlə bağlayan avtomobil yolları çəkilib. Əfsuslar olsun ki, hələ bu layihələr tam başa çatmayıb. Ancaq onların böyük hissəsi görülübdür. Əlbəttə, Yeni Beynəlxalq Dəniz Ticarət Limanı tikilir. Bu da Xəzər hövzəsində ən böyük ticarət limanı olacaq. Yəni bu, dövlət vəsaiti hesabına görülən işlərdir. Burada heç bir özəl vəsait qoyulmayıb. İndi bəzi hallarda kreditlər verilib. Amma bu kreditləri də dövlət ödəyir.

Dövlət öz siyasətini göstərib. Ancaq bununla bərabər, burada koordinasiya işləri aparılmalıdır. Ona görə ki, Şimal–Cənub dəhlizi bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Azərbaycandan keçən bu yol milyonlarla əlavə yükün bizim ərazimizdən daşınması deməkdir. Bu da həm siyasi, həm iqtisadi gəlirlər gətirəcək.

Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi, əfsuslar olsun ki, hələ başa çatmayıb. Halbuki bu layihənin başlanmasından 8 il keçir. 2007-ci ildə biz, 3 ölkə bu layihəyə start verdik. Qeyd etdiyim kimi, Azərbaycanın məsuliyyəti çərçivəsində olan məsələlər öz həllini tapdı. İndi Türkiyə ərazisində qalan işlər də görüləcəkdir. Biz bu yolu tezliklə işə salmalıyıq. Çünki indi həm ölkələr, həm şirkətlər arasında yüklər uğrunda mübarizə, rəqabət gedir. Amma biz burada oturmuşuq, nəyisə gözləyirik. Gözləyirik ki, kimsə gəlib bizdən xahiş edəcək. Xahiş edəndə də elə şərtlər qoyulur ki, o xahiş edən üz döndərib gedir. Bu, dözülməz haldır. Bu məsələ ciddi təhlil edilməlidir və burada vahid tarif siyasəti aparılmalıdır. Çünki bizdə Xəzər Gəmiçiliyinin, dəmir yolunun, limanın – hərəsinin öz korporativ maraqları var. Amma bunlar ölkənin maraqları ilə uzlaşır? Yox, uzlaşmır! Dövlətin maraqları bu dəhlizi elə etməkdir ki, daha yükü göndərənin başı ağrımasın, daha 10, 20 ünvana getməsin, bunu elektron yollarla, «e-mail»lə, müasir üsullarla həll etsin. Bu, məsələnin bir hissəsidir. Bunu biz yaratmalıyıq və artıq göstərişlər verilib. Burada çox ciddi koordinasiya işləri aparılmalıdır. Yaxın vaxtlarda mənə konkret təkliflər veriləcəkdir. Digər məsələ ondan ibarətdir ki, biz gərək gedək o yükləri gətirək. Biz gərək deyək ki, gəlin Azərbaycan ərazisindən keçin. Ona görə burada bu 2 amil çox ciddi məna daşıyır. Əminəm ki, burada qarşıya qoyduğum vəzifələr tezliklə öz həllini tapacaq.

Biz son vaxtlar şəhər nəqliyyatı ilə bağlı çox ciddi addımlar atmışıq. Yeni şirkət yaradılıbdır. «BakuBus» avtobusları ən yüksək səviyyəyə malikdir. Dünyanın bəlkə də ən gözəl, ən müasir avtobuslarıdır. Bunu da biz etmişik ki, insanlar ictimai nəqliyyatdan rahat istifadə etsinlər. Hesab edirəm ki, «BakuBus»ın fəaliyyəti genişləndirilməlidir. Çünki indi digər xidmətlərlə

müqayisədə, əlbəttə ki, insanlar «BakuBus»a üstünlük verir. Ona görə hesab edirəm ki, gələn ilin dövlət büdcəsində də yeni avtobusların alınması üçün müəyyən vəsait nəzərdə tutulmalıdır. Biz hər il əlavə avtobuslar almaqla, «BakuBus»ın fəaliyyətini daha da genişləndirə bilərik.

Metro tikintisi gedir. Əminəm ki, biz gələn il yeni stansiyaların açılışını qeyd edəcəyik. Bakı–Sumqayıt şəhərlərarası qatarlar da fəaliyyətə başlayıb. Müasir qatarlardır, yeni dəmir yolu xətləri çəkilib. Bütün bunlar insanların rahatlığı üçündür.

I Avropa oyunlarından sonra Azərbaycana maraq daha da artır və əminəm ki, bu, turizm sektorunda da özünü göstərəcək. Turistlərin cəlb edilməsi siyasəti də aparılmalıdır. Biz yenə də burada daha çox fəal olmalıyıq. I Avropa oyunları ölkənin bir təqdimatı idi. Biz Azərbaycanı bütün Avropaya, dünyaya müasir, gözəl, inkişaf edən ölkə kimi, Bakını isə dünyanın ən gözəl şəhərlərindən biri kimi tanıtdıq. Əlbəttə ki, bizə maraq daha da artır. Gələn il «Formula-1» yarışması da – bu da miqyasına görə bəlkə də dünyada birinci, ya ikinci yarışmadır – əlavə diqqət cəlb edəcək. Bu, gözəl imkanlardır ki, biz xarici turistləri Azərbaycana cəlb edək. Bu proses gedir, ancaq daha da sürətlə gedə bilər.

Nəhayət, gələn il «Cənub Qaz Dəhlizi»nin yaradılması ilə bağlı çox ciddi işlər görülməlidir. Artıq praktiki inşaat işləri başlanır. Bu da koordinasiya tələb edir. Burada bütün qurumlar elə işləməlidir ki, bir gün də yubanma olmasın. «Cənub Qaz Dəhlizi» Azərbaycanın təşəbbüsü və qonşu ölkələrin fəal iştirakı ilə reallaşan böyük transmilli layihədir. Bu layihə Azərbaycanın uzunmüddətli maraqlarını təmin edəcək. Siyasi, iqtisadi, enerji maraqlarını təmin edəcək, Azərbaycanı dünya üçün daha da önəmli ölkəyə çevirəcək və mən çox şadam ki, «Cənub Qaz Dəhlizi»nin bütün iştirakçıları, bütün ölkələr burada bir mövqedədirlər. Bilirsiniz ki, Azərbaycanın təşəbbüsü ilə bu ilin fevral ayında «Cənub Qaz Dəhlizi»nin birinci Məşvərət Şurası da Bakıda keçirildi. Şuranın qəbul etdiyi Bəyannamə də Azərbaycanın liderlik rolunu bir daha təsdiqləyir. Bu, böyük şərəfdir, böyük məsuliyyətdir. Bu günə qədər bizim təşəbbü-

sümüzlə icra edilən bütün layihələr uğurla nəticələnib. Əminəm ki, «Cənub Qaz Dəhlizi» də Azərbaycanın növbəti qələbəsi olacaqdır. Sağ olun.

## QAZAXISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*15 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində keçiriləcək iclasında iştirak etmək üçün oktyabrın 15-də bu ölkəyə işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqlarının dalğalandığı Kokşetau şəhərinin aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ QAZAXISTANDA KEÇİRİLƏN İCLASINDA İŞTİRAK

*Burabay*

*16 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Qazaxıstan Respublikasının Akmola vilayətinin Burabay qəsəbəsində Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının növbəti iclasında iştirak etmişdir.*

*Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı. Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Sonra prezident Nursultan Nazarbayev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Qazaxıstana gələn digər dövlət başçılarını qarşıladı.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi. İclası açan Qazaxıstan prezidenti Nursultan Nazarbayev qonaqları salamladı, sonra Aleksandr Lukaşenkonu yenidən Belarus prezidenti seçilməsi, həmçinin Qırğız xalqını və prezidentini həmin ölkədə parlament seçkilərinin uğurla keçməsi münasibətilə təbrik etdi.*

*Bugünkü iclasın Qazaxıstanın sədrliyi ilə keçdiyini bildirən prezident Nursultan Nazarbayev qeyd etdi ki, ölkəsi qurum çərçivəsində dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə çalışır. Nursultan Nazarbayev MDB-nin postsovet məkanında 11 ölkənin əməkdaşlığı üçün gözəl meydan olduğunu diqqətə çatdırdı, bu çərçivədə müxtəlif məsələlərin müzakirəsinə əlverişli imkan yaratdığını vurğuladı. «Əminəm ki, bugünkü tədbir MDB-nin*

*inkişafına öz töhfəsini verəcək, ölkələr arasında əməkdaşlığın daha da dərinləşməsinə kömək edəcək» – deyən Qazaxıstan Prezidenti iclasın gündəliyinə 17 məsələnin daxil olduğunu, tədbirin böyük bir hissəsinin təhlükəsizliyin və qanun-qaydaların təmin olunmasına həsr edildiyini söylədi. Qeyd etdi ki, beynəlxalq sazişlər paketini imzalamaq, proqram sənədlərini təsdiq etmək, BMT-nin yaradılmasının 70 illiyi ilə əlaqədar beynəlxalq terrorizmlə mübarizəyə dair dövlət başçılarının bəyanatını qəbul etmək planlaşdırılır. Təqdim olunan sənədlərin praktik əhəmiyyət kəsb etdiyini deyən Nursultan Nazarbayev onu da bildirdi ki, bu sənədlərin qəbulu və həyata keçirilməsi əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə olacaq.*

*Azərbaycan prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış etdi. Tədbirin yüksək səviyyədə təşkilinə görə Qazaxıstan prezidenti Nursultan Nazarbayevə minnətdarlığını bildirən dövlətimizin başçısı iclasın nəticələrinin əməkdaşlığa töhfə verəcəyini dedi. Prezident İlham Əliyev Belarusda prezident seçkiləri, Qırğızıstanda isə parlament seçkilərinin uğurla keçirilməsi münasibətilə Belarus prezidenti Aleksandr Lukaşenkonu və Qırğız prezidenti Almazbek Atambayevi təbrik etdi.*

**İlham Əliyev:** Mən öz çıxışımda 2-3 mövzuya toxunmaq istərdim. Birincisi artıq qeyd edildi: qarşılıqlı iqtisadi fəaliyyətin yeni formalarının axtarılması zərurəti. MDB ölkələri arasında əmtəə dövriyyəsi azalıb. Dünyada baş verən müəyyən proseslər nəzərə alınsa, burada obyektiv amil var. MDB üzvü olan ölkələrin çoxunun milli valyutaları öz dəyərini itirib. Biz hesablaşmaları dollar ilə apardığımıza görə bu, təbii ki, statistikada dərhal mənfi işarə ilə öz əksini tapır. Buna görə mən də Vladimir Vladimiroviç Putinin hesablaşmaları milli valyutalarla aparmağa keçid məsələsinin araşdırılması ideyasına qoşulmaq istərdim. Bu bizim fəaliyyətimizlə bağlı olmayan müəyyən maliyyə risklərindən yaxa qurtarmağa, həmçinin milli valyutalarımızı möhkəmlətməyə imkan verər, iqtisadi inteqrasiya işinə daha çox kömək edərdi. İqtisadi sahədə əməkdaşlığın yeni formalarının, həmçinin xüsusən zəngin

təbii ehtiyatlara malik olan ölkələrdə yeni iqtisadi modelin möhkəmlənməsinin yeni formalarının axtarışı dövlətlərimizin gündəliyindədir. Düşünürəm ki, burada meydana çıxan riskləri minimuma endirmək üçün daha fəal məsləhətləşmələr, fikir və təcrübə mübadiləsi aparmaq olar.

Həmçinin deməliyəm ki, MDB ölkələri – mən təbii ehtiyatlara, neftə, qaza malik olan ölkələri nəzərdə tuturam – neft və qaz hasil edən çoxsaylı ölkələr arasında bu böhrana müqavimət baxımından ən yaxşı göstəricilərə malikdirlər. Azərbaycan nəqliyyat təhlükəsizliyi məsələlərində fəal iştirak edir. Biz həmçinin bütün MDB ölkələrini irəli sürdüyümüz təşəbbüslərə, o cümlədən Birliyin üzvü olan bəzi ölkələrlə müştərək təşəbbüslərə qoşulmağa dəvət edirik. Bu ilin avqust ayında Qazaxıstandan keçməklə, Çindən Azərbaycana gələn ilk konteyner qatarı qəbul edilib. Bu, Şərq–Qərb dəhlizinin yeni cizgilər kəsb etməyə başladığını göstərən yaxşı əlamətdir. Bu dəhlizin böyük geosiyasi əhəmiyyəti var. Bu həmin yol üzərində, habelə bu nəqliyyat marşrutunun yaxınlığında yerləşən ölkələrin daha sıx inteqrasiyasına imkan verəcək.

Biz «Şimal–Cənub» dəhlizinin layihəsi üzərində, ilk növbədə Rusiya Federasiyası və İranla fəal işləyirik. Artıq ciddi razılaşmalar əldə olunub, bizim dəmir yolu magistrallarının birləşdirilməsi prosesinin sürətləndirilməsinə dair konkret qərarlar qəbul edilib. Bu layihə böyük maliyyə gəlirləri vəd edir. Bu magistral Çinin, Hindistanın, İranın, Azərbaycanın, Rusiyanın və Avropanın nəhəng bazarlarını birləşdirən ən rahat və ən qısa yoldur. Həmçinin sizə bu barədə məlumat vermək və tərəfdaş ölkələrimizi bu layihəyə qoşulmağa dəvət etmək istərdim. Bu iştirak müxtəlif formada ola bilər – sərmayə qoyuluşu, yüklərin təminatı ilə bağlı məsələlər. Düşünürəm ki, bu istiqamətdə birlikdə işləyə bilərik. Sərmayələrlə bağlı istək olarsa biz bunu alqışlayacağıq. Əgər belə arzu yoxdursa, bu magistralın yaxın 2 il ərzində tam işə düşməsi üçün mümkün yeni yüklərin səfərbər edilməsi sahəsində birgə işləyə bilərik.

Əlbəttə, haqqında danışmaq istədiyim üçüncü mövzu regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi məsələsidir. Bu gün artıq çıxışlarda bununla əlaqədar narahatlıqlar səsləndi. Biz hamımız bunu yaxşı görürük, müşahidə edirik. Terrorizmə qarşı mübarizədə bütün dünya birliyinin çoxplanlı əməkdaşlığı olmadan dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz. MDB ölkələri, hər halda bu ölkələrin əksəriyyəti beynəlxalq terrorizmin nə demək olduğunu öz üzərlərində hiss ediblər. Bu təhlükə bu gün region ölkələri üçün bilavasitə risklərin və bizim hamımız üçün potensial risklərin mənbəyidir. Buna görə də bugünkü mərhələdə beynəlxalq terrorizmə qarşı mübarizə bütün ölkələr üçün prioritet olmalıdır və biz yalnız səylərimizi birləşdirməklə qarşıya qoyulmuş məqsədlərə çata bilərik. Əlbəttə, risklərin minimuma endirilməsi, habelə beynəlxalq terrorizmi doğuran səbəblərin üzə çıxarılması, aşkar edilməsi istiqamətində çox işləmək lazımdır. Əlbəttə, bunun çox böyük kənar səbəbləri var, terroryönümlü müəyyən qruplar, qruplaşmalar maliyyələşdirilir. Amma, həmçinin daxili səbəblər də mövcuddur. Daxili səbəb isə yoxsulluq, savadsızlıq, gerilik, radikalizm, fundamentalizm, sosial ədalətsizlikdir. Əgər bu və ya digər ölkədə bu obyektiv səbəblər yoxdursa, orada xaricdən göstərilən bütün səylərə baxmayaraq terrorizmin yetişməsi üçün zəmin yaratmaq çox çətin olacaq. Buna görə də sosial-iqtisadi xarakterli məsələlərin, təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmə qarşı mübarizə məsələlərinin həlli üzərində səylərin birləşdirilməsi – bütün bunlar bu gün ölkələrimizin əsas gündəliyini təşkil edir. Biz region ölkələri ilə sülh və həmrəylik şəraitində yaşamaq, inkişaf etmək, uşaqların savadlı, təhsilli, sağlam böyüməsini istəyirik. Bunun üçün bizə təhlükəsizlik lazımdır. Buna görə də Azərbaycan öz tərəfindən beynəlxalq terrorizmlə mübarizə üçün bundan sonra da bütün səylərini əsirgəməyəcək.

Düşünürəm ki, burada səslənən tezislər, dövlət başçılarının çıxışları bizim bu məsələyə yenidən və daha praktiki nöqteyi-nəzərdən baxmağımız, gələcəkdə ölkələrimizin təhlükəsizliyi ilə

bağlı daha nə etməyin lazım olduğunu müəyyənləşdirməyimiz üçün yaxşı bazadır.

* * *

*Sonra iclas işini geniş tərkibdə davam etdirdi.*

*İclasın əvvəlində Belarus prezidenti Aleksandr Lukaşenko MDB çərçivəsində xalqların və dövlətlərin dostluğuna verdiyi töhfəyə görə Qazaxıstan prezidenti Nursultan Nazarbayevə «Xalqlar dostluğu» ordenini təqdim etdi.*

*Məhdud tərkibli görüşdə MDB-nin gələcək inkişafı ilə bağlı cari məsələlərin müzakirə edildiyini deyən Nursultan Nazarbayev bildirdi ki, son vaxtlar dünyanın qlobal dəyişikliklərə məruz qaldığı zamanda MDB də həmin şəraitə uyğun fəaliyyət göstərməlidir. Buna görə, bugünkü iclasda müzakirə olunan məsələlərdən biri təhlükəsizlik sahəsində beynəlxalq vəziyyətdir.*

*Qazaxıstan prezidenti BMT-nin razılığı ilə ümumdünya terrorizmə qarşı mübarizə şəbəkəsinin yaradılmasının vacibliyini bildirdi, bu sahədə MDB-nin antiterror mərkəzinin potensialından maksimum yararlanmağın zəruriliyini qeyd etdi. O vurğuladı ki, bu gün MDB dövlət başçılarının beynəlxalq terrorizmə qarşı BMT-nin yaradılmasının 70 illiyi münasibətilə qəbul etdiyi bəyanat olduqca əhəmiyyətlidir.*

*MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev bildirdi ki, məhdud tərkibli iclasda toplantının gündəliyi və reqlamenti təsdiqlənib, 2 mühüm bəyanat – BMT-nin yaradılmasının 70 illiyi və beynəlxalq terrorizmlə mübarizə ilə əlaqədar MDB dövlət başçılarının bəyanatları qəbul edilib. Həmçinin MDB dövlət başçıları Şurasının növbəti iclasının 2016-cı il sentyabrın 16-da Qırğızıstanda keçirilməsi qərara alınıb.*

*Sonra Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın 30 illiyi ilə bağlı dövlət başçılarının müraciəti müzakirə olundu. Belarusun Fövqəladə Hallar naziri Vladimir Vaşenkonun məlumatından sonra qəzanın 30 illiyi ilə əlaqədar MDB ölkələrinin birgə müraciətinin dünya ictimaiyyətinə çatdırılması təklif edildi və bununla bağlı qərar qəbul olundu.*

*Daha sonra iclasda MDB-yə üzv ölkələrin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Şurası və Hava Hücumundan Müdafiə Koordinasiya Komitəsinin rəhbərlərinin namizədliyi təsdiqləndi.*

*MDB Dövlət Başçıları Şurasının iclası sənədlərin imzalanması ilə yekunlaşdı.*

* * *

*İclasdan sonra Prezident İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin adından MDB dövlət başçılarının şərəfinə verilən işçi səhər yeməyində iştirak etmişdir.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri oktyabrın 16-da başa çatmışdır.*

## GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Gürcüstanın Baş nazirinin müavini, Xarici İşlər naziri Giorgi Kvirikaşvilini qəbul etmişdir.*

*Gürcüstanın Baş nazirinin müavini, Xarici İşlər naziri Giorgi Kvirikaşvili ilk rəsmi səfərini məhz Azərbaycana etməsindən məmnunluğunu bildirdi. İkitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən Giorgi Kvirikaşvili əməkdaşlığımızın müxtəlif sahələrdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı Gürcüstanın Xarici İşlər naziri vəzifəsində Giorgi Kvirikaşvilinin ilk xarici səfərini Azərbaycana etməsini ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan–Gürcüstan əməkdaşlığının siyasi, iqtisadi, humanitar və digər istiqamətlərdə fəal şəkildə davam etdirilməsinin zəruriliyini vurğulayan prezident İlham Əliyev bu əməkdaşlığın bizi birləşdirən irimiqyaslı nəqliyyat, energetika və iqtisadi layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Görüşdə birgə regional layihələrin, o cümlədən «Cənub Qaz Dəhlizi» və Bakı–Tbilisi–Qars dəmir yolu layihələrinin beynəlxalq əhəmiyyətindən danışıldı, bu layihələrin icrası ilə bağlı koordinasiya məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

# KOSTA-RİKA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ ETİQAD NAZİRİ MANUEL QONZALES SANZ İLƏ GÖRÜŞ

*19 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Kosta-Rika Respublikasının Xarici İşlər və Etiqad naziri Manuel Qonzales Sanzı qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Kosta-Rika Respublikası arasında çox yaxşı siyasi əlaqələrin mövcud olduğunu deyən prezident İlham Əliyev nazir Manuel Qonzales Sanzın ölkəmizə səfərini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. İki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın ikitərəfli münasibətləri genişləndirməkdə maraqlı olduğunu vurğuladı, əlaqələrimizin gələcəkdə müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadiyyat, enerji, sərmayə qoyuluşu, ticarət, mədəniyyət və digər sahələrdə genişləndirilməsinin vacibliyini qeyd etdi.*

*Kosta-Rika Respublikasının Xarici İşlər və Etiqad naziri Manuel Qonzales Sanz indiyədək Azərbaycana Kosta-Rikadan ən yüksək səviyyəli dövlət nümayəndəsi kimi səfər etməsindən məmnunluğunu bildirdi. O, Bakıda gördüyü sürətli inkişaf proseslərinin, paytaxtımızda həyata keçirilən abadlıq və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını dedi. Nazir öz növbəsində ölkəsinin Azərbaycan ilə əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD HAMEL ALQUBAİSİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd Hamel Alqubaisinin etimadnaməsini qəbul edib.*

*Səfir Məhəmməd Hamel Alqubaisi Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Məhəmməd Hamel Alqubaisi etimadnaməsini prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycanla Birləşmiş Ərəb Əmirliklərinin bir-birinə yaxın və dost ölkələr olduğunu vurğulayaraq ölkələrimiz arasında siyasi əməkdaşlığın çox yüksək səviyyədə olmasının məmnunluq doğurduğunu dedi. Birləşmiş Ərəb Əmirliklərindən ölkəmizə müxtəlifsəviyyəli nümayəndə heyətlərinin səfərlərinə toxunan prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafı üçün böyük potensialın olduğunu, iqtisadiyyat, investisiya qoyuluşu, kənd təsərrüfatı, turizm sahələrində imkanların müəyyənləşdirilməsinin vacibliyini bildirdi. Dövlətimizin başçısı regional təhlükəsizlik məsələlərinin əhəmiyyətini vurğulayaraq beynəlxalq terrorizmə qarşı mübarizənin zəruriliyini də qeyd etdi.*

*Səfir Məhəmməd Hamel Alqubaisi ölkəsində hər kəsin Azərbaycanı özlərinə dost ölkə hesab etdiklərini dedi. Məhəmməd Hamel Alqubaisi qardaş ölkədə səfir olmağından məmnunluğunu bildirdi və münasibətlərimizin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

## İRAN İSLAM RESPUBLİKASININ ŞƏRQİ AZƏRBAYCAN VİLAYƏTİNİN VALİSİ İSMAYIL CABBARZADƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İran İslam Respublikasının Şərqi Azərbaycan vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan–İran ikitərəfli münasibətlərinin inkişafı baxımından böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı səfərin qonaqların ölkəmizlə bir daha yaxından tanış olmaları üçün də yaxşı fürsət yaradacağını qeyd etdi. Əlaqələrimizin uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev ölkələrimizin bütün sahələrdə dostluq və qardaşlıq prinsipləri əsasında birgə fəaliyyət göstərmələrinin önəmini vurğuladı. İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycana, özünün isə İran İslam Respublikasına rəsmi səfərlərindən sonra ikitərəfli əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğunu deyən dövlətimizin başçısı ölkələrimizin siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət, səhiyyə və digər sahələrdə inkişafından məmnunluğunu ifadə etdi. Həyata keçirilən bir çox müştərək layihələrə, o cümlədən İran–Azərbaycan dəmir yolu layihəsinə toxunan prezident İlham Əliyev bu layihələrin regional əhəmiyyətini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimizin uğurlu əməkdaşlığının regionda sabitliyin möhkəmləndirilməsi baxımından rolunu xüsusi qeyd edərək bildirdi ki, bütün bunlar*

*dövlət siyasətlərimizin xalqlarımız tərəfindən dəstəkləndiyini göstərir.*

*İsmayıl Cabbarzadə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük ehtiramla xatırladan İsmayıl Cabbarzadə hələ o vaxtlar Naxçıvanla çox yaxşı əlaqələrin qurulduğunu vurğulayaraq, Azərbaycanın bugünkü inkişafının təməlinin məhz o zamanlar ulu öndər tərəfindən qoyulduğunu məmnunluqla qeyd etdi.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

**RUSİYA FEDERASİYASI KİNEMATOQRAFÇILAR İTTİFAQININ SƏDRİ NİKİTA SERGEYEVİÇ MİXALKOVA**

Hörmətli Nikita Sergeyeviç!

Sizi – Rusiya mədəniyyətinin görkəmli xadimlərindən birini 70 illik yubileyiniz münasibətilə təbrik edirəm, Sizə xoşbəxtlik, firavanlıq və yeni yaradıcılıq uğurları arzulayıram.

Sizin parlaq istedadınız, bugünkü və uzaq keçmişə aid hadisələrə qeyri-ordinar baxışlarınız milyonlarla pərəstişkarınızın bu qədər sevdiyi və tanıdığı bənzərsiz dəst-xəttinizi formalaşdırmağa imkan verib. Böyük rus mədəniyyəti ənənələrini qoruyub saxlamaq və artırmaq istəyi, rus xalqının tarixi zəfərlərinə görə qürur və dövlətçilik ideyasına sədaqət Sizin bütün yaradıcılığınıza nüfuz edib. Dünya kinematoqrafının inkişafına Sizin sanballı töhfəniz bir sıra prestijli mükafatlarla layiqincə qiymətləndirilib.

Sizin çoxşaxəli ictimai fəaliyyətiniz, heç şübhəsiz, postsovet məkanında humanitar əməkdaşlığın formalaşmasına böyük təsir göstərir. Ümidvaram ki, Sizin Azərbaycanın gənc kinematoqrafçıları ilə bu ilin baharında başlanmış səmərəli dialoqunuz yeni istedadlar yetişdirilməsinə və Azərbaycan–Rusiya mədəni əlaqələrinin daha da inkişaf etdirilməsinə şərait yaradacaq.

Sizə uzun ömür diləyirəm!

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 oktyabr 2015-ci il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Macarıstan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və inkişafı istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 oktyabr 2015-ci il*

# İSVEÇRƏ KONFEDERASİYASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ FİLİP ŞTALDER İLƏ GÖRÜŞ

*20 oktyabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Filip Ştalderin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Filip Ştalder Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Filip Ştalder etimadnaməsini prezident İlham Əliyevə təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycanla İsveçrə arasında mövcud olan möhkəm əməkdaşlığın son illər ərzində daha da inkişaf etdiyini deyən prezident İlham Əliyev bu əlaqələrin bir çox sahələri əhatə etdiyini məmnunluqla diqqətə çatdırdı. Dövlətimizin başçısı İsveçrə prezidentinin Azərbaycana, həmçinin özünün İsveçrəyə rəsmi səfərlərinə toxunaraq yüksək səviyyəli qarşılıqlı təmasların və Xarici İşlər nazirlikləri arasında aparılan fəal dialoqun önəmini vurğuladı. İqtisadi sahədə, o cümlədən qarşılıqlı sərmayə qoyuluşu sahələrində də yaxşı nəticələrin əldə olunduğunu bildirən prezident İlham Əliyev bunu ölkələrimiz arasında mövcud olan hərtərəfli əməkdaşlığın göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı hər iki ölkənin Azərbaycanın həyata keçirdiyi enerji layihələri çərçivəsində də uğurla əməkdaşlıq etdiyini dedi. Ölkələrimizin mövcud qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edən prezident İlham Əliyev qarşıdakı illərdə əməkdaşlığımızın möhkəmlənəcəyinə ümidvar olduğunu bildir-*

*di. Dövlətimizin başçısı səfir Filip Ştalderə gələcək fəaliyyətində uğurlar arzuladı, onun ölkəmizdəki fəaliyyətinin ikitərəfli münasibətlərin genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Bakıda aparılan abadlıq işlərinin və şəhərin gözəl görünüşünün onda dərin təəssürat yaratdığını deyən səfir Filip Ştalder nəinki İsveçrə, həmçinin bütün qitə üçün Azərbaycanın əhəmiyyətinin getdikcə artdığını qeyd etdi. Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edən Filip Ştalder ölkəmizdəki diplomatik fəaliyyəti dövründə qarşılıqlı maraqlara xidmət edəcəyini, ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

# QEYDLƏR

1. **Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 5–17, 105, 153, 240–241.

2. **Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş naziri, 2014-cü ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 5, 9, 12, 14, 15.

3. **Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 10, 11, 14, 15, 16, 20, 75, 123, 125, 153, 157, 208, 298, 299, 315–317, 318, 319.

**4. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 10, 14, 17, 124, 153, 299, 301.

**5. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ

probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 38, 39–43, 50, 51, 52, 78, 170, 171, 172, 181, 206, 253, 261, 264, 278, 286.

**6. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 11, 12, 154, 155, 164, 194, 214, 317, 321, 328, 329.

**7. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qa-

rabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 13, 14, 15, 20, 240.

**8. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. AP məcburi xarakter daşımayan qərar verir, beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir və qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. AP Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 14, 159, 160.

**9. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. Avropa Şurasının ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 14, 74.

**10. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 16, 298.

**11. Maldiv,** M a l d i v  R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 km$^2$, əhalisi 402 min nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 18.

**12. Abdul Qəyyum** (d.1959) – 2013-cü ildən Maldiv Respublikasının Prezidentidir. – 18.

**13. Liberiya,** L i b e r i y a  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 111 369 km$^2$, əhalisi 4,3 milyon nəfərdir. Paytaxtı Monrovya şəhəridir. – 19.

**14. Ellen Conson-Serlif** (d.1938) – 2006–2018-ci illərdə Liberiya Respublikasının Prezidenti olmuşdur. – 19.

**15. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 20, 73–75, 90, 146–147, 153, 200–201, 232–233, 244–245.

**16. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 20, 25, 45.

**17. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min $km^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 23.

**18. VI Məhəmməd,** b i n  ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 23.

**19. Hindistan,** H i n d i s t a n  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon $km^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 24.

**20. Pranab Mukherci** (d.1935) – Hindistanın dövlət xadimi. 2004–2006-cı illərdə Müdafiə naziri, 2006–2009-cu illərdə Xarici İşlər naziri, 1982–1984 və 2009–2012-ci illərdə Maliyyə naziri, nəhayət, 2012–2017-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 24.

**21. Əbdul Kalam** (1931–2015) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti olmuşdur. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 24.

**22. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 25.

**23. Naftalan** – Azərbaycan Respublikasında şəhər (1967-ci ildən). Naftalanın salındığı tarix məlum deyildir. Naftalan sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə hələ qədimdən təbii şəkildə çıxan neftin müalicəvi əhəmiyyətini bilən adamlar onu tuluqlara doldurub müxtəlif yerlərə aparmış və satmışlar. Naftalan neftindən müalicə məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir. Dünyada yeganə müalicə nefti Naftalanda çıxarılır.

Naftalan balneoloji kurort kimi, 1935-ci ildən fəaliyyət göstərir. Kurortda sümük-əzələ, periferi damar xəstəlikləri, dəri xəstəlikləri, ginekoloji xəstəliklər müalicə olunur. – 30, 31, 32.

**24. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 40, 42, 50, 146, 172, 178.

**25. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 41–43, 134, 172–173, 189, 260, 266.

**26. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 43.

**27. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 45, 238.

**28. Afaq Bəşirqızı,** A f a q B ə ş i r q ı z ı (d.1955) – Azərbaycanın görkəmli teatr və kinoaktrisası. Xalq artisti, Azərbaycanın görkəmli gülüş ustası Bəşir Səfərovun qızı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 54.

**29. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 55, 233, 316.

**30. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 55, 233.

**31. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 56, 61.

**32. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 56. 61.

**33. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i -k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 34,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 60, 207.

**34. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 62.

**35. Petro Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 62.

**36. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 65, 117.

**37. Almazbek Atambayev** (d.1956) – Qırğız Respublikasının dövlət və siyasi xadimi. 2011–2017-ci illərdə Qırğız Respublikasının Prezidenti olmuşdur. – 65, 117.

**38. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b l i - k a s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür.

Dövlət başçısı prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 67.

**39. Çionq Tan Şanq** (d.1949) –2011–2016-cı illərdə Vyetnam Respublikasının Prezidenti olmuşdur. – 67.

**40. Fikrət Qoca,** Qocayev Fikrət Göyüş oğlu (d.1935) – Azərbaycanın Xalq şairi. «Qobustan» incəsənət toplusunun baş redaktoru və Azərbaycan Yazıçılar Birliyinin birinci katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 71.

**41. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 73–75.

**42. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 73, 74, 75.

**43. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu** (Universiteti) – Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomatlar, tədqiqatçılar, jurnalistlər, siyasi və ictimai xadimlər hazırlayır. – 74.

**44. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət

Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 95, 117, 154, 168–169, 247–248, 260, 306.

**45. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 95, 169, 306.

**46. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 96.

**47. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi.1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 96.

**48. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 117–130, 314.

**49. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə

Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 117–127.

**50. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 124.

**51. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 125, 163, 316.

**52. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a -n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 130, 204, 205.

**53. Salman ibn Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanının Kralıdır. – 130, 204, 230.

**54. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – Əməkdar mühəndis. 2007-ci ildən «Azəryolservis»

Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. Azərbaycan Voleybol Federasiyasının prezidenti. Rusiya Nəqliyyat Akademiyasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının üzvüdür. – 135.

**55. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon $km^2$, əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 138.

**56. Enrike Penya Nieto** (d.1966) – Meksikanın siyasi xadimi. 2012-ci il dekabrın 1-dən Meksika Birləşmiş Ştatlarının Prezidentidir. – 138.

**57. Çex,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min $km^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 146–166.

**58. Miloş Zeman** (d.1944) – Çexiyanın dövlət və siyasi xadimi. 2013-cü ildən Çex Respublikasının Prezidentidir. – 148–167.

**59. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu.

Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 153.

**60. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 154, 159, 307.

**61. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 120, 166.

**62. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 169.

**63. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. Yeni Azərbaycan Partiyası 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 180–181, 189–190, 275, 285–286.

**64. Tatarıstan,** T a t a r ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində federal vilayət. Paytaxtı Kazan şəhəridir. Sahəsi 68 min km$^2$, əhalisi 3,9 milyon nəfərdir. – 199.

**65. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlanır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 199, 211, 212.

**66. Dağıstan,** D a ğ ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl I minilliyin axırlarına qədər Qafqaz Albaniyasının tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 200–201.

**67. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 203.

**68. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 203.

**69. Stiven Siqal** (d.1952) – məşhur Amerika müsiqiçisi, kinoaktyoru və rejissoru. – 209.

**70. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 7, 210.

**71. Azad Rəhimov,** A z a d A r i f o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 224.

**72. Yoahim Qauk** (d.1940) – Almaniyanın siyasi xadimi. 2012–2017-ci illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 238.

**73. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 505,9 min km$^2$, əhalisi 46,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament – Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 305.

**74. VI Felipe** (d.1968) – 2014-cü ildən İspaniya kralıdır. – 305.

## Şəxsi adlar göstəricisi

**Abişer Paskal** – 112
**Abutalıbov Hacıbala** – 58, 78, 101, 114, 131, 139
**Ağayev Mübariz** – 278
**Axramoviç Gennadi** – 93–94
**Al Səud Salman** – 130, 204, 232
**Al Səud Məhəmməd** – 206
**Andre Pyer** – 20
**Ariffi Datuk** – 82–83
**Aşçı Cenap** – 246
**Akar Hulusi** – 259– 260
**Atambayev Almazbek** – 65, 117
**Arıpınar Ərdoğan** – 293
**Babayeva Esmira** – 144
**Badlişah Tuanku** – 64
**Bağırlı Böyükxan** – 51
**Baliyeva Şəfəq** – 193
**Berdıməhəmmədov Qurbanqulu**–235
**Bəşirqızı Afaq** – 54
**Cabbarov Mikayıl** – 184
**Camallı Elçin** – 250
**Cəfərov Ceyhun** – 170
**Conson-Serlif Ellen** – 19
**Çanq Honqvon** – 237
**Çionq Tan Şanq** – 67
**Çoi Suk–İn** – 237
**Danilova Lyubov** – 50, 51
**Davudoğlu Əhməd** – 169
**Eyvazov Gülməmməd** – 179
**Əhmədov İlham** – 159
**Əhmədzadə Əhməd** – 88, 90, 91, 191

**Əl-Barrak Heydər** – 212
**Əl-Məktum Məhəmməd** – 203
**Əl-Məktum Rəşid** – 203
**Əliyev Heydər** – 38, 39, 43, 50, 51, 52, 78, 170, 171, 172, 180, 181, 182, 206, 253, 261, 264, 278, 286
**Əliyeva Mehriban** – 40, 42, 50, 146, 172, 178, 220, 224, 225, 253, 254, 264
**Ərdoğan Rəcəb Tayyib** – 95, 169, 306
**Əsədov Heydər** – 87, 88, 89, 151
**Əzizov Əziz** – 38
**VI Felipe** – 305
**Fidan Hakan** – 300
**Fikrət Qoca** – 71
**Hacıyev Hacıoğlan** – 178
**Harpaz Rafael** – 22
**Həsənov Ramil** – 126
**Hüseynov Qorxmaz** – 266, 288
**Xocaməhəmmədov Baymurad** – 235
**İvanov George** – 84
**Kalam Abdul** – 24
**Karas Miroslav** – 157
**Kasprşik Anji** – 20
**Kərimov İslam** – 66
**Qani Məhəmməd** – 60
**Qonsalves Joao** – 242
**Qaribaşvili İrakli** – 307
**Qauk Yoahim** – 238
**Qarros Silvester** – 252
**Qəyyum Abdul** – 18
**Quliyev Elçin** – 97, 251
**Qurbanov Cavid** – 135
**Laslotski İmre** – 236
**Lavrov Sergey** – 73–75
**Ljajiç Rasim** – 234

**Lukaşenko Aleksandr** – 94, 308
**Maklakovs Yuris** – 68–69
**Malakarne Karlo** – 213
**VI Məhəmməd** – 23
**Məmmədov Mənsur** – 261
**Mikuriya Kunio** – 100
**Minnixanov Rüstəm** – 199
**Mirzəyev Akif** – 193
**Mukherci Pranab** – 24
**Mustafayev Baxış** – 50
**Montqomeri Kolin** – 256
**Mustafayev Şahin** – 88
**Mönye Paskal** – 258
**Nazarbayev Nursultan** – 117–123, 127
**Nieto Enrike** – 138
**II Nikolay** – 182
**Obama Barak** – 25
**Ondumba Ali** – 57
**Orban Viktor** – 236
**Pak Kin He** – 239
**Patskeviç Nikolay** – 36–37
**Poltavçenko Georgi** – 243–244
**Peres Şimon** – 245
**Pirverdiyev Etibar** – 292
**Popov İqor** – 20
**Poroşenko Petro** – 62
**Preka Mari-Luiz** – 202
**Putin Vladimir** – 73, 74, 75
**Ranya Oleqario** – 26
**Rəhmon Emoməli** – 96
**Rəhimov Azad** – 224
**Salber Herbert** – 240
**Seyidəliyev Ənvər** – 185
**Si Cinpin** – 55, 233
**Siqal Stiven** – 209

**Sinirlioğlu Feridun** – 168–169
**Sinq Uilyam** – 76 –77
**Skvortsova Veronika** – 145
**Stav Dan** – 70
**Şirəliyev Oqtay** – 279
**Şıxəliyeva Elmira** – 178–179
**Şort Kler** – 302
**Şpalkova Yaroslava** – 151
**Şrayber Frans** – 26
**Tasso Olyanta** – 21
**Teare Skot** – 242
**Timofti Nikolae** – 63
**Toyliyev Sapardurdu** – 117, 126
**Tsipras Aleksis** – 210
**Tusk Donald** – 5–9, 12, 14, 15
**Uorlik Ceyms** – 20
**Valentini Paskal** – 103
**Vidodo Coko** – 56, 61
**Venturini Roberto** – 72
**Veyonis Raymonds** – 69
**Zeman Miloş** – 148–167
**Yılmaz İsmət** – 117, 121, 122

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Ağcabədi** | – 43 |
| **Ağsu** | – 43, 176, 185–198 |
| **Almaniya** | – 45, 238 |
| **Alar** | – 46, 52 |
| **Amerika Birləşmiş Ştatları** | – 20, 25, 45 |
| **Ankara** | – 306 |
| **Asiya** | – 104, 163 |
| **Astana** | – 117–129 |
| **Avrasiya** | – 104 |
| **Avropa** | – 15, 104, 105, 153, 156, 163, 164, 214, 215, 216, 218, 220, 222–226, 326 |
| **Belarus** | – 36–37, 93, 94 |
| **Beyləqan** | – 43 |
| **Biləcəri** | – 135 |
| **Binəqədi** | – 101–102 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | – 203 |
| **Cəfərxanlı** | – 46 |
| **Cəlilabad** | –38–52 |
| **Cənubi Qafqaz** | – 10, 74, 240 |
| **Çex Respublikası** | – 146–166 |
| **Çernobıl** | – 207 |
| **Çin** | – 55, 233, 314 |
| **Dağlıca** | – 96 |
| **Dağlıq Qarabağ** | – 10, 11, 14, 15, 16, 20, 75, 123, 125, 153, 157, 208, 298, 299, 315, 316, 317 |
| **Dağıstan** | – 200–201 |
| **Dərbənd** | – 200–201 |
| **Elabad** | – 191 |

**Əfqanıstan** – 60, 207
**Əliqasımlı** – 45, 46
**Fransa** – 20, 154, 258
**Füzuli** – 43
**Gəncə** – 156
**Göyçay** – 278–292
**Göytəpə** – 52
**Güzdək** – 135
**Gülməmmədli** – 46
**Gürcüstan** – 154, 159, 307
**Gursulu** – 191
**Hacıqabul** – 43, 175
**Hakkari** – 95
**Hindistan** – 24
**Xaçmaz** – 43
**Xəzər dənizi** – 11, 30, 31, 74, 82, 97, 98, 99 163
**Xırdalan** – 135
**Xızı** – 85–88
**Xocalı** – 16, 298
**İmişli** – 43
**İndoneziya** – 56, 61
**İraq** – 107, 212
**İrəvan** – 15
**İspaniya** – 305
**İsrail** – 22, 245
**İsvesrə** – 112
**İtaliya** – 213
**Kalağaylı** – 191
**Koreya Respublikası** – 237–239
**Kürdəmir** – 43, 170–184
**Qabon** – 57
**Qalaltı** – 29, 30, 31, 32, 33, 34, 35
**Qazaxıstan** – 117–130, 314
**Qəbələ** – 26, 32

**Qırğız Respublikası** – 65, 117
**Quba** – 32
**Latviya** – 68–69
**Lənkəran** – 44
**Liberiya** – 19
**Liviya** – 107
**Macarıstan** – 236
**Makedoniya** – 84
**Malayziya** – 64, 82
**Maldiv** – 18
**Malta** – 202
**Meksika** – 138
**Məkkə** – 130
**Moldova** – 63
**Muradlı** – 192
**Mərakeş** – 23
**Mərkəzi Asiya** – 11
**Naxçıvan** – 31
**Naftalan** – 30, 31, 32
**Özbəkistan** – 66
**Padar** – 191
**Peru** – 21
**Pirhəsənli** – 191
**Praqa** – 157
**Rusiya** – 20, 73–75, 90, 146–147, 153, 200, 201, 232, 233, 244, 245
**Saatlı** – 43
**Salyan** – 43
**San-Marino** – 72, 103
**Siyəzən** – 91–92
**Suriya** – 107
**Səudiyyə Ərəbistanı** – 130, 204, 205
**Sumqayıt** – 135–137
**Sabunçu** – 139
**Serbiya** – 234

**Sankt-Peterburq** – 243, 244
**Şabran** – 28, 92
**Şamaxı** – 32, 43
**Tacikistan** – 96
**Tatarıstan** – 199
**Təklə** – 191
**Təzəkənd** – 45,46
**Türkiyə** – 95, 117, 154, 168–169, 247–248, 259, 260, 306
**Türkmənistan** – 117, 121,235
**Ucar** – 261–278
**Ukrayna** – 62
**Üçtəpə** – 45, 46
**Yyetnam** – 67
**Yaxın Şərq** – 11, 106, 107
**Yunanıstan** – 7, 210
**Zəngəzur** – 124

# MÜNDƏRİCAT

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSKUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 iyul 2015-ci il*............................................................................ 5

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*22 iyul 2015-ci il*............................................................................ 6

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSK İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA
ÇIXIŞLAR

*22 iyul 2015-ci il*............................................................................ 9

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA YAMİN ABDUL QƏYYUMA

*23 iyul 2015-ci il*............................................................................ 18

LİBERİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM ELLEN CONSON-SERLİFƏ

*23 iyul 2015-ci il*............................................................................ 19

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*23 iyul 2015-ci il*............................................................................ 20

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB OLYANTA MOYSES UMALA TASSOYA

*24 iyul 2015-ci il* ........................................................................ *21*

İSRAİL DÖVLƏTİNİN AZƏRBAYCANDAKI
SƏFİRİ RAFAEL HARPAZ İLƏ GÖRÜŞ

*24 iyul 2015-ci il* ........................................................................ *22*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT
VI MƏHƏMMƏDƏ

*27 iyul 2015-ci il* ........................................................................ *23*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*28 iyul 2015-ci il* ........................................................................ *24*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*1 avqust 2015-ci il* ........................................................................ *25*

BEYNƏLXALQ İDMAN ATICILIQ FEDERASİYASININ
PREZİDENTİ OLEQARİO VASKES RANYA VƏ BAŞ
KATİBİ
FRANS ŞRAYBER İLƏ GÖRÜŞ

*7 avqust 2015-ci il* ........................................................................ *26*

SİYƏZƏN–MƏŞRİF AVTOMOBİL YOLUNUN AÇILIŞI
MƏRASİMİ

*8 avqust 2015-ci il* ........................................................................ *27*

ŞABRAN RAYONUNDA «QALAALTI
HOTEL & SPA» BEYNƏLXALQ MÜALİCƏ VƏ
İSTİRAHƏT KOMPLEKSİNİN AÇILIŞI
MƏRASİMİ

*8 avqust 2015-ci il* ........................................................................ *28*

BELARUS RESPUBLİKASININ AZƏRBAYCANDAKI
SƏFİRİ NİKOLAY PATSKEVİÇ İLƏ GÖRÜŞ

*10 avqust 2015-ci il* ...................................................................... *36*

CƏLİLABAD RAYONUNA SƏFƏR

*11 avqust 2015-ci il* ...................................................................... *38*

XALQ ARTİSTİ AFAQ BƏŞİRQIZINA

*13 avqust 2015-ci il* ...................................................................... *54*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*14 avqust 2015-ci il* ...................................................................... *55*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*14 avqust 2015-ci il* ...................................................................... *56*

QABON RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALİ BONQO ONDİMBAYA

*14 avqust 2015-ci il* ...................................................................... *57*

BAKININ PİŞƏVƏRİ, CAVADXAN, HÜSEYN
SEYİDZADƏ KÜÇƏLƏRİNDƏ APARILAN ABADLIQ VƏ
YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI
VƏZİYYƏTLƏ TANIŞLIQ

*14 avqust 2015-ci il* ...................................................................... *58*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*17 avqust 2015-ci il* ............................................................................ *60*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*18 avqust 2015-ci il* ............................................................................ *61*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PETRO POROŞENKOYA

*23 avqust 2015-ci il* ............................................................................ *62*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAE TİMOFTİYƏ

*24 avqust 2015-ci il* ............................................................................ *63*

MALAYZİYANIN XIV ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏH-RUM SULTAN BADLİŞAHA

*28 avqust 2015-ci il* ............................................................................ *64*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*28 avqust 2015-ci il* ............................................................................ *65*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*31 avqust 2015-ci il* ............................................................................ *66*

VYETNAM SOSİALİST RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ÇİONQ TAN ŞANQA

*31 avqust 2015-ci il* ........................................................................ *67*

LATVİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ SƏFİRİ YURİS MAKLAKOVS İLƏ
GÖRÜŞ

*31 avqust 2015-ci il* ........................................................................ *68*

İSRAİL DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ DAN STAV
İLƏ GÖRÜŞ

*31 avqust 2015-ci il* ........................................................................ *70*

XALQ ŞAİRİ FİKRƏT QOCAYA

*1 sentyabr 2015-ci il* ....................................................................... *71*

SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-
REGENTLƏRİ ZATİ-ALİLƏRİ CƏNAB ANDREA
BELLUZZİYƏ VƏ CƏNAB ROBERTO VENTURİNİYƏ

*1 sentyabr 2015-ci il* ....................................................................... *72*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ
SERGEY LAVROV İLƏ GÖRÜŞ

*1 sentyabr 2015-ci il* ....................................................................... *73*

BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ BAŞ
DİREKTORU UİLYAM LEYSİ SİNQ İLƏ GÖRÜŞ

*2 sentyabr 2015-ci il* ....................................................................... *74*

SƏBAİL RAYONUNDAKI 189–190 SAYLI TAM ORTA MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*3 sentyabr 2015-ci il* ........................................................................... *78*

YASAMAL RAYONUNDAKI FİZİKA, RİYAZİYYAT VƏ İNFORMATİKA TƏMAYÜLLÜ LİSEYİN BİNASINDA GÖRÜLƏN ƏSASLI YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*3 sentyabr 2015-ci il* ........................................................................... *80*

MALAYZİYA RESPUBLİKASININ «PETRONAS» ŞİRKƏTİNİN RƏHBƏRİ DATUK VAN ZULKİFLİ VAN ARİFFİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2015-ci il* ........................................................................... *82*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA

*4 sentyabr 2015-ci il* ........................................................................... *84*

XIZI VƏ SİYƏZƏN RAYONLARINA SƏFƏR

*4 sentyabr 2015-ci il* ........................................................................... *85*

BELARUS RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GENNADİ AXRAMOVİÇ İLƏ GÖRÜŞ

*4 sentyabr 2015-ci il* ........................................................................... *93*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*7 sentyabr 2015-ci il* ........................................................................... *95*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*7 sentyabr 2015-ci il* ........................................................................ *96*

DÖVLƏT SƏRHƏD XİDMƏTİ SAHİL MÜHAFİZƏSİNİN
İKİNCİ DƏRƏCƏLİ YENİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ
İLƏ TANIŞLIQ

*7 sentyabr 2015-ci il* ........................................................................ *97*

DÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO
MİKURİYA İLƏ GÖRÜŞ

*7 sentyabr 2015-ci il* ........................................................................ *100*

BİNƏQƏDİ RAYONUNDAKI 283 SAYLI TAM ORTA
MƏKTƏBDƏ APARILAN TƏMİR VƏ YENİDƏNQURMA
İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*7 sentyabr 2015-ci il* ........................................................................ *101*

SAN-MARİNO RESPUBLİKASININ XARİCİ
İŞLƏR NAZİRİ PASKAL VALENTİNİ İLƏ
GÖRÜŞ

*8 sentyabr 2015-ci il* ........................................................................ *103*

İQTİSADİ MƏSƏLƏLƏRƏ VƏ 2016-cı İLİN
DÖVLƏT BÜDCƏSİNİN HAZIRLIĞI İŞLƏRİNƏ HƏSR
EDİLMİŞ MÜŞAVİRƏDƏ İŞTİRAK

*8 sentyabr 2015-ci il* ........................................................................ *104*

İSVEÇRƏ KONFEDERASİYASININ AZƏRBAY-
CANDAKI SƏFİRİ PASKAL ABİŞER İLƏ GÖRÜŞ

*9 sentyabr 2015-ci il* ........................................................................ *112*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*10 sentyabr 2015-ci il* ............................................................................ *113*

NƏSİMİ RAYONUNDAKI TEXNİKİ-HUMANİTAR LİSEYDƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*10 sentyabr 2015-ci il* ............................................................................ *114*

QAZAXISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*10 sentyabr 2015-ci il* ............................................................................ *116*

QAZAX XANLIĞININ 550 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ ASTANADA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*11 sentyabr 2015-ci il* ............................................................................ *117*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*11 sentyabr 2015-ci il* ............................................................................ *119*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ V SAMMİTİNDƏ İŞTİRAK

*11 sentyabr 2015-ci il* ............................................................................ *121*

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*11 sentyabr 2015-ci il* ............................................................................ *128*

QAZAX XANLIĞININ 550 İLLİK YUBİLEYİ İLƏ BAĞLI TEATRLAŞDIRILMIŞ TAMAŞAYA BAXIŞ

*11 sentyabr 2015-ci il* ............................................................................ *129*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*12 sentyabr 2015-ci il* ........................................................................ *130*

XƏTAİ RAYONUNDAKI 5 SAYLI BAKI PEŞƏ LİSEYİNDƏ APARILAN YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*12 sentyabr 2015-ci il* ........................................................................ *131*

XƏTAİ RAYONUNDAKI 264 SAYLI MƏKTƏB-LİSEYİN BİNASINDA ƏSASLI SURƏTDƏ YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*12 sentyabr 2015-ci il* ........................................................................ *133*

BAKI–SUMQAYIT MARŞRUTU İLƏ HƏRƏKƏT EDƏN İLK SƏRNİŞİN QATARININ YOLA SALINMASI MƏRASİMİ

*12 sentyabr 2015-ci il* ........................................................................ *135*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA

*14 sentyabr 2015-ci il* ........................................................................ *138*

SABUNÇU RAYONUNDA ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN 148 SAYLI TAM ORTA MƏKTƏBİN AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2015-ci il* ........................................................................ *139*

RUSİYA FEDERASİYASININ SƏHİYYƏ NAZİRİ VERONİKA SKVORTSOVA İLƏ GÖRÜŞ

*15 sentyabr 2015-ci il* ........................................................................ *145*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ MİLOŞ
ZEMANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*15 sentyabr 2015-ci il* ........................................................................ *147*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ
MİLOŞ ZEMAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*15 sentyabr 2015-ci il* ........................................................................ *148*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*15 sentyabr 2015-ci il* ........................................................................ *149*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*15 sentyabr 2015-ci il* ........................................................................ *151*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ
MİLOŞ ZEMAN İLƏ BİRGƏ MƏTBUAT
KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*15 sentyabr 2015-ci il* ........................................................................ *152*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ
İŞTİRAK

*15 sentyabr 2015-ci il* ........................................................................ *160*

AZƏRBAYCAN–ÇEX BİZNES-FORUMU

*16 sentyabr 2015-ci il* ........................................................................ *162*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
FERİDUN SİNİRLİOĞLUNUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 sentyabr 2015-ci il* ........................................................................ *168*

KÜRDƏMİR RAYONUNA SƏFƏR

*17 sentyabr 2015-ci il* ........................................................................ *170*

MOLLAKƏND–AXTAÇI –ÖYLƏQULU AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2015-ci il* ........................................................................ *173*

AĞSU RAYONUNA SƏFƏR

*17 sentyabr 2015-ci il* ........................................................................ *185*

AĞSUYA İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 sentyabr 2015-ci il* ........................................................................ *191*

TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RÜSTƏM MİNNİXANOVA

*18 sentyabr 2015-ci il* ........................................................................ *199*

DƏRBƏND ŞƏHƏRİNİN 2000 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ TƏDBİRİN İŞTİRAKÇILARINA

*18 sentyabr 2015-ci il* ........................................................................ *200*

MALTA RESPUBLİKASININ PREZİDENTİ XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA

*18 sentyabr 2015-ci il* ........................................................................ *202*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN ƏL-MƏKTUMA

*19 sentyabr 2015-ci il* ........................................................................ *203*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*21 sentyabr 2015-ci il* ........................................................ *204*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, DAXİLİ İŞLƏR NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN NAYİF BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*21 sentyabr 2015-ci il* ........................................................ *205*

RESPUBLİKA ƏLİLLƏRİN BƏRPA MƏRKƏZİNİN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*21 sentyabr 2015-ci il* ........................................................ *206*

DÜNYA ŞÖHRƏTLİ AKTYOR VƏ REJİSSOR STİVEN SİQAL İLƏ GÖRÜŞ

*21 sentyabr 2015-ci il* ........................................................ *210*

YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSİS TSİPRASA

*22 sentyabr 2015-ci il* ........................................................ *210*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*22 sentyabr 2015-ci il* ........................................................ *211*

İRAQ RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ HEYDƏR ŞİYA ƏL-BARRAK İLƏ GÖRÜŞ

*22 sentyabr 2015-ci il* ........................................................ *212*

İTALİYA RESPUBLİKASININ «SNAM» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU KARLO MALAKARNENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 sentyabr 2015-ci il* ........................................................................ *213*

IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI TƏŞKİLAT KOMİTƏSİNİN BİRİNCİ İCLASINDA İŞTİRAK

*23 sentyabr 2015-ci il* ........................................................................ *215*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*24 sentyabr 2015-ci il* ........................................................................ *230*

VI RUSİYA–AZƏRBAYCAN REGİONLARARASI FORUMUNUN İŞTİRAKÇILARINA

*28 sentyabr 2015-ci il* ........................................................................ *231*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SI CİNPİNƏ

*28 sentyabr 2015-ci il* ........................................................................ *233*

SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ RASİM LJAJİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2015-ci il* ........................................................................ *234*

TÜRKMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ BAYMURAD XOCAMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*28 sentyabr 2015-ci il* ........................................................................ *235*

MACARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İMRE LASLOTSKİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2015-ci il* ........................................................................ *236*

KOREYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ ÇOİ SUK-İN İLƏ GÖRÜŞ

*29 sentyabr 2015-ci il* ........................................................................ *237*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAHİM QAUKA

*30 sentyabr 2015-ci il* ........................................................................ *238*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ XANIM PAK KIN HEYƏ

*30 sentyabr 2015-ci il* ........................................................................ *239*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2015-ci il* ........................................................................ *240*

DÜNYA SKAUT KOMİTƏSİNİN SƏDRİ JOAO ARMANDO QONSALVES VƏ BAŞ KATİBİ SKOT TEARE İLƏ GÖRÜŞ

*30 sentyabr 2015-ci il* ........................................................................ *242*

SANKT-PETERBURQ ŞƏHƏRİNİN QUBERNATORU GEORGİ POLTAVÇENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2015-ci il* ........................................................................... *243*

İSRAİL DÖVLƏTİNİN SABİQ PREZİDENTİ ŞİMON PERES İLƏ GÖRÜŞ

*1 oktyabr 2015-ci il.......................................................................... 245*

TÜRKİYƏ RESPUBLİKASININ GÖMRÜK VƏ TİCARƏT NAZİRİ CENAP AŞÇININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2015-ci il.......................................................................... 246*

POLO İDMAN NÖVÜ ÜZRƏ AZƏRBAYCAN YIĞMA KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*2 oktyabr 2015-ci il.......................................................................... 248*

«XƏYAL ADASI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SABIS SUN BEYNƏLXALQ MƏKTƏB KOMPLEKSİNİN VƏ QOLF KLUBUNUN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2015-ci il.......................................................................... 253*

FRANSA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ PASKAL MÖNYE İLƏ GÖRÜŞ

*5 oktyabr 2015-ci il.......................................................................... 258*

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ, ORDU GENERALI HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2015-ci il.......................................................................... 259*

UCAR RAYONUNA SƏFƏR

*6 oktyabr 2015-ci il.......................................................................... 261*

UCARIN SU TƏCHİZATI SİSTEMİNİN YENİDƏN-
QURMADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ
MƏRASİMİNDƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2015-ci il.......................................................................... 266*

GÖYÇAY RAYONUNA SƏFƏR

*6 oktyabr 2015-ci il.......................................................................... 278*

GÖYÇAY RAYON MƏRKƏZİ XƏSTƏXANASININ
ƏSASLI TƏMİRDƏN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ
MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2015-ci il.......................................................................... 279*

BEYNƏLXALQ «FAİR PLAY» KOMİTƏSİNİN PREZİ-
DENTİ, AVROPA «FAİR PLAY» HƏRƏKATININ
PREZİDENTİ VƏ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞ

*8 oktyabr 2015-ci il.......................................................................... 293*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQAN-
LARI KONFRANSININ 18-ci İCLASININ
İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*8 oktyabr 2015-ci il.......................................................................... 295*

MƏDƏN HASİLATI ÜZRƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ
İDARƏ HEYƏTİNİN SƏDRİ KLER ŞORT İLƏ GÖRÜŞ

*8 oktyabr 2015-ci il.......................................................................... 302*

DÜNYA TARİXÇİLƏRİNİN VIII BEYNƏLXALQ
ATATÜRK KONFRANSININ İŞTİRAKÇILARINA

9 *oktyabr 2015-ci il.......................................................................... 303*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

9 *oktyabr 2015-ci il*........................................................................ *305*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*10 oktyabr 2015-ci il*...................................................................... *306*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ
QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2015-ci il*...................................................................... *307*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*12 oktyabr 2015-ci il*...................................................................... *308*

NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN 9 AYININ
SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ
QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ
İCLASINDA İŞTİRAK

*12 oktyabr 2015-ci il*...................................................................... *309*

YEKUN NİTQİ

*12 oktyabr 2015-ci il*...................................................................... *319*

QAZAXISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*15 oktyabr 2015-ci il*...................................................................... *330*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ QAZAXISTANDA
KEÇİRİLƏN İCLASINDA İŞTİRAK

*16 oktyabr 2015-ci il*...................................................................... *331*

GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2015-ci il......................................................................... 337*

KOSTA-RİKA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ ETİQAD NAZİRİ MANUEL QONZALES SANZ İLƏ GÖRÜŞ

*19 oktyabr 2015-ci il ......................................................................... 338*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD HAMEL ALQUBAİSİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2015-ci il......................................................................... 339*

İRAN İSLAM RESPUBLİKASININ ŞƏRQİ AZƏRBAYCAN VİLAYƏTİNİN VALİSİ İSMAYIL CABBARZADƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2015-ci il......................................................................... 340*

RUSİYA FEDERASİYASI KİNEMATOQRAFÇILAR İTTİFAQININ SƏDRİ NİKİTA SERGEYEVİÇ MİXALKOVA

*20 oktyabr 2015-ci il......................................................................... 342*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ

*20 oktyabr 2015-ci il......................................................................... 343*

İSVEÇRƏ KONFEDERASİYASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ FİLİP ŞTALDER İLƏ GÖRÜŞ

*20 oktyabr 2015-ci il*......................................................................... *344*

QEYDLƏR ........................................................................... *346*

*Şəxsi adlar göstəricisi*..........................................................................*364*

*Coğrafi adlar göstəricisi*......................................................................... *368*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət* Orucov** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.